*Nə ola görüşə bütün qardaşlar*
*Xüsusən bizim tək «qarğınılmışlar!»*
*Partalayıb dağıla danqaz qayalar*
*Yerlə yeksan ola dəmir qalalar*

# Dədəmin kitabı


## Bulud Qərəçorlu, Səhənd

**(1926–1978)**


**Sazımın Sözü**
**Dədəmin Kitabı**
**Qardaş Andı**

Adsəz sansız el nəğməkarı, bülbül cəhcəhəli,
Kəhlik qaqqıltılı, sazlı sözlü Marağalı Aşıq Hüsen,
Bu poemanı sənə və balabançılariva təqdim edirəm!

***Bala nərgiz, bala nərgiz***
***Qol boynuma dola Nərgiz.***
***Dodaqların xam şəkərdir***
***Dilin batıb bala Nərgiz.***

*(xalq təkrləmələrindən)*

## Kitabın içindəkilər......................................səhiyfə


***Sazımın Sözü...............................................3***

Önsöz..............................................................4

1. Duxa Qoca Oğlu Dəli Domrul...........................10

2. Dirsə xan Oğlu Buğac......................................29

3. Qanlı Qoca Oğlu Qanturalı................................52

***Dədəmin Kitabı.........................................79***

4. Qaracıq Çoban..................................................80

5. Bəkil Oğlu Əmran...........................................117

6. Təpə Göz.........................................................140

***Qardaş Andı..............................................164***

Güney Azərbaycanın milli–mübariz  şairi.......165

7. Uşun Qoca Oğlu Səgrək.................................176

8. Ulaş Oğlu Xan Qazan.....................................196

9. Qazan Bəyin Oğlu Uruzun Dustaq Olması......215

10. Qazılığ Qoca Oğlu Yegnək...........................240

11. Bayburanın Oğlu Bamsı Beyrək...................254

12. Dış Oğuzun İç Oğuza Yağı Olması...............294

***Orda ki dil ağız sözün usanar,***
***Soruşun mətləbi tellər söyləsin!***
***Dodaq danışarsa, od tutar yanar,***
***Gərəkdir zəxmələr, ellər əllər söyləsin!***

# *Sazımın Sözü*

***Bulud Qərəçorlu Səhənd***

# Önsöz
## (sazımın sözü, ilk çapı)

### Məmməd.Əli. Fərzanə (Qovsi)

Gözəl bir bədii əsərin nə kimi xüsusiyyətlərə malik olduğu, uzun zamanlardan bəri həyati təsvir edən ədəbi və hünəri əsərlərlə maraqlananların, nəzər diqqətini özünə cəlb etmişdir. Bu xüsusiyətlərin cür-bəcür olduğuna baxmayaraq, əsas məsələdə vahid bir nəzər verilməkdədir, o da hər bir bədii əsərin hər şeydən əvvəl insan həyatı və onun doğma ehsas və duyğuları ilə bağlıdır. Buna görə bir əsil və bədii əsər yaratmaq arzusunda olan hünərmənd hər şeydən əvvəl öz doğma xalqının həyatından ilham almalı olur.

Dədə Qorqud dastanlarının böyük tarixi və bədii əhəmmiyyəti, onun başdan–başa xalqın doğma səciyyələri ilən dolu olduğu, Azərbaycan xalq həmasələrini şeirə salmaq arzusuylan alışan qüdrətli şair «B.Q.Səhəndin» diqqətini hamıdan artıq cəlb etmişdir.

Oxucuların göz önündə duran bu əsərdə Şair öz doğma arzusuna çatmaqda yüksək müvəffəqiyyət əldə edib, Dədə Qorqud dastanlarının üçünü şeir salmışdır. Dastanlar bu dəftərdə verildiyi sıra ilə «Duxa Qoca oğlu, Dəli Domrul, «Dirsəxan oğlu, Buğac» və «Qanlı Qoca oğlu, Qanturalı» boylarıdır.

Söz yox ki, ellərin doğma və insanı səciyyələrini tərənnüm edən bu dastanların, hər biri bir cəhətdən şairin diqqətini özünə almış və qarşımızdakı, dəyərli mənzümələri yaratmağa ülgü olmuşdur.

Böyük şeir qüdrətinə və tükənməz söz bacarığına malik olan şair bu işi olduqca bacarıq və hünərlə yerinə yetirmiş, oxucunun zövq və ehsasını oxşayan, onda həyəcanlar, kədərlə və sevinclər doğuran bədii və ictimai bir əsər meydana çıxartmışdır.

Şair dastanların ümumi quruluşuna və onda olan üslub və söz xüsusiyyətlərinə vəfadar qalmaqla bərabər yeri gəldikcə xəyal yelkənini açmış və insan duyğu və zəkasının üfüqsüz dəryasına yol tapmışdır. Şairin daha böyük hünəri orasındadır ki, dastanlarda bəzən gizli və bəzən də aşağı–yuxarı qabarıq şəkildə görünən, lakin hər halda vahid bir hadisəyə ya tək bir simaya aid olan insan duyğuların hər cür qondarma uyuşmalardan uzaq surətdə ictimai–fəlsəfi dünya görüşləri ilə uyğunlaşdırmış və onlara ümumi cəhət vermişdir.

O, Dəli Domrul poemasında, Domrulun arvadının sədaqət və fədakarlığını və həyat yoldaşı uğrunda öz canından keçdiyini belə bir əsas pirənsiplə nəticələndirir:

Deмək bir qadının, eşqi vəfası
Tanrı qəzəbinə qələbə çaldı.
Domrulun gül açdı günü–dünyası,
Yüz qırx il yaşadı, yüz qırx il qaldı…

Kim deyir ölümdür, candan əl çəkmək?
Bu ölümdən doğur başqa bir həyat!
İnsan öz canından keçməsə demək.
Əbədi həyata çatarmı? Heyhat!

Fərhad dünyamızdan, ölüb getsə də,
Hələ də külüngün, səsi gəliri,
İstəkdə gizlənən, tükənməz qüvvə,
Hələ də dağların, bağrın dəliri…

O, «Dirsəxan oğlu, Buğac» poemasında, insan həyatını əbədiyyət axtaran və əbədiyyətə doğru yol sürən bir karvana oxşadaraq, insanlığın dərin mənəvi rəsalətə malik olduğunu, açıq–aydıncasına ifadə edir:

**O, sönülməz bir şölədir**
**Işıq salır, kainata**
**Əbədiyyət, axtarırı,**
**Zülmətlərə, bata–bata.**

Şair bu karvanın uzun uzadı qorxulu yollardan keçib, məqsədə, çatacağına ancaq bir vəsiqə düşünür o da ana məhəbbətidir:

«Onun geniş sinəsində»
Günəş boyda, bir şölə var.
Alovlanıb, yandıqca o,
Əbədiyyət, işıqlanar.

O, anadır, ürəyində,
Həyat eşqi, ləpələnir,
Onun ana məhəbbəti,
Gələcəyə vəsiqədir.

Və öz dərin fəlsəfi görüşü etibarilə, el içində anaya bəslənən sönməz hörmət və əlaqəni, bu sözlərlə izah edir:

Əzəldən–əzəldən, bu el–bu oba,
Analığa dərin hörmət bəsləmiş.
Ana qarşısında, Topal Teymur da,
Ayaq dalı qoymuş, bağış diləmiş.

Bu haqqı tanıyan, haqqı sevən el,
Mərifətində incə, yerlərə çatmış.
«Ana haqqı tanrı haqqıdır»–deyə.
«Belə bir bədii məsəl yaratmış».

Şair dastanların məzmununda yer alan duyğuları, daha dolğun, daha həqiqi şəkildə doğrultmaq və onları dərin ictimai–fəlsəfi görüşlərlə, uyğunlaşdırmaq üçün hər mənzumənin əvvəlinə bir başlanış (proloq) və sonuna bir qurtarış (epiloq) artırmışdır. Bu artırmalar mənzumələri bədii və fikri cəhətdən, qat–qat zənginləşdirilmiş və insan xəyalının həyat ərsəsində qanadlanmasına yol açmışdır.

Şair dastanlara qoşduğu başlanışlarda həyat fəlsəfəsini, insanın özünü tapdığı gündən «həqiqət adlanan o, gözəl pəri»yə çatmaq uğrunda çırpıntılarını, dərindən mənimsəyir.

Hər şeydən əvvəl o, varlığı, insan həyatını, durğun və sönük surətdə yox, bəlkə daimi dəyişilməkdə və inkişafda görür. Bu dəyişiklik koramal və başlı–başına bir hərəkət olmayıb, bəlkə işıqlıq və səadət adlanan bir hədəfə doğrudur. Burada insanın işıqlıqlarla, qaranlıqlar arasında qaldığı, birinə tərəf yürüdüyü və o birisindən qorunduğu həyatın əsas məsələsi kimi

götürülür. Varlıq və səadət doğuran ışıq, yoxluq və fəlakət törədən qaranlıq, həyatda bir–birilə ardı–arası kəsilməyən ziddiyyətlər kimi vuruşur.

Işıqdan doğursa istilik, istək
Qaranlıqdan doğur, soyuq–aldanış
Məhəbbət axtaran insanlıq demək,
Ona baş endirmiş, bunu qarğımış.

Qara qış dünyanı, bərbad edərdi,
Dalıca yaz olub, yay olmasaydı,
Qaranlıqda insan əldən gedərdi,
Günəş olmasaydı, ay olmasaydı.

Bu ucu–bucağı görünməyən vuruşmada, insan bir vasitə kimi, bir «Hürmüzd» lərin nümayəndəsi kimi yox, bəlkə bir varlığın sırdaşı kimi, həqiqətin özü kimi, «duyar könlü–görər gözü» kimi şirkət edir.

Haqqın həqiqətin, baxçası, hər vaxt,
İnsanla gül açır, insanla solur.
Ən böyük həqiqət, insandır ancaq,
İnsansız, həqiqət olsa, kor olur.

**Demək insan, bu dünyanın,**
**Təbiətin, sırdaşıdır.**
**Həqiqətin görər gözü,**
**Duyar könlü, yoldaşıdır.**

Lakin bu yolun çox da yaxın olduğuna, çox da asan başa çatdığına, inanmaq olmur. İnsan bu yolda çoxlu uçurumlarla, arası kəsilməz tufanlarla rastlanır. O, bir çox vaxt aldanır, azdırılır, itgin düşür, sarsılır, «başı daşdan–daşa dəyir», «səadət ceyranı önündən qaçır», sıldırım yollarda sərgərdan qalır, çalılar–tikanlar ayağın biçir, «lakin bu sarsıdıcı hadisələr heç biri onu işıqlığa, həyata, məhəbbətə doğru yürüməkdə ayaqdan salmır, o, öz idealına çatmağı çətin gördükdə onları əfsanələrdə canlandırır və beləliklə öz istək və arzularını, bu şəkildə tərənnüm edir.

O, öz surətini yada saldıqdan,
Bir çox əfsanələr, yaratmış bəzən.
Axtarıb, yorulub, yolda qaldıqdan,
İndi özün gəzir, əfsanələrdən!

Əfsanə, insanlıq, sın–sın axtaran,
İdeal dünyanın, təbəssümüdür.
Həyatda, təcəssüm tapıb–tapmayan,
El arzularının, tərənnümüdür.

Şair mənzumələrinin hər sətrində, hər səhifəsində öz ana yurdunu sevən, öz doğma xalqına inam bəsləyən, öz şanlı tarixinə güvənən bir hünərmənd kimi görünməkdədir.

**Bu torpaqda, bu diyarda,**
**Əsrlərdən, əsrlərə,**
**Əlsizləri, talamıyan,**
**Tüpürdüyün, yalamıyan,**
**Dillərinə, yalan gəlməz,**
**Haq yolundan, üz çevirməz,**
**Zülmkara boyun əyməz,**

**Dalısını, düşmən görməz,**
**Dişi aslan, qoç igidlər,**
**Qaflan kimi, yuva salmış,**
**Cidasını, yerə çalmış.**

**Bu dağların, yaylaqların,**
**Ceyran qaçar, ovlaqların,**
**Torpaqları, qarışıqdır,**
**Babaların, torpağıylan,**
**Yadlar bizə kəc baxanda,**
**Axar sular, qan axanda**
**Papağını, əyri qoyan,**
**Bu sıldırım qayaların,**
**Dalısında, minlər aslan.**
**Bosqulara, sinib yatıb,**
**Ox sıçradıb, tüfəng atıb.**

Həqiqətin aynası olan bu sözlər, şairin sönməz vətənpərvərlik əlaqəsinin canlı nümunəsidir. Burada biz boş xulyalar və xalq həyatına yad güvənmələr ilə yox, bəlkə xalqımızın tarix boyu parlamış parlaq simasını görürük, onun alovlar püsgürdən və ruh coşduran həmasəsini yığcam sözlər qalıbında, bir Azərbaycan oğlunun dilindən dinləyirik:

Əzəl gündən, qəhrəmanlıq,
Mərdanəlik, qoçaqlıq
Vətənimin ellərimin,
Ad sanıylan yanaşıdır.

Doğrudan da, hər insanlıq,
Fəxri olan, səciyyələr,
Bu ellərin, obaların,
Əkiztay bir, qardaşıdır.

Dəmir dırnaq, aslan kimi,
Başı uca, anlı açıq,
Ömür sürən, ellərimi,
«Dönə–dönə, alqışlasam,

Aydın axan, sulardan da,
Zülal olan, ləkə bilməz–
Pas götürməz, vicdanına,
Tərif yazsam, boy–boylasam,

Haqlıyam mən, bu boy deyil,
Ayın günün, ulduzların,
Varlıqları, Haqdır əgər,
O da elə həqiqətdir.

Bu dəftərdə yerləşən dastanların şeirə salınmasında işə aparılan söz qüdrəti, ahəng uyğunluğu və musiqi istiqaməti bir tərəfdən və xalq varlığı ilə olan səmimi bağlılıq digər tərəfdən, şairi hər şeydən əvvəl bir xalq nəğməkarı, bir haqq aşiqi simasında cilvələndirir. Şairin yerli–yerində «aşıq» haqqinda verdiyi bu kimi bədii təsvirlər:

Mənalı baxışı, nələr andırır?
O, duyğun baxışdan, nələr ələnir?
Üzündə xalqımın, ruh ülviyyəti,
Vüqarı, mənliyi, fəxri, güvənir!

Əzəldən məni də, coşduran odur,
Onu dinləmişəm, fikrə dalmışam,
O, vurğun könlümün, ilk yavrusudur,
Mən ilk ilhamımı, ondan almışam.

Bir xalq nəğməkarının canlı təsviri olduğu halda həm də şairin öz təsviri və necə deyər «avtofoto»su sayıla bilər. Aşıq nəğmələrini eşidərkən «bədəni dincələn», «ruhu yüksələn» və «tükləri biz–biz duran» şair, sankı aşağıdakı, sözləri öz sənəti haqqinda demişdir:

Aşıq çömçəsini, ingildədərək,
Gəzir pərdələrdə, əfsunkar əli.
Tellər titrədikcə, titrəyir ürək,
Hər kəsin canlanır, eşqi–əməli.

Nəğmələr tərlan tək, qanadlandıqca
Könül də ardınca, qol–qanad açır,
Havalar göylərə, havalandıqca,
Xəstə könüllərdən, dərd–qəm qaçır.

Bilməm nə sirridir, aşığın səsi,
Eşidən ürəkdə qalmaz ixtiyar
Ən kiçik yaşımdan, aşıq nəğməsin
Eşidən zamanlar, tüküm biz durar.

Hələ də bilmirəm, bu səs–bu nəğmə
Hansı dünyalardan, baş alıb gəlir.
Nəsim yelləri tək, dəyəndə qəlbə,
Bədənim dincəlir, ruhum yüksəlir.

Özüm də bilmirəm, harada–haçan,
Ruhum bu aləmnən, aşnalıq qatmış,
Ancaq bilirəm ki, uzaq zamandan,
Könlümə doğmadır, qəlbimə tanış

Aşıqlarda olan insana məhəbbət, xalqa bağlılıq, həyati sevmək, zülmə və haqsızlığa qarşı durmaq, şairin yaradıcılığında da üstün yer tutur. Habelə şairin mənzumələrin əvvəlinə artırdığı ictimai, fəlsəfi, görüşlər, xalq dastanlarında və xüsusilə aşiqanə–rumantik dastanlarda olan ustadnamələri, oxucunun yadına salır.

Insan duyğularının dərinliklərinə yol axtaran aşağıda ki, sözlər:

Könül, məhəbbətdən danışan anda,
Ağıl qopuzunun simi qarışır.
Eşq əli tellərə zəxmə vuranda,
Kimisi qırılır, kimi qarışır.

İnsanlıq  yüksələn ən uca yerin,
Bir adı sevgidir, biri məhəbbət.
Hər yanı axtardım mən dərin–dərin,
Araya bilmədim, başqa həqiqət!
Aşıq sən də bizə istəkdən danış,
Qoy məhəbbət doğsun söhbətin–sözün.
Könüldən, qəlbdən ürəkdən danış,
Qoy sarsılan insan tanısın özün.

Bu müddəa üçün gözəl bir nümünə sayıla bilər.

Yalnız bunu demək lazımdır ki, bu başlanışlar və eləcə də dastanların bədii quruluşu və şairin tükənməz söz bacarığı, bu mənzumələri bir adi dastan səviyyəsindən ayırmış və müasir Azərbaycan şeirində özünə görkəmli yer açan bir əsər səviyyəsinə çatdırmışdır.

## 1

# Duxa Qoca Oğlu Dəli Domrul

*Gecənin qoynunda vuqarlı dağlar*
*Sankı əbdi bir yuxuya batmış.*
*Dərələr, təpələr, meşələr, bağlar*
*Dunyanın xeyrini-şərini atmiş*

*Qaranlıq gecənin mərmuz siyması,*
*Həmi kədər doğur, həm ürək sıxır.*
*Qara ibhamlarin uçurum dunyası,*
*Kimsəni budrədir, kimsəni yıxır.*

*Gecənin bağrında, gözəlliklərdə,*
*Bir şəbəh görünür insan gözünə.*
*Qaranlıq çəkmişdir çaşdıran pərdə,*
*Qarı şeytanların qara üzünə.*

*Şeytan, yaranmışı tanıtdıraraq,*
*Əzəldən qarğımış gecəni insan.*
*Ocaqlar, məşəllər yaxmaqla ancaq,*
*Qaçmışdır gecədən, qaranquluqdan.*

*Hələ də - hələ də bizim yerlərdə,*
*Sadə insanların andı çiraqdır.*
*Xalqın arasında, kənddə- şəhərdə,*
*Müqəddəs yerlərin adı ocaqdır.*

*Işıqdan doğursa, istilik-istək,*
*Qaranlıqdan doğur, soyuq, aldanış.*
*Məhəbət axtaran insanlıq, demək,*
*Ona baş əndirmiş, bunu qarğımış.*

*Qoy bunu söyləyim el «Vurğunundan»:*
*«Sanmayın məqsədim boş yaraşıqdır»,*
*Dalıca söyləmiş o ölməz insan:*
*«Dünyada ən böyük qüvvət işıqdır!»*

*Qara qış dunyanı bərbad edərdi,*
*Dalıca yaz olub, yay olmasaydı.*
*Qaranlıqda insan əldən gedərdi,*
*Günəş olmasaydı, ay olmasaydı.*

*Gecənin qoynunda vuqarlı dağlar,*
*Sankı əbdi bir yuxuya batmış.*
*Drələr, təpələr, meşələr, bağlar,*
*Dunyanın xeyrini-şərini atmış.*

*Tala buludluqda süründükcə ay,*
*Işıq dəhrələri gecəni biçir.*
*Gecədən qırılmış səhnələr lay-lay,*
*Sınıq qoşun kimi qarşımdan keçir.*

*Çölləri bürüyən mənalı süküt,*

*Bəzən lal dayanır, gah dilə gəlir.*
*Üfüqə baxdıqca mən məbhut-məbhut,*
*Elə bil ki, sükút məni səsləyir.*

*Bir çox əzəmətli çağırışdır bax,*
*Qulağın pərdəsi eşitməz səsin!*
*Ürəyin telləri hiss edər ancaq,*
*Çölün pıçıltısın, dağın naləsin.*

*Bu lal çağırışda qəriynələrin,*
*Ölməz naləsi var, ölməz səsi var!*
*Böyük əsatirin, əfsanələrin,*
*Ürəgi sehr edən zəmzəməsi var!*

*Hər elin, obanın əfsanəlri,*
*O elin ruhunu tərənnum edir.*
*Əfsanəvi əllər surət çəkəni,*
*Ellərin siymasın təcəssüm edir.*

*Surət həqiyqətdən bir görüşdürsə,*
*Kim deyər surətə həqiyqətdir bu?*
*Ancaq rəsm olunan hər bir surətə,*
*Şübhəsiz olmuşdur səbəb bir duyğu.*

*Geçənlər demişlər: «Hər həqiqətin;*
*Minlər surəti var, minlər üzü var.*
*kimsə nə baxışla baxarsa ona,*
*Öz baxışı qədər həqqə yol tapar!»*

*Bu kimi sözlərdə vaqeiyyətin,*
*İzləri vardisa, itginlikdə var.*
*İtgin tapabilər yolunu lakin,*
*Demişlər: «Dünyada axtaran tapar!»*

*Həqiqət min üzlü olsa da əgər,*
*Gedənməz günde min oynaşa-ərə.*
*Özün haq bilməyən yoxsa bir nəfər,*
*Bir süzmanı verməz vədə min yerə.*

*Həqiqət dedigin divanxanada,*
*«Haq»deyə qoyulan bir qərar deyil.*
*Yaxud «Ho!» çağiran «Əli mövcud»un,*
*Sərxoş başındaki xulyalar deyil.*

*Həqiqət xud haman vaqeiyyətdir,*
*Əni var, boyu var, izi-tozu var.*
*Zamandan qocaman, məkandan hündür,*
*Məkanla böyüyər, zamanla durar.*

*Bir də həqiqətə taniş bir ürək,*
*Tanır sevgilisin hər surətində.*
*Mən qol qoymayıram ürfana demək,*
*Həqiyqət var insan mərifətində.*

*Haqqın- həqiyqətin baxçası hər vax,*
*İnsanla gül açır, insanla solur.*
*Ən böyük həqiyqət insandır ancax,*
*İnsansız həqiyqət olsa kor olur.*

*Lakin nədəndisə bu gözəl pəri,*
*Bəzən yavrusundan qırır ülfətin.*
*Dəli «Məcnun» kimi gəzir çölləri,*
*Sanki unudanmır ilk məhəbətın.*

*Hələ də sərgərdan quş kimidir o,*
*Nə bir yurd tapmışdır, nə də bir yuva!*
*Gəzir insanlığın başı üstündə,*
*Qonur bu budaxdan başqa budağa.*

*İnsan həqiyqətin itirən gündən,*
*Başı daşdan-daşa dəyir hər zaman!*
*Səadət ceyranı qaçır önündən,*
*Sıldırım yollarda qalır sərgərdan!*

*Azıb özlüyündən itgın düşəndən,*
*Qurd kimi özünün qanını içir!*
*Özünü axtarır bilməm nərədən?*
*Çalılar, tikanlar ayağın biçir!*

*O öz surətini yada saldıqdan,*
*Bir çox əfsanələr yaratmış bəzən,*
*Axtarıb, yorulub, yolda qaldıqdan,*
*İndi özun gəzir əfsanələrdən!*

*Əfsanə insanlıq sin-sin axtaran,*
*İydeal dünyanın təbəssümüdür.*
*Həyatda təcəssüm tapıb-tapmayan,*
*Böyük arzuların tərənnümüdür.*

*Haqsızlıq dünyanı çulqayan zaman,*
*O haqqa dayanmış, haqq axtarmışdır.*
*İstəksiz- ilğarsız bir ruzgarda,*
*O eşqə uğramş, ilqğar varmışdır.*

*İnsanın qüdrətsiz-zəif çağında,*
*Qüdrətli tanrılar yonub yaratmış.*
*Bəzən də insana qanad verərək,*
*Alıcı quş kimi göyə çıxartmış.*

*Bir ülgü olmuşdur gahdan insana,*
*Əsirlərdən qalan əfsanə-röya.*
*Oxşayıb təsəlli vermişdir ona,*
*Hər zaman darıxıb darda qalanda.*

*Odur ki, insanlıq bir pəri kimi,*
*Dağların başından bizi səsləyir.*
*Bəzən də bürünür göyərçin donu,*
*Sahilsiz göylərdən umud diləyir!*

*Çölləri bürüyən mənalı sükut,*
*Bəzən lal dayanır gah dilə gəlir.*
*Yollara baxdıqcan mən məbhut-məbhut,*
*Elə bil ki, sükut məni səsləyir.*

*Şəbəhlə doldurmuş gecə hər yanı,*
*Mən də qoşuluram bu şəbəhlərə.*

*Gəzirəm sərgərdan dağı, ormanı,*
*Cumub baş çəkirəm bütün hər yerə.*

*Hardasa gecənin qara ətəyi,*
*Od tutub şöləli-şöləli yanir.*
*Harda ışıq olsa, tapar ürəgi,*
*Könül istəklisin hər donda tanır.*

*Qəlbimi aparır ondakı cəzbə,*
*Yügürürəm onun ardıca mən də.*
*Zülmətə batandan mən də, ürək də,*
*Sürünürük harda ışıq görəndə.*

*Çatırıq böyük bir düzəngahlığa,*
*Çəmənlər şənlənir, çeşmələr axır.*
*Köçünü salmışdır ağır bir oba,*
*Məşəllər gəcəni yandırır yaxır.*

*Aralıqda böyük dövran qurulmuş,*
*Bilmirəm toydursa yoxsa qonaqlıq.*
*Ərənlər, qadınlar, qat-qat oturmuş,*
*Arada dolanır qocaman aşıq.*

*Aşıq çömçəsini ingildədərək,*
*Gəzir pərdələrdə əfsunkar əli.*
*Tellər titrədikcə titrəyir ürək,*
*Hər kəsin canlanir eşqi, əməli.*

*Nəğmələr tərlan tək qanadlandıqca,*
*Könül də ardınca qol-qanad açır.*
*Havalar göylərə havalandıqca,*
*Xəstə könüllərdən dərd-qəm qaçir.*

*Bilməm nə sirrdir aşığın səsin,*
*Eşidən ürəkdə qalmaz ixtiyar.*
*Ən kiçik yaşimdan aşıq nəğməsin,*
*Eşidən zamanlar tüküm biz durar.*

*Hələ də bilmirəm bu səs-bu nəğmə,*
*Hansı dunyalardan baş alıb gəlir.*
*Nəsim yelləri tək dəyəndə qəlbə,*
*Bədənim dincəlir, ruhum yüksəlir.*

*Özüm də bilmirəm harada-haçan,*
*Ruhum bu aləmlə aşnalıq qatmış.*
*Ancaq bilirəm ki, uzaq zamandan,*
*Könlümə doğmadır, qəlbimə tanış.*

*Aşıq dəyişərək sazının səsin,*
*Gülür gözlrində şənlik, həyəcan.*
*Baxışı andırır ölməz həvəsin,*
*Sanki indi gəlir o dünyalardan.*

*Dişi aslan, qoç igidlər,*
*Qulluğuna söyləyim mən,*

*Bu ellərin, obaların,*
*Ataların, babaların,*
*Gəldigindən, geçdigindən,*
*Haq badəsin içdigindən.*

***Bu torpaqda, bu diyarda,***
***Əsrlərdən-əsrlərə,***
***Əlsizləri talamayan,***
***Tüpürdügün yalamayan,***
***Dillərinə yalan gəlməz,***
***Haq yolundan üz çevirməz,***
***Zülmkara boyun əyməz,***
***Dalısını düşmən görməz,***
***Dişi aslan, qoç igitlər,***
***Qaflan kimi yuva salmış,***
***Cidasını yerə çalmış.***

*Bu dağların, yaylaqların,*
*Ceyran qaçar ovlaqların,*
*Torpaqları qarışıqdır,*
*Babaların torpağıylan.*
*Daş çınqıllı yatağında,*
*Güzgü kimi qəltan-qəltan,*
*Köpüklənib daşğın axan,*
*Bu çayların üzərindən,*
*Mərd igitlər bu gun, dünən,*
*Bədöy atın çapızdırmış,*
*Düşmşnləri töküb qırmış.*

***Yadlar bizə kəj baxanda,***
***Axar sular qan axanda,***
***Papağını əyri qoyan,***
***Bu sıldırım qayaların,***
***Dalısında minlər aslan,***
***Busqulara sinib, yatıb,***
***Ox sıçradıb, tüfəng atıb.***

*Dişi aslan bizim ana,*
*Əmzik vermiş nər oğlana,*
*Xəmir yaymış, çörək yapmış,*
*Qoyun sağmış, inək sağmış,*
*Arxalanmış öz əriylə,*
*O yaradan əllriylə,*
*Toxumuşdur rəngli gəbə,*
*Əhsən olsun bizim dəbə.*

*Gözəlləri incə-incə,*
*Göz inanmaz görməyincə.*

*Ürəklərə dügün salan,*
*Könül verib, könül alan,*
*Dərin istək, dönməz ilqar,*
*Onlardandır bir yadigar.*

*Günəşdən tez yerdən duran,*
*Dağlar ustə, çadır quran,*
*Su-suvaran, toxum səpən,*
*Əkin-əkən, biçin-biçən,*
*Av-avlayan, quş-quşlayan,*
*Mərd igitlər hörmətiylən,*
*Ömür sürmüş şöhrətiylən,*
*Yad ellərə, bac verməmiş,*
*Zülqədərə tac verməmiş.*

*Aşıqları hər zamanda,*
*Nəğmə qoşmuş, dastan açmış.*
*Qaqqıldayıb oxuyanda,*
*Ürəklərdən kədər qaçmış.*
*Minbir nəğmə, minbir dastan,*
*Mən söyləyim sizə hardan?*

*Aşıq dayandırır, sözü-söhbəti,*
*Əlində sədəfli sazı danışır.*
*Kəmala yetəndə insan sənəti,*
*Çöllərin ördəyi-qazı danışır.*

*Bu dilin kəlməsi, cümləsi yoxsa,*
*Vəsfə sığınmayan fəsahəti var.*
*Hamılar-hamılar aşnadır ona,*
*Bilmirəm nə gücü, nə qüdrəti var!*

*Orda ki, dil-ağız sözdən usanar,*
*Soruşun mətləbi tellər söyləsin!*
*Dodaq danışarsa od tutar yanar,*
*Gərəkdir zəxmələr, əllər söyləsin!*

*Könül məhəbbətdən danışan anda,*
*Əğil qopuzunun simi qarışır.*
*Eşq əli tellərə zəxmə vuranda,*
*Kimisi qırılır, kimi qarışır.*

*İnsanlıq yüksələn ən uca yerin,*
*Bir adı sevgidir, biri məhəbbət.*
*Hər yanı axtardım mən dərin-dərin,*
*Araya bilmədim başqa həqiqət!*

*Aşıq, sən də bizə istəkdən danış!*
*Qoy məhəbbət doğsun söhbətin-sözün.*
*Könüldən, qəlbdən, ürəkdən danış!*
*Qoy sarsılan insan tanısın özün.*

–Belə demiş «Qorqud Dədə»,
O ellərin, iş biləni,.
Babaların baş biləni:

–Quru bir çay üzərində,
Saldırılmış bir körpünün,
Cəvarında yurd eləmiş,
Köçün salmış bir obadan,
Ucalırdı şivən səsi.
Köç etmişdi, anlaşılan,
Gənc bir igit, bu dünyadan.

Əri ölmüş yaslı gəlin,
Açıb atır al örpəyin.
Cəvan qızlar,
Ağlar, sızlar,
Başlarına qara salır.
Səs tutulur, göz qızarır.
Dırnaxlanır, al yanaqlar.
Qana batır, ağ dodaqlar.
Qan quruyur, ağca yüzdə.
Yaş quruyur, yorğun gözdə.
Bir qarıcıq, dildən düşüb,
Içqıraraq, için çəkir.
Qanlı yaşı parçalanmış
Yanağına, pır-pır tökür.
Qara ləçək bu ananın,
Ürək yaxan nalələri,
Ağladırı,
Dağı-daşı.

-Niyə şivən qoparıban
Ağlayırsız, nə xəbərdir,
Nə olubdur?
Deyə gəlir «Dəli Domrul»
Qazılıq atın cilovunu,
Çəkib durur.
-Görklü bir igidimiz,
Ölüb bu gün, ağlamağa,
Səbəb o dur.
-Deyin görüm o, igidi,
Kim öldürdü? -deyə «Domrul»
Yenə sorur.

Dəli qanlı qaflanqınaq,
Bir igitdir «Dəli Domrul»
Zamandır ki, quru bir çay
Üzərində körpü salmış.

Karvan-kələk, yoldan ötən,
Kimsə keçsə körpüsündən,
Tutub alar otuzüç pul,
Keçməyəndən döyə-döyə,
Çala-çala qırxın alar!

O, deyər ki: məndən dəli,
Məndən güclü, igit varsa,
Çıxıb mənlən döyüş etsin,
Pəncələşib vuruş etsin,
Yenə də o, :–gərək mənim,
Qoçaqlığım, igitliyim,
Cılazın ər olduğumun
Tərifi hər yana gedə,
Ruma gedə, Şama gedə,
-Deyə Domrul öyünərdi!

Xub igidin ölümündən,
Kədərlənir «Dəli Domrul».
-Mərə ərlər, nə kişidir,
Dediyiniz, Əzrail?
Nə üçün o qəfil-qəfil,
El içinə qırğın sala,
Yaxşı-yaxşı igidlərin
Yaxalayıb canın ala?!

Qadir tanrı varlığının,
Birliyinin, haqqı üçün,
Mənə göstər canlar alan,
Qızıl qanad Əzraillə,
Döyüşübən, savaşıban,
Xilas edim xub igidin,
Canını mən, ki, bir də o,
Yaxşı-yaxşı igidlərin,
Canlarını alanmasın.
Obalara, kömələrə,
Qara şivən salanmasın.
Deyə «Domrul» rica edir.

Yoxsa, tanrı dərgahına,
Onun sözü xoş gəlməyir.
-Bax, gör necə dəli qavat,
Çəkinmədən edib cürət,
Şükr etmədən birliyimə,
Mənim ulu dərgahıma,
Yan baxırı! -Deyə –:tanrı
Hökm elədi Əzrailə.

Hey Əzrail!
Tez ol yürü,
O dəliyə, yetir özün,
Yaramazın bənizin sarat,
Kəs nəfəsin, canın xırlat!

Dəli Domrul qırx igidlən,
Yeyib-içib, oturarkən,
Qorxunc qoca surətində,
Əzrail uçub gəldi,
Nə qapıçı onu gördü,
Nə gəldiyin, çavuş bildi.

Əzrailin heybətindən,
Qorxu bilməz Domrulun,
Görər gözü, görməz oldu,
Tutar əli, tutmaz oldu.
Nəzərində ışıq dünya,
Çevirildi qaranlığa.
Çırpıntıya düşdü ürək.
Əzrailə nə söyləmiş,
Dəli Domrul, baxaq görək:

- Qoca, sən nə heybətlisən?
Qoca, sən nə dəhşətlisən?
Qapıçılar səni görməz,
Qaravullar səni duymaz?!
Sənin qorxunc, ürək sıxan,
O, görkəmin, mənim görər,
Gözlərimi, görməz etdi.
Qoca, sənin dəhşətindən,
Danışmağa tutmaz dodaq.
Yerə düşdü heybətindən,
Əlimdəki qızıl ayaq.
İsti ağzım, buza döndü.
Sümüklərim duza döndü!
Ay saqqalı, ağca qoca,
Göz cığazı çöngə qoca!
Söylə bura necə gəldin?
Söyləməsən mənə əgər,
Qadam-bəlam sənə dəyər!

Domrulun sözlərindən,
Əzrail, acıqlandı.
- Ahay dəli! Gözlərimin
Çöngəliyin bəyənməzsən,

Qara gözlü, xumar baxan,
Baxışı ilən odlar yaxan,
Gəlinlərin və qızların,
Canlarını, çox almışam!

Saqqalımın ağlığını,
Bəyənməzsən! Bir yürüşdə
Dəmir dırnaq aslanların
Belin bükən qara kakil,
Qara saqqal, igitlərin
Canlarını, çox almışam!

«Dəli Domrul»:- Mərə qoca!
Qızıl qanad, Əzrail
Sənmişsən? -Deyə, sorur.
- Mənəm aha!
- Yaxşı–yaxşı igitlərin,
Canlarını sən alırsan?
Bu ellərə, obalara,
Qara şivən, sən salırsan?
- Mən alıram, mən salıram!

- Ahay dayan! Qapıçılar,
Qapıları, qapalayın!
İgit oğul ölümündə,
Ürəkləri, şan-şan olan,
Sinəsinə dağ çəkilib,
Gözləri qan yaşla dolan,
Anaların qisasını,
Cəllad dinli, daş ürəkli,
Çöngə gözlü, bu qocadan,
Bu gün burda alam gərək!

Ürəyinə dağ çəkilmiş,
Al soyunub, qara geymiş,
Minbir arzu, minbir istək,
Duyğusuyla, dolu olan,
Ürəkləri, alovlanan,
Dırnaqlanmış yanaqları,
Parçalanıb al boyanan,
Gəlinlərin, qisasını,
Qorxunc yüzlü bu qocadan,
Bu gün burda alam gərək!

- Ahay qorxunc qoca! Səni

Gen yerlərdə, axtararkən,
Dar bir yerdə, ələ düşdün.
Haydı səni, öldürübən,
Yaxşı-yaxşı igitlərin,
Cavanların, canını mən,
Qurtararam əllərindən,
Deyə Domrul qara polad
Qılıncını siyirərək,
Qulun kimi qışqırdı bərk.
Bir alıcı toğan kimi,
Çöngə gözlü, Əzrailin,
Üzərinə hücum etdi.
Əzrailsə,
Qanad çalıb,
Bir göyərçin surətində,
Pəncərədən, uçub getdi.

Dəli Domrul qas-qas güldü,
Əzrailin, qaçdığından.
-Mərə, comərd igitlərim,
Əzrailin, gözün elə,
Qorxutdum ki, gen qapını
Buraxıban, dar bacadan
Pəncərədən, qoyub qaçdı,
Domrulun qorxusundan,
Quş oluban, göyə uçdu!
Amma bilin, bu gün onu,
Tərlanıma tutdurmasam,
Əl çəkmərəm, buraxmaram!
-Deyə Domrul,
Hərbə biçdi.

Dəli Domrul atın minib,
Tərlanını ələ aldı.
Çox göyərçin ovlayıban,
Evə doğru qayıdarkən,
Əzrail,
Qazılıq ata, nəzər saldı.
At ürkübən, göyə qalxdı.
Domrulu, yerə çaldı.
Qara baş bükülərək,
Yer üstə, bükük qaldı.
Əzrail,
Yubanmadan,
Ağ sinəsi üzərinə,
Oturuban, mırıldadı.
Domrulun, nəfəsləri,
Saya düşüb, xırıldadı.

- Əzrail, mərə aman!
O, görünməz, haqq tanrının,
Birliyinə, yoxdur güman!
Səni bu cür bilməz idim.
Oğruluqla canlar alan!

Bizim yerdə, uca-uca,
İri düymə dağlar olur.
O dağların ətəyində,
Göyçadırlı bağlar olur.
O bağlarda gilələri,
Yaqut kimi, tutub yanan,
Qara salxım, üzüm olur.
O üzümün suyun sıxsan,
Al-qırmızı, şərab olur.
O şərabdan, kimsə içsə,
Əsirəyib sərxoş olur.
Özün bilməz,
Sözün bilməz.
Mən içibən o şərabdan,
Duymaz oldum, əsirədim.
Bilməz oldum, nə söylədim.
Əzrail, mədəd səndən!
Gəl canımı alma mənim!
Doymamışam, igitlikdən!

- Mərə dəli, mərə aslan,
Bu işlərdən nə qanırsan,
Düşünürsən. Məndə nə var?
Mənə niyə yalvarırsan?
Allahını çağır yalvar.
Odur can verib can alan!

- Mərə, Əzrail mərə!
Mat qalmışam, bu işlərə.
Tanrı isə, canlar alan,
Söylə, pəs sən nə qadasan?
Çəkil geri, aralıqdan.
Xəbərləşim mən tanrıylan.
- Deyə Domrul tapdı ürək.
Nə söyləmiş baxaq görək:

-«Ucalardan, ucasan sən.
Kimsə bilməz, necəsən sən.

Bəzi cahil adam səni,
Göydə arar, yerdə arar,
Bilməz ki sən, nə göydəsən,
Nə yerdəsən,
Mömünlərin, qəlbindəsən.
Daim duran cabbar tanrı.
Baqi qalan, səttar tanrı.
Canımı da alar olsan,
Əzrailə qoymagilən!»

Domrulun sözlərindən,
İlahinin, xoşu gəldi.
-Çünkü mənim «dəli qavat»,
Birliyimi, bilər oldu,
Birliyimə, şükür qıldı.
Can yerinə, bulsun bir can,
Onun canın, buraxgilən.
Deyə tanrı, qızıl qanad,
Əzrailə, verdi fərman!

Əzrail, tanrı əmrin,
Domrula, etdi təyin.

Əzrail, mərə aman!
Necə tapım, mən sənə can?
Ancaq, var bir qoca atam,
Bir də bir qarıcıq anam.
Gedək görək,
Biri canın,
Verər olsa, al get gilən.
Mənim canım, qoy get gilən.

Dəli Domrul, atın çapdı.
Atasını, gəzib tapdı.

–Ağ saqqallı, gözüm baba.
Sənə qurban, özüm baba.
Bilirsənmi nələr oldu?
Küfr dedim, ilahinin,
Dərgahına xoş gəlmədi.
Göylərdəki, qızıl qanad
Əzrailə, hökm elədi,
Mənim canım almaq üçün.
Göy üzündən, uçub gəldi.
Qondu mənim sinəm üstə.

Şirin canım, alar oldu.
Baba səndən, can diləræm.
Mənə canın verərmisən?
Yoxsa dəli oğul, deyə,
Domrul, deyə, ağlarmısan?

- Nə deyirsən göz bəbəyim,
Oğul-oğul, aslan oğul!
Doğulandan, doqquz boğa,
Basmarlayıb, boğan oğul!
Qızıl qubba çadırımın,
Sütunusan, dirəyisən.
Qaza bənzər qız-gəlinim,
Bəzəyisən, çiçəyisən.
Qarşı yatan qara dağım,
Oğul–oğul, aslan oğul!
Söyləgilən,
Əzrailə:
-Soyuq-soyuq bulaqlarım,
Ceyran qaçar ovlaqlarım,
Gərək isə, onun olsun.

Qatar- qatar dəvələrim,
Ala, xalı–gəbələrim,
Gərək isə, onun olsun.

Ağayılda, ağca qoyun,
Kisə- kisə axça-altun,
Gərək isə onun olsun.

Can əzizdir, dünya şirin.
Əziz canı qıymam belə.
Məndən əziz, məndən sevgili,
Anandır, get, ondan dilə.

Dəli Domrul, atasından,
Üz görməyib, üz döndərdi.
Gedər-getməz atın sürdü.
Anasına, qarşı gəldi.

-Ana, bildin nələr oldu?
Göy yüzündən al qanadlı,
Əzrail, uçub gəldi.
Ağca sinəm üzərinə,

Qondu mənim! Şirin canım,
Xırladıban, alar oldu,
Babamdan, can dilədim o,
Verməz oldu. İndi səndən,
Can dilərəm, verərmisən?
Yoxsa dəli oğul, deyə,
Domrul- deyə, mələrmisən?
Can dilərəm, ana səndən.
Oğul canın alırsanmı?
Yoxsa ana, ağca üzə,
Acı dırnaq, çalırsanmı?

- Nə deyirsən, göz ışığım,
Oğul-oğul, canım oğul!
Doqquzca ay dar qarnımda,
Saxladığım, qanım oğul!
Qundağını bələdiyim,
Boy atmağın dilədiyim,
Dolab- dolab ağ südümü,
Əmizdiyim canım oğul!
Uca bürclü hasarlarda,
Otraq olub, tutulaydın,
Azqın dinli, kafərlərə,
Dustaq olub, tutulaydın,
Qızıl gümüş sovuruban,
Pul tökübən, qurtarardım.
İndi isə, yaman yerə,
Varmış ikən, vara bilməm.
Dünya şirin, can əzizdir.
Oğul canım, verə bilməm.

Anadan da məyus olub,
Qayıdarkən Dəli Domrul,
Hazırlanıb can almağa,
Yaxınlaşdı Əzrail.

-Əzrail, mərə aman!
O görünməz, ilahinin,
Dediyinə yoxdur güman.

-Söylə görüm, genə nə var?
Mərə dəli, nə deyirsən?
Daha sözün?  Genə məndən,
Nə amanı diləyirsən?
Ağ birçəkli qarı anan
Can dilədin can vermədi
Daha kim var, sənin üçün,

Canın verə, keçə candan?
-Həsrətim var,
-Nə həsrətin?
-Yad qızı bir, həlalım var.
Ondan bir cüt əmanətim,
İki kiçik oğlanım var,
Onlar ilən görüşəlim.
Deyə - Domrul, axın-axın,
Öz evinə sürdü atın.

- Bilirsənmi, nələr oldu?
Göy üzündən qızıl qanad,
Əzrail, uçub gəldi.
Ağca sinəm üzərinə,
Qondu mənim, şirin canım,
Xırladıban, alar oldu.
Babamdan can dilədimsə-
Can vermədi. Anamdan can,
Dilədimsə, can vermədi,
Söylədilər hər ikisi,
Can əzizdir, dünya şirin.
Uca-uca, dağlarım var,
Sənin üçün, ovlaq olsun.
Orman kimi, bağlarım var,
Sənin üçün yaylaq olsun.
Soyuq-soyuq, sularım var,
Sənin üçün, içit olsun.
Tövlə-tövlə, şahbaz atım,
Sənin üçün, minik olsun.

Qızıl qubba çadırlarım,
Kölgəligin, olsun sənin.
Qatar-qatar dəvələrim,
Yükləliyin olsun sənin.
Ağayılda, ağ qoyunum,
Sürüsü ilə, sənin olsun.
Könlün kimi tutar isə,
Sevər isə, ərin olsun.
Ancaq, iki oğlancığı,
Başsız qoyma, evsiz qoyma.

- Nə söylərsən, nə deyərsən?
Gözüm görən, könlüm sevən.
Ürək dostum, göz bəbəyim,
Qoç igidim, şah igidim.
«Dadlı-dadlı damaq verib,
Sevişdiyim,

Bir yasdığa, baş qoyuban,
Əmişdiyim.

Qarşı yatan, qara dağı,
Səndən sonra, neylirəm mən.
Qəbirim olsun, keçər olsam.

Soyuq-soyuq bulaqları,
Səndən sonra, neylərəm mən.
Qanım olsun, içər olsam.

Kisə-kisə, qızıl pulu,
Səndən sonra, neylərəm mən.
Kəfən alım, xərclər olsam.

Səndən sonra, kişi sevsəm,
Könül versəm, onlan yatsam,
Bir od olsun, yaxsın məni.
İlan olsun, şaxsın məni.

Bir quru-boş canda nə var.
Qıymadılar, sənə onlar?
Ərş bilsin, kürsü bilsin,
Yer-göy buna tanıq olsun.
Dünya bilsin, aləm bilsin,
Tanrı özü tanıq olsun.
Bu canım, qurbandır sənə.
Dünya buna tanış olsun.
Deyə- xatın yar yolunda,
Can verməyə, razılaşdı.
Bunu görən Əzrail,
Can almağa hazırlaşdı.

İgitlərin, görkəmlisi,
Yoldaşına qıymadı.
Haqq təala dərgahına,
Yalvarıban sıtqadı:

«Ucalardan, ucasan sən,
Kimsə bilməz, necəsən sən.
Bəzi cahil adam səni,
Göydə arar, yerdə arar,
Bilməz ki sən, nə göydəsən,

Nə yerdəsən, möminlərin,
Ürəyində, qəlbindəsən.
Daim duran, cabbar tanrı.
Baqi qalan, səttar tanrı,
Uzun yollar, üzərində,
İmarətlər, tikdirərəm,
Səni deyə,
Ac görərsəm, yedirdərəm,
Doyuraram, səni deyə,
Çıplaq görsəm, geyindirrəm,
Donaldaram, səni deyə.
Can alırsan, bir yerdə al,
İkimizin canımızı.
Can almırsan, bağışlırsan,
Bir bağışla, ikimizi.»

*Eşqin, məhəbbətin, mənəviyyəti,*
*Bir də nişan verdi öz qüvvəsini.*
*Ürək birliyinin, ölməz qüdrəti,*
*Dəyişdi tanrının, iradəsini.*

*-İki istəklidən əl götür dedi,*
*Onlara, yüzqırx il ömür vermişəm.*
*Al iki qocanın, canını indi.*
*Belə tələb edir, səndən iradəm!*

*Demək bir qadının eşqi, vəfası,*
*Tanrı qəzəbinə, qələbə çaldı.*
*Domrulun gül açdı, könül dünyası,*
*Yüzqırx il yaşadı, yüzqırx il qaldı.*

*Qoşdu Qorqud Dədə adına dastan,*
*Adını-sanını saldı dillərə.*
*Əbədi yaşasın, vəfalı insan,*
*Şöhrəti, yayılsın bütün ellərə.*

*Adın eşidərkən obalar-ellər,*
*Könüllərdə, dostluq duyğusu coşsun.*
*O adı oxşasın, zəxmələr, tellər,*
*Aşıqlar saz çalsın, nəğmələr qoşsun.*

***Kim deyir ölümdür candan əl çəkmək?***
***Bu ölümdən doğur, başqa bir həyat.***
***İnsan öz canından, keçməsə demək,***
***Əbədi həyata çatarmı? Heyhat!***

***Fərhad, dünyamızdan ölüb getsə də,***
***Hələ də külüngü səsi gəliri.***
***İstəkdə gizlənən tükənməz qüvvə,***
***Hələ də, dağların bağrın dəliri.***
***Ağızlara düşmüş «fəna» sözündə,***
***Nə həqiqət vardır, nə də ki məna.***
***Hər bir faniliyin, mərmuz içində,***

***Gizlənib yatmışdır, yüksək bir bəqa.***

*Təkamül adlanan o böyük qüvvət,*
*Əbədi yaşayır, bu «bəqa»larda.*
*İnsanlıq adlanan, parlaq həqiqət,*
*Gün-bəgün götürür, yüzündən pərdə.*

*Tufanlar içində, qalsa da gənclik,*
*Ölüb getmiyəcək, qalxıb duracaq.*
*Kökün bərkitsə də yerlərdə çürük,*
*Dünyada, çox zaman yaşamayacaq.*

*Ancaq, danələrin səpib göyərdən,*
*Ağaclar, heç zaman fani olmayır.*
*Özü çürüyürsə, gedirsə əldən,*
*Yeni şüykələrdə durub yaşayır.*

*Qoy bunu anlasın həyat bağında,*
*Hasilsiz göyərən azğın vəfasız.*
*Çiçəklər, cücərməz bahar çağında,*
*Çürümüş yərpağın tökməsə payız.*

## 2

# Dirsə xan Oğlu Buğac

*Mavi göylər istiləyib,*
*Açan zaman yaxasını.*
*Aslayırı qayalardan,*
*Səhər zəri çuxasını.*

*Karvan qalxır, yuxusundan,*
*Yükün çatır, düşür yola.*
*Kim çatacaq, məqsədinə,*
*Kim yorulub, yolda qala?!*

*Karvanımın, günəş ilən,*
*Qırılmayan ülfəti var.*
*O batarkən, bu da yatar,*
*O çıxarkən, bu da çıxar.*

*Tozlu yolda, yorqun-yorqun,*
*Yolun çəkib, gedir karvan,*
*Kimsə bilməz, hara gedir,*
*Kimsə bilməz, gəlir hardan?*

*Dərin-dərin, bir quyudur,*
*İçindəki, gizli əsrar.*
*Baş çıxarmaz, bu quyudan,*
*Qələndərlər, sehrkarlar.*

*Açaq xəyal kəndirini,*
*Cumaq görək, orda nə var.*
*Bu zəmzəmin, diblərinə,*
*Könül ipi, ancaq çatar.*

*Karvan keçir, uzaqlardan,*
*Səsi gəlir, cərəslərin.*
*Yol qorxulu, məqsəd uzaq,*
*Söz qısadır, məna dərin.*

*O yolların, carçısıdır,*
*Səsindəki, zingiltilər,*
*Dünyada ki «Həyat» adlı,*
*Bir gedişdən, verir xəbər.*

*«Həyat», ulu təbiətin,*
*Ən maraqlı, əfsanəsi.*
*«Həyat», ibhamlara cuman,*
*Həqiqətin, nişanəsi.*

*Bəli, həyat, ən bədii,*
*Çıxışıdır, varlıqların.*
*Demək varlıq, bu çıxışla,*
*Nişan verir, öz əsrarın.*

*Təbiət də, həqiqət də,*

*Şəkil tapır, həyatılan.*
*Həyatsız, nə anlaşılar,*
*Bu dünyadan, bu varlıqdan?*

*Demək insan, bu dünyanın,*
*Təbiətin, sirdaşıdır.*
*Həqiqətin duyar könlü,*
*Görər gözü, yoldaşıdır.*

*Yersiz deyil varlıqlara,*
*Məqsəd olmuş, əgər insan,*
*Təbiəti o dirildir,*
*Həyatılan-varlığılan.*

*«Tanrı»lar da, «Şeytan»lar da,*
*Bu ülgüdə, donun biçər!*
*«Musa»lar da, «Firon»lar da,*
*Bu qılıqda gəlib keçər!*

*O sönülməz, bir şölədir,*
*Işıq salır kainata.*
*Əbədiyyət axtarırı,*
*Zülmətlərə bata-bata.*

*Bu bağın bir bağbanı var!*
*İnsan bitər baxçasında.*
*Həyat gülü dəstələnir,*
*Ürəginin, taxçasında.*

*Bu məşəli, o daşıyır,*
*O qoruyur, bu ocağı.*
*O yanırı, yanmağıylan,*
*Yandırırı, bu çirağı.*

*Hamılara, tanışdır o,*
*Hamılarla dostluq salar,*
*Hamıların dodağında,*
*Öpüşünün, izləri var.*

*Onun, geniş sinəsində,*
*Günəş boyda, bir şolə var.*
*Alovlanıb yandıqca o,*
*Əbədiyyət ışıqlanar!*

*O, anadır ürəgində,*
*Həyat eşqi, ləpələnir.*
*Onun, ana məhəbbəti,*
*Gələcəyə, vəsiqədir.*

*Əzəldən-əzəldən, bu el, bu oba,*
*Analığa dərin hörmət bəsləmiş,*
*Ana qarşısında «Topal Teymur» da,*
*Ayaq dalı qoymuş, bağış diləmiş.*

*Bu haqqı tanıyan, haqqı sevən el,*
*Mərifətdə, incə yerlərə çatmış.*
*«Ana haqqı tanrı haqqıdır», deyə,*
*Belə bir bədii, məsəl yaratmış.*

*Sən də, analığa həsr et dastanın,*
*Sən haqq yolçususan, haqq aşığısan.*
*İstəkdən yoğrulub iliyin-qanın,*
*Dostluq məclisinin, yaraşığısan.*

Aşıq çalır, sazını,
Açır eşqin, yazını.
Nəğmələri, oynadır,
Çəmənlərin, qazını.

Çəmən gülür, gül gülür,
Dağlar gülür, el gülür,
Gülüşdükcə təbiət,
Nəğmə gülür, tel gülür.

Gülür çəmən, gülür çay,
Gülür dağın, laləsi
Gülüşlərdən zövq alır,
İnsanlığın anası.

Coşur, aşığın qəlbi,
Dolanır hər diyarı.
Deyir, Qorqud Dədədən,
Sazının dodaqları.

-Sərin-sərin əsən zaman,
Salxım-salxım dan yelləri,
Qaqqıldaşıb səyirəndə,
Boz irəngli, torağayı.

Uzun saqqal-uzun ətək,
Tat, dam üstə banladıqda.
Bədöy atlar yorqalayıb,
Yollar üstə uğradıqda.

Üfüqlərdən baş qovzayıb,
Qaş atanda, qızıl laçın,
Köksü gözəl, qaba dağa,
Döşəyəndə, sarı saçın,

Hər tərəfdən xanlar, bəylər,
Qoç igitlər, mindi atın,
Yollar üstə, toz qoparıb,
Uğradılar axın-axın.

Xan oğlu xan, xan Bayandır,
Toy edərdi, ildə bir gün.

Qonaqlayıb toyluyardı,
Oğuzların, xanın-bəyin.

Demək yenə xanlar xanı,
Bir gün yerdən durmuş idi,
Qızıl qubba, şam günlügün,
Yer üzündə qurmuş idi.

«Ala seyvan» göy üzünə,
Ucalıban aşınmışdı.
Minbir yerdə ipək xalça,
Döşənmişdi-salınmışdı.

At öldürüb, dəvə kəsib,
Buğur-ayğır, qırdırmışdı.
Hər tərəfdə üç irəkdə,
Çadır-otaq, qurdurmuşdu.

- «Oğlu olanı, ağ çadıra,
Qızı olanı, al çadıra,
Oğlu-qızı olmayanı,
Qara evə, qondurunuz!
Qara keçə üzərində,
Əyləndirin!
Qara qoyun, yıxnısından,
Yemək verin! Yesə yesin,
Yeməz getsin!
Oğlu-qızı olmayanı,
Tanrı təala qarğımışdır,
Biz də daxı qarğıyırız,
Hamı bunu bəlli bilsin»!
Deyə, o gün xan Bayandır,
Hökm etmişdi!

Qalın Oğuz ellərində,
Dirsə xan şöhrəti olan,
Bir bəy varmış. Lakin onun,
Nə oğlu var, nə də qızı.
O, da başqa bəylər kimi,
Ala sabah yerdən durur,
Qırx igidin atlandırır,
Yola düşür.

Bayandırın igidləri,
Soyuqluqla qarşı çıxır!
Dirsə xanı, aparırlar,
Qara evə!
Çadırına, qara keçə,

Döşəyirlər!
Yemək vaxtı, onun üçün,
Qara qoyun, bozbaşından,
Gətirirlər!

Belənçilik qarşılanmaq,
Dirsə xana ağır gəlir.
- Məndən hansı əskikliyi,
Gördünüz ki, məni bu cür,
Həqir sandız?
Məndən əskik kişiləri,
Ağ otağa - al otağa,
Qondardınız.
Qılıncımdan, ya süfrəmdən?
Deyə –:Dirsə, sual verdi.
-Görklü xan, Bayandır xan,
Buyuruğu belədir ki:
Oğlu-qızı olmayanı,
Tanrı təala qarğımışdır,
Biz də daxı qarğıyırız!
Deyə, onlar, ayıtdılar.

-Qalxın gedək igidlərim.
Bu qara eyib,
Ya məndən ya xatındandır.
Deyə - Dirsə yerdən durdu,
Evə gəldi.
Xatınını çağırıban, nə söylədi?

-Bəri gəl hey, başım baxtı
Evim taxtı.
Evdən çıxıb, sallananda,
Sərv boylum.
Topuğunu saçı döyən,
Qara saçlım.
Qara qaşı yaya bənzər,
Çatma qaşlım.
Qoşa badam sığınmayan,
Dar ağızlım.
Yanaqları göz alması,
Al yanaqlım.
Ev dirəyim, əl düləyim!
Bilirsənmi nələr oldu?

Qalxıbanı xan Bayandır,
Yerdən durmuş.
Bir yerdə ağ, bir yerdə al,
Bir yerdə də, qara çadır,
Qurdurmuşdur.
Oğlu olanı, ağ çadıra,

Qızı olanı, al çadıra,
Oğul-qızsız, sonsuzları,
Qara evə, qondururu!
Qara keçə üzərində,
Əyləndirir!
Qara qoyun yıxnısından,
Yemək verir!
Buyurmuş ki:
«Oğlu-qızı olmayanı,
Tanrı təala, qarğımışdır,
Biz də daxı, qarğıyırız»!
Beləliklə qarşıladı,
Onlar məni.
Söylə görüm bu qara eyib,
Səndəndirmi, məndəndirmi?
Səbəb nədir tanrı bizə,
Bir igitmən oğul verməz?
Sonra demiş:

–Xan qızı, mən aşnalığı ataram.
Yaxalayıb, boğazından tutaram.
Bu sevdada nahaq qana bataram.
Söylə mənə, səbəb nədir, bu işə?
Söyləməzsən,
Qara polad qılıncımı çəkərəm,
Al qanıvı yer üzünə tökərəm.
Ayrılığın şərabını içərəm.
Söylə mənə, səbəb nədir bu işə?

Acıqlanmış aslan kimi,
Dodaqların çeynəyərək,
Dirsə xanın cavabında,
Nələr dedi Xatın görək:

-Hey Dirsə xan, mənə qəzəb eyləmə.
İncinibən acı sözlər söyləmə.
Dur ayağa, çadırların qur gilən.
Qoyunları, qənnarəyə vur gilən.
Təpə kimi, ət-yağ qala bu düzə.
Gölməş kimi, qəmiz cala bu düzə.
Ac-yalavac qalanlara, yemək ver.
Əyni yalın-çıplaqları, geyindir.
İç Oğuzu, dış Oğuzu, qonaqla.
Borcluların, borclarını qıl əda.
Sən elə bax alqışlasın el səni,
Haqq unudmaz, el qəmini görəni.
Hacət dilə, el sənə nəfəs versin,
Bəlkə tanrı, səsimizə səs versin.

Demək Dirsə qadınını dinlədi,
Nəzr eləyib, böyük bir toy eylədi.
Qoyun - quzu kəsdi, qırdı at-dəvə,
Oğuz ellərini, yığdı bir yerə.
Harda bir ac gördü, doyurdu onu,
Yalıncıq olana, geydirdi donu.
Borclu olanların, borcunu verdi.
Xərcsizlik qalanın, qəmini gördü,
Hər yerdə dağ kimi, ət-yağ qaladı.
Su kimi çaylara, qəmiz caladı,
Hansı atılan ox hədəfə dəydi,
Bir ağzı göyçəyin sözü göyərdi.
Xatın o günlərdə hamilə oldu,
Çox zaman keçmədən bir oğlan doğdu.

Oğlancığı tayalara,
Tapşırdılar, saxlatdılar.
At ayağı külək olur,
Ozan dili, yügrək olur,
Zaman keçdi, il dolandı,
Oğlan boya-başa çatdı,
Onbeş yaşlı, bir gənc oldu.

Deyirlər ki Bayandır xan,
Sarayında, iki əsrək,
Buğa varmış.
O buğalar, qara daşa,
Buynuz vursa, ovularmış.
Yaz olanda, güz olanda,
Toy tutarlar, buğaları,
Döyüşdürüb, xanlar-bəylər,
Təfərrücə yığılarmış.
Yenə bir yaz, Bayandırın,
Ordusunda,
Toy başladı.
Ağ meydanı, süpürdülər,
Suladılar.
Buğaların hər birini,
Altı dəmir zəncir ilən,
Zəncirləyib.
Altı kişi,
Üçü sağdan, üçü soldan,
Zəncirlərdən yapışaraq,
Çəkə-çəkə, gətirdilər.

Gün görməmiş buğaların,
Biri ancaq,
Zəncirlərin, çəkib qırır,
Kişilərin əllərindən,

Buraxılır.

Meydan dəyir bir-birinə,
Dirsə xanın oğlanı da,
İki nəfər yaşıdıyla,
Bir tərəfdə aşıq oynur.
Ağ ürəklər qaçıb tezir.
Oğlancığın dostları da,
Qoyub qaçır!
Lakin oğlan tərpənmədən,
Öz yerində durub qalır.

Bunu görən qızğın buğa,
Buynuzların şüşlədərək,
Oğlancığa hücum edir.
Oğlan isə çəkinmədən,
Yumuruğun düyünləyir,
Buğa ona, çatan zaman,
Endiriri qaşqasından.

Yumuruğun zərbəsindən,
Əsrək buğa, gicəllənir,
İgid oğlan sıçrayıb,
Yağısını buynuzlayır.

Nər oğlanla-qızğın buğa,
Qabax-qənşər, dartışırlar.
Lakin güclər,
Bir-birinə, üstün olmur.
Hər ikisi aralıqda,
Durub qalır.
Oğlan bir az fikrə dalır:
- «Dam dayanar, dirək ilən.
Bir sarayın dirəyini,
Çəkər olsan, ev yıxılar.
Mən nə üçün, bu heyvana,
Dirək olum?» -Deyə, oğlan,
Düşünərək, nagəhandan,
Əllərini, heyvancığın,
Buynuzundan, götürübən,
Sıçrayır. Qızğın buğa,
Başı üstə, yerə dəyir.
Oğlan isə məcal vermir,
Piçaq ilə başın kəsir.

Bunu görən xanlar-bəylər,
Yığılırlar,
Kəl oğlanın dövrəsinə.
-Hanı, gəlsin Qorqud Dədə,
Bu oğlanın, adın qoysun.

Əlin tutub babasından,
Onun üçün, taxt istəsin,
Bəylik alsın, deyə-deyə.

Çağırdılar Dədəm Qorqud,
Gələr oldu.
Oğlancığın əlin tutdu,
Babasına varıb getdi.
-Hey Dirsə xan, oğlanına,
Kürsü vergil, bəylik vergil,
Ərdəmlidir!
Boynu uzun bədöy at ver,
Minər olsun, hünərlidir!

Ağ ayıldan, tümən-tümən,
Ağ qoyun ver, bu oğlana,
Şişlik olsun,
Ərdəmlidir!

Qatar-qatar dəvə vergil,
Qoy oğlana, yüklət olsun,
Hünərlidir!

Qızıl qubba, çadır vergil,
Bu oğlana, kölgə salsın,
Ərdəmlidir!

Çiyni quşlu, cübbə vergil,
Qoy bu oğlan geyər olsun,
Hünərlidir!

Ağ meydanda, buğa basıb,
Onun adı «Buğac» olsun.
Adını mən qoydum, yaşın,
Tanrı təala, özü versin.

Hünərlinin parlayanda,
Hünərinin günəşi,
Hamı gözlər ışıqlanmaz,
Hamı ürək, şad olmaz!

Çox kor olmuş, göz vardır ki,
Işıq görsə qamaşar,
Çox yaramaz, bayquş kimi,
Abadlığa qapılmaz!

Buğac xanın, taxta çıxıb,

Bəylik cəbbəsini giyməsi,
Atasının qırx igidin,
Həsadətə qapatdı,
- Gərək bunu, atasına,
Çuğullayaq,
Ola bilər ki öldürə.
O, ölərsə, yenə bizim,
İzzətimiz-hörmətimiz,
Çoxalacaq –Deyə onlar,
Himləşdilər.
Sonra iki bölük olub,
Bir bölüyü,
Dirsə xana yanaşıban,
Söylədilər:
- Bilirsənmi nələr olmuş?
Yaramasın sənin oğlun!
Gənclikdən, bar yeməsin!
Qırx igidin, götürübən,
Qalın Oğuz ellərinə,
Basğın etmiş!
Harda bir, gözəl görsə,
Çəkib almış!
Ağ saqqallı, qocaların,
Ağzın söymüş!
Ağ birçəkli qarıların,
Südün dartmış,
Aydın axan gur sulardan,
Xəbər keçə.
Qarşı yatan ala dağdan,
Aşıb keçə.
Xanlarxanı Bayandıra,
Xəbər çata.
Dirsə xanın, oğlu bu cür,
Bidət işlər görür deyə -
Söyləyərlər, gəzməkdənsə,
Ölmək sənə, yaxşı ola.
Bayandır xan, çağırıban,
Qəzəb edə.
Belə oğul sənin üçün,
Nə gərəkdir?
Olmağından, olmamağı,
Yaxşıraqdır. Öldürsənəm!

«Gətiriniz öldürəlim!»
Deyə –Dirsə buyurarkən,
Qırx igidin son igirmisi,
Çıxa gəldi.
- Hey Dirsə xan, sənin oğlun,
Yerdən durdu,
Köksü gözəl Qaba dağa,

Ova çıxdı.
Sən varikən,
Ov-ovladı, quş-quşladı!
Anasına məclis qurub,
Söhbət edib, badə içdi.
Atasına, qəsd elədi!
Yaramasın, sənin oğlun!
Qarşı yatan Ala dağdan,
Xəbər keçə.
Aydın axan, gur sulardan,
Aşıb keçə.
Xanlar xanı Bayandıra,
Xəbər çata.
«Dirsə xanın oğlu bu cür,
Bidət işlər, görür» deyə,
Söyləyələr,
Çağırıban, Bayandır xan,
Qəzəbinə, tuş olasan.
Belə oğul, sənin üçün,
Nə gərəkdir? Öldürsənəm!
Deyə – onlar, söylədilər.

- Gedin tutub gətiriniz,
Öldürəlim!
Bu cür oğul, mənim üçün,
Gərəkməzdir –Dedi Dirsə.
-Biz oğlanı necə tutaq?
O, bizləri sayan deyil.
Sözümüzə, baxan deyil.
Dur ayağa,
Qırx igidin boyuna al,
Oğlunu da götürübən,
Çıx, ovlağa!
Quş uçurdub, av-avlayıb,
Oğlancığı oxlayıban,
Geri qayıt!
Onu bu cür, öldürməsən,
Başqa cürə, öldürülməz!
Deyə -onlar, uydurdular!

Sərin-sərin əsən zaman,
Salxım-salxım dan yelləri.
Qaqqıldaşıb, səyirəndə,
Boz irəngli turağayı.

Uzun saqqal-uzun ətək,
Tat dam üstə, banladıqda.
Bədöy atlar yorqalayıb,
Yollar üstə, uğradıqda.

Köksü gözəl Qaba Dağa,
Səhər-səhər, gün dəyəndə.
Böyük Oğuz ellərinin,
Qız-gəlini, bəzənəndə,
Ala sabah axmaq Dirsə,
Yerdən durdu,
Qırx namərdin, atlandırıb,
Buğacı da götürərək,
Ova çıxdı.
Ov-ovladı, quş-quşladı.

Qırx namərdin bir neçəsi,
Buğac bəyə, yaxınlaşdı.
- Atan dedi: «Keyik qovsun,
Gətiribən mənə qənşər,
Vurub salsın.
At oynadıb, qılınc çalıb,
Ox atmasın, gözüm görsün,
Fərəhlənim!» - söylədilər.

İgid oğlan, ayın-şayın,
Sevinc ilə, at oynadır.
Keyik qovur, maral qovur,
Atasının qarşısında,
Oxlayıban yerə salır.
Öz yanında:
- «Qoy xan babam, at səyirdib,
Qılınc çalıb, ox atmama,
Fərəhlənsin.
Mənə baxıb, güvənibən,
Fəxr eləsin.»
Deyə - yazıq, düşünürdü.
Ol qırx namərd:
-Hey Dirsə xan: «Görürsənmi
Oğlan necə, keyikləri,
Bezikdirir,
Hər tərəfdən, qovur sənin,
Qabağında, yerə salır?
Olmıya ki, ceyranlara,
Ox atarkən, səni vura!
Oğlan səni öldürmədən,
Tez ol onu öldür!» deyə -
Uydurdular!

Keyiklərin, dalısıca,
Oğlan qızğın at çapdırıb,
Babasının qənşərindən,
Ötən zaman,
Axmaq Dirsə, Qorqud Dədə,

Odumlamış qatı yayı,
Ələ aldı.
Üzənginin, üstə qalxdı,
Yayı çəkdi, öz oğlunun,
Kürəyinin arasını,
Nişanladı!
Ox kəmandan, sıçradı,
Ildırım tək, uçub şaxdı,
Buğac xanın, kürəyindən,
Dəyib yaxdı!
Alca qanı şoruldadı,
Bədöy atın, uzun boynun,
Qucaqlayıb yerə düşdü.

Ol namərdlər, Dirsə xanı,
Oğlanının nəşi üstə,
Getməyə də qoymadılar!
Atlarını, döndəribən,
Qayıtdılar.

Yazıq xatın:
- «Oğlancığın, ilk ovudur,
Gərək Oğuz bəylərini,
Toyluyalım» deyə -qalxıb,
Yumurlanıb, uru durdu.
At öldürdü, dəvə kəsdi,
Buğur-ayğır, qoç qırdırdı.
Qırx incə qız, dövrəsində,
Dirsə xana, qarşı vardı.

Qıpıqların, qaldıraraq,
Dirsə xana nəzər saldı.
Sol-sağına, göz gəzdirdi.
Oğlancığın, görənmədi.
Qara bağrı sarsılıban,
Yanar oldu.
Qara xumar, gözlərinə,
Qan yaş doldu.
Çağırıban Dirsə xanı,
Söy söylədi,
Görək Xatın nə söylədi:
- « Bəri gəl hey! Başım baxtı,
Evim taxtı!
Xan babamın köygüsü,
Qadın anamın sevgisi,
Atam-anam verdiyi,
Göz açıban, gördüyüm,
Könül verib, sevdiyim.»

«Qalxıbanı sən yerindən,
Uru durdun.
Qara yallı, bədöy atın,
Bütün mindin.
Köksü gözəl Qaba dağa,
Ava çıxdın.
İki vardın, bir gəlirsən.
Yavrum hanı?
Bu dövranda, min diləklə,
Yetirdiyim, oğul hanı?
Çıxsın mənim, gözüm Dirsə,
Yaman səyiyir.
Kəsilsin bu oğlan əmən,
Süd damarım, yaman sızlar.
Sarı ilan dişləmədən,
Ağca tənim, qalxıb şişər.
Yalqız oğul, görünməyir,
Bağrım yanar.»
«Quru çaylar, üzərinə,
Suçu saldım.
Qara donlu dərvişlərə,
Nəzir verdim.
Ac qarınları, doyurdum.
Yalancıqları, donaltdım.
Təpə kimi, ət qaladım,
Gölməş kimi, süd caladım.
Min diləklə, bir oğlanı,
Güclə tapdım.
Yalqız oğul, xəbərini,
Aman Dirsə, degil mənə».

«Qarşı yatan, Ala dağdan.
Uçurtdunsa, degil mənə.

Qəltan axan, daşğın suya,
Axızdınsa, degil mənə.
Ala donlu, azğın dinli,
Kafərlərə, aldırdınsa,
Degil mənə.»

Xan babamın, ordusuna,
Mən varayım.
Ağır ləşgər, pul, xəzinə,
Mən  alayım.
Azğın dinli, kafərlərə,
Od vurayım!
Yaralanıb, qazılıq atdan,
Düşməyincə,
İti qılınc, şah damarım,
Biçməyincə,

Yalqız oğul, yollarından,
Dönmiyəlim!
Yalqız oğul, xəbərini,
Degil mənə!
Qara başım, qurban olsun,
Ərim sənə!»

Dirsə bir söz, söyləmədən,
Gəlib keçdi.
Xatınının, cavabında,
Dinməz oldu!
Ol qırx namərd, qarşı gəlib:
-«Oğlun sağdır, avlaxdadır,
Gün arası harda olsa,
Gəlib çıxar.
Bəy sərxoşdur, ona görə,
Cavab verməz» söylədilər!

Xatın buna, qatlaşmayıb,
Geri döndü.
Qırx incə qız, yoldaşların,
Atlandırdı,
Bədöy atın, seyrədərək,
Oğul deyibən, yola düşdü.
Qışda–yazda, qarı–buzu,
Əriməyən Qaba dağa,
Atın sürdü.
Alçaqlardan, ucalara,
Çapıb çıxdı.
Bir dərənin üzərində,
Quzğunları, uçar gördü.
Bədöy atın, o tərəfə,
Qamçıladı.

Oğlan atdan yıxılarkən,
Göy–boz atlı Xizr İlyas,
Başı üstə, hazir olub,
Bərəkətli əlləriylə,
Yarasını, sığayaraq,
-«Bu yaradan qorxma gilən,
Sənə ölüm, yoxdur ondan.
Dağ çiçəyi–ana südü,
Mərhəmindir, sənin oğlan!»
Deyə – dönüb, qeyb olmuşdur.

Xizr gedir, oğlan iki,

Tazısıylan, qumlar üstə,
Düşüb qalır.
Qarğa–quzğun, qan görübən,
Yaralını, qumarlayır.
«Kəlbəciklər», mırıldayıb,
Dövrəsinə, dolanırlar.
Quzğunları, qovalayıb,
Qonmaqlığa, qoymayırlar.

Başı lovlu yazıq ana,
Al qanına, batıb yatan,
Balasının, ləşi üstə,
Çapar yetdi.
Oğlanını, duymaz gördü.
Çağırıban nə söylədi:

- Yuxu almış qara-xumar,
Gözlərini bir aç axı!

Gözlərini, kədər tutmuş,
Bu anaya, bir bax axı!

Tanrı verən, şirin canın,
Seyrandaymış indi axı!

Dil-ağızdan, şirin candan,
İki kəlmə xəbər mənə,
Qara yazı, qara başım,
Qurban olsun, oğul sənə.

Qarşı yatan, uca dağlar,
Ucalarkən, alçaq olsun.

Qazılıq dağdan, axar sular,
Axar ikən, axmaz olsun.

Bu dağlarda bitən otlar,
Bitən yerdə, bitməz olsun.

Qayalarda, qaçan ceyran,
Qaçar ikən, qaçmaz olsun.

Qəza səni hardan tutdu,
Aslandanmı, qaflandanmı?
Bədənində canın varsa,
Dil-ağızdan, xəbər mənə.
Qara yazı-qara başım,
Qurban olsun, oğul sənə.
Anasını dinləyərək,

Gözlərini, açdı oğlan,
Görək dili tutar-tutmaz,
Nə söyləmiş, anasıylan:

- İrəli gəl, sinəsindən,
Qana-qana,
Süd əmdiyim, ağ birçəkli,
Qadın ana!

Qazılıq dağdan, axan sular,
Günahsızdır, qarğıma gəl!

Bu dağlarda, bitən otlar,
Günahsızdır, qarğıma gəl!

Qarşı yatan uca dağlar,
Günahsızdır, qarğıma gəl!

Sıldırımdakı, ceyranlar da,
Günahsızdır, qarğıma gəl!

Aslanlar da Qaflanlar da,
Günhsızdır, qarğıma gəl!

Qarğısan, babamı qarğı,
Bu iş mənə, babamdandır.
Deyə -oğlan yenə dedi:

- Ana nə qorx, nə də ağla,
Göy-boz atlı Xizri İlyas,
Başım üstə, gəldi mənim.
Ox yarama, çəkdi əlin,
«Bu yaradan, sənə ölüm,
Yoxdur» - dedi.”
Dağ çiçəyi–ana südü,
Dərmanındır – demiş sənin.

Yaralının sözlərini,
Dinlədikdə, qırx gül bədən,
Səpələşdi, çiçək kimi,
Hər tərəfə, qırxı birdən.

Sinələrdə, çırpınarkən,
Analığın saf ürəgi,
Topladılar qucaq-qucaq,
Ətək-ətək, dağ çiçəyi.

Ağ birçəkli, yazıq ana
Döşün sıxdı.
Bir sıxarkən, süd gəlmədi.
İki sıxdı, süd gəlmədi.
Üç sıxanda, qan qarışıq,
Süd fışqırdı.
O südilən, mərhəm edib,
Oğlancığın, yarasını,
Bağladılar, götürdülər.
At üstünə, mindiribən,
Ordusuna, gətirdilər.
Həkimlərə, təbiblərə,
Tapşırıb, gözlədilər,
Kimsə ilə, danışmayıb,
Dirsə xandan, gizlətdilər.

At ayağı külək olur,
Ozan dili, yügrək olur.
Qırx gün başa, çatar-çatmaz,
Oğlancığın, yaraları,
Üzə gəldi, sap-sağ oldu.
Yenə də at, minə bildi.
Yenə qılınc, çala bildi.
Yenə də o, av da avlar,
Quş da-quşlar.
Dirsə xanın, xəbəri yox,
Oğlancığın, ölmüş bilir.

Qırx namərdlər, bunu duydu.
- Nə etməli?
Deyə - onlar, dimdikləşdi:
«Oğlanının sağ olduğun,
Bilər olsa, Dirsə əgər,
Yəqin bilin, əl götürməz,
Hamımızı, qırıb tökər!
Gərək vaxtı, utuzmadan,
Onu tutaq.
Ağ boynuna, qara qəzil,
Sicim taxaq!
Ağ əllərin, daldan çataq,
Yad ellərə, kafərlərə,
Qoyub qaçaq!»
Deyə - onlar, Dirsə xanı,
Basmarlayıb,
Ağ əllərin, daldan çatıb,
Ağ ətindən qan çıxınca,
Dövşələyib,

Ordusunu, yığmalayıb,
Dustaq edib.
Qanlı kafər ellərinə,
Yönəldilər!

Dirsə xanın, bu işindən,
Heç bir kəsin, xəbəri yox,
Ancaq qadın, bunu duyur,
Oğlanını, çağırıban,
Nə söyləyir:
- Oğul-oğul, canım oğul,
Görürmüsən nələr oldu?

Sərt qayalar, oynamadan,
Yer ayrıldı! Elə yağı, soxulmadan,
Baban üstə, yağı gəldi!
Ol qırx namərd, Dirsə xanı,
Yaxalayıb ağ əllərin,
Arxasında, bağladılar,
Ağ boynuna, qara sicim,
Keçirtdilər!
Baban, yayan, onlar atlı,
Yürütdülər!
Götürübən, qanlı kafər,
Ellərinə, yönəldilər!
Yenə demiş:
- Dur ayağa, canım oğlan,
Qırx igidin, boyuva al,
Get babavı, qırx namərdin,
Əllərindən qutar gilən!
Baban sənə, qıydısa da,
Sən babava, qıyma oğul!

İgid oğlan, anasının,
Sözlərini, qəbul etdi,
Qara polad, qılıncına,
Qurşanıban,
Ağ qotazlı, qatı yayın,
Ələ aldı,
Bədöy atın tutduruban,
Bütün mindi,
Qırx igidin atlandırıb,
Baba - deyibən,
Yurtub getdi.

Ol qırx namərd, bir çəməndə,
Edib otraq,
Al şərabın, itisindən,
İçən zaman,
İgid Buğac yetdi, ancaq.

Qırx namərdlər, onu görüb,
Söylədilər:
- «Durun varaq, oğlanı da,
Edək dustaq,
Hər ikisin kafərlərə,
Bir aparaq!»
Dirsə bunu eşidərək:
- Aman, qırx yoldaşım aman!
İlahinin birliginə,
Yoxdur şübhə, yoxdur güman!
Açın mənim, əllərimi,
Qopuzumu, mənə verin,
Qaytarım mən, bu gələni,
Gərək olsa, öldürünüz,
Gərək olsa, saxlayınız,
Sonra məni.

Dirsə xanın əllərini,
Boşlatdılar,
Gətirdilər qopuzunu.
O bilməzdi, bu gələnin,
Oğlancığı, olduğunu.
Asta-asta, qarşı gəldi,
Aldı görək, nə söylədi:
- Boynu uzun, bədöy atlar,
Gedirsə də, mənim gedir.
Bu ılxıda, sənin də gər,
Mindiyin var, degil mənə.
Savaşmadan-vuruşmadan,
Qaytarağım, dalı qayıt!

Ağayıldan, sürü qoyun,
Gedirsə də, mənim gedir.
Bu sürüdə, sənin də gər,
Şişligin var, degil mənə.
Savaşmadan-vuruşmadan,
Qaytarağım, dalı qayıt!

Qatar-qatar, qızıl dəvə,
Gedirsə də, mənim gedir.

Sənin də gər, bu qatarda,
Yüklətin var, degil mənə.
Svaşmadan–vuruşmadan,
Qaytarağım, dalı qayıt!

Qızıl qubba, çadırlarım,
Gedirsə də, mənim gedir.
Arasında, sənin də gər,
Odan vardır, degil mənə.
Savaşmadan-vuruşmadan,
Qaytarağım, dalı qayıt!
Ala gözlü, qız gəlinlər,
Gedirsə də, mənim gedir.
İçlərində, sənin də gər,
Nişanlın var, degil mənə.
Savaşmadan-vuruşmadan,
Qaytarağım, dalı qayıt!

Ağ saqqallı, qocalarım,
Gedirsə də, mənim gedir.
İçlərində, sənin də gər,
Baban varsa, degil mənə.
Savaşmadan-vuruşmadan,
Qaytarağım, dalı qayıt!

Mənim üçün, gəlmişsənsə,
Oğlancığım, öldürmüşəm,
İgid sənə, yazığı yox,
Dalı qayıt!

İgid oğlan atasını,
Dinləyərək,
Cavabında nə söyləmiş,
Baxaq görək:

- Boynu uzun, bədöy atlar,
Sənindirsə,
Qırx namərdə qoymağım yox!
İçlərində, minigim var!
Yağmalanan, sürü qoyun,
Sənindirsə,
Qırx namərdə, qoymağım yox!
İçlərində, şişliyim var!

Qatar-qatar qızıl dəvə,
Sənindirsə,
Qırx namərdə, qoymağım yox!
İçlərində yüklətim var!

Qızıl qubba çadır–otaq,

Sənindirsə,
Qırx namərdə qıymağım yox!
İçlərində odam vardır!

Ala gözlü, qız-gəlinlər,
Sənindirsə,
Qırx namərdə, qoymağım yox!
İçlərində, nişanlım var!

Əsir gedən, ağ saqqallar,
Sənindirsə,
Qırx namərdə, verməyim yox!
İçlərində, mənim də bir,
Ağlı şaşmış, babam vardır!

Deyə - oğlan, qırx yoldaşa,
Dilbənd verdi,
Qırx gənc igit, bədöy ata,
Qamçı vurdu.
Aslan Buğac, qılınc çəkdi,
Savaş etdi, qırx namərdin,
Kimisinin, boynun vurdu.
Kimisini, dustaq tutdu,
Babasını xilas edib,
Geri döndü.
Dirsə xan da, oğlanının,
Sağ olduğun, duyub bildi.

Xanlar xanı, xəbər tapıb,
Buğac xana, bəylik verdi,
Kürsü verdi.
Qorqud Dədə, boy boyladı,
Söy-söylədi.
İnci kimi, dastan düzdü,
Qoşma-qoşdu.
Onlar daxı, bu dünyaya,
Gəlib keçdi.
Karvan kimi, qondu köçdü.
Yer gizlətdi, əcəl aldı,
Qoca dünya, yenə qaldı.
Gedən-getdi, yaxşı-pisdən,
Gələnlərə, bir ad qaldı.

Görüm dostlar, qafil ölüm,
Gələn zaman, mərd igidə,
Keçid versin!

Sağlıq kimi, dövlət olmaz,
Bu dövləti, haqq artırsın!
O, öydüyüm, uca tanrı,
Dost oluban, mədəd versin!

Yümn edəlim,
Yerli qara, dağlarınız,
Yıxılmasın!
Kölgə salan, ağaclarız,
Kəsilməsin!
Daim axan, aydın sular,
Azalmasın-qurumasın!
Uca uçan, tərlanların,
Qanadları, qırılmasın!
At çapanda, atınızın,
Ayaqları, büdrəməsin.
Çarpışanda, qara polad,
Qılıncınız, kütəlməsin!
Dürtüşəndə-çəkişəndə,
Kəndiriniz, ufanmasın!
Ağ birçəkli, anaların,
Axır yeri, behişt olsun!
Ağ saqqallı, babaların,
Son sarayı, cənnət olsun!
Haq yandıran, çirağınız,
Işıqlansın, yanar dursun!
Görüm möhtac, olmayasız,
Namərdlərə, dostlar sizi!

## 3

# Qanlı Qoca Oğlu Qanturalı

*Əzəl gündən qəhrəmanlıq,*
*Mərdanəlik, qoçaqlıq,*
*Vətənimin-ellərimin,*
*Ad-sanıylan, yanaşıdır.*

*Doğrudan da, hər insanlıq,*
*Fəxri olan, səciyyələr,*
*Bu ellərin-obaların,*
*Əkiz-tay bir, qardaşıdır.*

*Dəmir dırnaq, aslan kimi,*
*Başı  uca, anlı açıq,*
*Ömür sürən, ellərimi,*
*Dönə-dönə, alqışlasam.*

*Aydın axan, sulardan da,*
*Zülal olan, ləkə bilməz -*
*Pas götürməz vicdanına,*
*Tərif yazsam, boy-boylasam,*

*Haqlıyam mən, bu, boy deyil,*
*Ayın, günün, ulduzların,*
*Varlıqları, haqdır əgər,*
*Bu da elə, həqiqətdir.*
*Tarixlərin, qana batmış,*
*Varaxların, varaxla bax!*
*Yox! Görüşən, bir kənd üçün,*
*Bələdçilik, həmaqətdi!*

*Atropatdan, Xətaidən,*
*Yağıları-düşmənları,*
*Bezikdirən, Babək kimi,*
*Qəhrəmandan, danışmayaq.*

*Vaqiflərdən, Fizulidən,*
*Nizamitək, mərifətdə,*
*Dünyamıza, işıq salan,*
*Bir insandan, danışmayaq.*

*Dağda–daşda, gün qavurmuş,*
*Simalarda, saflıqların,*
*Yaz şəbnəmi, parıltılı,*
*Işıltısın, baxıb, görək.*

*Açıq-aydın, yaraşıqlı,*
*Alınlarda, igidliyin,*
*Əyri qılınc, şəəşəəli,*
*Parıltısın, baxıb, görək.*

*Anaların, laylasına,*

*Aşıqların–ozanların,*
*Könül açan, dastanına,*
*Nəğməsinə, qulaq asaq,*

*Cürə sazın, pərdəsində,*
*Təsvirlənən, duyğulara,*
*Guruldayan, döhüllərin,*
*Gur səsinə, qulaq asaq.*

*Obalarda, dişi-ərkək,*
*Başda papaq, üzdə örpək,*
*Əldə yaylıq, oynandığı,*
*Oyunlara, bir say salaq.*

*Dildə, dişdə, əzbər olan,*
*Mətəl olan, məsəl olan,*
*Ataların - babaların,*
*Sözlərini, duyub qanaq.*

*Aydan aydın, gündən duru,*
*Kədər bilməz, bu güzgüdə,*
*Bu ellərin, obaların,*
*Nə olduğun, görmək olar.*

*Bu görüşlər, qoçaqlığın,*
*İgidliyin, insanlığın,*
*Ən vaqei, görükməyən,*
*Yaraşığın, yada salar.*

*Bax! Əsrlər, ana-qadın,*
*Bu dünyada, haqsız-haqsız,*
*Bir qul kimi, matah kimi,*
*Al-ver olub, satılmışdır.*

*Kişilərin, əllərində,*
*Dəyərsiz bir, dəsmal kimi,*
*Əl-əl gəzib, ləkələnib,*
*Bir tərəfə atılmışdır.*

*O, cavankən, dilbər ikən,*
*«Qaşı yaydı, üzü aydı»,*
*«Kiprigi ox», «Vəfası yox»,*
*Şair yazar, camalından!*

*Qoca ikən, düşgün ikən,*
*«Reyhanə»di, «Mərcanə»di,*
*«Əcuzə»di, «Möhtalə»di,*
*Bir ad yoxdur, kamalından!*

***Bir çox «ürfan», həzyançısı,***
***«Haqq aşıqı» iddialı,***
***Yalançılar, qadın eşqi***
***«Ürfanıma, uymaz» demiş!***

***Məhəbbətin, «gər bu başı,***
***Gər o başı. deyə - deyə,***
***Muxənnəsi «murad» bilib,***

***Ərkəklərə könül vermiş!*** ***(1)***

*Keçmişləri, varaqla bax.*
*Həmən zaman, elə o vaxt,*
*Bizim yerdə, bizim eldə,*
*Qadınlığa, hörmət varmış.*

*O, da Haqlı, bir insanmış,*
*Qardaş imiş, öz əriylə,*
*Güləşərmiş, vuruşarmış,*
*At minərmiş, ox atarmış,*

*«Boyu uzun, Burla xatın»,*
*«Saçı uzun, Selcan xatın»,*
*«Nigar xanım», «Ərəbzəngi»,*
*«Həcər xanım», «Zeynəb Paşa»,*

*Uzaqlara, neçün gedək,*
*Həmən bu gün, yurdumuzda,*
*Kəlağayısın, yan bağlayan,*
*Mərd analar, başdan-başa.*

*Tarlalarda-zavodlarda,*
*Hər hünərdə, hər yarışda,*
*Işıqlı bir, mayaq kimi,*
*Dünyalara, ışıq salır.*

*Qadınlığın, analığın,*
*Yorqun gözü tutğun bağrı,*
*Ona baxıb, qurtuluşa,*
*Yol axtarır, ilham alır.*

*Canım aşıq, gözüm aşıq,*
*Çal qopuzun, aç dastanın,*
*O sehrkar, comərd əlin,*
*Pərdələrdə, xoş dolansın.*

*Üzü qara, bağrı qara,*
*Cəhalətə, cumub batan,*
*Qadınlığa, böhtan atan,*
*Şarlatanlar, bir utansın!*

*- Cəlaləddin Moləvinin: «Eşq ra gər in sər o gər an sər əst
Xod ke ma ra suye an şəh rəhbər əst» şeirinə işarədir.
«Murad» təriqət istilahında «mürid»lərin iradət bəslədiyi və ona çatmağa, can atdığı «kamil insan» deməkdir.

Aşıq çömçəsini, alır əlinə,
Alnın qırışdırır, qaldırır qıpıq.
Qıyır gözlərini, narın gülüşlər,
Dərilir üzünə, lal bir sərxoşluq.

**Mə’nalı baxışı, nələr andırır,**
**O duyğun gülüşdən, nələr ələnir?**
**Üzündə xalqımın, ruh ülviyyəti,**
**Vuqarı, mənligi, fəxri, güvənir!**
**Əzəldən məni də, coşduran odur.**
**Onu dinləmişəm, fikrə dalmışam,**
**O vurğun könlümün, ilk yavrusudur,**
**Mən ilk ilhamımı, ondan almışam!**

O cadu əllərin, tilisimindən,
Özünü qurtaran, hansıdır-kimdir?
Könül ceyranının, ovçusudur o,
Bir müdhiş fitnədir, bax gör ki indi,

Özü də qərq olur, öz nəğməsində.
Tufanlar qoparır, hər bir pərdədən.
Açır xəyalının, ağ yelkənini,
Yenə də söyləyir, Qorqud Dədədən.

Qədim Oğuz ellərində,
Qanlı Qoca, adında bir,
Adlı-sanlı, kişi varmış.
Bu görklü, ixtiyarın,
Yetişmiş bir, qoç oğlu var,
Qanturalı, çağırarlar.
Qanlı Qoca, bir gün deyir:
-Dostlar mənim, atam öldü,
Yeri yurdu, mənə qaldı.
Yarınkı gün, mən ölərkən,
Yer-yurdumda, oğlum qalar,
Nə yaxşı ki, canım sağkən,
Oğlanımı, evləndirim.

Qanturalı, babasının,
Sözlərini, dinləyərək:
- Baba məni, evləndirmək,
İstəyirsən, mənə layiq,
Qız nə kimi, olduğunu,
Bilirsənmi? Deyə - oğlan,
Artırırı:
–Mən yerimdən, qalxana tək,
Yerdən dura.
Mən qara qoç, bədöy ata,

Minənə tək, atın minə.
Qanlı kafər, ellərinə!
Məndən qabaq, hücum edə,
Qılınc çala, baş gətirə.
Qanlı Qoca:- Oğul, demək,
Sən əyal yox, bir pəhləvan,
İstəyirsən, arxasında,
Yeyib-içib, dolanasan,
Xoş olasan, deyə, gülür.

- Bəli baba, mən elənçi,
İstəyirəm!
Yoxsamı sən, istəyirdin,
Varıb gedib,
Bir ci-ciban, qız alasan,
Nagəhandan, yıxılıban,
Yerə düşsə, bağırsağı,
Düyün düşə?! Deyə –oğlan,
Acıqlanır.

- Gözüm oğul, acıqlanma.
İstədiyin-dilədiyin,
O dilbəri, tapmaq səndən,
Qızıl tökmək, rizq vermək,
Almaq məndən. Deyə - qoca,
Sinə gərdi.
Ərənlərin, görkəmlisi,
Qanturalı, belə görcək,
Atın mindi.
Qırx igidin, atlandırdı.
İç Oğuzu, girib gəzdi,
Bəyənəcək, qız tapmadı.
Qayıdıban, evə gəldi.
Qoca sordu:
- Qız tapdınmı?
Qanturalı:
- Yansın Oğuz ellərini,
Hər nə gəzdim, mənə yarar,
Qız tapmadım, baba, dedi.

Qanlı Qoca:
– Sabah gedib, öylən gəlmək.
Öylən gedib, Axşam üstü,
Gəlmək ilən, qız tapılmaz.
Sən evdə qal, mala yetiş,
Mən gedərəm, gəzişərəm,
Sənin ücün, qız taparam.
Deyə, qalxıb, sevinibən,
Güvənibən, sinə gərdi.

Ağ saqqallı, bir qocanı
Yoldaş edib,
İç Oğuzu, gəzib çıxdı,
Qız tapmadı,
Dış Oğuzu, gəzib çıxdı,
Qız tapmadı,
Tırabuzan, ellərinə,
Gəlib çıxdı,
Tırabuzan, Təkurunun,
Görkəmli, gözəl-göyçək,
Bir qızı vardı, bir cüt yayı,
Həm sağına, həm soluna,
Qoşa çəkər,
Atdığı ox, yerə düşməz!
Bu qız üçün, üç canavar,
Saxlamışlar!

Hansı igid, üc heyvanla,
Pəncələşsə, qalib gəlsə,
Heyvanların, başın kəssə,
Qız onundur, deyə Təkur,
Vədə vermiş,
Kimsə isə, məğlub olsa,
Başın kəsər, burcdan asar!

Beləliklə, otuz iki,
Kafər dinli, bəy oğlunun,
Başı burcdan, asılmışdı!

Üç heyvanın, biri buğa,
Biri buğra, biri isə,
Aslan idi.
Başı burcdan, aslanılan,
Otuz iki, bəy oğlunun,
Heç birisi, aslan ilən,
Nər dəvəni görməmişdi.
Ancaq onlar, buğa kəlin,
Buynuzuna, ilişərək,
Basılmışdı.

Qanlı Qoca, başlar ilən,
Heyvanları, görən zaman,
Başındakı, qara bitlər,
Ayağına süzüb gəldi.

- Daha doğru, çıxaq gedək,
Oğlancığa, xəbər verək.
Hünəri var, gəlib alsın,
Hünəri yox, obadakı,
Qızcığaza, razı qalsın.

At ayağı, külək olur.
Ozan dili, yügrək olur,
Qanlı Qoca,
Dağlar aşdı, çaylar keçdi,
Öz elinə gəlib çıxdı.
Oğlancığa, xəbər gedib,
-«Baban gəldi», söylədilər.
Qanturalı, qırx igidin,
Atlandırıb, qarşı vardı.
Atasının, əlin öpdü,
- Canım baba, mənə layiq,
Qız tapdınmı? –Deyə, sordu.
-Tapdım oğul, ancaq işdə,
Hünər gərək, deyə qoca,
Cavab verdi.
-Altun-axca, qəflə-qatır,
İstər baba?
-Dedim oğul, hünər istər,
Hünər gərək.
- Canım baba, gözüm baba,
Qara yallı, qazılıq atı,
Minnəm indi.
Qanlı kafər, ellərinə,
At salaram.
Baş kəsərəm, qan tökərəm,
Azğın dinli, kafərlərə!
Qan qusdurram!
Axça-altun, qul-qaravaş,
Gətirərəm.
Hünərimi, göstərərəm!

- Canım oğul, gözüm oğul,
Dediklərin, hünər deyil,
Bu sevdada, başqa cürə,
Hünər gərək.
O, qız üçün, üç canavar,
Saxlamışlar.
Üç heyvanı, kimsə bassa,
Qızı ona, verəcəklər.
Basanmazsa, məğlub olsa,
Başın kəsib, burc üstündən,
Asacaqlar!
-Gözüm baba, mənə gərək,
Bu sözü sən, deməyeydin.
Gedəm gərək, çünkü dedin,
Getməz olsam, yarınkı gün,
Bu söz mənə, qaxınc olar,

Toxunc olar!
Canım baba, qadın ana,
Əsən qalın!

-Görürsənmi, öz–özümə,
Nə eylədim?
Oğlancığı, qorxudsanam,
Bəlkə qorxub, getməz ola.
Deyə, qoca, düşünərək,
Söy söyləmiş:

Sən gedən yerlərin, sultanım oğul,
Dolamac-dolamac, cadası olur.
Üzərində uçan, quş qanad salmaz,
Göylərə qovuşan, qalası olur.

Palçığına, atlı batsa çıxanmaz,
Ormanların, ala ilan sökənməz.
Boz aslanlar, sularından, içənməz,
Göllərdə yaşıl baş, sonası olur.

Görklüsü, könülləri, aldadı,
Nəğmələri, dağı-daşı, oynadı.
Hay demədən, baş gətirər, cəlladı
Papağı məndilli, babası olur.

Canım oğul, atgilən bu sevdanı,
Bozlatma gəl, ağ saqqallı babanı.
Ağlar qoyma, bir qarıcıq ananı,
Mərd igidin işdə, vəfası olur.

-Canım baba, nə deyirsən sən mənə,
Bu işlərdən çəkinən igid olmaz.
Alp igidə, qorxu vermək eyb olur.
Mərd atalar, evladını qorxutmaz.

Qadir qoysa, o dolamac yolları,
Bir çarpışda, yürüb, yürtüb keçərəm.
Atlı batıb çıxmaz, palçıqlarına,
Mövlam mədəd versə, qumlar tökərəm,

Ala ilan, sökməz, ormanlarına,
Çaxmaq çalıb, ildırım tək şaxaram.
Göylə pəhlu vuran, qalalarını,
Viran edib, od vuruban yaxaram.

Ya aslanın, dırnağında didilləm,
Ya taxıllam, buynuzuna, buğanın,
Ya dəvənin, köksü altda əzilləm,
Ya öpərəm, görklünün buxağın.

Ya gedəm hey-getməyəm hey,
Ya gələm hey gəlməyəm hey.
Daha birdə, görüşüncə,
Gözüm baba, qadın ana,
Əsən qalın!

Gördülər ki, bu təklifdən,
Geri dönmək, qoç oğlanın,
Namusuna, yenilməzdir.
Uğur verib, söylədilər:
- Uğurların, açıq olsun,
Əsən gedib, sağ gələsən,
Aslan oğul.

Qanturalı!
Atasının-anasının,
Əlin öpdü.
Qırx igidin, atlandırdı,
Yola düşdü.
Yeddi gecə-yeddi gündüz,
Yol sürdülər.
Yürtüb kafər sərhəddinə,
Yetişdilər.
Çadır tikib, əyləndilər.

Qanturalı,
Yügrək atın, oynadıban,
Əmudunu, atır-tutur:
- Hey! Qırx eşim, qırx yoldaşım!
Yügrək olsam, yarışsam hey!
Güclü olsam, güləşsəm hey!
Qadir mövlam, mədəd versə,
Üç heyvanla, dirəşsəm hey!
Gözəllərin, sərkərdəsi,
Sarı donlu, qızı alıb,
Atam-anam, obasına,
Qayıtsam hey!
Hey! Qırx eşim-qırx yoldaşım,
Qırxınıza, qurban olsun,
Mənim başım!

Qanturalı, bu sözdəkən,
Təkur şaha, xəbər getdi.
- Qanlı Oğuz ellərindən,
Qanturalı, deyirlər bir,
İgid varmış, qız diləyib,
Gəlir deyə –söylədilər.

Şah Təkurun atlıları,
Yeddi ağac, qarşı gəldi.
-İgid, bura, nəyə gəldin?
Degil bizə!
-Verişməyə, alışmağa,
Gəldim, deyə –Qanturalı,
Cavab verdi.

İzzət edib, hörmət edib,
Ağ çadırlar, tikdirdilər,
Ala xalı, döşədilər,
Ağca qoyun, qırdırdılar,
Yeddi illik al şərabdan,
İçdirdilər.
Götürübən, Təkur şahın,
Ordusuna, gətirdilər.

Böyük, salam meydanında,
Təkur, təxtin üzərində,
Oturmuşdu,
Üç yüz kafər, silahlanıb,
Alay qurub, xidmətində,
Durmuşdular.
Təkur qızı, bu meydanın,
Bir yanında, uca bir köşk,
Tikdirmişdi.
Bayramlarda, çıxışlarda,
Qırx incə qız, dövrəsində,
Köşkə çıxar, təfərrucə,
Məşğul olar.
Yenə də o, bir elçinin,
Gəldiyindən, xəbər olub,
Qırx qızlara, al geydirib,
Özü isə sarı geyib,
Köşkə gəldi.

Qanturalı, gəlib çıxdı,
Qara şapqa, Şah Təkura,
Salam verdi.
Kafər Təkur, salam aldı,
Ala xali, döşədilər,
Yerə otdu.
- İgid, bura, hardan gəldin?
Deyə, Təkur, sual verdi.

Qanturalı, yerdən durdu,
Ədəbilən, başın açdı,
Ağ biləyin, sığalladı.

-Qarşı yatan, Qara Dağın,
Aşmaq deyə, gəlmişəm mən.
Axıntılı, sularından,
Keçmək deyə, gəlmişəm mən.
Ətəyinə, qoltuğuna,
Sığınmağa, gəlmişəm mən.
Haqq tanrının buyuruğu,
Peyqəmbərin, dediyilə,
Qız almağa, gəlmişəm mən.

- Bu igid də, hünər olsa,
Sözüm yoxdur deyə –Təkur,
Qəbul etdi.

Yasavullar, qoç oğlanı,
Soyundurdu.
O bir taqə,
Altun arqac, kətan bezin,
Gövdəsinə, sarıtdadı,
Meydan açdı.
Qanturalı,
Sahib cəmal, sahib kəmal,
Görsətmə bir igid idi.
Oğuzların, dörd igidi,
Niqabılan, dolanardı:
Qanturalı, Boz ayğırlı
Beyrək xan, Qara Çəkür,
Birisi də, onun oğlu
Xan Qırqqınıq.

Qanturalı, niqabını,
Götürərkən, qız baxırdı.
Ay cəmallı, aslan üzlü,
Mərd igidə, gözü düşcək,
Daraxlığı, boşa getdi,
Dabbağ olmuş dana kimi,
Cüycüsündən, su töküldü.
Başındakı, qırx yoldaşa,
Baxıb dedi:
-Tanrı təala, şah babamın,
Ürəyinə, rəhm sala,
Kəbin kəsib, bu oğlana,
Verə məni.
Hayıfdır ki, bu cür oğlan,
Heyvanların, dırnağında,
Həlak ola!
Selcan xatın, bu sözdəkən,
Yeddi dəmir, zəncir ilən,

Zəncirlənmiş, buğa kəli,
Gətirdilər.
Buğa gəlib, dizə çökdü,
Meydandakı, mərmər daşa,
Buynuz vurdu, pənir kimi,
Didib tökdü.

Hamı baxıb, söyləşdilər:
- Ənqəribdi ki, igidi,
Atar, yıxar.
Yaxılsın Oğuz elləri,
Qırx igidlən, bir bəy oğlu,
Bir qız üçün, ölmək nədir?!
Qoç oğlanın, qırx igidi,
Bunu duyub, ağlaşdılar.

Qanturalı, sağa baxdı,
Sola baxdı, igitlərin,
Ağlar gördü, bir hay verdi,
Nə söylədi:
- Hey qırx eşim, qırx yoldaşım.
Nə olub ki, ağlayırsız?
Qopuzumu mənə verin,
Məni öyün!

Qanturalı, qopuz çalır,
Qırx igidi, onu öyür,
Görək dostlar, necə öyür:
-Hey sultanım, Qanturalı!
Qalxıbanı, sən yerindən,
Durmadınmı?
Qara yallı, qazılıq ata,
Minmədinmi?
Köksü gözəl, Qaba dağı,
Ovlayıban, yenmədinmi?
Obadakı, inək sağan,
Qaravaşı, görmədinmi?
Buğa-buğa, dedikləri,
O inəyin, bizovası,
Deyildimi?
Alp ərənlər, qırımından,
Qırarmı?
Qoç igidlər, bir bizovdan,
Qorxarmı?
Sarı donlu, Selcan xatın,
Köşkdən baxar!
Kimə baxsa, baxışılan,
Oda yaxar!

Qanturalı, Sarı donlu,

Qız eşqinə, bir hu dedi.
- Mərə kafər, buğanızı,
Buraxınız, gəlsin! –Dedi.

Əsrək kəlin, zəncirlərin,
Götürdülər.
Dəli buğa, buynuzların,
Almas uclu, cida kimi,
Şüşlədərək, nər oğlanın,
Üzərinə, hücum etdi.
Qanturalı, adı gözəl,
Məhəmmədi, çağırıban,
Bir yumuruq, qızğın kəlin,
Qaşqasına, ilişdirdi,
Əsrək buğa, dalı üstə,
Yerə çökdü, qalxar-qalxmaz,
Dürtməsini, kəlləsinə,
Dayayaraq, zorun saldı.
Buğa kəli, basa-basa,
Gen meydanın, o başına,
Gedib çıxdı.

Qızğın buğa, igid oğlan,
Bir çox zaman, çalışdılar.
Yavaş-yavaş, dəli heyvan,
Yorqunladı, qara ağzı,
Köpükləndi.
Qanturalı: - «Alp ərənlər
Bu dünyanı, ağıl ilən,
Bilmişdilər, yaxşıdır ki,
Heyvancığın, qarşısından,
Sıçrayıb, arxasından,
Bir iş edəm». Deyə, duyub,
Adı gözəl, Məhəmmədə,
Təkbir deyib, sıçradı.
Buğa, tovun, saxlamadan,
Başı üstə, yerə dəydi.
İgid oğlan, dildən düşmüş,
Hərifini, quyruqladı,
Dolandırıb, yerə çaldı.
Boğazladı, başın kəsdi.
Dərisini, qazıb soydu.
Təkur şaha, qarşı vardı.
- Qızı mənə, verərsənmi?
Deyə, durdu.

- Mərə qızı, ona verib,
Sürün getsin!
Deyə Təkur, hökm edərkən,
Qardaşının, oğlu dedi:

-Heyvanların padışahı,
Boz aslandır, onunla da,
Oyun versin, sonra verək.
Aslanı da, gətirdilər.

Aslan gəlib, quruldandı.
Meydandakı, bütün atlar,
Qan kişnədi.
Nər oğlanın, igidləri,
Ağlayıban, söylədilər:
-Buğa kəldən, qurtardısa,
Boz aslandan, qurtararmı?
Qanturalı, igidlərin ağlar görüb,
-Mərə dostlar, qopuzumu,
Ələ alıb, öyün məni,
Sarı donlu, qız eşqində,
Bir aslandan, qorxmaq olmaz!
Yoldaşları, onu öyür,
Görək dostlar, necə öyür:

-Hey sultanım, Qanturalı,
Daylar basan, ərlər kəsən,
Qara polad, qılıncdan,
Qayıtmayan.
Alp ərənlər, savaş günü,
Qırımından, qayıdarmı?
Ağca tozlu, qatı yaydan,
Dərsinməyən,
Ağ lələkli, ötgün oxdan,
Qayğımayan,
Mərd igidin, iradəsin,
Bir canavar, sarsıdarmı?

Dəmir dırnaq, qaplanların,
Boynun buran,
Canavarlar, sərkərdəsi,
Aslan boğan,
Ala başlı, köpək itə,
Kündəsini, qapdırarmı?
Sarı donlu, Selcan xatın,
Köşkdən baxar!
Kimə baxsa, eşq oduna,
Salıb yaxar!

Qanturalı, Sarı donlu,
Qız eşqinə, bir hu dedi.
- Mərə kafər, aslanıvı,
Burax gəlsin!
Qara polad, uz qılıncım,
Əlimdə yox, qıvrışmadan,

İki biçim.
Ətəginə, sığınmışam,
Comərdlərin, mədədkarı,
Qəni tanrı, mədəd! -Dedi.
Boz aslana, hay verdilər.
Süzdü, gəldi,
Qanturalı, adı gözəl,
Məhəmmədə, təkbir deyib,
Köynəgini, biləyinə,
Sarıtdadı, aslancığın,
Pəncəsinə, qarşı verdi.
Çənəsindən, bir yumuruq,
İlişdirdi.
Yumuruğun, zərbəsindən,
Qoğan aslan, gicəlləndi.
İgid oğlan, məcal tapıb,
Biləgini, çəkib üzdü.
Götürübən, yerə çaldı.
Aslancığın, qaba ləşi,
Meydan içrə, düşüb qaldı.

Qanturalı :- Mərə Təkur,
Qızı mənə, vergil dedi!

- Bu oğlanı, gözüm gördü,
Könlüm sevdi!
Gərək dursun, gərək qalsın!
Qızı ona, verin getsin!
Deyə Təkur, hökm edərkən,
Qardaşının oğlu dedi:
-Heyvanların, sərkərdəsi,
Buğra nərdir, onunla da,
Oyun etsə, qızı verərik.

Çün inayət, haqdan idi,
Bəy-paşalar, qoç oğlana,
Hami durdu,
Təkur dedi:
-Nərin ağzın, yeddi yerdən,
Bağlayınız!

Həsud kafər, bağlamadı!
Dəhnələrin, yüvənlərin,
Açdı atdı!
Qanturalı, sərxoş-sərxoş,
Buğranın, sağ-solundan,
Qoltuğundan, fırlar çıxar.
Lakin iki, canavarı,
Basıb salmaq, mərd igidi,
Yorqunlatmış.

İşdə bir az, yavalanmış.
O, tövşünü, almaq üçün,
Dayanarkən,
Altı cəllad, yalın qılınc,
Başı üstə, hazır oldu.

Yoldaşları, bunu görüb,
Söy-söyləmiş.
Görək dostlar, nə söyləmiş:
-Qalxıbanı, öz yerindən,
Uru durdun,
Qara yallı qazılıq atı,
Bütün mindin.
Ala gözlü, igidlərin,
Atlandırdın,
İri düymə! Qaba dağı,
Dünən aşdın.
Axıntılı, daşğın suyu,
Dünən keçdin.
Qanlı kafər, sərhəddini,
Basıb keçdin.
Kafərlərin, buğasını,
Xurd-xaş, etdin.
Qoğan aslan, gəldiyində,
Belin bükdün.
Qara nərə, yetişəndə,
Nə gecikdin?
Qarşı yatan, bu dağlardan,
Xəbər keçə.
Daşğın axan, bu sulardan,
Ötüb keçə.
Böyük Oğuz ellərinə,
Xəbər çata.
Qanturalı, nə eyləmiş;
Söyləyərlər.
Qara buğa, yügürdükdə,
Başın kəsmiş.
Qoğan aslan, daşlandıqda,
Belin bükmüş,
Qara buğra gəldiyində, dildən düşmüş.
«Söyləyərlər»!
Böyük-kiçik, bunu deyib,
Danışalar.
Qarı qoca, bunu deyib,
Danışalar.
Ağ saqqallı, qoca baban,
Bükük qala.
Ağ birçəkli, qarı anan,
Başa çala.
Qalxıbanı, öz yerindən,

Durmaz olsan.
Altı cəllad, başın üstə,
Qılınc tutar!
Qafilcədən, o görklü,
Başın kəsər!
Aşağıdan, yuxarıya,
Baxmazmısan?
Qənşərinə, ala gözlü,
Kəhlik gəldi, igid nədən.
Tərlanını, atmazmısan?
Sarı donlu, Selcan xatın!
Qaş göz eylər,
İgid nədən, işarətin,
Görməzmisən?
Söylər: «Dəvə, dodağından,
Zəbun olar»,
Nədən yarın dediyini,
Duymazmısan?

Qanturalı, uru durdu,
Sarı donlu, qız eşqinə,
Bir hu dedi!
- Mərə kafər, bu buğranın,
Dodağından, tutar olsam,
«Qız sözüylə, qara nəri,
Zəbun etdi», söyləyərlər.
Yarınkı gün, böyük Oğuz,
Ellərinə, xəbər çata,
Bir dəvənin, qarşısında,
Qalmış idi, qız qutardı»,
Söyləyərlər! -Deyə, duyub:
- Mərə dostlar, qopuz çalıb,
Öyün məni!
O qüdrətli, yaradana,
Sığınmışam!
Yar yolunda, bir buğradan,
Qaçmaq olmaz!
Haydı onun, başını da,
Kəsəm -dedi.
Qırx igidi, onu öyüb,
Söy-söyləmiş,
Görək dostlar, nə söyləmiş:
- Qaf qayalar, başında, yuva salan,
Qadir-ulu tanrıya, yaxın olan,
Arı göldən, şığıyıb ördək alan.
Cümlə quşlar, sultanı çal qaraquş,
Saxsağana, özünü şığadarmı?

Dov günündə, bak etməyən, yağıdan,
Hay verəndə, alayları dağıdan,

Qızıl qandan, daşğın sellər axıdan,
Alp igitlər, cilasınlar, ərənlər,
Bir tülküyə özünü daladarmı?

Sarı donlu, Selcan xatın,
Köşkdən baxar!
Kimə baxsa, baxışılan,
Oda yaxar!
Qanturalı, Sarı donlu,
Qız eşqinə, bir hu dedi!
Adı gözəl, Məhəmmədi,
Çağırıban, dəvəyə bir,
Dürtmə vurdu, zərbəsindən,
Nər bağırdı!
Bir də vurdu, dəvə daxı,
Ayaq üstə, duranmayıb,
Şumlamış bir, qala kimi,
Yerə dəydi!
İgid oğlan, əsrək nəri,
Boğazladı, gövdəsindən,
İki zol gön, çıxarıban,
Təkur şahın, qənşərində,
Yerə vurdu.
-Atlıların, tərkəş bağı,
Üzəngisi, qırılarsa,
Tikmək üçün, kara gələr!
Deyə, güldü.

Təkur dedi:
-Vallah bunu, gözüm gördü,
Könlüm sevdi.
Qırx bir yerdə, qızıl, ala,
Gərdək tikdi,
Qızı alıb, kəl oğlanın,
Gərdəyinə, gətirdilər.
Ozan gəlib, söy-söylədi,
Şadlıq çaldı.
Qoçaq, Oğuz igidinin,
Ömrü-günü, çiçək açdı,
El-gününü yada saldı.
Qılıncını, çıxarıban,
Yerə çaldı:
-Qara yer tək, kərtliyəlim!
Torpaq kimi, sovrulayım!
Qılıncıma, doğranayım!
Peykanıma, sancılayım!
Oğlum-qızım, doğulmasın!
Doğulursa, on gününə,
Yetişməsin!
Qadın ana, bəy babamla,

Görüşmədən, bu gərdəyə,
Girər olsam!

Çadırların, yatıtdırdı,
Dəvələrin, bozlatdırdı,
Qara qoçun, kişnətdirdi,
Köçün çatdı, yola düşdü.

Yeddi gecə, yeddi gündüz,
Yol yolladı, yürtüb Oğuz,
Sərhəddinə, gəlib çatdı,
Çadır tikdi.
- Hey qırx eşim, qırx yoldaşım!
Qırxınıza, qurban olsun,
Mənim başım!
Qadir tanrı, mədəd verdi,
Varıb getdim. Üç heyvanın,
Başın kəsdim.
Sarı donlu, dilbər qızı,
Alıb gəldim.
Bəy babama, xəbər verin,
Qoç oğluna, qarşı gəlsin!

İki sevgi, baxıb gördü,
Qonduqları, bu dağ-təpə,
Durnaların, sonaların,
Kəhliklərin, uçağıdır.
Ceyranların, ahuların,
Keyiklərin, oynağıdır.
Hər tərəfi, çay çəməndi,
Sular axır, qəltan-qəltan.
Şaqqıldayıb, tökülürü,
Şor şoralar, qaba dağdan.

Yaşıl Təbriz, xalçasından,
Döşənmişdir, sanki hər yan.
Qüdrət əli, qaşlamışdır,
Çiçəkləri, birilyandan.

Yaşıl kollar, bir qız kimi,
Əldə tutub, al piyalə.
Yel əsdikcə, gizli-gizli,
Pıçıldaşır, dağda lalə.

Çadır qurub, əyləndilər,
Yiyib içib, dincəldilər.

O zamanlar, hər bir Oğuz,
İgidinə, hər nə qəza,
Yetişərsə, yuxlamaqdan,
Yetişərdi.
Qanturalı, al şərabın,
Neşəsindən, mürgüləyib,
Gözlərini, yuxu aldı,
Uyub qaldı!

- «Məni görüb, sevən çoxdu,
Olmaya ki,
Nagəhandan, basğın edib,
İgidimi, öldürübən,
Ağca üzlü, mən gəlini,
Atam-anam, sarayına,
Qaytaralar»,
Deyə, Selcan, düşünərək,
İgidinin,
Atın tutdu, yəhərlədi,
Özü isə, silahlandı,
Süngüsünü, ələ aldı,
Bir təpənin, üstə çıxıb,
Keşik verdi.

Məgər dostlar, kafər Təkur,
Peşman oldu!
- Bu nə işdi, üç canavar,
Öldürməklə, qızcığazı,
Alıb getdi?
Altıca yuz, qara donlu,
Göy dəmirli, kafər seçdi,
Yola saldı.
Qız, gədikdə, gözətlərkən,
Gördü birdən, toz ucaldı.
Bədöy atın, başın saldı,
İgidininin, başı üstə,
Çapar yetdi. İgidini,
Ayıldarkən,
Söy-söyləmiş, görək xanım,
Nə söyləmiş:

- Ala qıyma, gözlərini, bir aç gilən,
Canım igid, qafil-qafil, nə yatmısan?
Mərd qolların, qarqısından, çatılmadan,
Aç gözüvü, qafil igid, nə yatmısan?

Qaba döşün, oxlanıban, sökülmədən,
Alca qanın, yer üzünə, tökülmədən.
Ağca alnın, qara yerə, sürtülmədən,
Aç gözüvi, qafil igid, nə yatmısan?

Boz bulutlar, kişnəmədən, sel atlandı.
Qaf qayalar, oynamadan, yer ayrıldı.
Ulu bəylər, ölmədikdən, el boşaldı.
Aç gözüvi, qafil igid, nə yatmısan?!

Ayıl igid, düşmən gəldi, yağı yetdi.
Qarcışıban, uğraşıban, gəlib çatdı,
Aslanıban, üzərivə hücum etdi,
Aç gözüvi, qafil igid, nə yatmısan?

Külək kimi, bu dağları, aşdın gəldin.
Tərlan kimi, havalardan, uçdun gəldin.
Yatmaq üçün, yermi buldun,
Yurtmu buldun?
Aç gözüvi, qafil igid, nə yatmısan?

Qanturalı, səmirləndi,
Gözün açdı, uru durdu,
- Nə söylərsən, nə deyirsən,
Ay görklüm? -Deyə, sordu.
-Qoç igidim, üzərivə,
Yağı gəlmiş!
Qanturalı, gözün açdı,
Görəklüsün, at üstündə,
Silahlanmış, əldə süngü,
Hazır gördü.
Yeri öpdü, hey «Amena və sədəqna»!
Ulu tanrı! Dərgahında,
Diləklərim, hasil oldu,
Deyə, igid, şükür qıldı.
Arı sudan, abdəst aldı,
Ağca alnın, yerə qoydu,
İki rəkət, namaz qıldı.
Atın mindi, adı gözəl,
Məhəmmədə, təkbir dedi,
Cilov tökmə, qara donlu,
Kafərlərə, qarşı vardı.

Selcan xatın, at oynatdı,
İgidindən, qabaq keçdi,
Qanturalı:
-Qoç görklü, evi qoyub,
Hara belə? -Deyə sordu.
-Bəy igidim, baş sağ olsa,
Gələn kafər, çox kafərdir,

Savaşarıq, döyüşərik,
Ölənimiz, olsa ölsün,
Diri qalan, evə gəlsin!
Deyə, xatın atın saldı,
Qılınc çəkdi, qırım basdı,
Qaçanları, izləmədi,
Aman çəkib, yalvaranı,
Öldürmədi.
Yağı qaçdı, igid gəlin,
Elə sandı, düşmən sındı.
Üstü qanlı, qılınc qanlı,
Evə gəldi.
İgidini, görməz oldu.

Qız igidi, axtararkən,
Qayın anası, qayın atası,
Çıxa gəldi!
Gördülər ki, mərd gəlinin,
Üstü qanlı, oğlan yoxdur,
Xəbər tutub, soruşdular,
Görək necə, soruşdular:

- İgid qızım, igid anam,
Ala danda, durub gəldin,
Mərd oğlanı, tutdurdunmu?
Qafilcədən, o görklü,
Mərd başını, kəsdirdinmi?
Ana, deyə, baba, deyə,
Ağladıban, bozlatdınmı?
- Tək gəlirsən, bir bəbəyim,
Görünməz dir. Bağrım yanar,
Ağız-dildən, bir qaç kəlmə,
Xəbər mənə.
Qara başım, qurban olsun,
Gəlin sənə.

Qız onların,
Qayın atası-qayən anası,
Olduğunu, duyub bildi.
Qamçısıylan, bir təpəni,
Nişan verib:
- Ora varın, hankı yerdə,
Toz gördünüz,
Yoxsa, qarqa-quzğun gördüz,
Oradadır, –deyə özü,
Atın çapdı, ucalardan,
Alçaqlara, nəzər saldı,
Baxıb gördü, bir dərədə,
Tozanaq var.
Gah dərilir, gah dağılır,

Çapıb yetdi, igidinın,
Bədöy atın, ölmüş gördü,
Özününsə,
Gözü üstü, yaralanmış,
Axar qanın, silə-silə,
Özü yayan, kafər atlı,
Qılınc çalır.
Yağıları, töküb salır.
İçi yandı, acıqlandı!
Qara quşun, bir bölük qaz,
Sırasına, düşdüyü tək,
Yağıların, bir ucundan,
Qıra-qıra, obaşına,
Gedib çıxdı.

Qanturalı, baxıb gördü,
Bir kimsə, yağısını,
Qabağına, qatıb qovur!
Bu igidin, Selcan xatın,
Olduğunu, duyanmadı.
Çağırıban, nə söylədi:
- Qalxıbanı, öz yerindən,
Duran igid, nə igidsən?
Qafil-qafil, başlar kəsən,
Dəstursuzca, yağı basan,
Söylə igid, nə igidsən?
Dəstursuzca, yağı basmaq,
Bizim eldə, ayıb olur,
Söylə igid, nə igidsən?!
Yenə demiş.
-Mərə igid, terlan olub,
Havalara, uçasan da,
Qəvvas olub, ümmanlardan,
Dəryalardan, keçəsən də,
Saqqallayıb, boğazıvı,
Biçər ollam!
Alca qanın, yer üzünə,
Tökər ollam!
Mərə, qada tutmuş igid,
Nə igidsən?!
Qayıdıban, dön gəl bəri,
İgid! -Dedi.

Selcan xatın, dinləyərək,
Mərd igidi,
Görək dostlar, cavabında,
Nələr dedi?
- Hey igidim, bəy igidim!
Qəltəbanda, qızıl dəvə,
Köşşəkindən, dönərmi gör?

Qara qoçlu, qazılıq atlar,
Qulanından, dönərmi gör?
Ağayılda. ağca qoyun,
Quzusunu, basarmı gör!
Alp ərənlər-mərd igidlər,
Sevgisinə, qıyarmı gör?
Qoç igidim, bəy igidim,
Bu yağının, bir ayağı,
Sənin olsa, bir ayağı,
Mənimkidir.

Qanturalı,
Yağı basan, düşmən kəsən,
Bu igidin,
Görklüsü, olduğunu,
Duyub bildi.
Bir yandan da, özü girdi.
Bir cüt aslan,
Qılınc çaldı, kafər qırdı.
Yağı qaçdı, düşmən sındı.
Selcan xatın,
Atı ölmüş igidini,
At ardına, mindirərək,
Yola düşdü.
- Qanturalı, öz-özünə,
Düşünərək, fikrə daldı:
- «Qalxıbanı, Selcan xatın,
Durduğunda,
Qara yallı, qazılıq atın,
Mindiyində,
Ər tərkində, bəy babamın,
Obasına, girdiyində,
Bizim elin, ala gözlü,
Qız gəlini, bunu görüb,
Bildiyində,
Mərd igidlər, öyünəndə,
Əcəb sən də, öyünərsən?
Zəbun oldun, Qanturalı!
Söyləyərsən, görklümün,
At ardında, gəlib çıxdım?!
Zəbun oldun, Qanturalı!
Könlüm getdi, üzüm döndü,
Öldürəyim, bunu dedi!

Selcan xatın, igidinin,
Fikrin duyub, söy–söyləmiş,
Görək dostlar, nə söyləmiş:

-Qoç igidim! Bəy igidim!
Bozlamaqla, dişi dəvə, nər olmaz!

Öyünməklə, ovrət dönüb, ər olmaz!
Öyünərsə, ər öyünsün aslandı!
Öyünməklik, ovrətlərə böhtandı!

Dodaq altdan, qaş eyləyib sevişdim.
Dadlı-dadlı, damax verib soruşdum.
Bir yasdığa, baş qoyuban, əmişdim.
Qoç igidim, nə tez üzün dolandı?!

Dağ başına, arı yağan qaram mən!
Dost bağında, bir yetişmiş baram mən!
Qadir bilir, igid, sənə yaram mən!
Bəy igidim, nədən könlün bulandı?!

Qavat oğlu, qavat! Nədən,
Tez vuruldun, tez usandın?
Bir munisəm, yaram sənə,
Qoç igidim, qıyma mənə!

- Yox! Əlbəttə, öldürəyim,
Deyib durdu, Qanturalı!
Selcan xatın, alıb dedi:
-« Mərə qavat oğlu qavat!»
Mən aşağı, qulpdan tutdum,
Sən yuxarı, qulpa vardın!
Qavat oğlu! Gəl vuruşaq!
Oxlanmı, qılınclanmı,
Vuruşursan?
Atın çapdı, bir təpənin,
Üstə çıxdı.
Sadağından, doxsan oxun,
Yerə tökdü!
Təkcə iki, ox saxladı.
Peykanların, qazıb atdı.
Dəmirli ox, atmaqlığa,
Qıymayıban, at oxuvu,
İgit! -Dedi.
Qanturalı:- Qadınların,
Yolu başdır, sən at! -Dedi.

Selcan xatın, oxlarının,
Birin atdı.
Zərbəsindən mərd igidin,
Başındakı qara bitlər,
Ayağına, varıb yendi!
Sonra qaçıb, görklüsün,
Qucaqladı!
Barışdılar, sorüşdular!
Qanturalı, söy–söyləmiş,
Görək dostlar, nə söyləmiş:

- Arılıqdan, yalap-yalap,
Yalaplanan, incə donlum!
Yeni yağmış, qar üzünə,
Qan damlamış al yanaqlım!
Qələmçilər, qələm çalıb,
Rəsm etdiyi, qara qaşlım!
Qoşa badam, sığınmayan,
Püstə dodaq, dar ağızlım!
Yaraşıqlı, dal gərdəndə,
Qırx tutamda, uzun saçlım!
Bu sözlərlə, bu işlərlə,
Ay qız səni, sınardım mən.
Bax gör sən tək, görklümü,
Öldürməyə, qıyardım mən?

İgidinin, cavabında,
Alıb Xatın, nə söylədi!
- Qalxıbanı, öz yerimdən,
Durar idim.
Qara yallı, qazılıq atım,
Minər idim.
Şah babamın, obasından,
Çıxar idim.
Ceyranları-keyikləri,
Qovar idim,
Dartışsaydım, bir oxılan,
Neylər idim?
Dəmirsizcə, bir oxılan,
İgid səni, sınardım mən!
Bax gör səni, öldürməyə,
Şah igidim, qıyardım mən?

Irağından, küsü tutub,
Yaxınından, gülüşdülər!
Gizli-gizli, yaxa tutub,
Aydın-aşkar, iyləşdilər!
Dadlı-dadlı, damax verib,
Duzlu-duzlu, əmişdilər!
Qara yallı, ağ-boz atı,
Qamçılayıb, yügürüşdülər,
Üz çevirib, bəy babanın,
Obasına, irişdilər.

Qanlı qoca, oğlun gördü,
Şükür qıldı.
Gəlini ilə, oğlu ilə,
Yurda gəldi.
Gül–çiçəkli, göy çəməndə,

Çadır qurdu.
At öldürdü, dəvə kəsdi,
Buğur-ayğır, qoç qırdı,
Aslan qızla, qoç igidin,
Toyun tutdu.
Bütün Oğuz, bəylərini,
Ağırladı.
Altunlıca, günlügünü,
Uca tikdi.
Aslan qızla, mərd oğlana,
Gərdək etdi.
Onlar daha, muradına,
Məqsuduna, çatar oldu.
Dədəm Qorqud, şadlıq çaldı,
Söy-söylədi, boy-boyladı.

***İndi hanı, dediyim bəy ərənlər?***
***Hara getdi, dünya mənim deyənlər?***

*Mənim də əlimdən bu gəlir ancaq,*
*Səni keçmişinlə eləyəm tanış.*
*Baş uca yaşamaq istəsən əgər,*
*Bax gör babaların necə yaşarmış.*

# Dədəmin Kitabı

## Bulud Qəraçorlu Səhənd

**Çoban Həsən!**

*Sən ilə yalnız bir görüş görüşə bildim. Çağırdığım qəhrəmanın tipik səciyyələrini, canlı və zamanımıza uyğun şəkildə, ancaq sənin igit simanda, oturub duruşunda və danışığında tapdığım üçün, bu poemanı sənə təqdim edirəm.*

*Artıq, "qaranlıq"dan söz açsam, məni qınama, demişlər:*
*"Aşıq gördüyün söylər!"*

# 4
# Qaracıq Çoban

## (Qazan Xanın Evinin Yağmalanması)

***Başlanış***

*Gecədir, aləmə çöküb qaranlıq,*
*Üfüqlər tapdanıb yerə yamanıb.*
*Hər yan, qu vurursan qulaq tutulur*
*Fikir də, duyğu da, donub dayanıb.*

*Ay küsüb üz qoyub zöhrəyə sarı,*
*Günəş yolub töküb zəri saçların.*
*Zülmət bayraq açıb yeyin üzündə,*
*Dəyişib aləmin qayda – qərarın.*

*Bir çaqqal da hürmür, qurd da ulamır,*
*Bayquşlar da başın çəkib qınına.*
*Ölüm qanad gərib yerin üzünə,*
*Hər şey şübhələnir var olduğuna.*

*Köşəni bürüyən süküt əlindən,*
*Süküt cana doyur, fəryada gəlir.*
*Darıxıb hövkürüb haray çəkirəm,*
*Dərələr diskinir, dağlar tərpənir:*

*- Ulduzlu göylərə – aylı göylərə,*
*Quzğun kimi qanad gərən bulutlar!*
*Dumanlar içindən, çənlər içindən,*
*Canıxmış bir insan sizi haraylar.*

*Əhrəmənlər, duzax qurub yolumda,*
*Qorxuram–qorxuram mən qaranlıqdan!*
*Dişin şaqqıldadır, bərəldir gözün,*
*Hər kolun dibindən, mənə bir şeytan.*

*Günəşi salsa da gecə quyuya,*
*Yenə də göylərdə, ulduz var, ay var.*
*Deyirlər gecələr yoldan azanlar,*
*Ulduzlara baxıb, yolunu tapar.*

*Çəkilin, çəkilin, çəkilin aman!*
*Ömrümün göyündən çəkilin bir an!*
*Qoyun işıq salsın yollarıma ay.*

*Yolumu soruşum mən ulduzlardan.*

*Ulduzlar, ulduzlar, aman ulduzlar,*
*Nədən göz basmayıb parıldaşmırsız?*
*Hardasız? Harada itib batıbsız?*
*Niyə sakit – sakit pıçıldaşmırsız?*

*Yoxsa batlaqlığa batıbdı "Bəhram"?*
*"Keyvanın" qussədən bükülüb beli?*
*"Ülkərin" salxımı püsgündən düşüb?*
*"Zöhrə"nin sazının qırılıb teli?*

*Sanki bulutlar da  yuxuya batıb,*
*Bəxtimdən göydə bir şimşək də şaxmaz!*
*Bostançı baba da baş atıb yatıb,*
*Çaxmağını çalmaz, fənarın yaxmaz!*

*Ulduzlar uzaqdır, səmalar dərin,*
*İnsana yerdəndir varsa hər haray.*
*Yüz belə bağırsam, sıtqasam da mən*
*Yolunu dəyişməz günəş, ulduz, ay.*

*Hələlik bu mənəm, bu da qaranlıq,*
*Gözlərim bərəlir qara zülmətə.*
*Başın qaranlığa döyür baxışım,*
*Bəlkə bir yol aça nuraniyyətə.*

*Ancaq hər gecənin dalı gündüzdür,*
*Hər bir fəlakətin qurtuluşu var.*
*Həyatın yolları dərə – təpədi,*
*Hər yenişin isə, bir yoqquşu var.*

*Ürək çox dərdlənir, göz çox yaşarır,*
*Lakin həyat bütün dərd – qəm deyil.*
*Bu acı günlərin, şirini də var,*
*Ömür tək toy deyil, tək matəm deyil.*

*Hər dərdin davasın axtarmaq gərək,*
*Nə çıxar yıxılıb zarıldamaqdan?*
*Təlaşsız qolların quvvəti olmaz,*
*Yol getməsə çatmaz məqsədə insan.*

*Səhəri axtaran gecədən qorxmaz,*
*Alıram əlimə təlaş əsasın.*
*Əgər göydən yerə qətran yağsada,*
*Üzüb keçməliyəm zülmət dəryasın.*

*Umud hər nəqədər zəif olsa da,*
*Bütün düyünləri boşaldar, açar.*
*Umud bir qığılcım, bir qor olsa da,*
*Tonqallar yandırar, alovlar saçar.*

*Yenə bağırıram, haray səsimdən,*
*Dərələr dillənir, dağlar səslənir.*
*Yer – göy fəryadımdan zinhara gəlir,*
*Qayalar disginir, daşlar tərpənir.*

*Sanki bir işarantı göz vurur mənə,*

*Uzaxda cansız bir ışıq parlayır.*
*Elə bil gecənin odü yayılır,*
*Yada qaranlığın bağrı çatlayır.*

*Işıqdan uzanan zəif şualar,*
*Bağlanır könlümə qızıl bir sap tək.*
*Məni də özüilə çəkir aparır,*
*O bir yumaq kimi, səritlənərək.*

*Qapı – pəncərəsiz bir abidə də,*
*Hansı niyazlı əl bir şam yandırmış.*
*Möhtac bir könülün boş ilticası,*
*Bu sönük ocağı ışıqlandırmış.*

*Burda kim var mənə yol nişan verə?*
*Bir bərbad binadır, bir qurtarmış şam.*
*Bu şam çəkər olsa son nəfəslərin,*
*Mütləq qaranlıqda, boğulacağam.*

*Hisli taqcalarda, saxsı püsüzlər,*
*Üstünə qat baqat, toz – torpaq qonub.*
*Yaxılan şamların isti göz yaşı,*
*Tökülüb, hər yanda lay balay donub.*

*Burda buz bağlayıb dönübdür daşa:*
*Hacətli gözlərin tökdüyü yaşlar,*
*Bağlı düyünləri açanmasa da,*
*Mənim gecəmi ki ışıqlandırır.*

*Tozlu püsüzləri piylə doldurub,*
*Yandırıram, şamın son şöləsiylə.*
*Bir anda abidə çirağban olur,*
*O sönən şamların güdazəsilə.*

*Işıq qaranlığı qovur eşiyə,*
*Görünür bir səkkiz bucaqlı bina.*
*Onu qorudur mərmuz bir cəzbə,*
*Könül məftun olur baxdıqcan ona!*

*Taxçalarda, yığın – yığın kar – kağaz,*
*Cilidli – cilidsiz, köhnə kitablar.*
*Basılıb başına torpaq ələyib,*
*Zamanlardan əsib gələn ruzgar.*

*Savadsız, yazısız sadə ellərdə,*
*Qədimlərdən qalma bir adət də var*
*O hər cür kitaba, hər cür basqıya,*
*Nədənsə müqəddəs gözilə baxar.*

*Ona hörmətlidir hər yazı, hər xət,*
*Nə yandırmaq olar, nə atmaq olar.*
*"Şübhəli əllərdən" ehtiras deyə,*
*Qaçırdar məçidə, ocağa qoyar.*

*Ona görə də bu biğulələrdə,*
*Bəzən doğrudan da abidələr var.*
*İnsan duyğusunun xəzanələrin,*
*Bu viranələrdən axtarmaq olar.*

*Gahdan da görürsən bir mücavirin,*
*Faciə qoparar ziyankar əli.*
*Anlamaz – anlayar yer qazar quylar,*
*Kar – kağaz qarışıq, bu inciləri!*

*İçimdə dərin bir axtarış hissi,*
*"Kitabları axtar"deyə – bağırır!*
*Elə bil görünməz bir səs, bir nida,*
*Taqçanın içindən məni çağırır.*

*Kitabları bir – bir açıb baxıram,*
*Cür bəcür qurandır, ancaq çoxusu,*
*Bir an nəfəsimi dalı qaytarır,*
*Qalxan toz – torpağın acı qoxusu…*

*Bu da, meşin cilid qalın bir bəyaz,*
*Deyəsən, köhnə bir əlyazmasıdır.*
*Boz vəraqlarına qonan ləkələr,*
*Tək toz – torpaq deyil, zaman pasıdır.*

*Tüstülü püsüzün dar işığında,*
*Açıram qarşıma köhnə bəyazı.*
*Burnumda kifsəmiş kağazın iyi,*
*Gözümü oxşayır gözəl bir yazı.*

*Gözüm dolandıqca vəraqlarında,*
*Bəyazdan bir qapı açılır mənə.*
*Qapıda sanki bir at bağlanıbdır,*
*Məni aparacaq başqa aləmə.*

*Xəyalım sıçrayır atın belinə,*
*Baxışlarım cilov, gözlərim yüyən.*
*Yurturam keçmişin dərinlərinə,*
*Çaparaq çıxıram zaman qeydindən.*

*Günlər, aylar, illər dalı qayıdır,*
*Qalxır məzarından ulu babalar.*
*Qarıcıq analar qolların açır,*
*Məni qarşılayır ellər, obalar.*

*Adamı, tanıyan yerdə qurd yesin!*
*Hamısı bir bəbir öpür üzümdən.*
*"Uruz" pıçıldayır "Dəli Dondara":*
*"Bilməm neçəminci nəvəsiyəm mən".*

*Azərlər yurdunun şən düzlərində,*
*Alaca seyvanlar yenə qurulur.*
*Şərəfimə böyük qonaqlıq olur,*
*Dəvələr kəsilir, qoyun qırılır.*

*İti şərabların ağzı açılır,*
*Ocaqlar yaxılır, kabablar pişir.*
*Hər an yeni dəstə yetişir yoldan,*
*Ərənlər, xatınlar atlardan düşür.*

*Əllərdə sürahi, incə gözəllər,*
*Su sonası kimi süzür – sallanır.*

*Dolub – boşaldıqca zər piyalələr,*
*Yanaxlar güllənir, tutur – allanır.*

*Ceyran sürüsü tək qızlar – gəlinlər,*
*Gülüşür, qaçışır çəmənlər üstə.*
*Gahdan da toplanıb dövrə qururlar,*
*Əlvan çiçək kimi dəstə bədəstə.*

*Ərdəmli igitlər, qadın analar,*
*Kimi söhbət açır, kimi saz çalır.*
*Kimi at oynadır, kimi ox atır,*
*Elin şənlik səsi ərşə ucalır.*

*Görək kimlər gəlir qonaqlığıma?*
*Əsrin adlı – sanlı qəhrəmanları.*
*Qarıcıq analar, qoca babalar,*
*Oğuz soylarının ulu xanları.*

*"Bayındır Xan" gəlir, "Bəy Uruz " gəlir,*
*"Qaragünə" gəlir, "Xan Qazan " gəlir,*
*"Qıyan Səlcuq" gəlir, "Beyrək" gəlir,*
*"Dəli Domrul" gəlir, "Buğac Xan"gəlir…*

*Mərifət yolunun aydın çırağı,*
*Qocalar qocası, ellər atası,*
*Bezə miskinlərin umud dayağı,*
*Bütün müşgüllərin müşgülgüşası.*

*"Qorqud Dədə" gəlir, əlində qopuz,*
*Udumlu əlini arxama çalır:*
*– Oğul ellərivə xoş gəldin – deyir,*
*Hər tərəfdən alqış səsi ucalır.*

*Baxıram elimə, babalarıma,*
*Baxdıqca fəxrimdən başım ucalır.*
*Öz günüm, taleim gəlir önümə,*
*Gözüm ayağıma tikili qalır!*

*Öpürəm Dədənin comərd əlini:*
*– Ata, oğlun hümmət diləyir səndən.*
*Bil ki ellərimin halı yamandır,*
*Əsirgəmə xeyir duavı məndən.*

*Zamandır bizlərə fələk göz əyib,*
*Polad uz qılınclar qında paslanıb.*
*Şahbaz ayğırların peyi kəsilib,*
*Cidalar əyilib, kəndir ufanıb.*

*Odalar talanıb, evlər yıxılıb,*
*Mərd igitlər ölüb, ürək dağlanıb.*
*Hasarlar alınıb, ordu basılıb,*
*Dodaqlar tikilib, qollar bağlanıb.*

*Altunlu ban evlər, talana gedib,*
*Ev yiyəsi gecə küçədə yatır!*
*Buz baltası kimi comərd igitlər,*
*Divarlar dibində portaxal satır!*

*Kölgəli ağaclar kökdən quruyub,*
*Bulaqlar korlanıb, kəhrizlər batıb.*
*Alıcı quşların qanadı sınıb,*
*Əslan yatağında tülkülər yatıb.*

*Obalarda nə toy nə bayram olur,*
*Nə qopuz çalınır, nə mərd öyünür,*
*Nə bir ozan gəlir nəğmə oxuyur,*
*Nə bədöy atların içi döyülür.*

*Laləli düzlərdə tikan göyərib,*
*Nə quzu mələşir, nə ceyran qaçır.*
*Quşlar da yurdumdan küsüb gediblər,*
*Göydə nə bir durna, nə sona uçur.*

*Məişət igidə ağır yük olub,*
*Kimi baş götürüb gedir sərgərdan,*
*Kimi balaların alır dişinə,*
*Qaçır diyarından, doğma yurdundan!*

*Dov düşüb dırnaxsız namərd əlinə,*
*Dişi batan yerin ətin qopardır.*
*Dil açıb dilində danışanların,*
*Çəkir boğazından dilin çıxardır!*

*Bircə dar günlərin dar axşamında,*
*Xalqın əhvalına şafaq qan ağlar.*
*Qəhrəman elivi nə günə salmış,*
*Gör bu qara dövran, gör bu ruzgar.*

*Bir ürək aradan iki bölünüb,*
*Ayax da qanlıdır, baş da qanlıdır.*
*Ağsaçlı analar qara geyinib,*
*Yanax da qanlıdır, yaş da qanlıdır!*

*Utanıram sənə "oğlunam" – deyəm,*
*Bilirəm, yanında qaradı üzüm.*
*Dərdin çəkəni mən, eşidəni sən,*
*Sən dözənməyəndə mən necə dözüm?*
*Vətənimin şamaması,*
*Doğranıb dilim – dilim.*
*Tikilib dodağım,*
*Qadaxlanıb dilim.*
*Hər parçam, hər tikəm,*
*Bir qurd ağzında!*
*Babamın kəsgin qılıncı,*
*Paslanıb, çuruyub qında.*
*.................................,*
*Naməhrəm qucağında!*
*Mərd igitlərim darda,*
*Bu diyarda, o diyarda.*
*.................................,*
*"Azərliyəm" – deyən,*
*Papağı qıllı – qılçıqlı,*
*Üz – gözü səngər palçıqlı,*
*Dönməz comərdlərim…*
*Bilmirəm hardadı…*
*Har…da…*

*Qulaq as ata!*
*Bu dərdli oğluva qulaq as!*
*Hansı dərdimi deyim?*
*Hansı nisgilimi deyim?*
*Sizdən sonra namərdlər*
*Doğraq – doğraq,*
*Doğradı diyarımı,*
*Doğradılar iranımı.*
*Bir vuruşda,*
*Özün, oğlun, nəvəsin,*
*Qurban verdi "şeri" babam.*
*............................,*
*Alanmadım qanımı....*
*Birdə ki, nankorlar....*
*Bir quru dilimi də mənim –*
*Əlimdən aldılar.*
*Bir qarış yerimdən də –*
*Məni bayıra saldılar.*
*Haray qopartdım,*
*Can atdım,*
*Olmadı – olmadı!*
*İndi........*
*Örüşdə bədöy at şihəsindən,*
*Nər oğul nərəsindən…*
*Səs səmir yoxdu.*
*Əllərdə qalan anamın,*
*Hay…haray çəkməkdən –*
*Çıxdı canı:*
*– Babəkim, Koroğlum, Şah İsmayılım ha…..nı?*

*Dədə məlul – məlul baxır üzümə,*
*Baxışında aydın bir inciklik var.*
*Ovladın pərişan, natəvan görsə,*
*Şübhəsiz hər ata mükəddər olar.*

*–Oğul niyə məndən hümmət istərsən?*
*–Torpaq əsirinin əlində nə var?*
*Hər aşığın beş gün dövranı vardır,*
*Hər əsrin özünün bir "Qorqudu" var.*

*Kim öz sərvətini qəbrə aparmış?*
*Ya hansı atanı gördün dünyada,*
*Ömründə çalışıb qazandığını,*
*Buraxıb getməyə axır övlada?*

*Mən öz həyatımda hər nə qazandım,*
*Ağıldan, kəmaldan, elm – zəkadan,*
*Toxum eləyibən bu yerdə əkdim,*
*Sizlərə tapşırdım öldüyüm zaman.*

*Ancaq hər oğulun özünə qalır,*
*Ata sərvətindən nəcür barına.*
*Bir gündə kül edib göyə sovura,*
*Yada ki, qat – qat da, artıra ona.*

*Biz əgər baş uca, igit yaşadıq,*

*Namərdə əymədik onu heç zaman.*
*Yad elli düşmənə təslim olmadıq,*
*Qanımız axdısa damarımızdan.*

*Dörd əlli tutmadıq biz bu dünyanı,*
*Həyati, şərəfdə, mərdlikdə bildik.*
*Yaşadıq. Şərəfli yaşamaq üçün,*
*Savaşdıq, vuruşduq, öldürdük, öldük.*

*Göylərdə yurd saldıq qara quş kimi,*
*Qarqa – quzğun olub ləşə qonmadıq.*
*Əslan tək cəblərdə yataq elədik,*
*Tülkütək gündə min kələk yonmadıq.*

*Namərdə mərd olduq, haqqa qul olduq.*
*Yaxşıya, yaxşı olduq, yamana yaman.*
*Əlsizləri əzib ayaxlamadıq,*
*Amansız düşmənə, vermədik aman.*

*Oğula nə gərək dədənin malı,*
*Əgər oğul olsa, əgər mərd olsa!*
*Atanın sərvəti hara çatacaq,*
*Oğul dədəsinə yaman dərd olsa!*

*Atanın adını batiran oğul,*
*Atanın yurdunda qalmasa iyidir.*
*İgitdə, igitlik, namus, ar gərək,*
*Namussuz oğullar olmasa iyidir!*

*Oğul niyə məndən hümmət istərsən?*
*Torpaq əsirinin, əlində nə var?*
*Hər aşığın beş gün dövranı vardır,*
*Hər əsrin özünün bir "Qorqudu" var.*

*Mən öz zəmanəmi yaxşı tanıdım.*
*Yaxşı yol göstərdim, yaxşı yol getdim.*
*Elimə ustad bir gəmiçi oldum,*
*Tufanlardan keçdim, sahilə yetdim.*

*Sən də öz əsrivi dərindən tanı,*
*Gəz – dolan zamanın "Qorqudun" axtar.*
*Raket dövranında, atom əsrində,*
*Əprimiş "Qorquddan" sizə nə çıxar?*

*Hər zaman baş uca yaşamaq üçün,*
*O əsrin hünərin öyrənmək gərək.*
*Ataya güvənmək hünər deyildir,*
*Dünyada hünərə güvənmək gərək.*

*Get qoca Dədədən hümmət diləmə,*
*Hümmət verəcəksən, hümmətün olsa!*
*Atavın çirağın yanar saxlarsan,*
*Şərəfin, hünərin, qeyrətin olsa!*

*Mənim də əlimdən bu gəlir ancaq,*
*Səni keçmişinlə eliyəm tanış.*
*Baş uca yaşamaq istəsən əgər,*
*Bax gör babaların necə yaşarmış.*

*Mən bu dünyalarda gəzişən zaman,*
*Bilmirəm nə saat yuxum aparır.*
*Ya mənim könlümü röyalar alır,*
*Yada ki, püsüzün yağı qurtarır.*

*Bir zaman ayıldım, açdım gözümü,*
*Işıq qaranlığı basıb boğurdu.*
*Gecənin şəlməsi qana batmışdı,*
*Səhər açılırdı, günəş doğurdu.*

*"Dədəmin" əprimiş tozlu kitabın,*
*Bir abidə kimi, qucaqlamışdım.*
*Gecəmi səhərə çatdırmışdımsa,*
*Bir vəraxdan artıq oxumamışdım.*

*Üşüdüm ha, üşüdüm*
*Dağdan alma daşıdım*
*Almacığımı aldılar*
*Mənə zülüm qıldılar*
*Mən zülümdən bezaram…*

( Xəlq təkərləmələrindən)

Xoş illərin birində,
Günlərin bir günündə.
”Tülü quşun” sevgisi,
”Bayındırxan” köygüsü,
”Qaraçuğun” qaplanı
Meşələrin aslanı
Xan Uruzun atası
Qalmış igit arxası
Elin, şanı – şövkəti
Qalın Oğuz dövləti
”Qonuratın” yiyəsi
Ərənlər sərkərdəsi
”Ulaş oğlu Xanqazan”
Yerindən durmuş idi
Doxsan başlı ban evin,
Döşlərdə qurmuş idi.

Hər yanda ipək – ipək,
Xalılar salınmışdı.
Sürahilər düzülmüşdü,
Badiyələr qurulmuşdu.
Neçə – neçə xub üzlü
Xub üzlü – ala gözlü
Gözəl – göyçək görklü
Saçı dalda hörüklü
Qabaq səhər, qaş gecə
Döşlər qaba, bel ince
Köksü qızıl düyməli
Qıpıqları sürməli
Səhərin dan ulduzu
Yanaxlar, al qırmızı
Hallı – xuylu – damaxlı
Dili, ballı – qaymaxlı
Sinəsi qoşa narlı
(Kim görüb sərvi barlı?)
Gecənin yağmış qarı
Duru sulardan arı
Dağın yorqun maralı
Dəli ceyran ədali

Şirin dil, inci dişli
Gözəl kəhlik yerişli
Dodağı pöhrə balı
Dosta gül, yada çalı
Əllər xınadan əlvan
Baxışı canlar alan
Səsi ”Davud” nəğməsi
Nəfəsi gül nəfəsi
Vüqarlı – yaraşıqlı
Bəxt ulduzu ışıqlı
Yaz üzlü, göz nemətli
Gül iyli, bar ləzətli
Dadlı – duzlu, məzəli
Azərbaycan gözəli,
Mey gəzdirir ortada,
Din – iman gedir bada.
Şanlı Oğuz bəyləri
Ərənləri– ərləri
Sığraq sürür – mey içir,
Günlər şadlıqla keçir.

Ulaş oğlu xan Qazan
Xan Qazan – aslan Qazan
Al şərabı qantarır
Alaca gözü qızarır
Papaq yenir qaşına
Neşə vurur başına,
Dizin söykəyir yerə,
Üzün tutur bəylərə:
–Ünüm ünləyin bəylər,
–Sözüm dinləyün bəylər,
–Yata – yata yanımız –
Yançağımız qarıdı.
Dura – dura belimiz –
Buxunumuz qurudu.
Varun ovlağa varaq
Keyik yığaq, ov tutaq.
Elimiz yesin – içsin,
Günlərimiz xoş keçsin.

Elin qəhrəman oğlu
”Səlcuq” oğlu, xanoğlu
Yenilməz adlım sərdar
Nər güclü ”Dəli Dondar”,
Razılığın bildirir:
–Xan Qazan məsləhətdir!

Ulu bəylərin başı
Xanın igit yoldaşı
Uzunqol , Qaplan qınaq

Qara nər ”Qarabudaq”,
Səs verir digər yandan:
–Yaxşıdır ağam Qazan!

Xanlar bunu deyincə
Başqalar səs verincə
”At ağızlı Bəy Aruz”
Ağsaqqal əldə qopuz
İki diz üstə çökür,
Düşünür, təybir tökür:

–Dayun boyuva qurban
Əl saxla bəyim Qazan!
Sası dinli düşmənın,
Mərzində otursan,
Ev – eşiyin, obanın,
Üstə kimi qoyursan?

–Cilov yəhər qaşında,
Üçyüz igit başında,
Oğlum Uruz atlansın,
Obam üstə dayansın!

Deyə Xan verdi fərman
Qalxdı geyindi xəftan.

Hazırlıqlar başlandı,
İgitlər silahlandı.

Qabaqca ”Qonur atı”,
Çəkdilər sərdar mindi
”Təpəlqaşqa ayğırı”,
Dalıca Dondar mindi.

Qazanın mərd qardaşı,
Arxası silahdaşı,
Boz aslan ”Qara Günə”,
Qalxdı ”Göy at üstünə”.
Yaman gündə, dar gündə,
Çəkən elin qayğısın,
Dəstursuzca öldürən,
”Bayındırxan” yağısın,
Şer oğlu ”Şer şəmsəddin”,
Mindi ”Ağca Bədöyün”.

”Bayburdun” hasarından,
Parlayıb uçub qaçan,
Dov günü qatı yaydan,

Dolu kimi ox saçan,
”Boz ayğırlı Beyrək”,
Atlandı lay divar tək.

Xanqazan mizah ilən,
”Keşiş” deyə çağıran,
”Yeyinək” silah taxdı,
”Duru ayğıra’ qalxdı.

Sana varsan tükənməz
Hədd – hesaba gəlməz
Bütün Oğuz bəyləri,
Alıcılar ləşgəri,
Geyindi – yaraqlandı,
Düzüldü – yasaqlandı,
Çıxdılar Aladağa,
Aslan girdi ovlağa.

Dəvə kinli düşmənın,
Casusu, casusladı,
Bu xəbəri Gürcüstan –
Məlikinə yolladı.

Yeddi min zatı qırıq,
Donunun ardı yarıq,
Başları yarı saçlı
Sinəsi gümüş xaçlı
Silahlandı – at mindi,
Yəhər qaşına sindi.
Yönəldi xan evinə,
Çatdı Qazan evinə.

Çaldı çapdı – taladı
Oğlunu yaxaladı
Ağ əllərin bağlatdı
Qız – gəlinin ağlatdı
Ağban evlər, kömələr,
Qatar – qatar dəvələr.
Şahbaz at tövlə tövlə.
Hesabsız pul, xəzinə,
Talandı qarət oldu,
Əcəb qiyamət oldu!

Ağsaqqallar – qocalar,
Qarıcıq olan analar,
Körpələr, quzu kimin,
Qaza bənzər qız – gəlin,
Səhərin dan ulduzu,

Bayındır xanın qızı,
Uca boy qara qaşlı,
Bel nazik, uzun saçlı,
İpək şəddə qaşında,
Qırx incə qız başında,
Oğuzun baş qadını,
Xan Qazanın xatını,
Düşmənə əsir oldu,
Bənizi saraldı soldu.

Xanın qarı anasın,
Evindən çıxardılar,
Qara dəvə boynuna,
Asdılar – Apardılar.

Üç yüz igit qırıldı,
Daş üstə qalmadı daş,
Oxlandı – şəhid oldu,
Qocaman ”Sarı Gülmaş”.

Düşmən öyünür, şişir,
Boy – boylayır, söyləşir:

–Mərə bəylər, Qazandan,
Qəribə acıq açdıq.
Bir kərə varın – yoxun,
Taladıq evin yıxdıq.

Bizlərə əsir oldu,
Həlali, oğlu– qızı.
Qırx igidiylə tutdux,
Oğlancığı ”Uruzu”.

Bir yağı yerdən durur,
Ağzın büzür dən salır:
–Nə deyirsiz hələ də,
Bir acığımız qalır.

”Şüklüməlik” tutulur
Qara qanı qaralır:
–Mərə əclaf de görüm,
Nə acığımız qalır?

Çuğul yağı titrəyir
Bağır basır baş əyir:
–Bəylərbəyi Qazanın,
O barışmaz düşmənın,
Dəmir qapı Dərbənddə,
Qoyunu var minlərcə.

Onları da alsaydıq,
Ulu acıq açardıq.

”Şüklüməlik” eşidir,
Tamahlanır, hökm edir:
–Altı yüz Atlı getsin,
Qoyunu  qarət etsin!

Altı yüz ər atlandı,
Qoyun üstə yollandı.

Qara Çoban, xan Çoban,
Qayğılı aslan Çoban,
Qara dağlar qaplanı,
Xan Qazanın çobanı,
Yatdı vaqiə gördü,
Səmirədi uru durdu.
Qoyunları hər yerdən,
Ağıllara topladı.
Qapıların bərkidib,
Dalısın torpaxladı.
Çağırdı cüt qardaşın,
Yığdı çöllərin daşın.

Üç yerdə daş topladı,
Bərkitdi dörd bir yanın.
Açdı əlinə aldı,
Ala qollu supanın.

Toz qalxdı günəş batdı,
Atlılar gəldi çatdı:

–Sürüyə qurd girəndə,
Əli çomaxlı çoban.
Qaranquluq düşəndə,
Odlu – çaxmaxlı çoban.
Pəndiri, qatığı bol,
Südlü – qaymaqlı çoban.
Dartışıb – qarpışanda,
Dəmir qınaqlı çoban.
Mərə Qaracıq Çoban!
Bizə qulax as gilən
Qazanın ev eşiyin,
Dağıtdıq, yağmaladıq.
Tövlə – tövlə atların,
Biz mindik, biz taladıq.

Xanın axdı ulduzu
Tutduq oğlu ”Uruzu”
Çapdıq evin, köməsin,
Bol pulun – xəzinəsin,
Qatar – qatar dəvəsin,
Qarıcıq olan anasın,
Bütün dövlətin – malın,
Qız – gəlinin, həlalın,
Yesir qıldıq apardıq,
Qiyamətin qopardıq.

Mərə çoban hardasan?
Yaxında – uzaxdasan?
Sözümüzə qulaq as!
Bizə baş əy bağır bas!
Bizdən gizlənmə, qorxma
İrəli gəl, huyuxma
Sənə ”Şüklü Məlikdən”,
Bəylik allıq bilgilən.
Qara çoban bağırır,
Sərkərdəni çağırır:

–Alaqarı söyləmə gəl
Yolsuz yağı, azqın yağı
İtim ilən bir yalaxdan
Yöndəm içən quzğun yağı!

Altundaki şahbaz atın
Nə öyürsən mərə yağı?
Ala başlı – kola buynuz
Keçimcə də gəlməz mənə.

Başındaki dəbilqəni,
Nə öyürsən mənə yağı?
Başımdaki bu qıllıca,
Börkümcə də gəlməz mənə.

Atmış tutam kəndirini,
Öymə mənə mırdar yağı!
Bu qızılcıq yetdi qarış,
Ağacımca gəlməz mənə.

Qılıncını, qalxanını,
Öymə mənə, mərə yağı!
Savaş günü əyri başlı,
Çovqanımca gəlməz mənə.

Belindəki doxsan oxun,
Nə öyürsən dinsiz yağı?
Qırış günü ala qollu,

Supanımca gəlməz mənə.

Yaxınından, uzağından,
Bəri gəl hey, yetim yağı!
İgitlərin zərbişəstin,
Görüb get hey, İtim yağı!

Yağılar at təpdilər,
Hər yandan ox səpdilər,
Ərənlərin qoçağı,
El – obanın dayağı,
Mənim Qara Çobanım,
Yenilməz qəhrəmanım,
Əl elədi süpəngə,
Yer – göyü gətdi təngə.
Yağının aşı pişdi,
Kürkünə birə tüşdü,
İgit Çoban təkinə,
Nər kimi gərdi sinə,
Qızğın supan tovladı,
Daşı – daşa dayadı.
Atıldıqca hər daşı,
Sındı üç düşmən başı.
Qırdı yağının gözün
Yerə sərdi üç yüzün
Lakin tükəndi daşı,
Oxlandı cüt qardaşı.
Aslanım acıxlandı,
İçi od tutdu yandı.
Dünya gözünə gəlməz,
Keçi bilməz – qoç bilməz.
Qoyur supana atır,
Düşmən yan – yana yatır.
Qaraldı yerin üzü,
Qorxdu düşmənin gözü:

–Yarımasın bu çoban,
Yarçımasın bu çoban,
Bir az da dursaq əgər,
Diri qoymaz bir nəfər,
Hamını tökər, qırar,
Anamız üzün cırar.
Üz döndərib qaşdılar,
Dağ – təpəni aşdılar!

Düşmən ara açarkən,

Çobanım çatdı qaşın
Haqqına tapışırdı,
İki şəhid qardaşın.
Mat qaldı öz işindən,
Çaxmax çaldı od yaxdı.
Düşmənların leşindən,
Böyük bir təpə yapdı.
Polad ürəyində kin,
Yandırdı bez köynəyin.
Bağladı yarasına,
Kimsə gəlməz yasına.
Dərə xəlvət, ər yalqız,
Eldən iraq, qayğısız,
Bir daş üstə çönbəldi,
Ürəyi dərdə gəldi.
Yollara baxdı – baxdı,
Gözlərindən yaş axdı:

–Yolun yumulsun Qazan!
Qapın çırpılsın Qazan!
Ölübsən, ya dirisən?
Xəbərün yox xəbərdən!

Sizə mən söyləyincə,
Məgər dostlar o gecə,
Xan Qazan ayın – şayın,
Toxtaq ağır – arxayın,
At oynadıb, ox atıb,
Yorulub, düşüb yatıb.
Yuxusunda nə gördü?
Qara vaqiə gördü.
Səmirədi uru durdu
Qardaşına hey vurdu:

–Ünüm ünlə qardaşım!
Sözüm dinlə qardaşım.
Yuxumda gördüm nələr?
Qorxulu vaqiələr.
Qarlıca qara yağmur,
Gördüm üstümə yağır.
Gördüm qara qırqılar,
Mənim quşumu şığar.
Gördüm ıldırım şaxdı,
Ev – eşiyimi yaxdı,
Qra qılçıcıq, boz, sarı,
Quduzlaşmış qurdları,
Evimi dələr gördum.
Bir daha nələr gördüm:

On barmağım ox gördüm
Biləyimdən yox gördüm.
Tüklərim qarğı kimin,
Tutdu gözümün önün.
Dağılıb ağlım – huşum
Gəldim sənə qonuşum
Canım qardaş halım sor
Mənim bu yuxumu yor!

–Qara bulut dediyin,
Sənin varın dövlətin.
Qara yağmur ləşgərin.
Saç qayğılı ellərin.
Qalanın Tanrı yorsun,
İnşallah xeyir olsun!

–Umudum, arxam qardaş!
Ləşgərimə sən ol baş.
Otur yerli yerində
Ovumu pozma, mən də –
Minərəm ”Qonur ata”
Qan tərə bata – bata
Qonur atım, ceyranım,
Qara quşum, tərlanım,
”Dərələrdən yel kimi
Təpələrdən sel kimi”
Sərsərə dönər əsər,
Üç günlük yolu kəsər
Öylən çatar obama
Baş çəkərəm odama
Sağlıq – əsənlik olsa
Sağlamlıq – şənlik olsa,
Nə durram, nə dincəlləm,
Axşama dönüb gəlləm.
Gəlmədim axşam əgər,
Bilin var yaman xəbər.

Qonuru mamızladı,
Yürüdü yol – yolladı,
Uca dağlardan aşdı
Daşğın sulardan keçdi
Çapdı yetişdi yurda,
Nə ev gördü, nə oda.
Uçarda quzğun uçar,
Qaçarda tazı qaçar,
Bağrı alışdı pişdi,
Yurduyla xəbərləşdi:

–Ay yurdum – aman yurdum!
Qum qumlamayan yurdum!

Güllü dağların tuşu
Sığın keyiklə qonşu
Yağılar hardan varmış?
Nə yerdən səni dalmış
Yenə də söy – söyləmiş,
Görəlim nələr demiş:

–Ağban evim tikiləndə yurdu qalmış.
Qarı anam olurunda yeri qalmış.
Oğlum Uruz ox atanda budaq qalmış.
Qara mitbax tikiləndə ocaq qalmış.
Ulu bəylər çaparında meydan qalmış.
Oba köçmüş yurd – yuva veran qalmış.

Tutuldu Salur Qazan,
Gözlərinə doldu qan.
Qara bağrı darıldı,
Yumaq kimi sarıldı.
Könlü təşvişə düşdü,
Qan damarları şişdi.
Köçün izini tapdı,
Heylədi atın çapdı.
Başı lovlu, bağrı qan,
Gözlərin tutmuş duman.
Mərd əli çıxıb boşa,
Yalvarır dağa – daşa.
Qarşına çıxdı bir su:
–"Haqq didarı görüb bu"
Xəbərləşir su ilən,
Nələr soruşur ondan:

–Çınqım – çınqım qayalardan çıxan su,
Şaqqıldayıb dərələrdən axan su,
Ağır – ağır qayaları xırladan.
Dənizlərdə gəmiləri oynadan.
Şahbaz atlar, boz ayğırlar içən su.
Qızıl dəvə üzərindən keçən su.
Sahilləri ağca qoyun yatağı
Çəmənləri buğaların otlağı
Aişənin, Fatimənin miknəti
İmam Həsən, İmam Hüsen həsrəti
El- obamdan xəbərin var de, mənə
Qara başım qurban olsun su, sənə!

Su necə xəbər versin?
Nə söyləsin, nə desin?

Suyu atladı keçdi,
Gözü bir qurda düşdü:
–"Uğurludur qurd üzü,

Uzağı görər gözü
Xəbərləşim onılan”
Deyə – soruşur qurtdan:

–Günü doğan qaranquluq axşamlar,
Uru duran yağanda kövşənə qar,
Qızıl – qızıl dəvələri bozladan,
Ağca qoyun gördükdə quyruq qapan,
Ərkəcin, övcün, simizin tutan,
Qanlı quyruq üzübən çap – çap utan,
Arxasıla ağıllar böyrü sökən,
Şahbaz – şahbaz atların ətin tökən,
Qaba səsli köpəkləri hürdürən,
Çaxmaxlıca çobanları yügürdən,
El – obamdan xəbərün var de, mənə!
Qara başım qurban olsun, qurd, sənə!

Qurd necə xəbər versin?
Nə söyləsin – nə desin?
Qurdu da qoydu keçdi,
Gözü bir itə düşdü:
–Qaranquluq axşamlar haf – haf hürən,
Ağca ayran gördükdə çap – çap içən,
Oğruları, xırsızları qaçırdan,
Qorxuduban, hürküdübən, uçurdan,
El – obamdan xəbərun var de, mənə!
İyiliklər edərəm, itim, sənə.

İt hardan xəbər versin?
Nə söyləsin – nə desin?
Xan Çobanın köpəgi,
Tanıyar Qazan bəyi.
Ayaxlarına düşər,
Oynar sək – sək səkildər,
Qazandan əl götürməz,
Vursa da qaçıb getməz,
Dilsiz – ağızsız heyvan,
Can atır bu yolılan,
Xanı dalıca çəkə,
Çobana çata bəlkə,
Xanı cinlədir çovur,
İt qaçır, Qazan qovur.
Hirsindən yana– yana,
Gəlir çatır çobana:
–Qaranqu axşam olanda qayğılı çoban,
Qara yağmur yağanda sayğılı çoban,
Supanlı, dəgənəkli, çaxmaxlı çoban.
Südü, pəndiri bol qaymaqlı çoban.

Qazan yenə söyləmiş,

Görəlim nələr demiş:

–Ünüm ünlə çobanım
Sözüm dinlə çobanım
Ev – eşigim talanıb
Bağrım od tutub yanıb
Nə xəbərin var mənə?
Qurbanam çoban, sənə.

–Harda ölmüşdün Qazan?!
Harda itmişdün Qazan?!

Dünən yox, yarınkı gün,
Buradan talan keçdi.
Qara dəvə boynunda,
Qarıcıq anan keçdi.
Uca boylu həlalın,
Bütün qul – qaravaşı,
Kafərə yesir getdi,
Yanında qırx yoldaşı.

Qırx igidi yanında,
Oğlun Uruz yalıncıq,
Qul oldu, əsir getdi,
Ayaq yalın, baş açıq!

Düşmənlar mindi getdi,
Tövlə – tövlə atları.
Yük ilə gəldi keçdi,
Dəvələrin qatarı.

Xan bu sözdən usandı,
Ürəgi tutdu, yandı:

–Ağzın qurusun çoban!
Dilin çürüsün çoban!
Qadir qəbrivi qazsın!
Alnıva qada yazsın!
Nə deyib – nə söylərsən?!
Çəkin bu pis xəbərdən!

İgit çoban tutuldu,
Ürəgi dərdə doldu:
–Nə deyirsən Xan Qazan?
Səndə yoxmudur iman?!

Qarqama məni bəsdi,
Sözün bağrımı dəldi.
Altı yüz yağı daxı,
Mənim üstümə gəldi.

Dağ tək dayandım durdum
Üç yüzün tökdüm qırdım
Üç yerdən yaralandım
Yıxılmadım, dayandım
Gözünə saldım qada
Vermədim bir toxlu da.
Büküldü qara başım
Öldü iki qardaşım
Usandım qaldım yalqız
Tək – tənha, qayğısız.
Göyə ucaldı ahım
Demək budur günahım?!

Çobanı qəhər tutdu
Saxlaşdı, hirsin utdu.
Üzündə acı kədər
Daha söylədi nələr:

–Altunda ki qonur atın vergil mənə
Atmiş tutam kəndirini vergil mənə
Ağ–alaca qalxanını vergil mənə
Qara polad qılıncını vergil mənə
Sadağından səksən oxun vergil mənə
Ağca tozlu qatı yayın vergil mənə

Düşmənin üstünə yel olum əsim
Yenidən doğanın öldürüm, kəsim
Yenimlə alnımın qanını silim
Gərək olsa sənin yolunda ölüm
Qadir qoysa alım evin – eşiyin
Gecə gündüz özüm çəkim keşiyin!

Xan Qazan mat – mat baxdı,
Nə dindi, nə söylədi.
Çobanın cavabında,
Bir söz daxı demədi.

Qonuru qamçıladı
Yolun tutdu, yollandı
Çoban isə, Qazanın –
Dalısıca tovlandı.

Xan döndü, dalı baxdı:
–Oğul çoban sən hara?
–Sən evin üçün, mən də
Qardaş qanı almağa!

Qazan dayandı, qaldı
Düşündü, fikrə daldı:

–”Əgər çobanla varsam
Ev – eşiyimi alsam
Sabah bu mənə bəlkə,
Toxunc olacaq yekə
Bütün Oğuz bəyləri
Ərənləri – ərləri,
Mənə qaxınc qaxacaq
Söyləyəcəklər ancaq:
“Gər çoban olmasaydı
Qazanla varmasaydı
Düşmənə varanmazdı
Evini alanmazdı.”

Cilovu çəkdi, durdu,
Çobanına hey vurdu:
–Mərə çoban mən acam
Yeməgə varmı nəsnə?
–Bəli ağam bir quzu –
Pişirmişəm dün gecə.

Aşağı düş atından
Burda bir az dincələk
Bu ağacın dibində
Əyləşək, açım yeyək.

Deyə quzunu çoban,
Çıxardı dağarcıqdan
Süfrəsini açarkən,
Qazan yügürdü birdən,
Çobanı yaxaladı,
Bir ağaca bağladı:

–Qulaq as mərə çoban!
Qarıncığın acmadan,
Gözlərin qaralmadan
Yuxu səni almadan
Bu ağacı dart qopar,
Çalış canıvı qurtar.
Yoxsa gecəyə qalsan,
Yuxun gəlsə yuxlasan,
Qurdlar səni dağıdar,
Quru sümügün qalar.
Deyə Qazan atlandı,
Yolun çəkdi, yollandı.

Uzaqlaşdıqca Qazan
Nər çoban, aslan çoban
Kürək verdi qayqacı
Canlı qaba ağacı,
Kəl kimi burxdu dartdı,

Yerli – dibli qopartdı.
Aldı düzəldi yola
Bəy döndü baxdı dala
Gördü gəlir çobanı
Qaynadı, coşdu qanı.

–Mərə hara gəlirsən?
Bu ağacı neylərsən?

–Sən vuruşub acarsan
Mən isə bu ağaclan,
Orda ocaq yaxaram,
Sənə yemək yaparam.

Bu söz bəyə xoş gəldi
Atından yerə endi
Əlin açdı çobanın
Əyildi öpdü alnın:

–Qadir qoysa sağ qalsam
Ev – eşiyimi alsam
Sənə bəylik verərəm,
Mir axur eyləyərəm!
Atlandılar, yürtdülər
Ağ yel kimi getdilər

Şüklü Məlik bu taydan
Kefi saz, şən – şadiman
Böyük bir məclis qurub
Yeyib – içib oturub
Üzün bəylərə tutur
Ərlənir qatı qusur:

–Bilirsizmi Qazana
O barışmaz düşmənа
Nə hayıf etmək gərək?
Xatınını gətirmək
Məclisdə mey paylasın.
Sığraq versin oynasın.

Məliyin bu fərmanın,
Eşitdi ”Burlaxatın”
Mərd nərin mərd mayası
Körpə aslan tayası
Sərt qayalar ceyranı,
Oğuzun qızlar xanı
Gün gözünə qaraldı
İgit bağrı daraldı

Axıtdı qanlı yaşın
Çağırdı qırx yoldaşın
Düşündü, fikir gördü
Öyrətdi, öyüd verdi:

–Hankınızı tutalar
Tutuban soruşalar:
– “Xatını kimdi bəyin?”
Məni nişan verməyin
Qırxınız qırx tərəfdən,
Hamı birdən deyin, mən!

Dayanıb durub hamı
Gəldi şahın adamı
Soruşcaq – ”Xatın kimdi?”
Huyuxuban diskindi
Qırx yerdən səs gəldi – ”Mən”!
Avara qaldı gələn!
Baxdı, baxdı qayıtdı
Şahın yanına getdi:
–Yapışdıq hər birindən,
Cavab gəldi qırx yerdən.
Nə qədər icz eylədik,
Hankısıdır, bilmədik!

Şüklü Məlik hirsləndi
Darıldı, qəzəbləndi:

–Varun Uruzu basun
Boğun çəngələ asun
Doğrayun qiymə – qiymə
Düzəldün qaraqiymə
Qırx bəy qızına verin
Göz qoyun baxın görün
Hansı yeməsə odur
Gətirin bədir – bədir
Sığraq sürsün oynasın,
Məclisdə mey paylasın!

”Burla” bunu duyunca
Süzdü gəldi yavaşca
Oğlancığın sənlədi,
Nə dedi – nə söylədi:

–Oğul, oğul, vay oğul
Əmək oldu zay oğul
Dünyaya gətirdigim
Bəsləyib yetirdigim
Evimin yaraşığı
Gözlərimin ışığı

Yağının felin duydum
Qutum qurudu uydum.
”Şüklü Şah” hökm eyləmiş
Yaman sözlər söyləmiş.
Buyurmuş səni bala
Anan qurbanın ola
Qənnarəyə assınlar
Qiymə – qiymə yazsınlar.
Pişirsinlər çığırtma
Versinlər mən yazığa
Yeməyim tanısınlar.
İstəyiri o mırdar –
Evin yıxsın anavın
Başı lovlu atavın
Namusun ləkələsin,
Başına kül ələsin!
Dilim ağzımdan tüşə
Nə deyirsən bu işə?

Uruz hirsindən əsir
Dişi dodağın kəsir:

–Ağzın qurusun ana
Dilin çürüsün ana!
Əgər analıq haqqı,
Olmazdı xaliq haqqı,
İndi sənə neylərdim,
Tutardım boğazından –
O lal olmuş dilivi
Çıxardardım ağzundan!

Al qanıvı axıdıb
Üzərdim boğazıvı
Sürtərdim qara yerə –
O yumulmuş ağzıvı!

Acı ölümün dadın
Dadızdırardım sənə
Utan ana, bu sözlər,
Nədir deyirsən mənə?!

Amandı qadın ana
Bu işdən sağın ana
Yolma qara başıvı
Axıtma göz yaşıvı
Qoy çəngələ aslanım
Qiymə – qiymə doğranım
Ətimi pışırsınlər
Sizə yeyin desinlər
Qırx bəy qızı bir yesə

Yegilən dönə – dönə.
Qoy bu alçaq azğınlar,
Səni tanımasınlar.

Amandı ana gözlə,
Amandı ana sağın:
Amandı qorugilən,
Namusun bəy babamın!

Uruz ürəklənərək,
Yaşardı qara gözü.
Yanar od kimi pörtdü,
Sıxıntıdan gül üzü.

Namuslu igid oğlun,
Sezdi namuslu ana.
Köksündə ana qəlbi,
Alışıb yana – yana.

Doğransada ürəgi,
Səs çəkib ağlamadı.
Qızıl qanı axsa da,
Yarasın bağlamadı.
Yoldu boyun – qulağın
Qarışdı qırx qızlara
Dayandı toxtaq – toxtaq,
Ciyər qan ürək yara.

Baxıb toxtaq gördükdə
Mərd oğul, mərd ananı,
Fərəhləndi, öyündü,
Duruldu qara qanı:

–Qadın ana, mərd ana,
Sağ olsun ərəb atlar.
Bir ılxıdan bir qulan,
Olsa – olmasa nolar?

Sağolsun qatar – qatar,
Qızıl – qızıl dəvələr.
Qəltəbandan bir köşşək,
Olsa – olmasa neylər?

Sağolsun ağca – ağca,
Sürü – sürü qoyunlar.
Sürüdən bir quzucuq,
Olsa – olmasa nolar?

Sən sağol qadın ana
Əsən olsun bəy babam.

Mənim kimi bir oğul,
Nolar olsam–olmasam?

Düşmən ”Uruzu” aldı,
Ürəkdə qara kinə.
Çəkə – çəkə gətirdi,
Qənarənin dibinə.
–Mərə namərdlər aman!
Haqq tanrıya yox güman!
Mənə möhlət vriniz,
Söyləşim bu ağaclan.

Deyə–dar ağacılan,
Söyləşir igid oğlan:
–Ağac – ağac, dinlə, qulaq as mənə
Neçə kəlmə söz gəlibdi sinəmə.
Ancaq ağac, ağac söyləsəm sənə,
Çoxda, çox öyünüb, ərlənmə ağac.

Mərd igidin mərd olarsa yağısı
Unutmaz insafi, ari, namusu.
Doğmanın birisi, yadın hamısı
Kəbənin evinin qapısı ağac.

Namərdin toyudur, igidin yası
Tökülüb üzünün şərm – həyası.
Silinməz könlümün qubari–pası,
Musayi kəlimin əsasi ağac.

Bir deyil namərdlə mərdin ölçüsü
Sərvətdir dünyada eybin örtüsü.
Muxənnəs nə bilir yaxçını, pisi,
Köpüklü suların körpüsü ağac.

Atəşim əridir dəmiri, misi
Min yaddan igidir qardaşın pisi
Dərilməmiş qaldı ömrün zəmisi
Qara dənizlərin gəmisi ağac.

Qarış – qarış gəzdim kəndi – şəhəri
Mərdi darda gördüm, namərdi cəri!
Alıcı quşların qırılıb pəri,
Əli Düldülünün yəhəri ağac.
Batıb axıntılı suların səsi
Göyə Qalxıb məzlumların naləsi
Zəmanə inlədib nakəsə, kəsi,
Əli qılıncının qəbzəsi ağac.

Mərdin evi olub, namərd eşiyi
Aslana yurd olub, tülkü deşiyi
Haqsıza verilib haqqın keşigi
Həsənlə, Hüsenin beşiyi ağac.

Topraq olsan namərd dənin bitirmə,
Ziyankari boya – başa yetirmə.
Barı sən gəl ağac haqqı itirmə,
Sənə asılarsam götürmə ağac!

Götürəcək olsan nolasan ağac
Görüm saralasan, solasan ağac
Doğranıb qol – budaq olasan ağac,
Gəl etmə anamı bağrı qan ağac.

Dalıca yenə demiş,
Görək nələr söyləmiş:

–Köhlən atlar axar su tək axanda,
Bədöy ayğırıma, atıma yazıq.
Mərd atalar gənc oğluna baxanda,
Elimə, südümə, zatıma yazıq.

Qardaşlar, yoldaşlar seyrə varanda,
Eşimə, tayıma, tuşuma yazıq.
Şahin quşlar gözəl kəhlik alanda,
Tərlanıma, şahin quşuma yazıq.

İgitlər atlanıb keyik vuranda,
Bəylikdən doymadım özümə yazıq!
Aşıqlar – ozanlar məclis quranda
Boyuma, sazıma, sözümə yazıq.

Deyibən aslancığım –
Ürəklənib ağladı
Sıxıntısı, yanğısı
Ciyərciyin dağladı.

Bu yerdə Salur Qazan ,
Çapar gəldi, yetişdi,
Dalıca çatdı Çoban,
Düşmənin aşı pişdi.

Çobanım yetişincə
Əl eylədi süpəngə
Şüklü qara Məlikin,
Nəfəsi düşdü təngə.

Süpək – süpək, nə süpək
Xan Çobanın supanı

Mancanıq olmayanda,
Daşı yıxar qalanı!

Daş yerisi – ayası,
Bir balağın gönündən.
Eşmə ala qolları,
Üç qoyunun yünündən!

Daş atar on batmanda
Atdığı boşa getməz
Göydə milçəyi vurar
Düşən yerdə ot bitməz!

Gecə bayırda qalsa,
Qoyunundan, qoçundan
Qurd belə gəlib yeməz,
Supanın qorxusundan!
Çoban supan çatlatdı
Daş atdı – qaya atdı
Düşmənə gün qaraldı
Yer başına daraldı.

Söyləyir igit Qazan:
–Mərə Qaracıq çoban,
Gəl anamı istəyək
Versələr alaq gedək
Qarıcıqdır yıxılar
Ayağ altında qalar
Sonra da yana – yana,
Üzün tutar düşmənə:

–Mərə ay Şüklü Məlik!
Börkünün ucu dəlik!
Altunlu ban evimi,
Çapıbsan sənin olsun,
Pulumu, xəzinəmi,
Qapıbsan sənun olsun.

Bütün əhlim–əyalım,
Yesirin olub, olsun
Uca boylu həlalım,
Əsirin olub, olsun.

Tutubsan qulun olsun,
Oğlum qırx igidiylə.
Ilxı–ılxı atımı,
Alıbsan minit eylə.

Sürü – sürü qoyunum,
Sənin Şölənün olsun.

Qatar – qatar dəvəmin,
Hamısı sənin olsun.
Bir xahişim var sənə:
Anamı qaytar mənə
Savaşmadan qayıdım
Yolumu çəkim, gedim.

Eşidibən ”Şüklüşah”
Hırlayır, gülür qah – qah:

–Vermərəm mərə Qazan
Rədd ol, sovuş buradan!
Altunlu ban evivi,
Gətirmişik bizimdir.
Puluvu, xəzinəvi,
Gətirmişik, bizimdir.
Həlalun əsirimdir.
Əyalun yesirimdir.
Qulumdur, oğlun Uruz.
Bil ki, satmaram ucuz.
Nə xəyaldasan Qazan?
Mənə lazimdir anan!
Gör neyləyərəm ona
Verrəm keşiş oğluna
Bir oğlan doğar mənə
Qırım qoyaram sənə!

Şükülüməlik bunu decək
Eşidir çoban demək:
–Mərə ağılsız yağı!
Usu yox, dinsiz yağı!
Qarşı yatan bu dağlar
Quruyub otu bitməz.
Qanlı – qanlı bu çaylar
Quruyub suyu gəlməz.
Qızıl – qızıl dəvələr
Qarıyıb köşşək verməz.
Köhlən atlar qarıyıb
Day verməz, qulun verməz.
Qazanın anası da,
Qarıyıb oğul verməz.
Döləndə gözün varsa,
Qara göz qızın varsa,
Gətir Qazan bəyə ver
Dölün tut xeyrini gör!

Çoban decək bu sözü
Tutuldu günün üzü.
Çatdı Oğuz bəyləri
Gəldi Xanın ləşkəri.

Aslan yetdi – nər yetdi
Görəlim kimlər yetdi:

Arxalığı–xəftanı,
Üç boğa dərisindən
Acığı tutan zaman,
Qara daşı gəmirən.

Elin qəmini görən
Mərd igitlərin başı
Bığların dalda hörən,
Qazanın mərd qardaşı.

Qara nər ”Qaragünə”
Gəldi düşmən üstünə,
Qılnc çal ağam Qazan,
Gəldi çatdı el–arxan!

Dəmirqapı Dərbəndin,
Dəmir qapısın alan.
Atmış tutam kəndirin,
Ərlər boynuna salan.

Elin qəhrəman oğlu
Yenilməz adlım sərdar
Səlcuq oğlu, xan oğlu
Dəli nər, ”Dəlidondar”

Gəldi çapar yetişdi
Vurdu qabağa keçdi:
Qılınc çal ağam Qazan
Gəldi çatdı el – arxan!

Hər yanda adlı – saylı
Dəmir ox, dəmir yaylı
Əynində polad yaraq
Başında dəmir papaq
Düşmənə qan qusduran
”Mərdin” qalasın alan
Qocalar təhsin edən
Şalvarı al məxmərdən
Xoş söhbət, sözlü–sazlı
Yəhəri ağ qotazlı
Qara saç, qara bığlı
”Qaragünə” nin oğlu.
Qazanın qızın alan
”Qarabudaq”pəhləvan:

–Qılınc çal ağam Qazan
Gəldi çatdı el – arxan!

Dağlar əsdi titrəşdi
Dalıca kim yetişdi?

Qaraqaş qara bığlı
Ərənlər sərkərdəsi
”Qəflətqoca”nın oğlu,
”Ağ – Boz”atın yiyəsi.
Bir ləşkərin qarşısın
Təkatlı kəsib duran.
Qırx iki min qoşuna,
Təkinə qan qusduran.

Yaman gündə, dar gündə,
Çəkən elin qayğısın,
Dəstursuz basıb boğan
Bayındırxan yağısın.

Əyri qılıncı kəsgin
Şer oğlu ”Şer Şəmsəddin”:
–Qılınc çal atam Qazan
Gəldi çatdı el–arxan!

”Bayburd”un hasarından,
Daşlanıb uçub qaçan
El – obanın dayağı
Qazanxanın ınağı
Yetdi qızın umudu
Oğuzun qoç igidi.

Kim gəldi gəlsin görək?
”Boz ayğırlı Beyrək”:
–Qılınc çal ağam Qazan
Gəldi çatdı el – arxan!

Saysan, saya salmalı
Başı ipək çalmalı.
Sultanlardam bac alan
Bəyləri atdan salan
Qulaqda altun sırğa
”Qazılıq ayğırı” yorğa
Boyu boylardan uca
Atası ”Qazılıq qoca”
Kim gəldi çatdı görək?
Qoç oğlu, ”QoçYegnək”:
–Qılınc çal ağam Qazan
Gəldi çatdı el – arxan!

Atmış ərkəc dərisin,
Qorasan kürkü olmaz!
Yetdi övüç dərisin,
Güzəsən börkü olmaz!

Qollar cida boyunca
Baldır incə, boy uca.
Xan Qazanın dayısı
”At ağız Aruz qoca.”

Gəldi çapar yetişdi,
Vurdu qabağa keçdi.
Qılınc çal bəyim Qazan
Gəldi çatdı el–arxan!

Acığı tutan zaman
Bığlarından qan daman
Səsi aslan nərəsi
Peyqəmbər əshabəsi
Bu kimdi gəldi görən?
”Bığları qanlı Əmən”:

Qılınc çal ağam Qazan
Gəldi çatdı el – arxan!

Əlli yetdi qalanın
Basıb kilidin alan
”Ağ Məlikin” görklü,
Qızın ərligə alan.

Otuz qala bəyinin,
Qızının boynun öpən.
”Sofi Sandal məlikin”,
Meydanda qanın tökən.
”Alın oğlu Alp vuran”
Çatdı sanki bir aslan:
–Qılınc çal ağam Qazan!
Gəldi çatdı el – arxan!

Saya varsan tükənməz
Həddu – hesaba gəlməz
Xan Qazanın ləşkəri
Bütün Oğuz bəyləri
Bədöy atlar yügürüşdü
Hamı gəldi yetişdi.
Nəqqarələr gurladı
Altun boru burladı
Qiyamət savaş oldu

Meydan dolu baş oldu.

Şahbaz - şahbaz atların,
Ləxlədi nalı düşdü.
Əyri polad qılınclar
Çalındı sovdan düşdü.
Dəli Dondar yəmindən,
Qarabudaq yəsardan.
Ağır ləşkər başında,
Arada Salur Qazan.

Hər yandan at saldılar
Baş kəsib can aldılar
”Xan Qazan” at oynatdı
”Şüklü Məlikə” çatdı
Böyürtdü atdan saldı
Baş getdi bədən qaldı.

Sağ yanda ”Dəli Dondar”
At təpər, qılınc vurar
”Qara Təkura” çatdı
Vurdu sağ qolun atdı
Sol yanda ”Dəli Budaq”
Gürz işlədir taqqa – tax
Çatdı ”Buğacıq” şaha
Aman vermədi daha
Əndirdi kəlləsinə
Başa, qın oldu sinə
”Xan Budaq” Qılınc çaldı
Bayrağı biçdi saldı
Leş töküldü qalandı
Dağ – dərə al boyandı
Düşmən dağıldı qaçdı
Quş qırıldı, börk düşdü.
Mərd igitlər çovmadı
Qaçanları qovmadı

Gor qazıb quyladılar,
Qırılıb ölənləri.
Qırıb öldürmədilər,
Aman diləyənləri.

Qazan qələbə çaldı
Oğul uşağın aldı
Tikdirdi ban evlərin
Yaylaq xoş, suyu sərin
Çağırdı Xan Çobanı
O böyük qəhrəmanı
Təxt verdi, üzük verdi
At verdi, bəylik verdi

Dərd – qəm axır oldu
Çoban mir axur oldu
Başlandı yemə – içmə
Yetdi gün – yetdi gecə.

Xan, bəyləri ucaltdı.
Şal verdi, cübbə verdi
At verdi, çuxa verdi,
Yurd verdi, ölkə verdi.

Xəzanəsin payladı,
Elinə, yoldaşına.
Qırx kölə azad etdi,
Oğlu ”Uruz” başına.

Gəldi ellər atası,
Ərənlərin ərəni.
Qocaların qocası,
Oğuzun baş biləni.

Qocaman ”Qorqud Dədə”,
Söz qoşdu, boy boyladı.
Könül xoş, qopuz əldə,
Saz çaldı, söy söylədi.

Hardadı, indi hanı,
O öydüyüm ərənlər?
Hara getdi, necə oldu,
Dünya mənim deyənlər?

Ay dolandı, gün keçdı,
Ərləri əcəl aldı.
Qonan kərvanlar köçdü,
Bu dünya bizə qaldı.

5

# Bəkil Oğlu Əmran

**_Başlanış_**

*Yenə şahpər açıb xəyal tərlanım*
*Yeni üfüqlərin sinəsin yarır*
*Şeirimlə bağlayıb qanad – qanada,*
*Bilməm haralardan nələr axtarır.*

*Yerdə ov başına qəhət oluban,*
*Gedir "Qaf" dağından "Siymürğ" axtara!*
*Yox! Özün bilənə dünya qəfəsdir,*
*Bəlkə də can atır, canın qurtara.*

*Qəfəs nə qədər də geniş olsa quş,*
*Yenə milələrə gedər suvaşar.*
*Xəyal heç ölçüyə sığınan deyil,*
*Hər qaba tökülsə, doldurar daşar.*

*Necə calanmasın, necə daşmasın?*
*Necə özlügündən çıxmasın insan?*
*Necə bu dünyaya gəlib – gedim mən,*
*Baş aça bilməyim nə olduğumdan?*

*Qarşımda axırı görünməz bir yol,*
*Baxıram, baxdıqca gözüm qaralır.*
*Duyub – düşündükcə, Fikrə daldıqca,*
*Fəlsəfə mat qalır, məntiq koralır!*

*Qəribə bir hala qalıram bəzən,*
*Kaşkı o halı vəsf edə biləydim.*
*Olaydı sənin də əlindən tutub,*
*Bir an o aləmə gedə biləydim.*

*Vəsf etmək o halı mümkün deyil yox!*
*Adını mən "heyrət" qoyuram ancaq*
*Birdə ağıl, məntiq, hekmət naminə,*
*"Olanmaz" bir "vara" inananmamaq.*

*"Varlıq"! Bəli müdhiş bir vaqeiyyət!*
*–"Əcəb doğrudan da varımışam mən?!*
*Bu da ki, dünyadır–bəli dünyadır"!*
*(Gözlərim kəlləmə çıxır heyrətdən!)*

*–Olanmaz, olanmaz, yox bu olanmaz!*
*("Olanmaz" söyləyirsən, "vara" bir bax)*
*Mümkün inanmaya heç nəyə insan*
*Necə "özlügünə" inanmayacaq?!*

*Olanmaz, olanmaz, yox bu olanmaz!*
*Necəki mən varam? Nə təhər, hardan?...*

*Deyə – həqiqətdən qaçsam da bir an,*
*"Varlığım" əl çəkmir, tutur yaxamdan,*

*Yenə pəndam olmuş, boğulmuş su tək,*
*Yığılıram öz içimə doluram.*
*Öz yerində qalır bütün suallar,*
*Özüm, öz – özümə sual oluram:*

*–Bu nə quruluşdur, mən kiməm, nəyəm?*
*Bu "mümkünə" səbəb hansı "imkan"dı?*
*Deyirlər "aləməin yaradanı var"*
*Olsa, varlığına o da heyrandı!*

*Bu söz "küfr" olsa da, "həzyan olsa da,*
*Ancaq təfəkkürün baş zirvəsədir.*
*Hər nədir dünyaca yükün altında,*
*"Ağıl" arabasının nalə səsidir.*

*Xəyal dənizinə çoxlar cumublar*
*Çoxlar təhəyyürə qapılıb, uyub*
*Ancaq bu dediyim haləti, anı,*
*Bilməm kim düşünüb, bilməm kim duyub.*

*Hər şeyi zamanda, məkanda görmək,*
*Təbii bir adət olub insana.*
*Artıb yüksəldikcə elmi, zəkasi,*
*Cür bəcür ölçülər tapılıb ona.*

*Elə də hər zadın qanunun, özün,*
*O, öz ölçüsilə ölçüb həmişə.*
*Heyrətə, əcəbə, qapaldıb onu,*
*Hər nə ölçüsünə düz gəlməyəndə.*

*Halbuki nsanın hələ lap özü,*
*Bütün əcəblərdən əcəbdir, dinməz.*
*Çünki "varlıq" kimi əsas müəmma,*
*Yəqin heç arşına düz gələ bilməz.*

*Heç açar bu sirrin xəzanəsinin,*
*Qapısın hələ də açmayıb–açmaz!*
*Bu günəşdən ışıq vaqeiyyətin,*
*Işığı nədənsə insana çatmaz!*

*Uşaqkən anamın dodaqlarından,*
*Dərin mənali bir söz eşitmişəm.*
*"Könül bir atdır hər minikdən yeyin",*
*Dəfələr bu "atı" minib getmişəm.*

*Getmişəm, getmişəm, getmişəm… hara?*
*Bütün əfsanələr geridə qalıb.*
*Xəyal qədər, xəyal atın sürmüşəm,*
*Ayağı axsayıb, nalını salıb!*

*Çatmamışam aydın bir həqiqətə,*
*Ancaq bir söz desəm qınama məni.*
*Bütün varlıqları görüb keçərkən,*
*Hər yerdə görmüşəm özümü, səni.*

*Fikirsiz duyğusuz çox şey görmüşəm,*
*Bir yox, iki yox, bu dünya – aləmcən.*
*Lakin heç halətdə "fikri", "duyğunu"*
*Ayrı görməmişəm "fikirləşəndən"*

*Quru boş "fikr" yox "fikirləşəndir",*
*Bütün varlıqları duyur– anlayır.*
*"Anlanan" olmasa nə anlaşılar?*
*İş "anlayış"da yox "anlananda" dır.*

*O dur ki, yüzü – yüz ayə deyə mən,*
*Dünyanı, insanı, dana bilmirəm.*
*Baş verən ən kiçik hadisəni də,*
*Mənasız, səbəbsiz, sana bilmirəm.*

*Yolun çəkib gedən bu qafilənin,*
*"Kəmal" adlı yüksək bir məqsədi var.*
*Bu gedişdə insan həm yolkəsəndir,*
*Həm qafilədir, həm qafilə salar!*

*Şeytan da, "mələk" də, "cin" də, "pəri" də,*
*Onun yonduğudur – yaratdığıdır.*
*Hər nədir özüdür, "xeyir"də, "şər"də,*
*Öz yaratdığıdır, oyatdığıdır!*
*Ayaqlar qabardır, yollar daşlıdır,*
*Hər atdımda müdhiş bir uçurum var.*
*Lakin "qafiləni" çəkir aparır,*
*Sönməz bir iştiyaq, dönməz bir ilqar.*

*Yorqunlar yorulub qaldıqcan, çovuş,*
*Yeni yolçulara gəl, gedək – deyir.*
*Yiyəsiz qalmayır "dəmir çarıqlar"*
*Atalar çıxarır, oğullar geyir.*

*Əgər çıxa bilsək "mücərrəd"likdən*
*Həyatı həqiqət gözü ilə görsək,*
*Ölüm həyat – deyə, yenilik – deyə,*
*Bir dəyişikligə çeviriləcək.*

*Bir dəyişiklik ki, nəticəsində,*
*Çürük çevriliri cavan qüdrətə.*
*"Qafilə" yeni güc, yeni qüvvətlən,*
*Yolun çəkib gedir əbədiyyətə.*

*Demək "Xəyyam"ların əsəflənməsi,*
*Yersiz olmasa da, Ancaq yalnışdır.*
*"Küzəçi" yeni bir "Qədəh" düzəldir*
*Dalıca köhnəni "çalır sındırır".* *

*–Ömər Xəyyamin " **camist ke əql afərin...**" rubisinə işarədir.

*Çətinliklər bizə basğın edirsə,*
*Silahsız deyildir həyatda insan.*
*Təbiət tükənməz qüvələrini,*
*Ona qul yaradıb yaradan zaman.*

*Ömür burqanına atılan insan,*
*Sanma əl – qol çalıb axır boğulur.*

*Bu vuruşmalardan, "ziddiyyət"lərdən,*
*Yenilik cücərir, "kəmal" doğulur.*

*Burda ölməz bir söz düşdü yadıma,*
*"Sabir" dən o böyük, ölməz insandan:*
*"Bu çaxnaşmaları veranlıq sanma,*
*Çalxanır ayrılır kərə ayrandan".***

**-Mirzə Əiləkbər Sabirin: " **sanma əzdilcə fələk bizləri viranliq olur...**" şerinə işarədir.

*Yenə də şeirimin dənizi daşır,*
*Qoy daşsın, dalğası daha yüksəlsin.*
*Dağıtsın şeiri həzyana çəkən,*
*Sarsaq itginlərin qarğı köməsin*

*Oxucum, sən tanıq ol*
*Bəlkə də "belə deyil*
*Almıram mən özümə"*

*Deyirlər bu sözlərlə,*
*"Baş sağlığı verirəm*
*Mən özüm, öz – özümə"!*

*Günlər ömür yolunda,*
*Sim ağacları kimi,*
*Gəlib keçir birbəbir.*
*Hamılar görə bilmir*
*Bu yolun, bu gedişin,*
*Axırı hara gedir.*
*Bəzən düşgün xəyallar,*
*Zəhləsiz şəbəh kimi,*
*Mənə də qarşı durub.*

*Sarsıdıcı duyğular,*
*Ölüm zınqırovu tək,*
*Qulağımda zəng vurub:*

*Məgər bu həyat nədir?*
*Görünməz bir məqsədin,*
*Daşlı–torpaqlı yolu?*

*Yaxud Dünya adlanan,*
*Bu "susuz biyabanda",*
*Bir yarımçıq küzə su?*

*Hər "mənasız bir həvəs"*
*Yandırır içimizi*
*İçdirir onu bizə?*

*"Həvəs"lərin sayı yox*
*Ətəş, sönülməz ətəş*
*Boşalır hər an küzə?*

*Mənə belə gəlib ki,*
*Bir dustaq məhkum kimi,*
*Dirəgə bağlanmışam.*

*Əcəlin dələr oxu,*
*Bağrımı yarmaq üçün*
*Növbətə dayanmışam.*

*Düşünmüşəm o anı.*
*Müntəzir məhkumların,*
*İztirabın, dəhşətin.*

*Görmüşəm boş xəyaldır,*
*Özüm də anmayıram,*
*Məhkumların halətin.*

*Qoy tək bir ədəd kimi,*
*"Mücərrəd"ligə cuman,*
*Doğurçuluq məhkumlar,*

*Belə düşünsün ancaq*
*Məncə ömrün, həyatın,*
*Başqa həqiqəti var.*

*Qoy hansı itgin səfil,*
*Əfyunun kölgəsində,*
*Baş atıb yatır, yatsın,*

*Öz aynasına baxsın.*
*Möhtəzir əllərilə,*
*"Abestərə" yaratsın.*

*Mən gördügüm dünyada,*
*Hər şey aşkar, aydındır.*
*Günəş var, işıq salır.*

*İnsanlar məhkum deyil,*
*Çiçək açır, bar verir,*
*Həyatından zövq alır.*

*İnsanlıq var, dostluq var,*
*Sevgi var, məhəbət var,*
*Mən gördügüm dünyada.*

*Təmtəraqlı bir dastan,*
*Təntənəli bir aləm,*
*Əzəmətli bir məna.*

*İnsan tək özü deyil,*
*Keçmişi, gələcəyi,*
*Eşqi var, məqsədi var.*

*Quru boş "xəyal" deyil,*
*Bu aləm, bu kainat,*
*Bu qış, bu yay, bu bahar.*
*İtil, ey düşgün xəyal!*
*Səfil röyalarınla,*
*Dünyamdan çıx, tək dolan!*

*Get varlığı, həyati,*
*Eşqi, dostu, insanı,*

*Hər nə ki sanırsan san!*

*Mən tək özüm deyiləm,*
*Xalqımın, ellərimin,*
*Nəbzi mən ilən vurur.*

*Hər qəlbim çırpınarkən,*
*Köksümdə bir ürək yox,*
*Milyon ürək çırpınır!*

*Mən o kəpənəyəm ki,*
*Dünyada həyat adlı,*
*Şöləyə vurulmuşam!*

*Yansam da bakim yoxdur*
*Əzəldən bu sevda da,*
*Yanmağa doğulmuşam!*

*İçimdə, ürəyimdə,*
*İnsan idealının,*
*Üfüqsüz dünyası var.*

*Eşqimin, inamımın,*
*Dalğası dağlar boyda,*
*Sahilsiz dəryası var.*

*Mən tək özüm deyiləm*
*Keçmişdən doğulmuşam,*
*Məndən doğur gələcək.*

*Mən tək özüm deyiləm*
*Çürüsəm də, ölsəm də,*
*Varlığım ölməyəcək!*

*Qoyun sarsaq səfillər,*
*Söyləsin belə deyil*
*"Almıram mən özümə"*

*Desinlər bu sözlərlə,*
*"Baş sağlığı verirəm –*
*Mən özüm, öz – özümə"*

*Aşıq çal sazıvı aç dastanıvı*
*Çaldığın nəğmələr həyat marşıdır.*
*İnsanın həyatı, yolu vuruşdur*
*Vuruşu zülmətə, zülmə qarşıdır.*

*Həyat tək bu saat, tək bugün deyil*
*Dünəni varımış, sabahı da var.*
*Keçən gün bugünü doğduğu kimi,*
*Bugün də vaxtıyla sabahı doğar.*

*Danış gözüm aşiq, gözüvə qurban,*
*Keçmişlərdən danış, dünəndən danış,*
*Özüvə, sazuva, sözüvə qurban,*
*El – obadan danış, vətəndən danış.*

*El – oba sözündə, vətən sözündə,*
*Yəqin bir ülviyyət, bir həqiqət var.*
*Boş beyin adamlar deyilmiş şəksiz,*
*Bu yolda baş verib, canın qoyanlar.*
*Vətəndir həyatın, ömrün hamısı*
*Vətənsiz insanın günü hədərdir.*
*Vətəndir igidin irzi–namusu*
*Vətənə yan baxan bir dərbədərdir.*

*Üfüqsüz göylərdə qanadlansa da,*
*Dönüb yuvasında daldalanar quş.*
*Vətənsiz yaşayan səhman tapanmaz*
*Xarabada yatar uğursuz bayquş.*

*Danış, dilim aşiq, dilin var olsun,*
*Ardı kəsilməsin qoy bu dastanın*
*Danış keçənlərin iziylə bəlkə,*
*Əlindən yapışaq yol axtaranın.*

*Danış, şirin canın əlində tutub*
*Ölüb vətənini yaşadanlardan.*
*Danış, çiraq kimi özünü yaxıb,*
*Dünyamıza ışıq parladanlardan.*

*Elində yaşayır, el üçün ölən*
*Odur ki, el əziz, vətən əzizdir*
*Ölməz dir elinin əməyin bilən*
*Nankor, el nə bilir – vətən nə bilir.*

*Fəqət özü üçün yaşayan zəlil,*
*Beş günlük həyatdan göz yuma bilməz!*
*Özün keçmişindən ayıran səfil,*
*Heç vaxt gələcəkdən pay uma bilməz!*

*Ancaq eli üçün yaşayanların*
*Ölüb getmək ilən ömrü qurtulmaz*
*Ölümlə – həyatda bir bütünlük var*
*Gül tuxum olmasa,tuxum gül olmaz.*

Xanlarxanı Xan Bayındır,
Bir gün yerdən durmuş idi
Ağban evin qara yerin,
Üzərində qurmuş idi.

Alaseyvan göy üzünə,
Ucalıban aşınmışdı.
Minbir yerdə ipək xalça,
Döşənmişdi,salınmışdı.
İç Oğuzu, Dış Oğuzu,
Qonaqlayıb oturarkən,
Doqquz tümən Gürcüstanın
Xəracını gətirdilər.
(Bir gürz, bir at, bir də qılınc.)

Bayındırxan, bərk pərt oldu.
Çağırdılar ”Dədəm Qorqud”
Gələr oldu.
Şadlıq çaldı:
–Xanım niyə pərt olubsan?
Deyə – sordu.
–Dədə necə pərt olmayım?
Hər il bollu qızıl – gümüş
Pul gələrdi
Bəylərimə, ellərimə,
Paylayardım, könülləri,
Xoş olardı.
İndi bunu kimə verim,
Kimlər qalsın?
Qorqud Dədə:
Hər üçün ver bir igidə,
Pasdar olsun sınırlara
Yurdumuzun, ölkəmizin,
Sərhədlərin, gözətləsin.

”Kimə verim?” deyə yenə
Xanlarxanı soruşarkən,

Qorqud Dədə,
Sağa – sola, nəzər saldı
Heçkimsədən səs çıxmadı
Ancaq adlım igitlərdən,
”Bəkil” adlı bir bəy qalxdı
Dədə, üzün ona tutdu:
–Sən nə deyirsən?

İgit Bəkil yeri öpdü,
Uru durdu, razi qaldı.
Dədəm Qorqud öz əlilə
Mərd igidə,
Qılınc asdı, əmud asdı,
Şahbaz ata mindiribən,
Hümmət verdi, yola saldı.
İgit Bəkil, ellərilən həlallaşıb,
Obasını qalxızıban,
Köçün çatdı, ”Bərdə – Gəncə”
Diyarına köçdü getdi.
Gürcüstanın sərhədində
Otraq etdi.
Sərhəd üstə ayıq – sayıq,
Keşik çəkər,
Hər yandan yad baş qovzasa,
Başın əzər.

İldə bir yol Bayındır xan,
Divanına qonaq gələr.

Yenə bir il Xanlarxanı,
Bəkil bəyi çağrıtdırdı
Bəkil gəldi.
Peşkəş çəkdi, ulu xanın,
Əlin öpdü.
Xan,
Bəkili ağırladı.
Xələt verdi, xərclik verdi,
Üç gün tamam qonaqladı.
Dördüncü gün:
–Üç gün daxı Bəkil xanı,
Ov ətilən qonaqlayaq,
Bəylər! – Dedi
Xanlar hamı, yaraqlandı,
Silahlandı,
Ov ovlandı, quş quşlandı.
Sığın – keyik, ov tutdular ,
Çığırtdılar.
Yeyib – içib oturarkən,
Hər tərəfdən söhbət düşür,
Xanlar şişir:

Kimi özün, atın öyür,
Kimi özün, yayın öyür.
Bir parasi,
Kəndirindən, qılıncından,

Tərif deyir, içir, yeyir.
Bəylərbəyi Salur Qazan,
Nə özün, nə atın öydü.
Nə oxun, nə yayın öydü.
Alp ərənlər hünərindən,
Tərif dedi.

Üç yüz atmış comərd igid,
Ova varsa,
Sığın – keyik üzərinə,
Axın olsa,
Bəkilbəy, nə yay götürər,
Nə ox atar.
Nə xəncər, nə qılınc taxar.
Keyiklərin dalısıca
Atın salar,
Buğasının, sığırının,
Boğazına çiriş atar,
Çəkər tutar.
Arığ olsa, qulağını –
Alıb dələr, azad eylər.
Ovda bəlli olsun – deyə.
Səmiz olsa, boğazlayıb,
Başın kəsər.
Xanlar hər vaxt keyik tutsa,
Qulağında deşik olsa,
”Bəkilindir bu ov”– deyə
Göndərərlər Bəkilbəyə.

Bəkilxanın bu işindən,
Söhbət düşdü,
Xan soruşdu:
–Mərə bəylər bu iş, hünər,
İgitdəndir ya atdandır?
Bəylər hamı:
–İgitdəndir!
Yox!
Atalar demişlər: ”At –
İşləməsə ər öyünməz”
Böyük hünər atınkıdır.
Deyə – Qazan Nəzər verdi.

Söz Bəkilə ağır gəldi:

–Alp ərənlər sırasında,
Yaxşı məni quşqunumdan,

Zığa basdın deyə – durdu,
Bayındırxan bəxşayışın,
Qabağına töküb atdı.
İgitlərin götürübən,
Öz evinə varıb getdi.
Yurda yetdi.

Oğlanları qarşı gəldi,
Dindirmədi – qonuşmadı.
Ağca üzlü xatınılan,
Kəlmə verib danışmadı

Xatın baxıb söy – söylədi
Yoldaşına nələr dedi:
–Göz açıban görüşdüyüm,
Könül verib sevişdigim,
Qızıl taxtım, bəy igidim,

Qalxıbanı öz yerindən
Uru durdun.
Başı uca, köksü qaba,
Dağlar aşdın
Axıntılı gur sulardan,
Aşıb keçdin.
Ağ alınlı Bayındırxan–
Görüşünə varıb getdın
Bəylər ilə yedın–içdın.
İsti qanlı, el–qövmlə,
Sən görüşdün.
Başın nədən qalmaqaldır?

Xan yanından qayıdırsan,
Yedəgündə şahbaz ayğır,
Atun hanı?
Mərd arxanda altun ışıq,
Cübbə hanı?
Ala gözlü igitlərin,
Oxşamazsan bu nə haldır?

Aslan igit,
Xatınına cavab verdi
Nələr dedi:

–Qalxıbanı öz yerimdən
Durar oldum
Qara yallı qazılıq atı,
Bütün mindim.
İri qubba Aladağı–
Dünən aşdım.
Axıntılı gur çaylardan,

Gecə keçdim.
Bayındırxan divanına,
Çapar yetdim.
Ala gözlü igitlərlə,
Yedim–içdim
İsti qanlı el – qövmlə,
Görüş – gördüm.
Xanımızın könlü bizdən,
Dönmüş gördüm
Çatin köçü sası dinli,
Gürcüstana köçək! Dedi
Xatın aydır:
–Bəy igidim;
Mərd ərənlər öz elindən
Üz döndərməz!
Ellərinə asi olan,
Həyatından xeyir görməz,
Üzü gülməz.
Pak ürəkdə – kədər olsa,
Al – qırmızı şərab açar.
Sən gedəndən qarşı yatan –
Qara dağlar ovlanmamış.
Qayalardan ceyran qaçar,
Bir neçə gün ova var get.
Qoy açılsın könlün igit.

Bəkil gördü xatınının
Ağlı iyidir.
İgitlərin atlandırıb,
Ova getdi.

Pozğun igit ov ovlarkən,
Bir yaralı maral gördü.
Dalısıcan atın saldı.
Yay çirişin buğacığın
Boğazına saçıb atdı.

Buğa keyik, acımışdı.
Can dərdindən sıçrayıb,
Uçurumdan özün atdı.
At,
Tovunu alanmadan,
Dağdan uçdu.
Yıxılıban qaba ləşi,
Xan Bəkilin ayağının,
Üstə düşdü.
Sağ ayağı sınar oldu
Ala gözü yaşa doldu:

–Ulu oğlum – qardaşım yox…
Deyə – bağrın dərd ovxardı.
Biləgindən gəz çıxarıb
Atının tərkini tutdu.
Xəftan altdan ayağını–
Sarıyaraq,
Ovçulardan ayrı–iraq
Özün atın üstə saldı.
Ordusuna dönüb vardı.

Oğlu ”Əmran” qarşı gəldi
Atasını bənizi qaçıq,
Yar – yoldaşı yanında yox,
Bükük gördü.
Körpə aslan söy – söylədi,
Babasına nələr dedi:

Qalxıbanı öz yerindən,
Duran baba,
Qara yallı qazılıq atın,
Minən baba,

Üç yüz çabıq igidinlə
Bu dağlara ova çıxdın.
Azğın dinli,
Qara donlu, kafərlərə –
Tuş oldunmu?
Ala gözlü igidlərin
Qırdırıban qovuldunmu?

Ağız – dildən bircə kəlmə –
Xəbər mənə.
Qara başım qurban olsun –
Ağam sənə!
Düşgün igit, oğlanının –
Cavabında, söy–söylədi
Görək Bəkil, nələr dedi:

–Oğul – oğul, canım oğul,
Qalxıbanı öz yerimdən
Uru durdum.
Ala dağlar üzərinə
Ova vardım.
Qara donlu kafərlərə,
Tuş olmadım.
Ala gözlü igitlərim,
Qırdırmadım,
İgitlərim sağ, əsəndir.
Canım oğul!

At üstündən götür məni.
Döşəyimə yetir məni.
Üç günə tək xoşluğum yox!
Aslancığın əmliyi də ,
Aslan olur.
Körpə aslan atasını,
At üstündən qarvaladı,
Bir an içrə,
Yatağına yetiribən,
Cübbəsinə bürgələyib,
Otağının qapısını,
Qapaladı.

O tərəfdən Xan Bəkilin –
Yoldaşları baxıb gördü,
Ov pozulub.
Dağılışıb,
Evlərinə qayıtdılar.

Bəkil beş gün divanında,
Görünmədi.
Ayağının sındığını,
Heçbir kəsə bildirmədi.

Gecələrin birisində,
Dərd igidi canıxdırdı.
Yatağında inildəyib,
Zarlıq qıldı.
Xatın sordu:

–Bəy igidim,
Qalabalıq çağlarında,
Üzərivə yağı gəlsə
Qayıtmazdın.
Yançağıva dəmirlicə
Ox toxunsa, batıb dəlsə,
Əyilməzdin.
Bir yasdığa baş qoyduğu,
Qoynundakı həlalına,
Məgər kişi
Öz sirrini deməz olur?

Söylə mənə nədir halın?
–Düşgün Bəkil:
Qıçım sınmış mərd görklüm.
Ov – ovlarkən atdan düşdüm.
Sirrim budur.

Deyə – aydır.
Deyilən söz gizli qalmaz.
Xatın dedi – qulluqçuya
Qulluqçu da qapıçıya.
Otuz iki dişdən çıxan,
…………….
Doldu hər yan!

–”Bilirsənmi nələr olmuş?
Bəkilxanın qıçı sınmış…”
Deyə – hamı pıçıldadı.
Düşmənların casusları
Casusladı.
Gürcüstana çuğul getdi.
”Təkur şaha” xəbər yetdi.
Təkur aydır:
Hökmüm budur:
Qalxıbanı yerdən durun
Xan Bəkili yatan yerdə,
Basıb tutun!
Ağ əllərin dalda çatın
Qafillicə başın kəsin
Alca qanın yerə tökün
Elin- günün basıb soyun
Ordusunu yəğmalıyın
Ev–uşağın əsir qılın!
Məgər Təkur məclisində,
Casusu var Bəkilin də.
Varıb gəldi:
–Nə yatıbsız mərə durun
Başınıza çarə qılın
İş belədir!
Üstünüzə yağı gəlir,
Deyə – xana xəbər verdi.

Düşgün igit,
Sağa baxdı, sola baxdı,
”Göylər qısnaq, yerlər qatı”
Heç tərəfdən mədəd yoxdu.
Oğlancığın çağırıban,
Söy söylədi, nələr dedi:
Oğul – oğul canım oğul,
Aydınlıca göz ışığım!
Əl ağacım, qanım oğul,
Sən bax mənim bir işimə
Nələr gəldi gör başıma.

Bayındırxan məclisindən,
Dura gəlib.
Qazılıq atım bütün minib,

Quş – quşladım, ov ovladım.
Boynu sınsın ala ayğır
Sürüşübən büdürədi,
Mən cığazı yerə çaldı.
Sağ ayağım burxuluban,
Sınar oldu.

Qara – qara bu dağlardan,
Xəbər aşdı.
Qanlı–qanlı gur sulardan,
Aşıb–keçdı.
Azğın dinli düşmənlarım,
Xəbər tapdı.
Ala atlı Şüklü Məlik,
Qatı qusmuş,
Mən Bəkili, yatar yerdə –
Tapın, demiş.
–Qarğısından ağ əllərin,
Çatın demiş.
Ordusunu yağmalayıb,
Çapın demiş.
Ağca üzlü qız – gəlinin,
Əsir qılıb, tutun demiş!

Qalxıbanı öz yerindən,
Durgil oğul.
Qara yallı qazılıq atın,
Mingil oğul.
Canım oğul öpüm gözün!

Əyri yatan bu dağlardan,
Daşğın axan gur sulardan
Keçib gedib,
Ağ alınlı Bayındırxan,
Divanına yetir özün.
Ağız dildən ulu xana
Salam verib,
Qırış günü öndən təpən,
Bəylərbəyi Xan Qazanın
Əlin öpüb,
Söyləgilən:
Ağsaqqallı qoca Bəkil,
Bükülübən bükük qalmış.
Söyləmiş ki, hələ həlbət,
Özün mənə yetir əlbət:
Hüdudumuz pozuluban,
Ölkəmizə yad soxulur.
Qız – gəlinim düşmənlara
Əsir olur.
Bəlli bilgil!

İgit oğlan babasını
Dinləyərək, söy – söylədi,
Baxaq görək quzu aslan
Nə düşünüb, nələr dedi:

–Canım baba, gözüm baba,
Nə söylərsən, nə ağlarsan?
Ürəgimi nə dağlarsan?
Qalxıbanı öz yerimdən,
Durmağım yox!
Qara yallı qazılıq ata,
Minməyim yox!
Əyri qubba Aladağı,
Ilqayıban aşmağım yox!
Ağ alınlı Bayındırxan,
Divanına getməyim yox!
Qazan kimdir? Onun əlin,
Öpməyim yox!

Altındakı ala atın,
Vergil mənə!
Meydanlarda çapdıraram,
Sənin üçün.
Əynindəki bərk əyinli,
Dəmir donun vergil mənə,
Yeni yaxa sökdürərəm,
Sənin üçün,
Qara polad qılıncıvı,
Vergil mənə,
Qafalıca baş kəsərəm,
Sənin üçün.

Ağ yeləkli ötgün oxun,
Mənə vergil.
Ər bağrından keçirdərəm,
Sənin üçün.

Üç yüz atlı ala gözlü
İgitlərin, vergil mənə,
Yoldaşlaşıb döyüşərəm,
Vuruşaram, sənin üçün.

Qoca Bəkil fərəhlənib:
–Oğul, ölüm ağzın üçün!
Ola mənim çirağımı,
Yandırasan oğul məgər,
Dövranımın keçdiyini,
Dost – düşmənlar görmiyələr.

Gətiriniz mərə mənim

Geyimimi, oğlum geysin!
Al ayğırım çəkin mənim
Oğlum minsin!
El hürkmədən meydan açsın!
Deyə – qalxıb dəstur verdi.

Nər oğlanı donatdılar.
Atasının, anasının,
Əlin öpüb,
Üç yüz atlı arxasında,
Meydan deyib yola düşdü.

”Ala ayğır”, yağı iyin,
Alar isə, ayağını
Yerə vurar.
Toz qoparar.
Düşmən aydır:
–Mərə bu at Bəkilindir.
Biz qaçırıq! Təkur aydır:
Bir də yaxşı baxın balam
Bu gələn ər Bəkil olsa,
Sizdən qabaq mən qaçaram.

Gözətçilər göz qoyuban
Gördülər at Bəkilindir
Bəkil deyil ancaq gələn.
Qayıdıban gördüklərin,
Təkur şaha söylədilər.
Təkur aydır:
–Oğlan xalqı quş ürəkli,
Qorxaq olur.
Üç yüz igit seçilibən,
Şaqqıldatma – şaqqıldatsın.
Qorxsun qaçsın!
Üç yüz adam şaqqıldatma
Çatladarkən,
Sarsaq yağı söy – söyləyir
Nələr deyir:
–Oğlan–oğlan həramzada,
Altındakı al ayğırı
Arığ oğlan.
Qara polad uz qılıncı
Güdək oğlan.
Ağtozluca qatı yayı
Sınıq oğlan.
Belindəki doxsan oxu
Seyrək oğlan.
Yanındakı yoldaşları

Qorxaq oğlan,
Qaranqulu göz cığazı
Çöngə oğlan.
Şüklü Məlik, oğlan sənə
Qatı qusmuş.
Meydandakı oğlanı
Tutun demiş.
Ağ əllərin qarğısından
Çatın demiş.
Görklücə qara başın
Kəsin demiş.
Alca qanın yer üzünə
Tökün demiş.
Ağ saqqalı baban varsa
Bozlatma gəl,
Ağ birçəkli anan varsa
Ağlatma gəl.
”Yovşan dibi bərk olmaz
Yalqız igit alp olmaz”
Qada tutmuş qavat oğlu
Qavat oğlan,
Qayıt geri dön buradan!

Körpə Əmran,
Yağıların cavabında
Söy–söylədi, nələr dedi:

–Hərzə–hərzə mırıldama,
İtim yağı!
Altımdakı al ayğırı
Bəyənməzsən,
Səni görcək oynar qalxar.

Əynimdəki dəmir donum
Bəyənməzsən,
Səni görcək çiynim sıxar.

Belimdəki qılıncımı
Bəyənməzsən,
Səni görcək qının kəsər.

Əlimdəki qarğı süngüm
Bəyənməzsən,
Səni görcək köksün dəlib,
Göyə pırlar.

Ağcatozlu qatı yayım
Bəyənməzsən,
Səni görüb zar – zar inlər.

Sadağımda doxsan oxum
Bəyənməzsən,
Səni görüb qabın dələr.

Yanımdakı igitləri
Bəyənməzsən,
Hol verərsəm səni dənlər.

Alp igidə qorxu vermək –
Ayıb olur.
Bəri gəlgil dirəşəlim,
Mərə yağı!

Yağı aydır:
Oğuzun arsızı, Türkəmənin dəlisi
Bənzəyir bir birinə.
Sən buna bir bax!
Təkur aydır:
”Varım görüm Bəkilbəyin
Nəyidir bu”.
–Mərə oğlan, altındakı
Al ayğırı tanıyırıq,
Bəkilindir, Bəkil hanı?
Əynindəki dəmir donun
Bəkilindir, Bəkil hanı?
Yanındakı igitlərin
Bəkilindir, Bəkil hanı?
Bəkil olsa,
Axşama tək vuruşardıq.
Ağcatozlu qatı yaylar
Dartışardıq.
Ağ yeləkli ötgün oxlar
Atışardıq.
Sən Bəkilin nəyimisən?
Söylə bizə!

Bəkil oğlu:
–Mərə yağı, məgər məni
Bilməzmisən?
Ağ alınlı Bayındırxan
Sərkərdəsi,
Bəylər bəyi Salur Qazan,
Qarındaşı Qaragünə,
”Dönə bilməz Dülək Vuran”,
”Dözən” oğlu ”Dəlirüstəm”,
Ağ – boz atlı ”Beyrəkxan”,
Dün atama qonaq gəldi.
Bugün bəylər oturuban,
İçərlərdi, casus gəldi.
Atam Bəkil,

Altındakı al ayğırın
Mənə verdi.
Qara polad qılıncını
Mənə verdi.
Qarğı dallı süngüsünü
Mənə verdi.
İgitlərin mənə qoşdu.
Tanımırsan tanı məni
Adım Əmran, Bəkil oğlu!
Bəri gəlgil tutuşağım.
Aslan olur aslan oğlu!

Təkur aydır:
–Qatlan mərə qavat oğlu
Sənə hərif mənəm – deyə
Altı pərli əmudunu
Ələ aldı.
Oğlan başa qalxan çəkdi
Təkur, ağır şeşpərini,
Var gücilə əndirərək,
Yuxarıdan aşağıya,
Qatı vurdu.
Nər oğlanın qalxanının,
Qubbaların əzib qırdı.
Oğlancığı alanmadı.
İki igit əl qılınca,
Qılınclaşdı.
Qılıncları doğranıban
İşdən düşdü.
Qarğı dallı süngülərə
Əl eləyib,
İki ərkək buğa kimi,
Bir – birinə susadılar,
Süngüləri işdən düşdü.
At üstündə bir – birinə
Qıvraşıban, dartışdılar…

Güclu düşmən üstün gəlir,
Azca qalır körpə Əmran,
Zəbun ola.
Quzu aslan tanrısına
Sığınıban:
Ucalardan uca tanrı
Kimsə bilməz necə tanrı
Ey Adama tac veribən,
Şeytanı bir günahilən
Lənət edib, dərgahından
Qovan tanrı!

İbrahımı xam dəriyə

Çulqayıban ot içinə
Atan zaman,
Odu gülşən edən tanrı!
Birliginə sığınmışam
Əzizullah, xocam tanrı,
Mədəd – dedi

Yağı aydır:
–Mərə oğlan, sənin bir tək
Tanrın olsa mənim ancaq
Yetmiş iki allahım var!

–Məlun yağı, sən bütlərə
Yalvarırsan.
Mən göyləri, aləmləri,
Yoxdan vara gətirən, bir
Allahıma sığınıram!

Tanrı təala, ”Cəbrəilə”
Hökm elədi:
Hey Cəbrəil! O quluma,
Qırx kişinin gücün verdim.

İlahının mədədilən,
İgid oğlan yağısını
Başı üstə qovzayıban,
Yerə çaldı.
Alca qanı düdük kimi,
Damağından şoruldadı.
Şahin kimi
Sinəsinin üstə qonub
Boğazını ələ aldı.
Kafər aydır:
–İgit aman!
Söylə sənin dinin nədir?
Mən də ona iman tapdım.
Sən olduğun dinə girdim.

Qalan kafər bunu görüb,
Hürküb qaçdı.
Axınçılar, yağıların
Elin – günün qarət edib,
Qız – gəlinin əsir qıldı.

Qoçaq Əmran, babasına
Muştuluqçu göndəribən,
Qırımımı aldım – dedi.

Ağ saqqallı Bəkil qoca
Oğlanına qarşı gəldi.

Boynun qucdu, alnın öpdü,
Gül–çiçəkli ala dağdan,
Yaylaq verdi, ölkə verdi.
Qara qıçlı yügrək atdan,
Ilxı verdi, tövlə verdi,
Ağca üzlü mərd oğlana,
Ağ duvaqlı gəlin aldı.
Ağ qoyundan şülən verdi.
Qənimətdən ulu xana
Peşyek çıxdı.
Oğlancığın götürübən,
Xanlar xanı divanına
Gedər oldu.
Padışahın əlin öpdü.
Xanlarxanı nər oğlana
Qazan oğlu ”Bəy Uruzun”
Sağ yanında, yer göstərdi.
Cübbə verdi, xələt verdi.

Çağırdılar ”Dədəm Qorqud”
Gələr oldu, şadlıq çaldı.
Qoç Əmranın mərd adına,
Dastan düzdü, qoşma qoşdu.
Hümmət verdi:

Yerli – yerli qara dağlar,
Alçaxlanıb yıxılmasın.
Kölgəlicə ağacların,
Qol – budağı, qırılmasın,
Daım axan aydın sular,
Azalmasın, qurumasın.
Mərd ocağı kor olmasın.
Dünya varkən yanar dursun.

# 6
# Təpə Göz

**_Başlanış_**

*Son illərdə*
*Bir şərqli biliklinin*
*Söhbətinə qulaq asdım:*
*–Səvadsız bir ailədə*
*Mən doğulub boy atmışam.*
*Atam, bütün yazılardan,*
*Təkcə kiçik ədədləri,*
*Tanıyardı.*
*Bir də niyə,*
*Əyri – üyri bir xət ilən*
*Öz adını cızmalardı.*

*Tayfamızda ağ – qaradan*
*Başı çıxan,*
*Bircə mənim anam idi.*
*O da ancaq düz ya qələt,*
*Fəqət quran oxuyardı.*

*Bütün bizim kəndimizin*
*Bilgilərin toplasaydın,*
*Neçə beyt şeir, neçə nağıl,*
*Olduğumuz vilayətin əhvalatı,*
*Neçə dastan, neçə möcüz,*
*Neçə – neçə dayaz sözlər,*
*Neçə böyük şəhr adından,*
*Artıq bir şey toplanmazdı,*

*Bizim kətdə heç bir evə,*
*Kitab – mitab dolanmazdı.*

*Ancaq bəzən*
*Yaşlıların danışdığı,*
*Nağıllardan, dastanlardan,*
*Çox maraqlı əfsanələr*
*Yadımdadır.*
*Biri budur:*

*"Yer altında bir ölkə var*
*"Bir gözlülər" ölkəsidir*

*O diyarda sübh olanda,*
*Bizim yerdə günəş batar.*
*Eləcə də demək bizim*
*Gündüzümüz,*
*Bir gözlünün gecəsidir.*

*Adamcıldır bir gözlülər:*
*Su yerinə qan içərlər"!*

*Bizim eldən*
*İlk məktəbə gedən uşaq,*
*Mən olmuşam.*
*Oxuduğum kitablarda,*
*Bizim axşam o diyarda*
*Səhər olan bir torpaqdan,*
*Əcəb sözlər yazılmışdı.*
*O yerlərin çox da belə*
*Ehtiramlı – ehtişamlı,*
*"Təməddün"lü bir ölkələr*
*Olduğundan, söz çox idi.*
*"Bir gözlüdən", "Adamcıl"dan,*
*"Su yerinə qan içən"dən*
*Ad yox idi.*

*Mən məktəbi bitirmədən*
*Müharibə başlanmışdı*
*Qafilcədən bir gün yadlar,*
*Gündüzləri,*
*Bizim yerdə gecə olan*
*"Adamzadlar"*
*Çağrılmamış qonaq kimi,*
*Yurdumuza soxuldular.*

*Gördük iki gözləri var,*
*Bizə belə dedilər ki:*

*Lingi uzun, ərsin boğaz,*
*Oturarkən, ayaqların*
*Masa üstə dırmaşdıran,*
*Bu daylaqlar,*
*İnsanlığı; azadlığı,*
*"Qorumaqçün"!*
*Vətənindən baş götürüb,*
*Diyar – diyar,*
*Gəzişirlər, dolanırlar!*

*Sonra bizə:*
*Qaraları, kölələri,*
*"Azad" edən,*
*Mübariz bir "Baltaçı"dan*
*Danışdılar.*
*Biz inandıq.*
*Onları çox əziz sandıq.*
*Evimizdə yer – yurd verdik.*
*Onlar üçün "Bar"lar açdıq!*
*..........................!*
*Yemək verdik, içmək verdik.*

*Savaş bitdi.*
*Radiolar, qəzetələr,*
*"İnsaniyyət qalib gəldi"*
*Deyə – Bütün ölkələrə,*

*Çov saldılar.*
*"Azadlıq"dan, "hürriyyət"dən,*
*"Bəşəriyyət huququndan",*
*Sıcırrama – sıcırrama,*
*Söz dedilər,*
*Əyri durub düz dedilər.*

*Biz düşündük.*

*Xub.*
*İnsanıq*
*Burnumuz var,*
*Ağzımız var,*
*Danışmğa dilimiz var.*
*İşləməyə əlimiz var.*
*Dolanmağa yerimiz var.*
*Yaşamağa yurdumuz var.*
*Həvəsləndik.*
*İstədik ki,*
*Ata – baba yerimizdə,*
*İş – işləyək, əkin – əkək,*
*Özümüzə yuva tikək.*

*Dağımızı, daşımızı,*
*Sökək – çapaq.*
*Su çıxaraq, mədən tapaq.*
*Körpələrə məktəb açaq.*
*Yazaq, pozaq.*

*Lakin bizi anmadılar.*
*Əlimizi,*
*Ağzımızı,*
*Dilimizi nişan verdik.*
*Bizi insan sanmadılar!*
*Acıqlandıq.*
*Silahlandıq.*
*"Dəyirmanın suyun sovduq"*
*Ölkəmizdən yadı qovduq.*
*Dünya dedi:*
*Haqq bizlədir*
*Öz evinin qibləsini,*
*Yaxşı bilər hərkəs özü.*
*Haqqin özü, sözün düzü.*

*Göy gurladı*
*Dolu yağdı*
*Yer tərpəndi*
*Tufan oldu*
*Duman qopdu*
*Gün tutuldu*
*Ölkəmizə, düşmən doldu.*

*Dünən evdən qovduğumuz*
*Basıb – yıxıb, boğduğumuz*
*Qanı qaçıq*
*Baldır açıq*

*Ölümcülü, baxdıq gördük*
*Tuman geyib,*
*Xəftan geyib,*
*Qara polad ata minib.*
*At oynadır*
*Qılınc vurur*
*Qılıncından od yağdırır*
*"Dədəm mənə kor deyibən"*
*Hər gələni, vurur salır*
*Şüşə – şüşə qanın alır!*

*Baxdıq – baxdıq mətəl qaldıq.*
*Hər tərəfə nəzər saldıq*
*–Bu nə sirdir?*
*Nə övzadır?*
*Nə aləmdir?*
*Nə dünyadır?*
*Düşmən hardan tuman tapdı,*
*Qılınc tapdı, xəftan tapdı?*
*O yalıncıq*
*O ölümcül*
*Hardan polad ata minər,*
*Şüşə – şüşə qanı neylər?!*

*Gəzdik işin hər tərəfin*
*Araşdırdıq başın, dibin*
*Birdən birə, baxdıq gördük*
*O yöndəmsiz bir gözlünü,*
*O yolsuzu, o tülünü*
*Qəribə bir tükan açıb*
*Matahını, töküb saçıb*
*Silah verir, canlar alır,*
*Piçaq verir, qanlar alır*
*Hər tərəfə atın çapır*
*Axtarır bir quduz tapır*
*Vərhovladır, yasaq verir*
*Xəftan verir, yaraq verir*
*Qudurduban işə çəkir!*
*Millətləri şişə çəkir*
*Əlsizlərin,*
*Məzlumların,*
*Canıxdırır canın alır.*
*Şüşə – şüşə qanın alır!*

*Mən o gündən inandım ki,*
*Sinələrdən – sinələrə*
*Atalardan, babalardan*
*Bizə çatan əfsanələr*
*Çox da belə yersiz deyil*
*Bu sözlərdə dəryalar var.*
*Dəryalarca mənalar var.*

*Radiolar hər nə desə*
*Kim nə desə – nə söyləsə*
*"Kitablarım" hər nə yazsa*
*Bu sözlərdən,*

*Kim yol tapsa – "kim yol azsa"*

*Bir daha mən*
*Tanımışam – tanımışam!*
*Əsrimizin,*
*"Bir gözlüsün".*
*"Təpə gözün"*
*Haralarda*
*Harda – harda*
*..................*
*Hər torpaqda, hər diyarda*
*Tanımışam o qəddarı*
*O quduzu, o kaftarı.*

*Cəlladlara sərdar olub,*
*Sərvər olub, salar olub*
*İnsanları boğur asır*
*Millətlərə, kəsim– kəsir*

*Çaştasına min şüşə qan!*
*Naharına beş yüz insan!*
*Diş qıcırdır, qan – qan deyir*
*Qan içdikcə qan istəyir!*

*Nə indidən, nə dünəndən,*
*Bəşəriyyət doğan gündən.*
*Quduzlarla çəngələşmək*
*Əsrlərdən, əsrlərə*
*Yaşayışdan ayrılmayan,*
*Ardıcıl bir vaqiədir.*
*İlk əzəldən iş belədir!*

*Bəşəriyyət ən qədimdən*
*Bu müqəddəs təlaşını,*
*Quduzluğa, zülmə qarşı,*
*Dayanmayan savaşını,*
*Əfsanələr biçimində,*
*Quraşdırmış.*
*Nişan vermiş.*

*Qan içənlər, adamcıllar,*
*"Bir gözlü"lər pəncəsindən*
*Qurtarmağa can atmasın,*
*Əfsanəvi qəhrəmanlar*
*Simasında,*
*Yaraşdırmış.*
*Əks etdirmiş.*
*"Qorqud Dədə" dastanları*
*Sırasında,*
*"Təpəgözün"  fsanəsi,*
*Bu ardıcıl təşəbbüsə,*
*Ən gözəl bir nümunədir.*
*O belədir:*

Bir gün Oğuz oturarkən,
Üzərinə yağı gəldi.
Qafil Oğuz gecəliklə,
Hürkdü – qaçdı.
Yerin – yurdun, qoydu köçdü.

”Uruz qoca” diyərlər bir –
İxtiyarın,
Oğlancığı düşdü qaldı.
Oğlanı, bir aslan tapdı.
Əmişdirdi.
Oğlan boya – başa çatdı.
Yaşa doldu.

il dolandı, günlər keçdi,
Oğuz yenə,
Öz yurduna, öz yerinə,
Gəldi düşdü.
”Oğuz xanın” ılxıçısı,
Xəbər gətdi:

–Xanım, hər gün qamışlıqdan
Qəribə bir aslan çıxır
Sir – sifəti adam kimi
Ağıl – ağıl
Bir at vurur, qanın sorur.

Uruz aydır:
Bəlkə mənim qaça– qaçda,
Düşüb qalan oğlum ola?

Bəylər mindi.
Boz aslanı qaldırdılar
Oğlancığı peysərləyib
Gətirdilər.

Uruz qoca oğlun alıb
Evə gəldi, şadlıq qurdu,
El – obanı qonaqladı.
Hamı gəldi yedi – içdi.
Ancaq oğlan,
Yerdə – yurdda, dayanmadı.
Ana aslan yatağına,
Qoydu qaçdı.
Gedib tutub gətirdilər,
Yenə qaçdı.
Bir daha da qaytardılar,
Dayanmadı.

Çağırdılar ”Qorqud Dədə”
Gələr oldu,
Oğlancığa öyüd verdi:
Qaçma oğul!
İnsan üçün heyvanlara –
Munis olmaq, yaramazdır.

Sən insansan!
İnsanlarla qayna – qarış,
İgitlərlə oturub dur
Yaxşı at min.
”Qıyan Səlcuq” qardaşındır.
Sənin adın ”Basat” olsun.
Adıvı mən verdim, yaşın
Uca tanrı özü versin.

Uruzun bir çobanı var,
”Qonurqoca – Sarı Çoban”
Çağırarlar.

Uzun illər uzağından
Oğuz eli köç elərkən,
Sarı Çoban öndə köçər,
Kimsə ondan qabaq köçməz.

Yaylağına köçür bir gün
Oğuz yenə.
Sarı Çoban, gedir öndə
Yol üstündə ”Uzun minar” –
Deyilən bir minar vardır.
Minarəyə çatar – çatmaz,
Nagəhandan qoyun hürkdü.
Sarı Çoban baxdı gördü
Minarəyə ”pəri” qonub.

Pəriciklər onu görcək,
Qanad çalıb pırladılar.

Sarı Çoban,
Köynəgini çıxarıban,
Pərilərin üstə atdı
Birin tutdu.
Pəri gözəl, çoban qızğın!
Tamasındı,
Pəricikə əl uzatdı.

Yenə birdən qoyun hürkdü
Qonurqoca,
Qoyunlara qarşı vardı
Pəri qızı pırıldayıb:

–Mərə çoban,
Yengi ildə məndə sənün,
Əmanətin olacaqdır
Gəl algilən
Amma bilki öz elivin –
Başına qada gətirdin:
Deyə – uçdu.

Pəri getdi, çoban qaldı
Ayrılıqdan rəngi soldu
Qara bağrı dərdə doldu

Günlər keçdi, aylar ötdü
Oğuzların köçüş vaxtı,
Yenə yetdi.
Sarı Çoban köç eylərkən,
Uzun minar ayağına –
Gəldi çatdı.
Gördü ki, bir ”yığın” yatıb
Pəri qızı zahir olub:
–Mərə çoban!
Əmanətin gəl al–dedi.
Bil ki ancaq ellərivə
Zəval gətdin!
O ”yığını” çoban görcək,
İbrət aldı
Geri dönüb, əl supana –
Daşa tutdu.
Daş vurduqca ”yığın” şişdi!
Çoban qorxub qoydu qaçdı.

Məgər o gün ”Bayındırxan”
Bəylər ilən seyrə varmış
Uzun minar ayağına,
Yetişdilər.
Gördülər bir “nəsnə” yatıb,
Başı – götü anlaşılmır!
Bəylər hamı,
Dövrə vurub dayandılar.
Endi bir bəy, təpigilə –
Onu təpdi.
Vurduqcan ”nəsnə” şişdi!
Neçə igit – daha endi.
Hey təpdilər, hey böyüdü!

Uruz qoca atdan düşdü
O da təpdi
Məhmiz dəydi, örtülünü–

Dəlib yırtdı,
İçindən bir oğlan çıxdı
Hər birzadı adam kimi,
Ancaq fəqət bir gözü var!
Heyran qaldı, bəylər – xanlar.

Uruz qoca
Onu qapıb, Bayındırxan
Qulluğuna gətiribən:
–Görklü xan, bu oğlanı
Mənə verin. Aslan oğlum
Basat ilən böyüdəyim.

Bayındırxan:
–Sənin olsun deyə – keçdi
Uruz qoca, Təpəgözü
Götürübən, evə vardı.
Buyurdu bir taya gəldi
Təpəgözə əmcək verdi.
Bir sorduqda,
Südün aldı!
İki sordu, qanın aldı!
Üç sorduqda canın aldı!

Bir çox taya gətirdilər,
Hamısını həlak etdi
Gördülər ki, olmayacaq
”At südüylə bəsləyəlim”,
Söylədilər.
Hər övnədə bir qazan süd,
Doyurmadı!

Təpəgözü, bəslədilər.
Gəzər oldu.
Uşaqlarla, oynar oldu.
Uşaqların kimisinin
Qulaqların,
Kimisinin, burnun yedi!
Bütün Oğuz ellərindən
Cana gəlib, acizləyib,
Bəy Uruza dəxil düşüb,
Yalvardılar, ağlaşdılar!

Uruz qoca neylədisə,
Kar kəsmədi.
Naçar olub çıxarıban,
Evdən qovdu.
Pəri qızı uçub gəlib,

Oğlanının barmağına,
Qəribə bir üzük taxdı,
–Oğul sənə ox batmasın,
İti qılınc, bədənivə
Kar kəsməsin! Deyə – getdi.

Bir gözlü qul varıb gedib,
Sərt bir dağda məskən edib,
Yollar kəsdi, adam yedi!
Qorxulu bir quldur olub,
Ad çıxardı.

Üzərinə neçə – neçə,
Adam getdi,
Ox atdılar, ox batmadı.
Qılınc – qəmə, kar etmədi.
Hər gələni tutdu, yedi.
Bütün çoban – çoluqları,
Basıb yeyib, oğuzları
Yeməkliyə, əl eylədi.

Bütün Oğuz toplanıban,
Üzərinə, axın etdi.
Bir ağacı yerli – dibli,
Qopararaq,
Yığınağın üstə atdı.
Atmış adam ağac altda
Həlak oldu.
Qazanxana bir zərb vurdu
Dünya – aləm nəzərində,
Duman oldu!
Qarındaşı ”Qaragünə”,
Qarşısında zəbun oldu,

”Dözən” oğlu ”Alprüstəm”,
Şəhid oldu.
”Düşün qoca oğlu” kimi –
Bir pəhləvan,
Məğlub olub həlak oldu.
”Arıqcandan” iki qardaş,
Şəhid oldu.
Bığı qanlı ”Bügdüz Əmən”,
Qarşısında zəbun oldu.
Dəmir donlu ”Dəli Mamaq”,
Məğlub olub həlak oldu.
Ağ saqqallı ”Uruz qoca”,
Qan qaytardı,
Uruz oğlu ”Qiyan Səlcuq”

Ödün qusdu.

Bütün Oğuz Təpəgözə,
Batanmayıb, hürkdü qaçdı.
Dəli quduz önün kəsdi,
Qaytarıban öz yerində
Otutrdurdu.
Qurtulanı, Oğuz eli,
Yeddi kərə hürkdü qaçdı,
Hamısında qaytarıldı.
Bütünlüklə zəbun oldu!

Çağırdılar Dədəm Qorqud
Gələr oldu.
Yalvardılar, sıtqadılar.

–Çarə qalıb kəsim – kəsək,
Deyə – Qorqud varıb getdi,
Təpəgözə səlam verdi:
–Hey Təpəgöz,
Bütün Oğuz ellərində
Zəbun olub
Bükülübən bükük qalıb
Ayağıvın torpağına,
Məni salıb
Sənün üçün kəsim – kəsmək
İstəyirlər – deyə,  durdu.

–Hər günümə atmış adam
Verin – deyə, dəli quduz
Cavab verdi.
–Oğul bədzat, beləliklə,
Çox keçmədən adamları,
Tükədərsən.
Yeməgivə kimsə qalmaz
Ancaq sənə iki adam,
Beş yüz qoyun gündə verək.

Dəli quduz:
–Eybi yoxdur elə olsun.
İki adam daha verin,
Mənim üçün yemək yapsın.

Dədəm Qorqud döndü gəldi.
–”Yapaqlı” ilə ”Yüklü qoca”
Varsın getsin Təpəgözə –
Aş pişirsin.
Bir də gündə iki adam,
Beş yüz qoyun istəmişdir.

Oğuz buna razı qaldı.
Dörd oğullu birin verdi,
Üçü qaldı.
Üç oğullu birin verdi,
Cütü qaldı.
Cüt oğullu birin verdi,
Biri qaldı.

”Qapıqqan bəy” deyirlər bir –
Kişi varmış,
Cüt oğlunun birin vermiş,
Biri qalmış,
Gün dolandı,
Yenə növbət ona çatdı
Oğlancığın anasına
Xəbər getdi
Qışqırıban zarlıq qıldı.
Başın yoldu, üzün cırdı.

”Uruz oğlu aslan Basat”
Vuruşmaya getmiş idi,
Bu məhəldə, gəldi çıxdı.
Qarı aydır:
–Basat gəldi axın gətdi,
Varıban bir əsir alıb,
Oğlanımı qurtarsanam.

İgit Basat,
Altunluca günlügünü,
Tikdiribən oturarkən,
Xatın kişi varid olub,
Göz gəzdirdi, Basat xana
Salam verdi.
Gözlərindən qan yaş tökdü:

–İç Oğuz da, dış Oğuz da,
Adı bəlli, qatı yaylı,
Uruz oğlu aslan Basat,
Qoltuğuva sığınıram,
Mədəd səndən!
–Nə dilərsən, nə söylərsən,
Qarı aydır:
–Zəmanənin anasından,
Uğursuz bir oğul qopdu.
Oğuz elin, kölgəsində,
Qondurmadı,
Qara polad uz qılınclar,
Bir tükün də kəsənmədi.

Qarğı cida oynadanlar,
Süngü saçdı, dələnmədi.
Qatı yaylı ox atanlar,
Ox atdılar, kar kəsmədi.
Alp ərənlər sərkərdəsi
Qazanxana, zərbə vurdu.
Qaragünə pəhləvanı,
Şəhid etdi
Bığı qanlı Bügdüz Əmən,
Qarşısında zəbun oldu,
Ağ saqqallı xan babava,
Qan qusdurdu.
Qarındaşın Qıyan Səlcuq,
Qabağında ödün süzdü.
Bütün Oğuz bəylərinin
Kimisini zəbun edib,
Kimisini şəhid etdi.
Oğuz eli yeddi kərə
Hürkdü qaçdı,
Qoymaz oldu.
Hər gününə,
İki adam, beş yüz qoyun,
Kəsim dedi, kəsdi aldı.
Yapaqlıbəy, Yüklü qoca,
Getdi ona aşbaz oldu.
Dörd oğullu birin verdi,
Üçü qaldı.
Üç oğullu birin verdi,
Cütü qaldı.
Cüt oğullu birin verdi,
Biri qaldı.

Cüt oğlumun birin yemiş,
Biri qalmış.
Onu daha istəyirlər!
Yenə növbət mənə çatmış.
Canım oğul mədəd səndən!
Xan Basatın qara gözü,
Yaşa doldu.
Qardaş deyə. ellər – deyə
Söy – söyləmiş, nələr demiş:

–Düzlərdə tikilən otaqlarıvı,
O zalım yaxdırıb, yaxdırsın qardaş.
Şahbaz atlarıvı sər tovləsindən,
O zalım seçdirib, seçdirsin qardaş.
Əsrək dəvələri qatarlarından,
O zalım ayırıb, ayırsın qardaş!
Sürü – sürü ağca qoyunlarıvı,
O zalım qırdırıb, qırdırsın qardaş!

Sevib gətirdiyin gəlini səndən,
O zalım ayırıb, ayırsın qardaş!
Ağsaqqal babamı oğul vay – deyə
O zalım bozladıb, bozladsın qardaş!
Ağ üzlü qarıcıq, xatın anamı,
O zalım sızladıb, sızlatsın qardaş!

Yenə demiş:
–Qaranquluq gözlərimin aydını,
Axıntılı sularımın daşğını,
Qarşı yatan qara dağım yoqquşu,
Sarsılmaz dizimin taqəti qardaş!

Qardaşımı əldən verdim,
Deyə – Basat,
Çox ağladı, zarlıq qıldı.
Xatına bir əsir verdi
–Get oğluvu qurtar dedi.

Xatın qaçıb,
Xan Uruza xəbər verdi:
–Nə durubsan oğlun gəldi.
Uruz qoca çox sevindi.
Bəylər ilən,
Oğlanına qarşı gəldi.
Aslan Basat,
Atasının əlin öpdü.
Üzləşdilər, ağlaşdılar,
Anasının çadırına,
Varıb getdi.
Qarı ana, oğlancığın
Qarşıladı
Çox ağladı
Alnın öpdü, qucaxladı.

Xan Basatın gəlişiylə,
Bir də elə fərəh gəldi.
Yemək oldu, içmək oldu.

Basat aydır:
–Bəylər! Qardaş qanı – deyə,
Təpəgözlə hesablaşmaq
İstəyirəm, nə deyirsiz?
”Qazan” burda söy – söyləmiş,
Xan Basata nələr demiş:

–Nə qara əvrəndən doğdu Təpəgöz
Ərşi dolandırdım ala bilmədim,
Qara qaplanlardan qopdu Təpəgöz
Dağlar dolandırdım ala bilmədim.

Qağan aslanlardan oldu Təpəgöz
Ormanlarda qovdum sala bilmədim.
Yenə demiş:

Yüz də igid olsan, yüz də mərd olsan,
İnanma çatasan Qazana Basat,
Ağ saqqal babavı, xatın anavı,
Sızladıb gətirmə amana Basat!

Xan Qazanın cavabında,
Aslan Basat:
Gedəm deyir, hətmən gərək!

Uruz Qoca ağlayıban,
- Canım Basat, kərəm elə!
Ocağımı sönük etmə!
Oğul getmə!

Qorxutmalar,
Nər aslanı qorxutmadı:
- Ağ saqqalı əziz baba,
Gedəm gərək! Deyə - qalxıb,
Yeləgindən bir tutam ox
Çıxarıban belə taxdı.
Xəftan geydi, qılınc asdı,
Qatı yayın ələ aldı.
Atasının, anasının,
Əlin öpüb, həlallaşdı:
- Xoş yaşayıb, əsən qalın!
- Deyə – vardı.
«Sallax xana qayasına»,
Gəlib çıxdı.
Təpəgözü,
Arxasını günə verib,
Günəvərdə, yatmış gördü.
Yayın çəkib, bir gözlünün
Ürəginə bir ox vurdu.
Dəmirli ox kar kəsmədi.
Paralandı yerə düşdü.
Bir də vurdu, yenə oxu
Sınıq – sınıq olub düşdü.

Dəli quduz, qocaları sezıb dedi:
Bu yer məni üşündürdü.

Basat yenə oxun atdı
Yenə dəgib parçalandı,
Pərəm–pərəm dağılaraq,
Bir parçası təpəgözün
Qarşısında yerə düşdü.

Quduz şeytan daşlanaraq,
Uru durdu.
Basat xana gözü düşcək,
Əl çalıban, qas–qas güldü:

- Mərə yenə görünür ki,
Oğuzlardan bizim üçün
Quzu gəlmiş deyə – varıb
Mərd aslanı qabağına
Qatıb tutdu.
Boğazından sallıyaraq,
Yatağına gətiribən,
Ədügünün bir küncünə
Basıb dürtdü.
- Hey qocalar!
Bunu mənim
İkindimə bişiriniz,
Yeyim deyib–yenə uydu.

Dəli Basat xəncər ilən,
Ayaq qabın yarıb çıxdı:
- Hey qocalar!
Bunun canı Nəyində dir?
-Biz bilmirik!
Ancaq bütün bədənində,
Əti bircə gözündə dir!

Dəli aslan, Təpəgözün
Başı üstə gəlib gördü,
Gözü ətdir:
-Hey qocalar! Dəmir şişi,
Ota qoyun qızsın – dedi,
Şişi ota buraxdılar.
Pullatdılar,
Basat şişi ələ alıb,
Var gücü ilə Təpəgözün,
Tək gözünə basıb soxdu,
Göz töküldü,
Quduz, elə anqırdı ki,
Dağa – daşa lərzə düşdü.

Busat qaçıb mağarada
Qoyunların arasında
Daldalandı.

Dəli şeytan, bunu duydu
Qapı ağzın kəsib durdu
Paçaların aralayıb:
- Mərə ağır sürülərin

Başı ərkəc, çək qoyunu,
Hamı gəlsin, bir – bir keçsin.

Qoyun gəlib, paçasının
Arasından sovuşarkən,
Hamısının baş – gözünə
Əlin çəkər, bir – bir yoxlar.
Yenə haylar:
-Toxlucuqlar tutulacaq,
İqbalım qoç, sən gəl sovuş!
Səmiz bir qoçyerdən qalxıb,
Silkinərkən, Deli Basat,
Basıb tutub boğazladı
Dərisini çəkdi üzdü
Baş – quyruğun ayırmadı
Bürünübən,
Təpəgözə qarşı vardı.

Kor Təpəgöz, əlin çəkdi,
Basat xanın dəri içrə
Olduğunu duyub bildi:

-Hey sığır qoç, mənim həlak
Olacağım yeri, söylə,
Necə bildin?
Səni elə bu köhülün
Dıvarına güpəyim ki,
Bol quyruğun mağaranı
Yağlandırsın!

Basat,
Qoçun kəlləsini,
Təpəgözün əllərinə
Uzadaraq, məcal tapıb,
Qıçlarının arasından
Sıçırayıb dişrə çıxdı.

Dəli quduz, boş dərini
Buynuzlayıb,
Təpəsinə qaldıraraq,
Yerə çırpdı:
- Mərə oğlan qurtardınmı?
Dəli Basat:
-Haqq qurtardı!
-Mərə oğlan, al mənim bu
Üzügümü əlivə tax,
Qəmə – qılınc, səni kəsməz.
Basat, almaq istədikdə,
Yaralıca quduz şeytan
Hücum edib,

Xəncərini, üzərinə
Tolazladı.
İgid oğlan yan veribən
Baxdı gördü,
Üzük yerdə Təpəgözün,
Ayağının altındadır.
Quduz aydır:
-Mərə oğlan qurtardınmı?
Aslan Basat:
- Haqq qurtardı,
- Mərə oğlan,
O günbəzi görürsənmi?
Orda mənim xəzanəm var
Ayıq ol ki, bu qocalar,
Aparmasın.
Get möhürlə!
Qafil Basat,
Günbəz içrə gedib girdi.
Baxdı gördu,
Hər tərəfdə qızıl – gümüş,
Təpə kimi kələklənmiş.
Pulu görüb, çaşdı huşu,
Şəraiti pak unutdu.
Dəli quduz xəzanənin
Qapısını alıb kəsdi:
-Mərə oğlan,
Yaxşı yerdə düşdün ələ
Güpəyərəm indi elə
Günbəz ilən qat qarışıq,
Yapışdırram səni yerə.
Basat puldan – xəzanədən
Əl çəkibən, göz örtübən,
Ulu haqqa sidqin saldı:
Comərdlərin mədədkarı,
Qadir tanrı, mədəd səndən!

Daş divarlar parçalandı,
Yol açıldı yeddi yerdən,
Oğlan çıxdı.

Kor Təpəgöz, günbəzə bir,
Yumruq atdı, günbəz yatdı:
-Mərə oğlan qurtardınmı?
-Haqq qurtardı!
-Alanmazmış ölüm səni!
O köhülü görürsənmi?
Orda iki qılınc vardır.
Biri qınlı, biri yalın
Qınsız qılınc məni kəsər
Dünya mənə oldu əbəs

Get götür gəl başımı kəs!
Basat gəldi asta–asta
Məqqarəyə. Gördü orda,
Zəncirlərdən aslanılmış,
Yalın tiyə bir qılınc var.
Ancaq sakit durub qalmaz,
Öz–özünə əsib coşar:

-Daha bunu sınamadan,
Yanaşmaram, deyə – Basat,
Qılıncını qarşı verdi
An içində dəydi, böldü
Dolandı bir ağac tapdı,
Qarşı tutdu, kəsib qırdı!
Qatı yayın ələ aldı,
«Coşar qılınc» aslandığı,
Zəncirlərə bir ox vurdu,
Qılınc qopdu, yerə düşdü.
Cumuxuban yerdən qapdı,
Belindəki qına soxdu.

- Mərə şeytan nə haldasan?
- Ölməmisən?
- Tanrım qoymaz!
- Mərə ölüm yoxmuş sənə
Deyə quduz, söy söylədi.
Nələr dedi:
- Gözüm – gözüm, yalqız gözüm,
Ala gözüm, ulduz gözüm.
Sən varikən mən Oğuza,
Divan tutdum, qan utdurdum
Ala gözdən ayrı saldın
İgit məni.
Şirin candan ayrı salsın
Tanrı səni
İgit, mənə dadızdırdın
Göz büküyün
Məni saldın yaman günə
Qadir görüm dadızmasın
Heç igidə
Göz dərdinə tuş olmasın
Heç kimsənə!
Yenə demiş:
-Qalarda – qoparda, yerin nə yerdir?
Söylə igit, pirin, rəhbərin kimdir?
Başı üstə uca bayraq tutulan,
Sultanın, sərdarın, sərvərin kimdir?

Qırış günü qabaxda qılınc vuran
Düşməni dağıdıb – qıranın kimdir?

Çadırlardan uca, çadırın quran
Alplar başında duranın kimdir?
Söylə igit kimin oğlusan, kimsən?
Adıvı , sanıvı gizlətmə məndən
Ərənlər yaşırmaz adını ərdən.
Mərə, söylə mənə hansı eldənsən.
Basat aydır:

-Qalarda – qoparda, yerim bu diyar
Xocam, pirim, rəbbim, haqq pərvərdigar
Sultanım, sərvərim. Xan «Bayındır»
Bəylərə sərkərdə, xanlara salar

Çadırlarda uca, çadırın quran
Qartal quşu kimi düşmən şığıyan
Qırışda yağının önündə duran
Alpımız ərənlər – əreni «Qazan»

Atam Uruz Qoca, qocalar bəyi
Adım Basat «Qıyan Səlcuq» qardaşı
Südünü əmdigim, anamdır aslan
Anasını öymək mənə yaraşı.

- Bircə gözüm, qurban sənə,
Bəs qardaşıq qıyma mənə!

- Aslan Basat, söy söylədi
Acıqlanıb, nələr dedi:

- Mərə zalım, mərə qavat!
Ağ saqqallı babamı bozladıbsan
Ağ birçəkli anamı ağladıban
Qarındaşım «Qıyanı» öldürübsən
Ağca üzlü gəlinin, dul edibsən
Ala gözlü igitləri, yeyibsən
Qoyarammı sağ qalasan səni mən?

Qara polad uz qılıncım əsməyincə,
Qafalıca börklü başın kəsməyincə,
Kürəgivə ölüm lərzi salmayınca,
Qardaşımın qisasını almayınca,
Sanırsanmı buraxaram mən səni?
Olarmı gör diri qoyam mən səni?

Düşgün quduz, canından əl üzərək,
Nələr demiş, nələr söyləmiş görək:

-Qalxıbanı bir gün, duram deyərdim
Əhd peymanımı qıram deyərdim
İgitlər qanını soram deyərdim

Bir adam ətindən doyam deyərdim.

Kaş oğuzun basğınını görəydim
Sallax xana qayasına girəydim
Ağır mancanıqdan daşlar yağanda
Başıma bir, daş düşəydi öləydim.

İgit ala gözdən ayırdın məni
Tanrı şirin candan ayırsın səni.
Yaman günə saldın, görüm heç igit,
Görməsin bəlali başım görəni.

Yenə də söy söylədi
Bir daha nələr dedi:

- Ağ saqqallı qocaları
Çox bozlatdım,
Ağ saqqallar qarğadılar
Gözüm səni.

Ağ birçəkli qarıları
Çox ağlatdım,
Ağ birçəklər qarğadılar
Gözüm səni.

Ala gözdən qanlı yaşlar
Çox axıtdım,
Ala gözlər qarğadılar
Gözüm səni.

Al xınalı ağca əllər
Çox yemişdim,
Al xınalar qarğadılar
Gözüm səni.

Körpə – körpə igitciklər
Çox yemişdim,
İgitliklər qarğadılar
Gözüm səni.
Belə ki mən çəkər oldum
Göz büküyün,
Qadir görüm heç igidə
Göstərməsin.

Aslan Basat, buğra kimi
Təpəgözü,
İki dizi,
Üzərinə çökdürübən,
Kor quduzun uz qılıncın
Ələ aldı, boynun vurdu.

Kəlləsinə yay çirişi
Keçiribən
Ürəgi şən
Sürütləyə – sürütləyə
Mağaranın qapısına
Çəkdi saldı.
Qardaşının
Qanın aldı.

Hey… Qocalar!
El obaya muştuluğa
Gedin! – Dedi!

Nər qocalar, ağ Boz atlar
Mindi çapdı.
Bütün Oğuz, dün içində
Xəbər tapdı.

At ağızlı Aruz Qoca,
Çapar gəldi.
Xan Basatın anasına
Sevinc verdi:
Muştuluq ver!
Aslan oğlun,
Təpəgözü, kəsdi – dedi.

Xanlar bəylər, bütün ellər,
Pər açdılar.
Atlandılar, sallax xana
Qayasına, dırmaşdılar.

Təpəgözün kəlləsini,
Ortalığa gətirdilər
Dərdi – qəmi, bitirdilər.

Dədəm Qorqud gələr oldu,
Şadlıq çaldı
Alp ərənlər, mərd igitlər
Gəldigindən – getdigindən,
Söhbət açdı.

Ürəklərdən kədər qaçdı.
Söy – söylədi, boy – boyladı,
Xan Basatın mərd adına,
Dastan qoşdu,
Hümmət verdi, alqış verdi:

-Qara dağlar,
Yetdigində, aşıd versin

Daşğın sular,
Keçdiyində, keçid versin.

Qoçaqlıqla, qardaşıvın
Qanın aldın
El obanı, zəbunluqdan
Sən qutardın.

Ulu tanrı dost oluban
Mərd igidə mədəd versin.

## Son söz əvəzinə

*Qoy dastanımızın «**qurtarışı**» da «**başlanışı**» kimi bu xalq mətəli olsun:*

*..................*
*İskəndər bədəl «bədəl»*
*Bədəli, öldürdülər*
*Ağabanı geydirdilər*
*Ağabanının saçaqları*
*Xan evinin piçaqları*
*..................*
*Vurdum sandıq söküldü*
*İnci – mərcan töküldü*
*İnci , mərcan filfili*
*Gəl oxu bizim dili!*
*Bizim dil – Urmu dili*
*Urmudan gələn atlar*
*Ağzında yüyən çatlar.*
*..................*

***Nə ola görüşə bütün qardaşlar,***
***Xüsusən bizim tək “qarğınılmışlar”!***
***Partlayıb dağıla danqaz qayalar,***
***Yerlə yeksan ola dəmir qalalar!***

# Qardaş Andı

## Bulud Qəraçorlu Səhənd

*Adsız–sansız el nəğməkarı,*
*Bülbül çəhçəhəli, kəhlik qaqqıltılı,*
*Sazlı–sözlü, Marağalı* ***“Aşıq Hüseyn”****,*
*Bu poemanı sənə və balabançılarıva təqdim edirə!.*

# Güney Azərbaycanın milli–mübariz  şairi

## Bulud Qərəçorlu, (B–Q. Səhənd)

(1926–1978)

### Məmməd.Əli. Fərzanə (Qovsi)

20-ci əsr, Cənubi Azərbaycan milli–mübariz şe'ri səmasında parlayan sönməz ulduzlardan biri və bəlkə də birincisi sayılan Bulud Qərəçorlu (B.Q Səhənd), Məşəd Mütəllib oğlu, 1926–ci ildə Marağada bir işçi ailəsində doğulmuşdur. Doğma el səciyyələri və qurallları ilə ilgilənən ata və ana öz körpələrinə «Bulud» adını seçdilər. Onlar bu adı seçməkdə kim bilər bəlkə Azərbaycanın coşğun buludları şimşək çaxan təbiətini və bəlkə də xırdaca Buludun birgün yağmurlu bulud olub, Azərbaycan şeir gülşənini suvarıb güllləndirdiyi üçün ona vermişdilər.

Bulud Qərəçorlu, Rizaxan istibdadının ən qorxunc illərində, yəni Azərbaycan xalqının milli–mədəni varlığı tapdalandığı və lağa qoyulduğu illərdə doğulub, boya–başa çatdı. O, dərs oxumaq üçün getdiyi mədrəsədə öz ana dilində oxuyub–yazmaq və hətta danışmağa haqlı olmasa belə, yaradılıcığa başladığı gündən şeir və mənzuməsinin əsas hissəsini ana dilində yazmağa başladı və ömrünün sonuna qədər bu dözülməz şəraitə baxmayaraq öz varlığı, dili, tarixi, mədəniyyəti yolunda yorulmadan və yenilmədən car çəkib qələm çaldı.

Bulud yeni yetmə yaşlarında, yaşayışın ağır olduğundan orta məktəbi bitirmədən ailəyə yardım etmək məqsədilə işə qoşuldu. 1940–ci ildə İranın müttəfiq dövlətlər qoşunları tərəfindən işğal edilməsi və Rizaxan istibdadının müvəqqəti devrilməsi, Azərbaycanda milli–demokratik hərəkətlərə yol açdı. Cavan Bulud da bir çoxları kimi bu hərəkətlərə qoşuldu. Onun ilk şeir nümunələri 1945 də Təbrizdə buraxılan «**Şairlər Məclisi**» antolojisində buraxıldı. Bu şeilərdə səslənən:

**Tarixlər boyunca ey böyük vətən**
**Yağıya, düşmənə əyilmədin sən**
**Bu gün təbiətdən ilham aldım mən**
**Keçdi səhər vaxtı bu söz ürəkdən**
**İnsana ruh verən dilinə alqış.**

Bu illərdə, cənubi Azərbaycanda qurulan Milli Hükumət, siyasi və istiratejik cəhətdən Şuralar İttifaqı tərəfindən havalandırılsada, yaratdığı bir illik reformlarda Azərbaycan xəlqının bir çox milli–demokratik istəklərini əmələ keçirtməyə müvəffəq oldu. Bir ildən uzun çəkməyən bu hərəkət, dünya siyasətini öz arşınları ilə ölçüb–biçənlərin ayağı altında qurban kəsildi. Lakin bu yanmış Azərbaycanda közərən ocaq sönmədi. Bu ağır illərdə Bulud da bir çoxları kimi, milli, ictimai fəaliyyətlər nəticəsində iki dönə tutulub məhkəməyə verilir. Zindan şəraiti və didərginlik onuda günü–gündən milli şüurun daha canlanmasına səbəb oldu. O, 1951–53 illərində zindanda iki böyük mənzumə; birisi «**Araz**» və o birisi «**Xatirə**» ni yazdı. Bu mənzumələrdə o ürək ağrısı ilə arzuların heçə çıxdığından xalqın acınacaqlı və dözülməz həyatından, Azərbaycanda hakim kəsilmiş dərəbəylik və öz başınalıqlardan, yurdun tarixin

şum talei nəticəsində ikiyə bölündüyündən, bir xalqın öz ana dilində yazıb oxumaq üçün bəlalara tuş olmasından söz açmışdır.

Şair « **Araz** » mənzuməsini bu söz ilə başlayır:

Mən arazın adılan
Çox zamandır tanışam
Ən kiçik yaşlarımdan
Onu ravanlamışam.
Qoca babam nə vaxtakən
Boğazım ağrıyardı
« Araz keçmişəm» deyə
Boğazımı sığardı.
Soruşardım:–ay baba
Araz nədir keçmisən?
Nə kimi şeydir o ki,
Suyundan da içmisən?
Sualımdan babamın
Yaşalardı gözləri
Özünün çiyinlərində
Gizlənərdi kədəri.
Üzümə məyus, məyus
Baxıb deməzdi bir söz,
Görərdim ancaq olub
Onun tükləri biz-biz
Sonrada qardaşımın
Adın qoydular araz,
Lakin, onda da mənə
Aydınlaşmadı, bu raz
Ancaq Araz beşikdə
Yatıb yırğanan zaman
Bu sözləri dinlərdim
Anamın laylasından.
« Arazı ayırdılar,
Qum ilən doyurdular,
Mən səndən ayırılmazdım,
Zülmilən ayırdılar».

Və "**Xatirə**" də talanmış və zülm oduna yanmış yurdu belə təsvir edir:

Gəzirəm çölləri, kora yolları,
Külək pıçıldadır quru kolları
Qarşıma çıxırı bir suru davar
Bütün sürgüləmir, keçi–qoyunlar.
Bir–birinə keçmiş qabırğaları
Duz tək yalayırlar boş qayaları
On iki yaşında kiçik bir çoban
Çiynindən asılı boş dağarcıqdan
Sakit dayanmışdır, nə səmir nə səs
Gahdan bir çəkirdi dərindən nəfəs
Üzündə qussədən gizli bir iz var
Məsum baxışında bir dünya söz var.
İntizar gözləri yolda qalmışdır,
Bilməm tütəyini harda salmışdır.
Görünür çoxdandır nəğmə çalmayır,
Dağlara–daşlara haray salmayır.

Onun da ruhunu öldürmüş sitəm
Onun da gözlərin tutmuş kədər–qəm
Onun da qəlb evin zülm əli yıxmış
Bütün nəğmələri yadından çıxmış.

Səhəndin 1953–ci ildə məsləkdaşları ilə zindan dan buraxılması İranda başqa bir faciənin baş verməsi ilə qarşılanır. Bu faciə, həmin il İran da doktor Məhəmməd Müsəddiqin başçılığı ilə yaranan milli–zidd impiryalist hərakatının qabağın almaq üçün Amerika, İngilis və İran dərbarının əl birliyi ilə yaranan zidd milli və zidd demokratik kodetadan ibarət idi. Bu kodeta İranda və xüsusi ilə Azərbaycanda milli–ictimai sixıntını qat–qat artırır və nəfəsləri sinələrdə qapsayır.

Bu illərdə Səhənd bir sürgün kimi yaxın dostu və əməkdaşı M.Ə Fərzanə ilə Tehranda birgə yaşayır. O, əməkdaşının göstərişiylə Azərbaycan folkuluru və xüsusilə onun əbədi şah əsəri sayılan «**Dədə Qorqud boyları**» ilə ülfət tapır. Gündən–günə artan bu ülfət, bu aylarda güney Azərbaycan şeirində bir möcüzə kimi ortaya çıxan böyük söz ustadı Məhəmməd Hüseyn Şəhriyarın ”**Heydərbabayə sələam**” mənzuməsi bir daha Səhəndi ruhlandırır və daha doğrusu ona bir yeni ilham mənbəi olur.

Səhənd, Dədə Qorqud boyların nəzmə çəkməyə başlayır. O, əsərin söz quruluşuna və dastanların anlamına bağlı qalmaqla hər dastana bir başlanış və bir qurtarış qoşur və bu başlanış və qurtarışlarda şair öz milli–tarixi duyğularını, ictimai–fəlsəfi görüşlərini qələmə alır, söylənib hazirlanan boylar bir–bir üstə gəlincə onların çap olub yayılması fikri ortaya çıxır. Lakin bu fikri o günkü ağır şəraitdə əmələ keçirmək çoxda asan deyildi. Heç bir çapxana əsərin türkcə olduğu üçün çapına boyun qoymur. Çox ona–buna baş vurandan sonra bir çapxana, kitabı gecə ilə düzülüb, üstündə düzəliş aparılmaq və gecə ilə də çap olub çapxanadan aparılmaq şərti ilə, bu işi boynuna alır.

Əsərin birinci cildi onun üstündə çap tarixi qeyd olmadan meydana çıxır. Şairin əməkdaşı M.Ə.Fərzanə əsərə yazdığı baş sözə onu belə qimətləndirmişdir.

«Böyük şeir qüdrətinə və tükənməz söz bacarığına malik olan şair, bu işi olduqca bacarıq və hünərlə yerinə yetirmiş, oxucunun zövq və ehsasını oxşayar onda həyəcanlar, kədər və sevinclər doğuran bədii və ictimai bir əsər meydana çıxarmışdır.

Şair dastanların ümumi söz quruluşuna və onların uslub və söz xüsusiyyətlərinə vəfadar qalmaqla bərabər yeri gəldikcə xəyal yelkənini açmış və Insan zəkasının üfüqsüz dəryasına yol tapmışdır… şair dastanların məzmununda yer salan duyğuları daha dolğun və daha həqiqi şəkildə doğrultmaq və onları dərin ictimai–fəlsəfi görüşlər ilə uyğunlaşdırmaq üçün mənzumənin əvvəlinə bir başlanış (proloq) və sonuna bir qurtarış (epiloq) artırmışdır. Bu artırmalar mənzumələri bədii və fikri cəhətdən qat–qat zənginləşdirmiş və insan xəyalının həyat ərsəsində və qanadlanmasına yol açmışdır.

Şair dastanlara qoşduğu başlanış və qurtarışlarda həyat fəlsəfəsini, insanın özünü tapdığı gündən «**həqiqət adlanan o gözəl pəri**»yə çatmaq uğrunda çırpıntılarını dərindən mənimsəyir. Hər şeydən əvvəl, o varlığı, insan həyatını, durğun və sonük surətdə yox, bəlkə daimi dəyişilməkdə və inkişafda görür. Bu deyişiklik koramal və başlı–başına bir hərəkət olmayıb, bəlkə işıqlıq və səadət adlanan bir hədəfə doğrudur. Burada insanın işıqlarla qaranlıqlar arasında qaldığı, birinə tərəf yuruduyu və o birisindən qorunduğu həyatın əsas məsələsi kimi götürülür. Varlıq və səadət doğuran ışıq, yoxluq və flakət törədən qaranlıq, həyatda bir–birilə ardı–arası kəsilməyən ziddiyyətlər kimi vuruşur.

İşıqdan doğursa istilik, istək,
Qaranlıqdan doğur soyuq, aldanış
Məhəbbət axtaran insanlıq demək,
Ona baş endirmiş, bunu qarğımış.

Qara qış dünyanı bərbad edərdi,
Dalınca yaz olub, yay olmasaydı,
Qaranlıqdan insan əldən gedərdi,
Günəş olmasaydı, ay olmasaydı.

Bu ucu–bucağı görünməz vuruşmada insan bir vasitə kimi yox, bəlkə varlığın bir sirdaşı kimi, həqiqətin özü kimi, « duyar könlü–görər gözü» kimi şirkət edir.

Demək insan, bu dünyanın
təbiətinin sırdaşıdır,
Həqiqətin görər gözü
Doyar könlü, yoldaşıdır
Həqqin, həqiqətin baxçası hərvax
İnsanla gül açır, insanla sönür
Ən böyük həqiqət insandır ancaq
İnsansız həqiqət olsa, kor olur

Lakin, bu yolun çoxda yaxın olduğuna, çoxda asan başa çatdığına inanmaq olmur. İnsan bu vuruşmada çoxlu uçurumlara, arası kəsilməz tufanlara uğraşır. O, bir çox vaxt aldanır, azdırılır, itgin düşür, sarsılır, « başı daşdan–daşa dəyir», «səadət ceyranı önündən qaçır», «sıldırım yollarda sərgərdan qalır–çalıllar, tikanlar ayağın biçir»… Lakin bu sarsıdıcı hadisələr heç biri onu işıqlığa, həyata, məhəbbətə doğru yürüməkdə ayaqdan salmır. O, öz idealına çatmağı çətin gördükdə onları əfsanələrdə canlandırır və beləliklə də istək və arzularını tərənnüm edir. Bu insan və xalq zəkasının parlaq güzgüsü olan bu həmasələrdə tərənnüm edir:

Əfsanə insanlıq sin–sin axtaran,
İdeal dünyanın təbəssümüdür.
Həyatda təcəssüm tapıb, tapmayan,
El istəklərinin tərənnümüdür.

Şair mənzumələrinin hər sətrində və hər səhifəsində öz ana yurdunu sevən, öz doğma xalqına inam bəsləyən, öz şanlı tarixinə güvənən bir hünərmənd kimi görünməkdədir.

**Bu torpaqda, bu diyarda**
**Əsirlərdən əsirlərə,**
**Əlsizləri talamayan,**
**Tupurduyun yalamayan,**
**Dillərinə yalan gəlməz**
**Həq yolundan üz çevirməz,**
**Zülmkara boyun əyməz**
**Dalısını düşmən görməz.**
**Dişi aslan**
Qoç igidlər
Qaflan kimi
Yuva salmış

Bu dağların, yaylaqların
Ceyran qaçar ovlaqların,

Torpaqları qarışıqdır
Babaların torpağılan…

Bu dəftərdə yerləşən dastanların şeirə salınmasında işə aparılan söz sənəti, ahəng uyğunluğu və müsiqi çalarlığı bir tərəfdən və xalq varlığı ilə olan səmimi bağlılıq digər tərəfdən, şairi hər şeydən öncə bir xalq nəğməkarı, bir el ozanı və bir haqq aşığı simasında cilvələndirir. Şairin yerli–yeirndə aşıq haqqında yaratdığı bu kimi bədii təsvirlər:

Aşıq çömçəsini ingildədərək,
Gəzir pərdələrdə əfsunkar əli
Tellər titrədikcə, titrəyir ürək,
Hər kəsin canlanır eşqi, əməli

Nəğmələr tərlantək qanadlandıqca,
Könüldə ardınca qol–qanad açır
Havalar göylərə havalandıqca,
Xəstə könüllərdən dərdi–qəm qaçır.

Bilməm nə sirridir, aşığın səsin,
Eşidən ürəkdə qalmaz ixtiyar,
Ən kiçik yaşımdan aşıq nəğməsin,
Eşidən zamanlar tüküm biz durar.

Hələ də bilmirəm, bu səs, bu nəğmə,
Hansı dünyalardan baş alıb gəlir.
Nəsim yelləri tək dəyəndə qəlbə,
Bədənim dincəlir, ruhum yüksəlir.

Özüm də bilmirəm, harada, haçan,
Ruhum bu aləmlən aşnalıq qatmış.
Ancaq bilirəm ki, uzaq zamandan,
Könlümə doğmadır, qəlbimə tanış.

Dədə Qorqud boylarının birinci cilidi, yəni «**Sazımın Sözü**» o, vaxtlar nəşr edildiyi və sonralar yenidən basıldığı və hətta Türkiyə və Bakıda çap olub yayıldığı halda, onun daha güclü hissəsi olan ikinci cildi, yəni «**Dədəmin Kitabı**» hələ də ışıq üzü görməmişdir. Şair ikinci ciliddə də Dədə Qorqud boylarından altısını nəzmə çəkməklə onların başlanış və qurtarışında və xüsusilə əsərin sonuna artırdığı qurtarışa və qurtarışda öz söz bacarığını daha da yetgin surətdə göstərmişdir. Nümunə olaraq ikinci cildin başlanışından bir parça:

«Aşıq Hüseyn» hərvax, haçan
Sazın çalıb
Oxuduqcan: bala Nərgiz
Qol boynuma dola Nərgiz
Dodaqların xam şəkərdir
Dilin batıb bala Nərgiz.

Şaxta, boran,aclıq, hirman,
Soldurduğu ”Nərgiz”lərin
Butaları qünçələnər,
Ürəyində ümid dolar,
Günəş parlar, nur ələnər.

Uşaq ikən, körpə ikən,
Mmən bu pozğun, sarı, solğun,
Nərgizlərin birisinin,

Qucağında boy atmışam.

Bu nəğmələr, zəmzəmələr
Ehsasımın tayasıdır,
Ş'erimində mayasıdır…
Xatirimə gələr–gəlməz
İlhamımı bilər–bilməz,
Ellərimin yaratdığı
Yaradanı yad edilməz,
Heç bir şair, heç sənətkar,
Nəzirəsin yaza bilməz
Qoşmalardan almışam mən.
Könül sazın, zurnaların,
Döhüllərin gur səsindən,
Aşıqların, ozanların
Könül açan nəğməsindən
Öyrəniбən çalmışam mən.

1953–cü ildə baş verən kodetadan sonra ömrünün əsas hissəsini Tehranda yaşamağa məcbur qalan Səhənd, yalnız xalqımızın əbədi həmasəsi sayılan Dədə Qorqud dastanlarından şeir heykəli yaratmağa kifayətlənməmiş bəlkə o bu illəri öz yaradıcılığının ən səmərəli illərinə çevirmişdir. Bu ağır illərdə o bir tərəfdən bir milli şair kimi dilini dananlara, milli–tarixi varlığına xor baxanlara amansız atəş açdığı halda, o biri tərəfdən bir insanlıq və həqiqət carçısı kimi dünyada, Viyetnamdan tutmuş İspanıyaya və Kubaya qədər xalqların azadlıq və qurtuluş uğrunda mübarizələrini alqışlamış və bu azadlıq və qurtuluşu qana çəkənlərə nifrət yağdırmışdır. O hətta vəqtilə çox hörmət bəslədiyi Şuralar Birliyində olan yaramazlıqlar və çatışmazlıqlara toxunmaqdan çəkinməmişdir.

Şair, «**Bir məzar boyda yer sorağında**» şeirində milli varlığını hədələyənlərlə qarşı–qarşıya durub əlbəyaxa olduğunu belə təsvir edir

Oxudum, dirçəldim, ayağa qalxdım,
Şimşək olub çaxdım, vulkana döndüm,
Bulud tək kişnədim, sel olub axdım,
Köksü dağ dalğalı ummana döndüm.

Varlığımı danan qəlbəzənlərlə,
Yaman yaxalaşdım, yaman vuruşdum.
Yalan–palanların tapşırdım yelə,
Haqsızlığa qarşı yaman vuruşdum.

Ürək sözlərimi, haq sözlərimi,
Qaya kimi düşmən köksünə vurdum.
Qəsbkara comərd babalar kimi,
Gah qan qusduruban, gah qan utdurdum.

Əlimdən zinhara, zara gələnlər
Köpək küşgürtdülər, it buraxdılar,
Haq sözümə cavab verənmiyənlər,
Qəddərə qullanıb, qəmə taxdılar.

Gücüm güclərinə çatanmadıqda,
Hər tərəfdən məni dövrələdilər.
Süngünü böyrümə sancıb adıma,
Vətənsiz dedilər, nələr dedilər.

Yenə də dağlar kimi durdum, dayandım
Nə çəkindim, nə də sözümü çaşdım.
Məhkəmələrini əyləncə sandım,
Dəniz kimi coşdum, kükrədim, daşdım,

Ayağı kündəli, qolları bağlı,
Səsimi ucaltdım, açdım dilimi,
Ürəyi qubarlı, sinəsi dağlı,
Dedim, hər dərdimi, hər nisgilimi…

Çox yaxşı bilirsiz fırıldaqçılar,
Mən nə vətənsizəm, nə də göbələk.
Doğma diyarım var, böyük elim var,
Mənimdir həm keçmiş, həmdə gələcək…

Bir iki örnək kimi, Səhənd **« Qardaşım Əli ağa Kurçaylıya məktub**» şeirində şumali Azərbaycanın alovlu şairi Kurçaylının o təhlükəli illərdə yazdığı «**Fillər də ağlayır**» ş'eri ilə belə səs–səsə verir:

Üç saatdır gecə yarıdan keçib,
Əlimdə qələmim, qarşımda dəftər.
Məktubum bitmədən yatmayacağam,
Gözlərim tökülüb çıxsa da əgər,

Bu günlər gözlərim ağrıya gəlib,
Oxuya bilmirəm, yaza bilmirəm.
Qaranlığa adət edəndən bəri,
Qamaşır, ışığa baxa bilmirəm.

Bu gün « İncəsənət» əlimə çatdı,
Yoldaşımdan oxumasın dilədim.
«Fillər də ağlayır» adlı şeir var,
–Dedi, Kurçaylıdan,–oxu, söylədim

Oxudu ş'erivi qardaşım, mənə,
Oxuduqca dedim: gözüvə qurban.
Qoy durum dolanım, dönüm başıva,
Ş'erivə, özüvə, sözüvə qurban.

Oxudu ş'erivi mən qulaq asdım,
Büküldüm, açıldım, nə hala qaldım.
Ağlar görən kimi şahin gözüvü,
Ucalasan qardaş, mən ki, ucaldım.

Səni ağlar gördüm, konlum sevindi.
Qardaşın da ağlar görən sevinər?
Bəli ağlamaq var gülməkdən igidir.
Bu m'nanı ancaq az adam bilər.

Bu arada Səhəndin milli haqsızlıq haqqinda yazdığı ən güclü şeirlərindən biri «**Taleimə sən bax**» şeiridir. Səhənd bu şeirdə milli varlığından və ana dilində danışmaqdan məhrum edilmiş bir insanı belə təsvir edir:

**Taleimə sən bax!**
**Düşüncələrim yasaq.**
**Duyğularım yasaq.**

**Keçmişimdən söz açmağım yasaq.**
**Gələcəyimdən danışmağım yasaq.**
**Ata–babamın adın çəkməyim yasaq.**
**Anamdan ad aparmağım yasaq.**
**Baba diyarım isə,**
**Pıtraq–pıtraq,**
**Bilirsən?**
**Anadan doğulanda belə,**
**Özüm bilmiyə–bilmiyə,**
**Danışmağım da yasaq imiş, yasaq!**

Beləliklə Səhənd 1960–70 ci illərdə cənubi Azərbaycan mübariz şeirində özünə layiq yer açır. O, illərdə profesor Rüstəm Əliyofun İrana gedib–gəlməsi və onun **Heydərbaba Dərnəyi** ilə əməkdaşlıq yapması Səhəndin şeirlərini Şimali Azərbaycan da səslənməsinə şərait yaradır. Səhəndin divanının gözə gəlim hissəsini Səhəndin otaya, şair və ədiblərə yazdığı mənzum məktublar təşkil edir. O, birinci, ikinci və üçüncü **Ərməğan** şeirlərini Rüstəm körpüsü ilə otaya göndərir və oradan yerli–yerində mənzum cavablar alır. Soydaşlıq və qardaşlıq doğma və parlaq gözləri olan bu mənzum məktublarda çağlayan arzular, istəklər, nisgillər, həsrətlər və hicranlarla bərabər duymağa və düşünməyə layiq bir çox duyğular və düşüncələr yerləşmişdir.

Bu mənzum məktublar sırasında Səhənd bir mənzum məktub da həmişə hörmət bəslədiyi, ustad sandığı Şəhriyara yazır, ya özü demişkən Şəhriyar qapısını döyür. Şəhriyar Səhəndin məktubuna məruf «**Səhənd**»i ilə cavab verir. Bu iki məktub iki şairi biri–birinə yaxınlaşdırmaqdan əlavə, onlarda ruh yüksəkliyi yaradır. Səhənd yaradıcılığında ürfana daha geniş yer açır, Şəhriyarın klasik irsimizə güvənməsi və onu mənimsəməsi bir daha artır. Şəhriyar son Tehran səfəridə məndən klasiklərimizin divanlarını əldə edib ona göndərməyi xahiş edir.

Səhənd lesanəlğeyb Hafizin divanı ilə daha çox ünsiyyət tapır və hətta Hafizin bir neçə qəzəlini təzmin edir. Bu təzminlərdən birinin başlığında o, «Təqdim be ustad Məhəmməd Hüseyn Şəhriyar» sözlərini yazmışdır. Səhəndin farsı şeirindən və ürfani baxışlarından bir nümunə olaraq bu təzminin əvvəl və sonundan neçə beyt gətirirəm:

Ço dər nəhayəte əncame yek sər ağazəm,
Çera be vəhm o göman o qiyase xod nazəm.
Be paye abele əz laməkan həmi ayəm
Ze bəəde an həme rəh həmçenan dər ağazəm

Gelib yetişir;

Vəli begahe təəroz mən an neyəm Hafez
Ke pişe xəsm, senan o sepər beyəndazəm.
Əgərçe ba dele porsuz sərd o xamuşəm
Həman Səhənde sərəfraze zendəgi sazəm.

Səhəndin milli–mübariz şeirimizdə yaratdığı uslub və söz quruluşu Cənubi Azərbaycan müasir şeirində dərin iz buraxmış və bir çox şairlərə ülgü və örnək olmuşdur. Nümunə olaraq «**Sönməz**» in «İsanın son şamı» əsərində səslənən aşağıdakı misralar:

«Çırax olsa, qaranquluq, öz, özünə qoyub qaçar.
Yol–yolacaq, eniş–yoqquş, ışıqlanar.
Yol istərsə yaxın olsun, uzaq olsun»

Və habelə marağalı « **Barışmaz**» ın «Nəğmə dağı və isteemar» əsərində hönkürən bu yanqılar:

« Balıq kimi su içində, ildə bir yol su dadmayan, susuzundan yanan ellər.
Qap–bacasın, qış uzunu, duman döyən, boran döyən,
Boş kəndiyə, gözün tikən günü, gündən yaman ellər.
Hamıların lampasında, ürəyinin qızıl qanı, qızır qanmaz
Yanan ellər, dili bağlı qalan ellər.»

Bu nümunələr Səhəndin uslubun ən güclü şairlərimiz tərəfindən mənimsəndiyini göstərməkdədirlər.
Şair, ikinci **Ərməğan** şeirində kimliyini tanıtdırmaq üçün bu sözlərlə səsini öz doğma xalqının gur səsinə qatır:

Mən demirəm üstün nəjaddanam mən
Demirəm, ellərim ellərdən başdır,
Mənim məsləkimdə, mənim yolumda
Millətlər hamısı dostdur, qardaşdır
Çapmaq istəmirəm mən heç milləti
Nə dilin, nə yurdun, nə də əməyin
Təhqir etməyirəm hədələmirəm
Keçmişin, indisin, ya gələcəyin
Mən ayırmayıram, ayrı salmıram,
Qardaşı–qardaşdan, arvadı–ərdən,
Ananı baladan, əti dırnaqdan
Ürəyi–ürəkdən, qanadı pərdən.
Pozmaq istəmirəm mən birlikləri
İnsanlıq birliyi idealımdır.
Qardaşlıq, yoldaşlıq, əbədi barış
Dünyada böyük arzularımdır.
Ancaq, bir sözüm var, mən də insanam
Dilim var, xalqım var, yurd–yuvam var.
Yerdən çıxmamışam göbələk kimi
Adamam, Haqqım var, elim–obam var.
Qul yaranmamışam, yarananda mən
Heçkəsə olmaram, nə qul, nə əsir.
Qurtuluş əsridir, İnsana bu əsr
Əsir olanlarda buxovun kəsir.

Və Üçüncü Ərməğanda Rüstəm Əlieflə görüşməsini və dərdini–kədərini onunla bölüşməsini belə təsvir edir:

Dağıvı görməyim Rüstəm qardaşım,
Qəribə dadıma durdun
Doğma vətənimdə, doğma elimdə,
Məni qərib görüb halımı sordun.
Bir ömür dərdimi gizli saxladım,
Odlandım, alovum özümü yaxdı
Oduma su səpən olmadı bircə,
Gözlərimin yaşı içimə axdı
Həkimsiz, qayğısız, dava–dərmansız
Simlədi, sümüyə işlədi yaram.
Üzümə bağlandı bütün qapılar,
Özümdən əl üzdüm kəsildi çaram.

Çoxlar başım üstə gəldi, sovuşdu,
Lakin əhvalımı soran olmadı
Dərdimi, yanğımı soran çox oldu
Ancaq, yanıxmadı, gözü dolmadı
Nə bilim «lazimi mülahizələr»,
Yalnız qorxutmadı səni qardaşım.
Elimin əməyi həlalın olsun,
Baxdım qeyrətivə ucaldı başım
Ürəklə dinlədim qardaş qəmini,
Ürəkdən bağlandın qəmə, kədərə.
Bağırdın, höykürdün, abdala döndün
Car çəkdin, çov saldın bütün ellərə.
Sənlə qanadlandı ş’erim, ilhamım,
Axdı xiyalimin qaynar çeşməsi.
Səninlə səsləndi boğulmuş səsim,
Yayıldı qəlbimin ahı, naləsi.
Ellər xəbər tapdı halımdan mənim
Bir daha dərdimiz dillərə düşdü.
Qələmlər, zəxmələr covlana gəldi,
Nəğmələrə düşdü, tellərə  düşdü.
Ürək nalələrim, ürək ş’erlərim,
Titrətdi onlarca şair ürəyin,
Qaralmış odumuz közərdi yenə
Qızdırdı xalqımın arzı çölməyin

Və Bəxtiyar Vahabzadə « **Səhəndə Məktub**» şeirində Səhəndə cavab olaraq belə yazır:

Səhənd, sözlərindən odlar töküldü
Oxuduq şeirini göz yaşlarıyla.
Ata malın kimi yarıya böldü
Qardaş, eyni dərdi qardaşlarıyla.
O acı fəryadlar, şirin nəfəslər
Mənim də könlümün ahı, naləsi
Qardaşım, Təbrizdən gələn bu səslər,
Bakının səsidir, Bakının səsi!
Deyirsən, yarıya bölünənləri
Dərdini dünyada bir bilməyən yox,
Bizdə bölünmüşük, ancaq bu dərdi
Uca kürsülərdən bir söyləyən yox…
Yıxılar geridən itələyənlər,
Təkanı yaradaq özümüz gərək,
Yenə də oların «həman xak» əgər,
Biz öz içimizdən itələnməsək!
Xırda təpələri sellər oyanda,
Əsər bu həmləyə dağlar da zağ–zağ,
Biz öz dərdimizə ağlamayanda,
Bizim yerimizə kim ağlayacaq?
Günahkar tutmayaq burda heç kimi
Dərilib ayrıldıq biz qünçə–qünçə,
Ana da süd verməz ciyər parəsi
Nalələr qoparıb ağlamayınca…
Çox vaxt özümüzü bəyənmədik biz,
Dedik filankkəsə gərək oxşayaq,
Yandı öz bağımız, fikir çeşməmiz,
Özgə bağlarını suvardıq ancaq.
Saldıq özümüzü, özümüz gözdən
Kül ilə oynadıq, əl çəkib közdən,

Kölgələr nur aldı şəfəqimizdən,
Günəş bizim oldu, səhər özgənin.
Hələ tanımayır, duymayır bizi,
Öz şəhərim mənim, öz kəndim mənim,
Kimsədən ummayaq taleimizi,
Özümüzdən umaq, Səhəndim mənim!...

# 7

# Uşun Qoca Oğlu Səgrək

***Başlanış***

*Mənim ana şəhərimdə,
Xaraba bir xiyavan var.
Oyan–buyan, nalbənd, əllaf,
Palan tikən, dəllək, baqqal,
Çayxanalar, boyaxana,
Qarın–qursaq tükanları.
Kətli–kütlü, düşüb qalan,
Dəvə keçər atlı ötər,
Karvansara qapıları,
Düzülmüş bu xiyavanda.
Dəri–dürü, kəllə–paça,
Kərmə–yapma, təzək–boyaq,
Qənovlardan axıb keçən,
Gəndabların baş çatladan
Qoxusuna baxmayaraq,
Neçə–neçə çayxanadan
Hər vaxt, hər an saz balaban
Əlişahdan koroğludan
Dədə kərəm, aşıq qərib,
Başqalardan söhbət açan,
Aşıqların ozanların,
Qaqqıltısı dinlənilir.*

*"Çəkib bəzirgan soyduğum,
Qafilələr boş qoyduğum,
Paşalar gözü oyduğum,
Nigar, çənlibel budur bu…"*

*Ordan keçən bir an belə
Özlügünü unudaraq,
İstək, ilqar, qoçaqlıqlar,
Haqq tanımaq, mərd yaşamaq,
Uğradıqda dönməz olmaq,
Alışarkən sönməz olmaq
Dost yolunda, yar yolunda,
Maldan keçmək, candan keçmək,
Haqq əlindən badə içmək,
Alışdıran, ruh coşduran,
Dərin–dərin röyalara,
Cumub dalar sərxoş olar.*

*Sankı burdan "Qorqud Dədə"
Qopuzunun səsi gələr,
Eşidənlər fərəhlənər,*

*Könlü coşar, aşar, daşar,*
*Mənəvi bir aləm ilən,*
*Ülfət tapar, qucaqlaşar.*

*"Aşıq Hüseyn" hər vaxt, haçan,*
*Sazın çalıb oxuduqcan:*
*" Bala Nərgiz, bala Nərgiz,*
*Qol boynuma dola Nərgiz*
*Dodaqların xam şəkərdir,*
*Dilin batıb bala, Nərgiz..."*

*Şaxta, boran, aclıq, hırman,*
*Soldurduğu "Nərgiz"lərin,*
*Pıtaları qünçələnər,*
*Ürəyinə umud dolar,*
*Günəş parlar, nur ələnər.*

*Uşaq ikən, körpə ikən,*
*Mən bu pozğun, sarı, solğun,*
*Nərgizlərin birisinin,*
*Qucağında boy atmışam.*
*Bu nəğmələr, zəmzəmələr,*
*Ehsasımın tayasıdır,*
*Şeirimin də mayasıdır.*
*Ürəyimin tellərini,*
*Əzəl başdan sızıldadan,*
*İlham verən, beşik olan,*
*Qoparıdır anasıdır.*
*Xatırıma gələr–gəlməz,*
*İlhamımı bilər–bilməz,*
*Ellərimin yaratdığı,*
*Yaradanı yad verilməz,*
*Heç bir şair, heç bir sənətkar,*
*Nəzirəsin yaza bilməz,*
*Qoşmalardan almışam mən.*
*Könül sazın, zurnaların,*
*Döhüllərin gur səsindən,*
*Aşıqların, Ozanların*
*Könül açan nəğməsindən,*
*Öyrənibən çalmışam mən.*

*Şəhərimə son illərdə,*
*Eylədiyim bir səfərdə,*
*İrəhmətlik əmim ilən,*
*Bu yerləri gəzən zaman,*
*Qoca əmim, bir nüqtədə,*
*Dört bir yanın sıza–sıza,*
*İri " tək gön" başmağını,*
*Yerə döyüb, mənə dönüb,*
*–Bax burada, düz burada,*
*Sən doğuldun, –deyə, belə:*
*Söhbətinə dəvam etdi:*

*Qırx əlli il bundan əvvəl,*

*Bu məhəldə xiyavan yox*
*Çoxlu palçıq dəməkçələr,*
*Daxmacıqlar tikilmişdi.*
*Xanın, bəyin təbiətin,*
*Qəzəbinə tuş olanlar,*
*Olurundan, yer yurdundan,*
*Sürgün olub qovulanlar,*
*Şəhərə qaçıb yük–yapların,*
*Bu daraşlıq, qap qaranlıq*
*Dəməklərdə açardılar.*

*Biz də qədim bahalıqda,*
*"Üç tümənlik" illərində,*
*Varı–yoxu əldən verib,*
*Kəndimizin tərkin qılıb,*
*Baş götürüb şəhərə qaçdıq,*
*-Necə deyər, qəribligin,*
*Pətavasın burda açdıq.*
*Yazıq anam sən doğulan,*
*"Həsən damı" adlanılan,*
*Bir göz damlı daxmacığı,*
*Hər ayını beş qırana,*
*Yiyəsindən kira tutdu.*

*Onda bizlər uşaq idik.*
*Atam – qağam ölmüşdülər.*
*Böyügümüz irəhmətlik,*
*Atan idi, o, da ancaq,*
*Ondörd – onbeş yaşındaydı.*
*Qara günlü, yazıq anam,*
*Böyük oğlun nökər verib,*
*Özü isə varlıların*
*Evlərində çörək yapıb,*
*Yetimlərin saxlayardı,*
*Günlər ötüb dolanardı.*

*Sonra atan evlənərkən,*
*Daxmamızı iki eylədik.*
*Səni anan burda doğdu,*
*Deyə əmim ürəginin*
*Kitabını varaqlayıb,*
*Həyatının, həyatımın,*
*Hirman dolu, kədər dolu,*
*Lövhələrin, səhnələrin*
*Bir–bir mənə göstərərkən*
*An içində, xatirimin*
*Dərin–dərin diblərində*
*İtib–batan xatirələr,*
*Dirçəlirdi, canlanırdı.*
*İlk günlərim, keçmişlərim,*
*Əmim deyən dar daxmacıq,*
*Bir sinama pərdəsi tək*
*Qənşərimdən gəldi keçdi.*
*"İzzət" nənəm, " Kişvər" əmməm*
*"Can nənə"mi xatırladım.*

*Mən hələ çox kiçik ikən,*

*"Ayaz" ya da "Araz" adlı*
*Xırdaca bir qardaşım da*
*Varım imiş. Sir–sifəti,*
*Mənə yuxu kimi gəlir.*
*Söyləyirlər, o, bir gözəl,*
*Ətli–canlı, isti qanlı,*
*Qara telli, şirin dilli,*
*Dəmir kimi uşaq imiş.*
*Bir gün mənlə oynayarkən,*
*Sürütməsin dalı–dalı,*
*Çəkə–çəkə, birdən–birə,*
*Həyətin bir bucağında,*
*Qoyublarmış qaynar suyun*
*Qazanına düşüb ölmüş.*

*Yadımdadır, yazıq anam,*
*Hərdən-hərdən, qəmlənərkən,*
*Gözlərinin yaşı pır–pır*
*Yanağına axa–axa,*
*Dövr–bərin unudaraq,*
*Göz vurmadan, baxışların*
*Bir nüqtəyə izliyərək,*
*Yana–yana ağlayardı*
*Həzin–həzin sızlayardı.*

*"Araz, araz, xan araz,*
*Dənizə axan araz!*
*Sevdigim gəmidədir,*
*Gəl eyləmə qan araz!"*

*"Arazı ayırdılar,*
*Qumunan doyurdular.*
*Mən səndən ayrılmazdım,*
*Zülm ilən ayırdılar!"*

*"Araz səndən kim keçdi,*
*Kim qərq oldu kim keçdi?*
*Yar məndən əl çəkməzdi,*
*Bilməm kimdən him keçdi!"*

*Mən qardaşsız, tək, böyüdüm.*
*Tək gəzəndə, dolananda,*
*Uşaq ikən uşaqlarla,*
*Oynaşanda, savaşanda,*
*Həyatımın hər bir–hər bir,*
*Yenişində, yoqquşunda,*
*Çətinligə tuş gələndə,*
*Qardaşsızlıq, köməksizlik,*
*Dərdi, məni sarsıdardı.*
*Qardaş, arxa, el, ürəkdir.*
*Qardaşsızlıq yaman dərddir.*

*Son illərdə "Qorqud Dədə"*
*Dastanları sırasında,*
*Səgrəkin nağılını,*
*Oxuyarkən, şeir edərkən,*
*Bizim qədim adətlərdə*

*"Qardaş andı" deyə–borcun,*
*Hər igidin zəmməsində,*
*Olduğunu anlayaraq,*
*Bir də dərdim təzələndi.*
*Ancaq bu qəm təkcə mənə,*
*Ata–ana birligindən*
*Doğuluban doğrulan bir*
*Qardaşlıqdan məhrum olmaq*
*Dayaqsızlıq, arxasızlıq,*
*Dərdi deyil, qəmi deyil,*
*Ara, axtar ürəgimin*
*Nisgilini dərdindən bil.*
*Mədəniyyət yüksəlsə də,*
*Uzaq yollar qıssalsa da,*
*Elm–sənət Insanları*
*Bir–birinə bağlasa da,*
*Insanlığa çox yaraşan*
*Umanizmə, Insançılıq,*
*Mütərəqqi , internaşnal,*
*Fikirləri, hissləri,*
*Haqqı sevər, Insanpərvər,*
*Ürəkləri qapsasa da,*
*Yüz əfsus ki, "Qardaş Andı"*
*Kimi, bəşər həyatının,*
*Nabalığlıq adətləri,*
*Hələ–hələ zorluların*
*Millətçilik duyğuları*
*Qarşısında lazimi bir*
*Silah kimi saxlanılır.*
*Bu yaramaz çaxnaşmanın*
*Ağacını kimlər yeyir?*
*Varı–yoxu oğurlanmış,*
*Dalı qalmış, doğranılmış,*
*Kiçik ellər, " biz" kimilər.*

*İngilistan, Amerika,*
*Fransa, ya Italia,*
*İsraillər, Ərəb, Jermən,*
*Hər zamanda, bu gün, dünən*
*Millətçilik andlarına*
*Dayanaraq belə ancaq,*
*Hövkürürlər, güvənirlər.*

*Kimsə bunu açıq–aydın*
*Ört–basdırsız deməsə də,*
*Bərbəriyyət dövrəsinin*
*Qanunları hələ–hələ,*
*Şiddət ilən, hökm sürür.*
*El–arxasız milliyyətlər*
*Hələ güclü çoxluqların*
*Qüdrətsizlər zorluların,*
*Töməsidir, köləsidir…*

*Mən, Insanlar bir–birinin*
*Qardaşıdır, sırdaşıdır,*

*Deyə–bir gün, iki gün yox*
*Ömür boyu haray çəkib,*
*Qələm çalıb, boğaz yırtıb,*
*Şeir yazıb, yaratmışam.*
*Həyatımın kitabçasın*
*Varaqla bax, gör ki, ancaq,*
*Heç dərdimi heç ağrımı,*
*Məhkum Insan dərdlərindən,*
*Ayırıban bölməmişəm.*
*Mən özümü, öz elimi,*
*Yaxın–uzaq Insanlıqdan*
*Heç də artıq sevməmişəm.*
*Mən yağlımı, yavanımı,*
*Hər yerdənsə, hər eldənsə,*
*Olur–olsun, hərgün–hər an*
*Ac–yalavac Insanlarla*
*Bölməkligə hazir olub,*
*Bu sözümdə sadiq durub,*
*Tam varlıqla dayanmışam.*
*Lakin, hələ, yazıq dünya*
*"Millətçilik" xulyasına,*
*İnadına davam edir.*
*Humanizmi sayan kimdir,*
*Insanlığı anan kimdir?*

*Mən qüdrətli qolu zorba,*
*Bir millətin şairi tək*
*Həyasızca öyünübən*
*Ellərimə "Üstün Nəjad"*
*Xulyıası ilə hakim olmaq*
*Insanların çalıb–çapmaq*
*Dərslərini verməmişəm.*

*Mən əzilmiş, haqqı itmiş,*
*Varı–yoxu əldən getmiş*
*Ağır–ağır sitəmlərə*
*Məruz qalmış, əsir düşmüş*
*Millətimin, millətlərin,*
*Ömrü məhkum Insanların,*
*Insanlığın şairiyəm.*
*Oxucum, mən "Qardaş Andı",*
*Deyə–bugün söz açsam da,*
*Haqla məni, haqq ver mənə,*
*Öz dərdimi çəkməsəm mən*
*Bu "vanəfsa" zəmanədə,*
*Dərdlərimi kim çəkəcək*
*Vətəndaşım, yol yoldaşım,*
*Qardaş andı fərqlənir*
*Millətçilik andı ilə*
*Sözlərimi artıq düşün,*
*Dərin–dərin fikir eylə*
*Bütün Insan kütləlƏri,*
*Bir–birinə qardaş–deyə*
*Qayğı çəkə, qəmin görə–*
*Bilən yola uğramadan*
*Doğru deyim hələ mən də*
*Dönənmərəm öz andımdan.*
*Hələ kiçik millətlərə*

*"Qardaş Andı" müqəddəsdir.*

*Bütün Insan xırda, kəlan,*
*Bir bağır tək qovuşmadan,*
*Qardaş deyə and içmədən,*
*Öz andına qol çəkmədən,*
*Bu qurtuluş yolundan mən*
*Dönənmərəm hərgiz bir an*
*Hələ–hələ– "Irq birligi"*
*"Qan birligi" zirnasını*
*Çalanlar var dünyamızda.*

*Qan qardaşım, vətəndaşım,*
*Məhkum Insan dərdi–deyə,*
*Hər ağrıvı, hər dərdivi,*
*Çəkirəm öz dərdim kimi.*
*Şənligində, qəmində də*
*Səninlənəm, səninlənəm.*
*Tam Insanlar bəşəriyyət*
*Ağ, qırmızı, sarı, qara*
*Qardaş–deyə, sırdaş–deyə,*
*Qucaqlaşıb öpüşmədən*
*Doğmalıqlar, qardaşlıqlar*
*Davam edib yaşayacaq!*
*Məhrum Insan bu ilqara*
*Sığınaraq dayanaraq*
*Vuruşmasa, çarpışmasa,*
*Şərə-şurluq, işğalçılıq*
*Rəsmin töküb dağıtmasa,*
*Qarət olmuş tapdalanmış*
*Haqqın məgər quduzlanmış*
*Ac qurdların çəngəsindən*
*Yalvarmaqla sıtqamaqla*
*Dilənməkləmi alacaq?*

*Məhkum olmuş milliyyətlər,*
*Bizim kimi fəna ellər,*
*Qardaş, deyə, bir-birinə*
*Dayanmasa, hövkürməsə,*
*Baş qoyuban can verməsə,*
*"Insançılıq" günəşi bəs,*
*Hardan-haçan baş qaldırıb,*
*Nur saçacaq, parlayacaq!?*

Oğuzların zamanında
Uşun qoca deyirlər bir
Ər yaşarmış, bu kişinin
Ancaq iki oğlu varmış.
Böyük oğlan Əgrək adlı
Dəli qanlı, adlı-sanlı
Bahadır bir igid idi.
Bayındırxan divanına
Könlü haçan istəyirsə
Vara bilər, gedər, gələr.
Xan Qazanın məclisində
Oturarkən qərarlanmaz
Heç kimsəni anıb, sanmaz.
Yenə bir gün o bəyləri,
İgidləri, ərənləri
Basıb, keçib xan Qazanın
Qarşısında oturarkən
Oğuzlarda Tərsuzamış
Adlanan bir ər varımış.
-Mərə, Uşun qoca oğlu!
Bu oturan bəylər bütün
Oturduğu yerlərini
Qılınc ilə əmək ilə,
İgitliklə alıbdırlar.
Mərə, Əgrək! Söylə görək
Sən nəmisən, neyləmisən?
Başmı kəsdin, qanmı tökdün?
Ac doyurub, yalıncıqmı
Donaldıbsan? Deyə-aydır.
–Tərsuzamış, mərə görüm.
Baş kəsmək mi, qan tökmək mi
İgitlik, ya hünərmidir?
Deyə, Əgrək cavab verir.
–Bəli, böyük hünərdir bu
Deyə, dönüb Tərsuzamış
Sözlərini təkid edir.
Tərsuzamışın dedikləri
Əgrəgə ağır gəldi.
Uru durdu Qazan bəydən
Axın deyə izn istədi.
Salur Qazan axın verdi.
An içində say cidalı
Üç yüz igid ayrıldılar,
Alay qurub Əgrəgin
Dövrəsinə yığıldılar.
Meyxanada toy tutuldu
Beş gün yemə–içmə oldu.
Sonra Şərur daxılindən
Göycə dəniz sahilinə

Çatanadək el at çapdı.
Qalibiyyət duyum oldu
Yol Alınca qalasına
Uğramışdı qara Təkur
Orada bir qoruq yapmış
Qaz və toyuq uçarlardan
Yürürlərdən  keyik, dovşan
Bu qoruğa dolduruban
Bunu Oğuz bəylərinə
Tələ qurmuş kafər, demə!
Əgrəgin bu qoruğa
Yolu düşdü, aşı pişdi
Qapısını avatdılar
Sığın keyik qaz və toyuq
Ovlayıban quşlayıban
Yeyib–içib atlarının
Yəhərlərini aldılar
Geyimlərin çıxartdılar.
Qara Təkur casusları
Bunu görüb casusladı:
Oğuzlardan ağır–ağır
Atlı gəldi qoruğunun
Qapısını avatdılar
Nə durubsuz, sığın keyik
Qaz və toyuq ovlayıban
Yeyib–içib atlarının
Yəhərlərini aldılar
Geyimlərin çıxardılar
Nə durmusuz? Altıca yüz
Azğın dinli, qara donlu
Kafir qalxdı atlanıban
İgitlərin üstə qondu.
Üç yüz igid qırıldılar
Əgrəgi də dustaq edib
Apardılar Alıncanın
Qalasına buraxdılar.
Qara–qara uca dağdan xəbər aşdı,
Qanlı–qanlı gur sulardan xəbər keçdi,
Qalın Oğuz ellərinə xəbər çatdı,
Uşun qoca ağban evi
Qarşısında şivən qopdu.

Qaza bənzər qız gəlini
Ağ çıxarıb qara geydi,
Acı dırnaq üzə vurdu.
Başı lovlu Uşun qoca
Ağca üzlü xatını ilə
Oğul–oğul, deyə, durub
Üzün cirib başa vurub
Ağlaşdılar, bozlaşdılar.

Qabırqalı olalırmış
Yeyəlidə böyüyürmüş
Məgər xanım qoca bəyin
Kiçik oğlu Səgrək
Bahadır alp igid oldu.
Birgün yolu bəylər ilən
Bir dərnəyə uğraşaraq
Yeyib–içib məst oldular.
Əgrək qalxıb abdəst üçün
Dışra çıxdı gördü iki
Öksüz oğlan çəkişirlər.
Nə oldunuz, oğlan!– deyə
Bir şapalaq birisinə,
Birini də obirisinə
Yapışdırdı.

Əski donun biti,
Öksüzün dili acı olur.
Oğlan aydır:
–Mərə bizim
Yetimligimiz yetməzmi
Hələ bizi sən vurursan?
Hünərin var qeyrətin var
Get Alınca qalasından
Əsir düşmüş qardaşını
Alıb qurtar.
Səgrək aydır:
–Mərə söylə görüm
Qardaşımın adı nədir?
Oğlan aydır:
–Əgrəkdir.
Səgrək aydır:
–düz deyirsən,
Əgrəkə Səgrək yaraşır.
Qardaşım sağmış isə
Onsuz Oğuzda durmaram.
Qaranqulu gözlərimin
Aydını, –deyə ağladı,
İçəri söhbətə girdi, izn istədi
Bəylərə xoş qalın dedi.
Atını çəkdilər mindi,
Atasının obasına
Çapıb gəldi,
Atdan düşdü.
Anasının dilin aramaq istədi.

Səgrək görək nə söylədi:
Qalxıbanı toparlanıb uru durdum
Qara yallı qazılıq ata bütün mindim

Əyri yatan ala dağa at çapırdım
Qalın Oğuz ellərində dərnək varmış
Ora vardım. Yemək–içmək arasında
Boz atlı bir çapar gəldi, belə dedi:
Çox zamanmış Əgrək adlı bir igit
Yad ellərdə dustaq imiş.
Qadır tanrı yol veribən çıxıb gəlmiş
Bunu çapar deyər–deməz o igidə qarşı getdi
Ana mən də varayım mı? Nə deyirsən?

Anası burda söyləmiş
Qulaq asaq nə söyləmiş!
Ağzın üçün ölüm oğul!
Dilin üçün ölüm oğul!
Qarşı yatan qara dağın
Yıxılmışdı, ucaldı axır
Axıntılı gur suların
Sovrulmuşdu, çağladı axır
Qaba ağacda dal budağın
Qurumuşdu, yaşardı axır
Qalın Oğuz bəyləri
O, igidə qarşı getsə
Sən də vargil o igidə
O, igidə yetişincə
Ağ–boz atdan yerə yengil
Əl bağlayıb ədəb ilən
O, igidə salam vergil,
Əlin öpüb boynun quçgil,
Qara dağım yüksəgi qardaş degil
Nə durursan, oğul, yürtgil

Oğlan burda anasına nə söyləmiş:
–Ağzın qurusun ana,
Dilin çürüsün ana,
Mənim böyük qarındaşım
Varımış dönsəm olmaz
Qardaşsız Oğuzda mən
Dursam olmaz, Ana haqqı
Tanrı haqqı olmasaydı
Qara polad uz qılıncım
Tutardım qəfillicə
Qara başın kəsərdim.
Alca qanın yer üzünə
Tökərdim ana, ay zalım ana!
Uşun qoca gəlib aydır:
Bu xəbər yalnışdır, inan,
O, çağ qaçıb burdan gedən
Sənin ağan deyil, oğul!
Ağ saqqallı mən babanı
Bozlatmagil, ağ birçəkli

Ananı sən ağlatmagıl.

Oğlan burada söyləmiş:
Üç yüz altmış alp ərənlər
Ova minsə qanlı keyik üzərinə
Qovğa qopsa qarındaşlı
Mərd igitlər qalxar, qopar.
Qarındaşsız miskin igit
Ənsəsinə yumruq dəysə
Ağlayıban dörd yanına
Baxar olur, ala gözdən
Acı yaşın tökər olur.
Ala gözlü oğlunuzu
Görənəcən, a bəy baba!
Xatın ana əsən qalın!

Ata–ana söylədilər:
Bu xəbər yalnışdır, oğul,
Getmə qayıt!
Oğlan aydır:– Gəlin məni
Öz yolumdan ayırmayın.
Yalqız ağam tutulduğu
Qalaya mən varmayınca,
Qardaşımın ölüsünü,
Dirisini bilməyincə
Ölmüşsə də onun qanın
Kafərlərdən almayınca
Qalın Oğuz ellərinə
Qayıdıban gəldigim yox!
Ata–ana ağladılar
Qazana adam saldılar:
Oğlan qardaşını anmış,
Durmaz, gedər, bizə
Nə öyüd verirsən?
Salur Qazan: Ayağına
At tuşağın vurun, dedi!

İgit oğlan nişanlı idi
Tər–tələsik toy eyləyib
Dəvə kəsib at öldürüb
Qoç qırdırıb oğlancığa
Gərdək qurub, gəlin ilə
Bir gərdəgə buraxdılar.
Oğlan qılıncın çıxardı
Qız ilə öz arasına buraxdı.
Qız aydır: Qılıncın kəsər, igit
Murad ver, murad al.
Yoxsa mən saralaram
Oğlan aydır: Mərə qavat qızı

Bil gil qılıncıma doğranayım
Oxuma sancılayım, oğlum doğmasın,
Doğa isə on yaşına varmasın,
Ağam üzün görməyincə
Ölmüş isə qanına qan etməyincə
Bu gərdəgə girdigim yox!
Uru durdu, geyim geydi,
Şahbaz atın yəhərlədi,
Silahlandı dönüb aydır:
Qız, sən bir il gözləyərsən,
Mən bir ildə gəlməsəm
Sən iki il gözləyərsən,
Üç il gözlə, gəlməzsəm
Onda mənim öldüyümü
Duyub, bilgil Ayğırımı
Boğazlayıb yasımı tut,
Aşımı ver, gözün hər kimi
Tutarsa, könlün hər kimi
Sevərsə ona vargil!

Qız burada söyləmiş
Görək, xanım nə söyləmiş:
Mərd iyidim mən səni bir il
Gözlərəm, gəlməsən iki il
Gözlərəm.
Gəlməsən üç , bəlkə də dörd
Beş–altı il gözlərəm.
Altı ildə gəlməz olsan
Altı yolun ayrıcında
Çadır qurub ev tikərəm,
Gəlib–gedəndən soraram.
Xeyir xəbər gətirənə
At verərəm don verərəm.
Yaman xəbər gətirənin
Başın kəsib öldürərəm.
Ərkək sinik üzərimə qondurmaram
Bu dünyada yar tutmaram
Murad verib murad al get.
Oğlan aydır: Qavat qızı
Qardaşımın başına mən
And içmişəm, dönməgim yox!
Qız aydır: Qədəmi şum ad alınca
Ürəksiz gəlin desinlər.
Mən gedəlim qayın atama
Qayın anama söyləyəlim;
Anamdan iyi qaynana
Atamdan iyi qaynata:

Qaytabanın buğrası ürkdü gedər

Sərvanlar önünü ala bilməz.
Qara qoç ayğırın ürkdü gedər
Ilxıçılar önünü ala bilməz.
Ağayılın qoçları ürkdü gedər
Çoban önünü ala bilməz.
Ala gözlün oğlun böyük qardaşını andı gedər
Ağca üzlü gəlinin önünü ala bilməz
Sizə məlum olsun dedi.

Ata–ana ah etdilər
Yerlərindən qalxdılar
Oğul, getmə söylədilər
Gördülər çarə olmadı.
Oğlan dedi: Əlbətdə o
Ağam tutulan qalaya
Varmayınca ola bilməz.
Ata–ana: Var get oğul
Uğurların açıq olsun
Gələcəyin olsa əgər,
Əsən varıb sağ gələsən!
İgit oğlan atasının, anasının
Əlin öpdü, qara qoç ata sıçradı
Gecəni gündüzə qatdı.
Üç gün gecə–gündüz yürütdü
Dərəşam ucundan keçdi.
Qardaşının tutulduğu
O, qoruğa gəldi çıxdı.
Neçə kafər ılxıçısı
Gördü yabı gözləyirlər.
Qılınc çəkib altı kafəri təpələdi
Dovul çalıb yuntları hürkütdü
Gətirib qoruya saldı.

Gecəni gündüzə qatıb
Üç gecə–gündüz at çapmış
Qaranqulu gözlərini yuxu aldı
Qazılıq atın cilovunu
Biləginə keçirərək
Çəmənlikdə yatdı, uydu.
Məgər kafərin casusu
Gəlib belə xəbər verdi:
- Oğuzdan bir dəli igit
Çıxıb gəldi ılxıçıları öldürdü
Yuntaları hürküdübən
Gətirib qoruya saldı.
Təkur aydır: Altmış nəfər
Hazır yaraq adam seçin
Gedib tutub gətirsinlər.
Altmış yaraqlı seçdilər
Seçilənlər oğlancığın

Üzərinə yönlədilər.
Geyimin cingiltisindən
Bədöy atlar şihəsindən
İgit məgər ayılarmı?
At qulağı sayıq olur
İgidin mindigi ayğır
Çəkdi oğlanı oyatdı
Baxdı gördü kim bir ala
Atlı gəlir sıçradı,
Atın mindi, adı gözəl
Məhəmmədi yada saldı,
Qara donlu kafərlərə
Qılınc qoydu basdı
Qalaya qaytardı.
İgit yuxudan doymayıb
Yatağına dönüb gəldi,
Yenə atın cilovunu
Biləginə keçirərək
Başın qoyub düşdü yatdı.
Kafirlərin sağ qalanı
Qaçıb Təkurə gəldilər.
Təkur aydır: tü üzüzə
Altmış kişi bir oğlanı
Basmarlayıb tutanmadız!
Bu kərə yüz kafər minib
Oğlana hücüm etdilər.
Ayğır yenə çəkdi oğlanı oyatdı.
Oğlan durdu baxdı gördü
Kafir alaylanıb gəlir. Ata mindi,
Adı gözəl məhəmmədi yada saldı,
Kafirlərə qılınc qoydu
Gətirib qalaya tıxdı.
Döndü gəldi, yuxusundan
Əl çəkməyib atdan yendi,
Cilov qolda düşdü yatdı.
Bu kərə at cilovunu
Oğlancığın biləgindən
Boşaldaraq qoydu, qaçdı.
Kafirin can qurtaranı
Qaçıb Təkura gəldilər.
Təkur aydır: Bu dəfə
Üç yüz atlanın.
Kafir aydır: Varanmarıq,
Hamımızı qırar tökər.
Təkur aydır: Bəs nə etmək?
Varın gedib dustaq olan
O iyidi alıb gəlin.
Təpik vuranın əlindən
Buynuz vuran gələ bilər.
Oğlana siz don geydirib

Ayğır verin bu dəlinin
Qarşısına göndərin.
Gəldilər Əgrəgə söylədilər:
Mərə igit, Təkur sənə
Hümmət qıldı burada bir
Dəli igit tapılıbdır
Bütün yolçu–yolaqçının
Çobanların çoluqların
Ətməklərin tutub alır.
O, dəlini tutub öldür,
Səni buraxaq qoy çıx get!
Əgrək, xoş ola, dedi.
Əgrəgi çıxartdılar
Saçın saqqalın yoldular
Bir at, bir qılınc verdilər
Üç yüz kafərlə birlikdə
Səgrək üstə yolladılar.
Üçyüz kafər gendə durub
Çox ıraqdan o dəlini göstərdilər.
Əgrək aydır: Gəlin, varalım tutalım.
Kafir aydır: Təkurdan buyuruq
Sənə oldu, sən tut gilən
Əgrək aydır: O, yuxuda
Siz qorxmayın gəlin tutaq
Harda yatıb? Qoltuğu
Altından baxar, qalxar bizə
Gen dünyanı dar göstərər.
Özün var–get söylədilər.
Mən vararam əl–ayağın
Bağlayaram, ondan sonra
Siz gələrsiz, dedi, Əgrək.
O, sıçrayıb kafərlərdən
Aralandı, atın sürüb
Qoç igidin üzərinə
Gəldi–çıxdı, atdan yendi,
Cilovunu bir budağa ilişdirdi.
Baxdı gördü ayın on dördünə
Bənzər ala gözlü, məhbub üzlü
Gənc bir igit mıncıq–mıncıq
Tər damlası gül üzündə
Mıncıqlanmış, gələnindən
Gedənindən xəbəri yox.
Dolandı başı üstə gəldi,
Arxasında qopuz gördü,
Çıxarıb əlinə aldı.
Dilləndirib söy söyləmiş,
Görək, xanım, nə söyləmiş:
Qalxıbanı yerindən duran igit,
Qara yallı Qazılıq ata minən igit,
Ala dağdan gecə ikən aşan,

Axıntılı gur suları dəlib keçən,
Qəribligə gələn yatarmı olur?
Mənim kimi ağ əllərin dalısından bağladıban
Donuz damında yatırmı olur?
Ağ saqqallı babasını, ağ birçəkli anasını
Ağladıban sızladırmı olur?
Nə yatırsan, qafil olma, gözəl başın Qaldır, igit
Gözün açgıl, igit.
Qadır verən dadlı canın yuxu almış
Arxasından qollarını bağlatmadan
Ağ saqqalı bəy babanı, qarı ananı ağlatmadan
Qalın Oğuz ellərindən gələn igit, nə igitsən?
Yaradanın haqqı üçün durub gəlgil
Dörd yanını kafər aldı, bəlli bilgil.
İgit oğlan səmirədi
Uru durdu qılıncının
Qəbzəsinə əl atdı kim
Onu çırpsın, gördü əlində
Qopuz var, belə dedi:
Mərə kafər, Dədəm Qorqud
Hörməti üçün çırpmadım
Əgər qopuz olmasaydı
Dustaq ağam başı üçün
Səni iki bölər idim.
Çəkdi qopuzunu aldı
Sonra dönüb belə aydır:
Ala sabah, dan yelləri əsəndə
Yerimdən durduğum qardaş üçündür,
Ağ– boz atlarımı qamçılıyıban
Tərlədib yorduğum qardaş üçündür,
Qalanızda dustaq vardır, degil mənə,
Qara başım qurban olsun, kafər, sənə.

Burada Əgrək söyləmiş
Baxaq görək nə söyləmiş:
Ağzın üçün ölüm qardaş,
Dilin üçün ölüm qardaş,
Qalarından–qoparından
Sorar olsam nə yerdənsən
Qara gərdun içərsində
Yolun azsan umarın nə?
Qaba ələm götürən sərdarız kimdir?
İgit, sənin baban kimdir?
Alp ər, ərdən ad yaşırmaq ayıb olur
Söylə, igit adın nədir?

Bir daxı burda söyləmiş:
Qaytıbanımı güdəndə sərvanımmısan?
Qara qoçum güdəndə ılxıçımmısan?
Ağayılım güdəndə çobanımmısan?

Qulağımda şurlayan nayıbımmısan?
Beşikdə qoyub getdigim xırdaca qardaşımmısan?
İgit kimsən, de ginə mənə
Qara başım qurban olsun bugün sənə.
Səgrək burda ağasına belə demiş:

Qara gərdun içərsində yol azarsam, umudum allah,
Qaba ələm götürənim xan Bayındır
Qırış günü həmlə qılan Alpım, Qazan
Babam adın sorar olsan, Uşun qoca
Mənim adım sorar olsan, Səgrək
Qardaşım varımış Əgrək.

Bir daxı aydır:
Qaytabanın güdəndə sərvanınam
Qara qoçun güdəndə ılxıçınam
Beşikdə qoyub getdigin qardaşınam!

Ulu qardaş Əgrək burada söyləmiş:
Ağzın üçün ölüm qardaş!
Dilin üçün ölüm qardaş!
Ərmi oldun, igitmi oldun?
Qəribligə qardaşını axtarı gəldin?
İki qardaş bir–birini
Quca–quca görüşdülər
Ulu qardaş Səgrəkin
Boynun öpdü, Səgrək daxı
Əgrəkin əlin öpdü.
Üç yüz kafər ıraqlardan
Baxırdılar ayıtdılar:
-Görüşdülər, kaş bizimki
Onu yıxa, qalıb çıxa.
Gördülər ki, görüşdülər
Qucuşdular qazılıq atlar
Minişdilər, qara donlu
Kafirlərə at saldılar.
Qırılanlar qırıldılar,
Qaçanları qova–qova
O, qalaya tıxadılar.
Dönüb–gəlib yuntları otlağından
Çıxardılar dovul vurub
Önlərinə buraxdılar
Yola girib Dərəşam
Suyundan keçib
Gecə–gündüz yol gəldilər,
Oğuzlara yetişdilər.
Qanlı kafər ellərində
Qardaşını alıb gələn
Bəy Səgrək ağ saqqallı
Babasına muştuluqçu

Göndəribən babam mənə
Qarşı gəlsin, dedi, durdu.
Uşun qoca obasına
Çapar gəldi xəbər verdi:
Muştuluq ver gözün aydın
Oğlanların hər ikisi
Sağ–salamat çıxıb gəldi
Qoca eşidib şad oldu.
Gumbur–gumbur nağaralar döyüldü
Tunc borular çalındı,
Ala bargah tikildi,
Atdan ayğır, dəvədən buğra,
Qoyundan qoç qırdırıldı.
Uşun qoca iki oğluna
Qarşı gəldi atdan, yendi,
Oğlanları ilə görüşdü,
Qucaqlaşdı, əhval sordu:
Siz xoşmusuz,
Oğlanlarım? Şükür qıldı
Altunluca günlügünə,
Qayıtdılar. Yemək–içmək
Şadlıq oldu. İki qardaş
Analarına gəldilər,
Əlin öpüb sevindilər.
Uşun qoca ulu oğluna
Daxı gözəl gəlin aldı.
Toy tutuldu iki qardaş
Bir–birinə sağduş durdu.
Hər ikisi gərdəklərə
Varıb girib mətləb alıb
Xoş oldular.
Çağırdılar Dədəm Qorqud
Gələr oldu şadlıq çaldı,
Söy söylədi, boy boyladı,
Belə dedi:
Qardaşına arxa duran
Mərd igidə haqq yar olsun!
Ayrı düşən cüt qardaşlar
Bir–birini tapar olsun.
Uzun yaşın sonu ölüm.
Ulu tanrı mərd iyidi
Ölən zaman pak imandan
Ayırmasın, günahızı
Məhəmməd müstafanın
Abırına bağışlasın!
Amin deyən didar görsün!

***Qurtarış***

*Belədir qardaşlıq, belədir ilqar,*
*Qardaşlıq sözündə dərin məna var.*
*Nə ola görüşə bütün qardaşlar,*
*Xüsusən bizim tək qarğınılmışlar.*
*Partlayıb dağıla danqaz qayalar,*
*Yerlə yeksan ola dəmir qalalar.*
*Sözlükdən pozula ayrılıq sözü,*
*Unudula, birlik–ayrılıq sözü.*
*Qardaş deyə qalxıb qovuşa Insan,*
*Qanı yumayalar daha qan ilən.*
*Nə qalmaqal ola, nə də gileylik,*
*Tarixdən silinə doğma ögeylik.*
*Qardaş talamaya qardaş əməyin,*
*Bir–biri ilə bölə həlal əməyin.*
*Elmi, kamalına xidmət eləyə,*
*Insan, Insanlığa yaraşa bilə.*
*Qanlar axıtmaya başlı–başına,*
*Vəbala dönməyə, elmi, başına,*
*Bomba əvəzinə dərman qayıra,*
*Hərkəsin haqqıca payın ayıra.*
*Nə top, nə tank ola, nədə ki, yaraq,*
*Tək cərrah əlinə verilə pıçaq.*
*Kəsə ürəklərdən kin–küdürəti,*
*Yerinə yamaya eşqi, ülfəti.*
*Dünyanı bürüyə dostluq məhəbbət,*
*Qardaşlıq, yoldaşlıq, sədaqət, hörmət.*
*Əllərdə saz ola, dildə söz ola,*
*Açıq ürək ola, gülər üz ola.*
*Mən hümmət diləyim, siz deyin amın,*
*Behəqqi ənbiyaəkom əcməin.*

# 8

# Ulaş Oğlu Xan Qazan

*Yenə qaranlıqdır, yenə qaranlıq,*
*yer üzü borandır, qardır, dumanlıq.*
*Qanları damarda dondurub soyuq*
*Bir daldanacaq yox, bir sığınaq yox.*

*Günəşin karvanı kölgəyə düşüb,*
*Ayaqlar kehəlib, göyərib, şişib,*
*Yaradan əlləri soyuq qurudub,*
*Qurd gəlib şəngülü, məngülü udub,*

*Yollar qorxuludur qırx hərамılar*
*Pusqulara yatıb karvanı gözlər.*
*Yorqunlar yıxıldı, qaldı töküldü,*
*Yatma, yol yoldaşım, yatanlar öldü.*

*Düzdür məşəlləri söndürüb tufan,*
*Göz seçə bilməyir ağı qaradan.*
*Hələ köksümüzdə ürək var, ürək,*
*Gəl, ürək məşəlin yandıraq görək.*

*Qasırğalar qopsa, əssə də sazaq,*
*Söndürə bilməz bu məşəli ancaq.*
*Onun istisi ilə həm qızınarıq*
*Həm də işığında yolu taparıq.*
*Bu sönməz alovu, gəl, həqir sanma,*
*Fani işıqlara baxıb aldanma.*
*Insan xilqətindən, tapılışından,*
*Dünən yox, bugün yox, həmişə, hər an,*

*Qəhhar qüvvələr məruz qalanda,*
*Sarsılıb, basılıb, aciz olanda,*
*Dərd–qəm udanda  bağrı pişəndə,*
*Darlığa düşəndə, dara düşəndə*
*Fəlakət içində əl–qol çalanda,*
*Çarəsiz, qayğısız, yazıq olanda,*
*Hamı qapıları bağlı görəndə,*
*Bütün umudlardan əlin üzəndə,*
*Hansı sığınaqdan muradın almış?*
*Ancaq bu qüdrətə sidqini salmış.*

*Həyat burqanına atılan insan*
*Çoxdan əl–qol çalır, çoxdandır, çoxdan.*
*Məqsədi nəqədər olsa da ülvi*
*Talei–günü çox qəmlidir qəmli*
*Heç vaxt dolanmamış dünya kamıca*
*Məşəqqət daşımış ömür boyuca.*
*Həyat, necə deyər, bal və tıkandır*
*Azı şərbət, çoxu irindir qandır.*

*Yenişlər tez keçir, yoqquşlar uzaq*
*Qəm günü uzundur, şən günlər qıvraq*
*Xoşluqlarda zaman yel tək fırlanır*
*Darlığa varanda durur, dayanır.*
*Bir yerdə də bunu söyləmişəm mən*
*Bilməm eşidib ya eşitməmişsən:*

*Bir yemiş yetişib düşənə qədər,*
*Yüz qünçə quruyur, yüz çiçək solur.*
*Bir qarın müzvərə pişənə qədər,*
*Xəstənin əl–qolu alışıq olur.*

*Gərək belə olsun, yoldadır insan*
*Keçməlidir kəmal həftxanından*
*Bəli, keçməlidir, lakin nəqədər*
*Yeddinin mənası milyondur məgər?*
*Odur ki, çoxları yolda qalırlar.*
*Atlarını yorub nalın salırlar.*
*Bununla hər halda yaşayır insan*
*İstəyir kam ala yaşayışından.*
*Çox ideallar ki, işdə məqsəddir*
*Hamısın bu saat, bu an istəyir*
*Yuxlu dəhşətli sandığı üçün*
*Ölümdə də həyat axtarır sin–sin.*
*Varlığın ləzzətin tamsınan insan*
*Gərək də dəhşətə düşə yoxluqdan*
*Eşqi, ideali cavidanlıqdır*
*Sərəncamı isə, qəbristanlıqdır.*
*O, qəbristanlığı məqsəd sananmır*
*Varlığından yoxluğa rücət varanmır.*
*Həyatı o məgər sadəcə tapıb?*
*Əzəldən indeyə bir baş at çapıb.*
*Bu uzun səfərin axırı "ədəm"?*
*Deyir bu dəhşətə inananmaram.*
*Bu inanılmazlığa insan haxlıdır*
*Yazığın hələ nə ölmək vaxtıdır.*
*Bəli ölüm acı bir vaqeiyyət,*
*Hərnədən əl üzüb getmək fəlakət.*
*Ordakı hərnədən umudun üzür,*
*Axtarır, arayır təsəlli gəzir.*
*Söküb açanmayır çün tapmacanı,*
*Həqiqətdən artıq sevir röyanı.*
*Şirin əfsanələr yoğurur yapır*
*Dönür əfsanədən öz–özün tapır.*
*Xəyallara dalır, fikirlər çəkir,*
*Bəzən də işi lap ovhama keçir.*
*Dərin röyalara cumur, xoşlanır,*
*Gah özün göydə, gah cənnətdə sanır.*
*Kaş vaqeiyyətdən, o, əl üzməsə idi,*
*Arayıb işin lap dibin görsə idi.*
*Yox, işdə tələsdim bu ola bilməz*
*Hər şey birdən–birə doğrula bilməz.*
*Əfsanələrdə də həqiqət durur*
*Suzmanı bizlərlə gizlən-paç oynur.*
*Gözəl gizlənənməz deyə bir söz var*
*Qapını bağlasan bacadan baxar*

*Açıb göstərənmir çünkü özünü*
*Çarşaba bürünür, qırpır gözünü.*
*"Məad" sərlövhəli şeirimdə də mən*
*İnsan taleini araşdırarkən,*
*Çoxdandır açmışam bu müəmmanı,*
*Hələlik sən onu əfsanə tanı.*
*Heç bir əfsanəyə xor baxmaq olmaz,*
*İmkansız arzılar fikrə yol salmaz.*

*Əfsanə, insanlıq sin–sin axtaran*
*İdeal dünyanın təbəssumudur*
*Həyatda təcəssum tapıb–tapmadan*
*Böyük arzuların tərənnumudur.*

*Uçmaq arzusuyla xoşlanan insan,*
*Aya ulduzlara qonur bu zaman*
*Xəyal uzaqlıqda, xəyaldan uzaq,*
*Kəhkəşanlarılan pıçıldaşaraq.*
*Peyğam verir, dönür cavabın alır,*
*Hələ görüləcək çox işlər qalır.*
*İndi bu barədə də düşünərkən mən,*
*Bir söz xatırladım "Aşıq Qərib"dən*

*"Üç aylıq yolları üç gündə gəldim,*
*Mövlam mədəd verdi, uçdum da gəldım"*

*İndi insan üç ay, üç illik nədir*
*Yüz illik yolları bir gündə gedir*

*İşdə mövladan da mədəd diləmir*
*Özü yaratdığı minigə minir.*
*Bunla hələ də, hələ də, hələ*
*Umud bağlayırı "xariqə" lərə*
*Olsun çox gülüncdür xariqə sözü*
*Xariqə deyilmi insanın özü?*
*Xarıqə deyilmi bu həyat, varlıq*
*Biz boş kəlmələrdən nə axtarırıq?*
*Sirrinə əl tapa bilməyən zadın*
*Xarıqə qoyuruq sadəcə adın.*
*Ancaq yüksəldikcə elm, təcrübə*
*Xarıqələşiri xarıqələrdə.*
*Bilik, irəliyə atdım atdıqca*
*Tamahın artırır ideallar da.*
*İnsan yürüdükcə, yollar aşdıqca,*
*Qarşısında duran yenə min divar*
*Yolunu bağlayan dəmir qapılar*
*Onu darıxdırır, onu incidir,*
*Ruhunu sarsıdır, əzir, kiridir.*
*Dincəlib tapınca yenicə yollar,*
*Qərar tuta bilmir yenə də naçar.*
*İdeal atını qabağa çapır,*
*Mərmuz qüvvələrə iltica tapır.*

*Boş ilticadan o, nəmi axtarır*

*Təsəlla veribən özün aldadır?*
*Yox, pisikolojik bir sirr var işdə,*
*Bu sirri aramaq gərək gedişdə.*
*Sığınmaqda mərmuz qüvvələr yatır,*
*Yerində insanın dadına çatır.*
*Necə yorulanda bütün yolçular,*
*Daldanacaq tapar dincini alar.*
*İnsanda sığınıb toxtaxlaşaraq,*
*Yatmış quvvələrin işə salaraq,*
*İşin hər tərəfin açır, arayır,*
*Tapdığı yoluna inamla varır.*
*Yeni bir silaha qullana bilir,*
*Bütün qüdrətilə meydana girir.*
*Bu kəsgin silahın adı imandır,*
*İman hər şəkildə dada çatandır.*
*Silahsız əsgərdir insan imansız*
*Çarəsi təslimdir, təslimdir yalnız.*
*İnamsız–imansız insan qorxaqdır,*
*Hər bir çətinlikdə dalı qaçaqdır.*
*İnam məqsədinə, inam yoluna*
*İman, istəgin haqq olduğuna.*
*İlahi bir qüdrət vardır imanda,*
*İnsan allahlaşır iman tapanda.*
*Dönməzlik, sönməzlik, şücaət, ilqar*
*İnamla tapılar, imanla parlar*
*Bütün alışanlar, bütün yatanlar,*
*Yanıb dünyamızda ışıq salanlar*
*İlk qorun bu sönməz alovdan almış,*
*Dönüb qaranlığa qələbə çalmış.*
*Gərək bu çırağı yanar saxlamaq*
*İnam ışartısın torpaqlamamaq.*
*Düzdür, mövhum inam yolu kəsəndir,*
*İnamsız insan da bir əhrəməndir.*
*Kimsədə, inanmaq, iman olmasa,*
*İnsanlıq nə hala qalar, nə hala?*
*Bir yığın məqsədsiz, hədəfsiz, qısraq*
*İşi dal–qabağın, qarnın otarmaq*
*Nə vətən, nə məslək, nə yol nə ayın,*
*Nə istək, nə ilqar, nə dostluq nə kin,*
*Nə qayğı, nə kömək, nə zəhmət, nə iş,*
*Nə görüş, nə gülüş, nə gəliş, –gediş…*
*Həyata, varlığa dirəkdir iman,*
*Bilmirəm, hər nəyə inansan, inan.*

*Bir böyük qüvvə də vardır həyatda,*
*İşdə həqir sanmaq olmaz onu da.*
*Toplanmaq, birləşmək gücüdür o, da*
*İlahi güc olur birlik qolunda.*
*Bu sözü söyləmiş peyğəmbərlər də:*
*"Yədullah məulcəmaə" deyə.*
*Birlə bir cəmləşmə "iki" olacaq*
*Lakin, nə iki dir bu iki, baxaq*
*Hər tək–tək birlərdən üstün durar, o*
*Tək milyon olsa da, faiq olar, o.*
*İki, üç olsa da işdə belədir,*
*Dibin tut, gör çoxluq necə qüvvədir.*
*Çoxluq, bəli çoxluq, lakin nə çoxluq,*

*Bir çox çoxluqlardan iyidir yoxluq.*
*Sayda çoxluq, həm də ürəkdə birlik,*
*Çoxluq dedikdə biz bunu gəzirik.*
*Bu çoxluqda insan baxtiyar olar,*
*Hər bir çətinligə qələbə çalar.*
*Bu çoxluq yanı ki, dostluq, məhəbbət,*
*Bu çoxluqdan doğur yalnız həqiqət.*
*Çoxluq, nəki vurub–vuruşmaq üçün,*
*İnsan bir–birinə qovuşmaq üçün.*
*Həyat meydanına birlikdə varmaq,*
*Dumanlı dağların bağrını yarmaq.*
*Qəhhar quvvələrlə çəngələşərək,*
*İnsan düşmanının bağrın deşərək,*
*İnsana dinc həyat qurub yaratmaq,*
*Kəmal zirvəsinə dırmaşıb çatmaq.*
*Birlikdə çalışmaq, birlikdə yemək,*
*Hamını bir, biri, hamıda bilmək.*

*Aşıq, canım aşıq, dırnaq vur saza,*
*Könül tərlanların gətir avaza.*
*Bayquş tək oturub mürgüləməsin,*
*Sahılsız göylərə gərsin sinəsin.*
*Tərlanlar çoxdandır dönüb quzğuna,*
*Baxmır keçmişinə, kim olduğuna.*
*İtirmiş mənligin, şərəfin, adın,*
*Cəmdəklərdən gəzir rizqin muradın.*
*Azğınlıq insanı yaman çulqamış,*
*Dönüb rəzalətə tərəf uğramış.*
*Fəzilət tanımır, yaxşı–pis bilmir,*
*Dal qabağın, bir də qarnını güdür.*
*Şeytan tələ qurub insan tutmağa.*
*Tövməsin batırıb bala–qaymağa.*

*Canım aşıq, qoyma, qoyma tovlansın,*
*Çaldır döhülləri, bəlkə oyansın.*
*Çaldır döhülləri əlin qurbanı,*
*Qəflət uyqusundan ayılt insanı.*
*Səndə Qorqud Dədə kəraməti var,*
*Odur ki, sözlərin ürəgə qonar.*
*Hümmət al ilahi kəramətindən,*
*Qoy inam parlasın söz–söhbətindən.*
*Bizi bu qaranlıq dünyadan çıxart,*
*O qızıl günəşli aləmə apar.*
*Apar, qoy seçilsin qaralar –ağdan*
*Ölməz insanları qaldır məzardan.*
*Ağ alnında iman ışığı şaxan,*
*Qara zülmətlərə od vurub yaxan,*
*Özündən əl üzər, sözündən dönməz*
*Əyri yol tanımaz, yalan söz bilməz*
*Comərd igidlərdən söhbət aç, danış*
*Sarsılan insanın əlindən yapış.*
*Coşğun nəğmələri kəməndə döndər,*
*Könül ceyranının ovuna göndər.*

*Aşıq, canım aşıq, köklə sazıvı*
*Qoy bir də dinləyim xoş avazıvı.*
*Səni dinlədikcə ilhamim coşur,*
*Sözlər ürəgimdə qaynayır–daşır.*
*Səsin ağ suların zəmzəməsidir,*
*Ruhuma oxşayan el nəğməsidir.*
*Oxu, qoy silinsin könlümün hisi,*
*Al–yaşıl geyinsin xəyal pərisi.*
*Qoy nəğmələrinlə mən qol–qanad açım,*
*Bir də mavi donlu göylərə uçum.*
*Zülmət dünyasından canımı qurtar,*
*Apar, apar məni, nərəyə apar…*
*Apar məhəbbətin gən dünyasına,*
*Işıq dünyasına, şən dünyasına.*

Məgər xanım
Trabozan padişahı
Bəylər bəyi Xan Qazana
Bir əl quşu göndərmişdi.
Gecələrin birisində
Yeyib–içib oturarkən
Salur Qazan quşçubaşın
Çağırıban: mərə, sabah
Quşları al, xəlvətcədən
Ova minək, deyə–aydır.

Erkən minib ov yerinə
Varan zaman bir sürü qaz
Oturar görüb, əl quşunu
Buraxdılar. Şahin ovdan
Alanmayıb qanadlandı
Uçdu getdi gözlədilər
Qayıtmadı, qala üstə
Qonub qaldı. Salur Qazan
Səxt şahinin
Ardına düşdü. Dərə–təpə
Aşdı, gəldi kafərlərin
Mərzin keçdi, yüyürərkən
Qaranqu gözlərini yuxu aldı.

Bəylər deyər: Qayıdalım
Salur Qazan: Bir az daha
İrəliyə varaq dedi.
Baxıban bir qala gördü,
Bəylər gəlin yataq,–dedi.
Qazan xanı kiçik ölüm
Yaxaladı, düşdü uydu.
Məgər, dostlar, Oğuzları
Yuxu tutsa yeddi gecə
Yeddi günüz yatardılar.
Ona görə bu yuxuya
Kiçik ölüm deyirdilər.
Məgər qalanın Təkuru
O gün ova minmiş idi.
Casus gəldi xəbər verdi:
Bircə bölük atlı gəlmiş
İçində bəyləri uymuş.
Təkur dərhal adam saldı,
Varın, gedin kim olduğun
Bilin!– dedi.
Xəbərçilər bildilərki
Bunlar Oğuz bəyləridir,
Dönüb xəbər gətirdilər.
Təkur daxı qoşunların
Cərgələyib axın verdi.

Qazan xanın igitləri
Baxdı gördü yağı gəlir
Ayıtdılar: Biz Qazanı
Tək buraxıb gedər olsaq
Evindən qovarlar,
Yaxşısı budur vuruşaq.
Kafəri qarşıladılar,
Cəng etdilər, Qazan xanın
Bəylərindən iyirmi beşin
Şəhid edib üzərinə
Töküldülər, yaxalayıb
Əl–ayağın bağladılar,
Bir arabaya yüklədib
Örkənlə bərk sarıdılar,
Çəkə–çəkə yürütdülər.
Arabanın cırıltısı
Qazan xanı oyandırdı.
Çəkdi, bütün örkənləri
Qırdı, tökdü. Durdu oturdu,
Əlini–əlinə çalıb
Qas–qas güldü.

Kafir aydır: Nə gülürsən?
–Mərə kafər arabanı
Beşik sanıb, sizi isə
Girdə–yumru tayam sandım.

Qazan xanı gətirdilər
Tumanın qalası içrə
Bir quyuya buraxdılar.
O quyunun ağzınada
Dərman daşı çevirdilər,
Yeməyini, içməyini
Daş cığazın dəliyindən
Verirdilər.
Günlər ötdü, zaman keçdi,
Bir gün Təkurun ovrəti
Fikrə düşdü: Gedim, görüm
Bu Qazan necə kişidir,
Adamlara qan qusdurur.
Xatun gəlir zindanın ağzında
Durur və çağırır:– Hey Qazan bəy
Nədir halın, diriligin,
Yer altdamı xoşdur?
Yoxsa yer üstümü?
Söylə görək nə yeyirsən,
Nə içirsən, nə minirsən?
Qazan aydır: Hey pis deyil
Ölülərə aş verəndə
Əllərindən alıb içirəm.

Ölülərin tənbəlini
Yedəkləyib yorğalarına minirəm.

Təkurun arvadı aydır:
Qazan dinin xatirinə
Yeddi yaşlı kiçik bir
Qızım ölmüş, kərəm elə
Ona minmə!

Qazan aydır: Ölülərin
Arasında ondan yorğa
Kimsə yoxdur, həmişə ona minirəm.
Ovrət aydır:– Vay olsun!
Sənin əlindən nə yer üzündə
Dirimiz, nə yer altında
Ölümüz qurtulurmuş.
Gəlib Təkura söyləyir:
–Kərəm elə, o tat əri
Gəl quyudan çıxar gilən
Qız cığazın belin üzər.
Yer altında qız cığaza
Minər imiş qalanları
Cəm edərmiş. Ölülərə
Verdigimiz aşı hələ
Əllərindən çəkib alıb
Yeyərimiş. Bu qadadan
Nə ölümüz nə dirimiz
Qurtarmazmış. Dinin üçün
Gəl, o əri bu quyudan çıxar!

Təkur bəylərin cəm edib
Belə aydır: Gəlin gedin
Qazan bəyi quyusundan
Çıxarınız, gətiriniz
Bizi öysün, Oğuzlardan
Üz çevirsin, ondan sonra
Şərt eləsin bizim elə
Yağılığa da gəlməsin!
Varıb gedib Qazan xanı
Quyusundan çıxardılar,
Gətirdilər ayıtdılar:
–And iç bizim elimizə
Yağılığa gəlməyəsən
Həm bizi öy, Oğuzlardan
Üz döndərgil, ondan səni
Buraxarıq, qoy get gilən!
Qazan aydır: Vallah, billah
Doğru yolu görərikən
Əyri yola getdigim yox!
Ayıtdılar: Vallah, Qazan

İyi and içdi. İndi
Qazan gəl bizi öy
Qazan aydır: mən yer üstə
Adam öymən. Siz mənə bir
Adam verin, onu minim,
Sonra dönüm sizi öyüm!

Bir kafər, gətirdilər,
O kafərin arxasına
Yəhər qoyub ağzına üyən
Vurdular. Salur Qazan
Sıçradı kafərə mindi,
Qabırqasın sıxışdırdı
Kürəginə qovuşdurdu.
Üyəni çəkdi, ağzın qırdı.
Kafir öldü yerə düşdü
Qazan üzərinə çökdü:
–Mərə kafər qopuz verin
Sizi öyüm. Gedib qopuz
Gətirdilər. Ələ aldı,
Görəlim, xan, nə söyləmiş:

Min–min ərdən yağı gördüm
Gördümsə də öyünmədim.
İgirmi min ər yağı gördüm
Gördümsə də yilədim.
Otuzmin ər yağı gördüm.
Gördümsə də ona saydım.
Qırxmin ər yağı gördüm
Gördümsə də qıya baxdım.
Əlli min ər yağı gördüm
Gördümsə də əl vermədim.
Altmış min ər yağı gördüm
Gördümsə də aytışmadım
Səksən min ər yağı gördüm
Gördümsə də səksənmədim
Doxsan min ər yağı gördüm
Gördümsə də donanmadım
Yüz min ər yağı gördüm
Gördümsə üz döndərmədim.
Ağzı dönməz qılıncımı ələ aldım
”Məhəmməd”in dini eşqinə
Yorulmadan qılınc vurdum
Ağ meydanda yumru başlar
Kəsib saldım. Onda belə
Ərəm, deyə, bəyəm, deyə, öyünmədim.
Mən öyünən ərənləri
Xoş görmədim, ər bilmədim.
Mərə kafər, əlində ikən
Aman vermə, öldür məni,

Qılıncını sal boynuma
Kəs başımı, qılıcından
Qorxum yox, öz əslimi
Öz kökümü sımağım yox!

Bir daxı söyləmiş:
Yüksək–yüksək qara dağdan
Daş yuvarlansa,
Qaba ökçəm oyluğum
Qarşı tutan Qazan mənəm.
Firon şişlər baş qaldırıb
Yerdən çıxsa, qaba ökçəmlə
Pərçin qılan Qazan mənəm
Qaba–qaba bəylər oğlu
Qovğa qılsa, qamçı salıb
Döydürən Qazan mənəm.
Uca dağlar duman alsa,
Qara duman doli qopsa,
Qara qoçumun qulağı görünməsə
Qərib ərən qulağuzsuz
Yol yanılsa qulağuzsuz
Yol başaran Qazan mənəm.
Yeddi başlı əjdəhaya
Gəlib çatdım. Heybətindən
Soldakı, gözüm yaşardı.
Hey, gözüm, namərd gözüm
Bir ilanda nə varımış
Qorxdun! Dedim
Onda belə ərəm, deyə, bəyəm deyə,
Öyünmədim. Mən öyünən
Ərənləri xoş görmədim, ər bilmədim.
Mərə kafər əlində ikən aman vermə,
Öldür məni itir məni,
Sal qılıncın, kəs başım.
Qılıncından qorxum yox,
Öz əslimi, öz kökümü sımağım yox!

Qazan bir daxı söyləmiş:
Arqıc qırda yayxalanır
Ummanların dənizində
Sirp yerlərdə yayılmış
Kafirlərin şəhəri.
Sağa–sola çırpınırdı üzgəcləri.
Su dibində dönər bəhrləri
Tanrı mənəm! Deyə su dibindən
Çığraşır asiləri.
Önün qoyub tərsin oxur,
Qızı–gəlini. Altun aşıq oynar,
Sancıdının bəyləri. Altı qatla
Oğuz vardı, alımadı o qalanı.

Altı ərlə bir mən Qazan
Altı günə qoymayıban
Basdım, aldım o qalanı
Kilisasının yerinə məçid yapdım,
Ban banlatdım, gözəl qız–gəlinləri
Ağ köksüm üstə oynatdım.
Bəylərini qul eylədim,
Onda daxı ərəm, deyib öyünmədim,
Mən öyünən ərənləri xoş görmədim.
Əlindəkən mərə kafər, öldür məni,
İtir məni, qılıncından sıparım yox,
Öz əslimi, öz kökümü sımağım yox!

Qazan bir daha söyləmiş:
Arqıc qırda döndərdigim mərə kafər, sənin baban
Şaqaqına imrəndigim sənin gözəl qız–gəlinin
Ağca qala Sürməlidə at oynatdım,
Atla Qarun ellərinə çapqın etdim,
Ağça Hasar qalasının burcun yıxdım,
Ağ ağça gətirdilər puldur dedim
Qızıl altun gətirdilər aldanmadım.
Ala gözlü qız–gəlinin gətirdilər aldanmadım,
Kilisasını yıxdırıb məçid yapdım,
Altun, gümüş yağmalatdım,
Onda dəxi ərəm, deyib öyünmədim,
Mən öyünən ərənləri xoş görmədim.
Əlindəkən mərə kafər öldür məni,
İtir məni, öz əslimi öz kökümü
Sımağım yox, kafər səni öymәgim yox!

Qazan bəy birdə söyləmiş:
Ağ qayanın qaplanının ərkəgində bir köküm var.
Ortac qırda sızın sığın keyikləriz durdurmağa
Ağ meşənin aslanında bir köküm var.
Qaz alaca yuntları durdurmağa
Azvay qurd ənigi ərkəgində bir köküm var
Ağca yünlü tümən–tümən qoyunu gəzdirməgə
Ağ qanadlı sunqur quşu ərkəgində bir köküm var.
Ala ördək, qara qazın uçurmaya
Qalın Oğuz ellərində bir oğlum var,
Uruz adlı, Qardaşım var Qaragünə
Yenidən doğanını diri qoymayalar
Əlinə girmiş ikən mərə kafər, öldür məni,
İtir məni, qılıncından sıparım yox!

Qazan bir daxı söyləmiş:
İt kimi hafıldayan çərkəz xırslı
Küçücük donuz şülənli
Bir torba saman döşəkli
Yarım kərpiç yasdıqlı

Yonma ağac tanrılı köpəyim kafər!
Şanlı Oğuz ellərini görər ikən
Bil ki, səni öyməyim yox!
İndi daxı öldürərsən, öldür məni
Öldürməsən, tanrı qoysa
Öldürərəm, kafər səni.

Kafir aydır: Bu bizi öymək istəməz,
Gəlin onu öldürəlim.
Kafir bəyləri gəldilər toplandılar
Biri aydır:–Bunun oğlu, qardaşı var,
Bunu öldürsək iş çıxardar.
Belə olsa gətirdilər donuz damına saldılar.

At ayağı külək olur,
Ozan dili çevik olur,
Qazan xanın ölüsündən, dirisindən
Heç kimsənin xəbəri yox.
Məgər xanım Qazan xanın
Bir kiçik oğlu varmış
Boy atıban igit olmuş
Bir gün qalxıb ata minib
Bayındırxan divanına gələn zaman
Bir kişiyə qarşı gəldi.
Kişi aydır: İgit sənmi
Qazan xanın oğlu Uruz
Deyilsənmi? Uruz aydır:
–Mərə qavat mənim atam
Bayındır xan deyilmi?
Kişi aydır:– yox iyidim
O, ananın babasıdır.
Uruz aydır:– Mərə, söylə
Mənim babam ölümüdür, dirimidir?
– Yox diridir. O, Tumanın
Qalasında dustaqdır.
Oğlan bunu eşidincə
Məlul oldu. Ağlar gözlə
Geri döndü, anasına vardı, gəldi.
Burda görək anasına nə söyləmiş:
– Mərə ana, görünən mən
Bayındır xanın oğlu yox
Xan Qazanın oğluymuşam.
Mərə qavat qızı bunu
Mənə nəçün deməzmişsən?
Ana haqqı, tanrı haqqı
Deyilmişsə, qara polad
Uz qılıncım, dartar idim
Qəflətindən mən başını
Kəsər idim, alaca qanın
Yer üzünə tökər idim.

Ana bu sözdən ağladı
Oğlancığın qucub dedi:
–Oğul, baban səlamətdir
Ancaq sənə söyləməyə
Qorxardım mən kafərlərə
Gedəsən sən, öz özünü
Ota vurub suya vurub
Həlak olub basılasan.
Onun üçün sənə deməzdim.
İndi əminə adam sal
Gəlsin görək o nə deyir.

Adam saldı əmisini
Çağrıtdı. Əmi gəldi,
Uruz aydır: Mən babam
Dustaq olduğu qalaya getməliyəm.
İttifaqla danışdılar
Bütün Oğuz bəylərinə xəbər oldu
Uruz babasını andı gedər,
Yaraqlaşıb yola düşün.
Qoşun gəldi alaylandı,
Alp Uruz çadırlarını açdırdı
Cəbbə xanasın yükəltdi
Qaragünə sərkərdə oldu
Boru çalıb yollandılar.
Yol üstündə kafərlərin
Aya Sofiyası var idi,
Keşişlər orda oturardı,
Olduqca sarp kilisa idi.
Atdan yenib tacir donu geyindilər,
Bəzirganlar surətində,
Qatır, dəvə çəkdilər.
Kafir gördü bu gələnlər
Tacirlərə bənzəməzlər. Qaçıb gedib
Qala içrə gizləndilər,
Qapıları qapadılar,
Burca çıxıb, kim olduqların, sordular.
Bunlar aydır:–Bəzirganıq.
–Yalan sözdür, deyə
Dönüb qafiləni daşladılar.
Uruz atdan yendi aydır:
–Hey atamın qədəhindən
Şərab içən, məni sevən,
Atdan yensin bu qalanın
Qapısına birlikdə
Əmud vuralım.
On altı ər sıçrayıb
Atdan yendi. Qalxanlara
Yapındılar, əmudların
Umuzlarına qoydular,

Yaxınlaşıb əmud ilə
Qapıları avatdılar,
İçəriyə soxuldular,
Tapdıqları kafərləri
Öldürdülər. Mallarını
Yağmalayıb qoşun içrə
Qayıtdılar.

Kafirlərin sığırtmaçısı var idi
Baxdı gördü qala alındı
Qaçıb gəldi Aya Sofiya alındığın
Təkura xəbər gətirdi: Nə durmusuz
Üstünüzə yağı gəldi
Başınıza çarə qılın.
Təkur bəylərin çağırıb
Bunlarla nə etməli,
Deyə, sordu.
Çarə buna qalıbdır ki,
Siz Qazanı çıxarasız
Onlara qarşı qoyasız.
Bunu hamı səlah görüb
Qazan xanı donuzluqdan
Çıxardılar, gətirdilər.
Təkur aydır: hey, Qazan bəy
Üstümüzə yağı gəldi.
Bu yağını üstümüzdən
Ayırırsan, onda səni
Buraxırıq qayıdırsan.
Həm xəraca müti ollam,
Sən də daxı and iç.
Bizim elimizə yağılığa
Gəlməyəsən. Qazan aydır
–Vallah, billah doğru yolu
Görür ikən əyri yola
Varmağım yox.
Kafir hamı sevindilər:
Qazan iyi bir and içdi, söylədilər,
Təkur qoşunun toplayıb
Səf bağladı, çadır tikdi.
Bütün qoşun Qazan xanın
Dövrəsinə yığışdılar.
Qazan xana geyim qılınc
Süngü, çomaq ayrı–ayrı
Cəng aləti geydirdilər.
Bu məhəldə bütün Oğuz
Ərənləri alay–alay
Gəlib çıxdı gumbur–gumbur
Tavullar döyüldü,
Nağaralar çalındı.
Qazan gördü ağır Oğuz

Ləşkərinin qabağında
Ağ boz atlı, dəmir donlu
Ağ ələmli öncə gəldi.
Çadır qurub səf bağladı
Dalısınca Qaragünə
Çatıb, səf bağladı, durdu.
Elə burda Qazan
At meydana sürdü, ər dilədi.
Boz atlı Beyrək at saldı,
Qazan qarşı durdu.
Qazan burda söyləmiş,
Görək, xanım nə söyləmiş:
Qalxıbanı öz yerindən
Duran igid, nə igitsən?
Dəmir donunu əyninə
Geyin igit, nə igitsən?
İgit, sənin adın nədir
Degil mənə!
Beyrək burda söyləmiş:
Mərə kafər məgər məni bilməzmisən
Parasarın hasarından
Qalxıb uçan, adaxlısın
Ayrıları alır ikən
Tutub alan, Bay Buranın
Oğlu Bamsı Beyrək mənəm.
Bəri gəlgil, mərə kafər,
Vuruşalım, döyüşəlim.
Qazan burada bir daxı söyləmiş aydır:
Mərə igit bu qoşunun
Qabağında ağ sancaqlı
Alay gəldi, çadırını
Hamılardan öndə tikdi,
Ağ–boz atlı o igidin
Adı nədir, kimlərdəndir?
Başın üçün igit bunu
Degil mənə! Beyrək aydır:
–Mərə kafər kimin nəsi
Olsa gərək? Bəyimiz
Qazanın oğludur.
Salur Qazan ürəyində
Həmd oxuyub, mənim oğlum
Böyüyübən igid olub,
Bunu dedi şükr qıldı
Beyrək aydır: –Mərə kafər
Necə olub onu–bunu
Sorarsan sən?
Altı pərli əmudunu ələ aldı,
Qazanın üstə at saldı,
Əmudla Qazanı çaldı.
Qazan özün bildirmədi

O, Beyrəgin biləyindən
Tutdu, dartdı çomağın
Əlindən aldı Beyrəgin
Ənsəsinə tutub çaldı
Beyrək atın boynun qucub
Geri döndü. Qazan aydır:
–Hey Beyrək, get bəyinə
Söylə gəlsin!
Bunu görən qoca oğlu
Dönə Bilməz Dülək Əvrən
Atın saldı meydan açdı.
Qazan burada söyləmiş:
Ala danla öz yerindən
Duran igit, sən nə igitsən?
Bədöy atın oynadıban
Gələn igit, nə igitsən?
Ər, ərdən adın yaşırmaq
Eyib olur, igit sənin
Adın nədir, degil mənə!
Dülək Əvrən belə aydır:
–Mərə kafər, mənim adım bilərmisən?
Öz adı ilə güvənən
Eldən çıxıb əlli yeddi
Sərt qalanın kilidini
Çəkib alan qoca oğlu
Dönə Bilməz Dülək Əvrən
Mən özüməm! Süngüsünü
Ələ aldı, Qazan xanı
Sancım, deyə atın saldı
Sancanmadı boşa getdi.
Salur Qazan at oynatdı
Süngüsünü çəkib aldı
Durmadan başına çaldı
Süngü pərəm–pərəm oldu.
Döndü aydır:– Mərə qavat!
Qayıt, söylə bəyin gəlsin.
O da daxı qayıdıban
Geri döndü Qazan yenə
Ər dilədi
Dözən oğlu Alp Rüstəm
Atın saldı qarşı gəldi.
Qazan burada söyləmiş:
Qalxıbanı durub gələn
Qazılıq atın bütün minən
Nə igitsən, adın nədir?
Degil mənə! Rüstəm aydır:
Qalxıbanı durub gələn
İki qardaşın öldürüb
Zəlil gəzən Dözən oğlu
Alp Rüstəm mən özüməm!

O da daxı Qazan xana
At salıban alım, dedi
Alanmadı. Salur Qazan
Ona da bir zərbə vurdu
Sonra dedi:–Mərə qavat
Get, bəyinə söylə gəlsin.
O da döndü. Qazan yenə ər dilədi.
Xan Uruzun cilovunu
Bəy əmisi Qaragünə
Tutmuş idi bir an içrə
Çəkib aldı qılınc dartdı
Babasının üzərinə at saldı,
Dayanmayıb çiyninə bir
Qılınc vurdu, geyimini
Kəsdi, biçdi dörd barmaq
Umuzuna zəxm saldı,
Alaca qanı şorladı.
Uruz yenə döndü ki,
Bir daxı çala, Qazan
Çağırıb söyləmiş,
Görək xanım nə söyləmiş:
Qara dağımın yüksəgi oğul!
Qaranqu gözümün aydını oğul!
Alpım Uruz, əslanım Uruz!
Ağ saqqallı babana qıyma, oğul!
Xan Uruzun damarında
Şəfəqət qanı qaynayaraq
Qara qıyma gözlərinə
Qan yaş doldu. Özün atdan
Yerə saldı, atasının
Əlin öpdü, Qazan daxı
İxtiyarın əldən verib,
Ər oğlunun boynun öpdü.
Bəylər hamı Qazan ilən
Bəy Uruzun üzərinə
At saldılar, dövrələnib
Hamısı atdan yendilər,
Qazan xanın əlin öpüb
Yüyürübən kafərlərə
At saldılar, qılınc çalıb
Dərələrdə, təpələrdə
Yağıları qırıb, töküb
Qalalarını aldılar.
Kilisasın viran edib
Yerinə məçid yapdılar.
Uruz isə babasını
Qanlı kafər əlindən
Dartıb alıb qalın Oğuz
Ellərinə yollanaraq
Ağca üzlü anasına

Müştuluqçular göndərdi.
Qaza bənzər qız–gəlini
Qazan xana qarşı gəlib
Əlin öpüb, ayağına döşəndilər.
Salur Qazan göy çəməndə
Çadır–otaq tikdirdi,
Yeddi gündüz, yeddi gecə
Toy tutuldu, dügün oldu,
Yemək oldu, içmək oldu.
"Dədə Qorqud" vardı gəldi,
Qopuz çaldı, mərd ərənlərin
Başına nə gəldiyini söylədi:
Hanı öydüyüm igitlər,
Dünya mənim, söyləyənlər?
Hamısını əcəl aldı
Yer gizlətdi, fani dünya kimə qaldı?
Gəlməli, getməli dünya,
Son ucu ölməli dünya!
Qadır səni ölüm vaxtı
Pak imandan ayırmasın!
Dünya varkən mərd igidi
Namərdə möhtac etməsin!
Beşcə kəlmə dua qıldıq
Qəbul olsun, amin deyən
Diydar görsün, günahızı
Adı gözəl Məhmməd Müstəfayə
Bağışlasın!

# 9

# Qazan Bəyin Oğlu Uruzun Dustaq Olması

*Bizim ölkəmizdə, bizim ellərdə,*
*Maraqlı rəsmlər, ənənələr var.*
*Bu gözəl adətlər, bu gözəl dəblər,*
*Uzaq keçmişlərdən qalmış yadigar.*

*Qara qışın sonu, yazın ilk günün,*
*Əskidən bizlərdə bayram dutmuşlar.*
*Adın "il bayramı", bahar bayramı,*
*Yeri gəlincə də novruz qoymuşlar.*

*Bu bayram haqqında dillərdə–dişdə,*
*Qəribə nağıllar, əfsanələr var.*
*Bəzilər söylərlər bu dəb, bu adət,*
*Cəmşiddən, zərdüştdən qalıb yadigar.*

*Ancaq heç bir adət, heç bir ənənə,*
*Müəyyən bir şəxsə ayid olanmaz.*
*Adət də dil kimi ellərin ki dir,*
*Onsuz tapılanmaz, onsuz qalanmaz.*

*İnsanın toplantı quruluşları,*
*Bir də ki, təbii xüsusiyyətlər,*
*Yaradır hər dəbi, hər ənənəni.*
*Təsadüfi işlər deyil adətlər.*

*Bayramla başlanan aya şərqdə,*
*"Araz", "fərvərdin" ya "həməl" demişlər,*
*Lakin bizim yerdə sadəcəsinə,*
*Bayram ayı deyər sadə kütlələr.*

*Bu sadəlikdə çox dərinlik yatır*
*Bayram xas mənada işlənir baxsaq.*
*Görünür yeganə xalq bayramı imiş,*
*Bütün bayramlardan, toylardan qabaq.*

*Bu gözəl bayramın tapılan yeri,*
*Elm baxımından araşdırsaq biz*
*Dört fəsil münəzzəm olan yerlərdə,*
*Axtarışıb tapmaq gərək şübhəsiz.*

*O, yerlərdə nücum hesabları yox,*
*Təbiət ayırır, qışı bahardan.*
*Baxanda coğrafı bölgələrinə,*
*Bu bölgədə durur "Azərbaycan"*

*Çox qədimdən qalır bahar bayramı,*
*Kimsə deyə bilməz hələ haçandan.*
*Qəhhar quvvələrə baş əyib insan,*
*Təbiətə bağlı olan zamandan.*

*El adətləridir bayram dəbləri,*
*Çox incə, kütləvi, axar –baxardır.*
*Hər kiçik bir rəsmi problemlərdir,*
*İçində keçmişin izləri vardır.*

*Çillə çıxar–çıxmaz işə başlamaq,*
*Yorqan–döşək yumaq, ev tozu tökmək,*
*Göyərti göyərtmək, səməni qoymaq,*
*Ev–eşiyi silmək, bağçanı əkmək,*
*Taza paltar tikmək, mis qab ağartmaq,*
*Yumurta boyamaq, qovurqa qovurmaq,*
*Axır çərşənbədə bazara getmək,*
*Onun gecəsi də taraqqa atmaq.*
*Taza küzə almaq, çəp–çərəz almaq,*
*Kəlləcuş pışırıb, dolma doldurmaq,*
*Damdan şal sallayıb qulaq yatırmaq,*
*Girdəkan oynamaq, oddan atılmaq,*
*Axşam damlar üstə tonqallar yaxmaq,*
*Səhər–səhər çeşmə başına çıxmaq,*
*"Ağırlığı" axar suya buraxmaq,*
*Bayram hamamına getmək, arınmaq,*
*Saça, əl–ayağa həna bağlamaq,*
*Axır cümə axşamı qəbr üstə varmaq*
*Nişanlı qızlara xonça yollamaq,*
*Hər yerdə toplanıb abidələrə*
*Kinəni–küsünü atıb unutmaq,*
*Sulara al–əlvan balıq buraxmaq.*
*İlin təhvilində dua oxumaq:*
*Ey könülü, könülləri yaradan,*
*Ey görən gözlərə ışıqlar saçan,*
*Gecələri, gündüzləri fırladan*
*Ey dünyanı haldan–hala çevirən."*
*İl dəyişən kimi qol–boyun olmaq,*
*Əl sıxmaq,–bayramın mübarək demək*
*Ev bə ev dolanmaq, görüşə getmək*
*Bayramlıq aparmaq, şirinlik yemək.*

*Bu hamı maraqlı ənənələrdən*
*Mənalı rəmzlər axtarmaq olar.*
*Hər biri açılıb araşdırılsa,*
*Bir çox açılmamış düyünlər açar.*
*Bu adətlərin ən gözəli məncə*
*Ölüb gedənləri xatırlamaqdır.*
*Hər kəs əzizini, hörmətlisini*
*Ziyarət eləyib yada salmaqdır.*

*Bayram axşamıdır, tutğun, kədərli,*
*Əlimdə bir dəstə rəng bə rəng çiçək*
*Durmuşam məzarın ayağı altda.*
*Elə bil köksümdə vurmayır ürək.*

*Bura təkcə ata məzarı deyil*
*Ölən günlərimin yatan yeridir.*
*Ömrümün günlərin didərək zaman*
*Qara topraqlara qatan yeridir.*

*Bütün şirinliklər, ağzımın dadı,*
*Burda basdırılıb, burda, bu yerdə*
*Atamdan bir ovuc torpaq qalıbsa,*
*Onlardan da qalıb yalnız xatirə.*

*Hardasız–hardasız keçən günlərim?*
*Gənclik röyalarım, böyük arzular*
*Bir ləhzə, bir ləhzə, fəqət bircə an*
*Dönüb o günlərə qayıtmaq olar?*

*Keçmişi arayıb, axtarıb tapmaq*
*Bir daha mahaldır, məgər xəyalda*
*Qoy olsun, Xəyaldan mədəd dilərəm,*
*Vaqeiyyətdən bir izdir, xəyal da.*

*Xəyal mədəd səndən gəl kərəm eylə*
*Bir də məni qaytar o zamanlara.*
*İtirdiklərimi bir daha görüm*
*Yuxu kimi gəlib keçən anlara.*

*Könül laçınına keçmiş yox–hal yox,*
*Bəzən gələcəyi də basıb keçər.*
*Göz açıb yummadan açar şəhpərin*
*Işıqdan da yeyin yellərə dönər*

*Xəyalın ağ yeli əsir üstümə,*
*Həyat varaqlanır, varaq ba varaq,*
*Bir ömrü tıxadır neçə ləhzəyə,*
*Bütün keçmişimi xatırladaraq.*

*Qara daşdan başqa görmürsə gözüm*
*Baxışım işləyir yerin altına*
*Qarşımda canlanır burada yatan*
*Ruhuma–canıma ən tanış sima.*

*Yarlı–yaraşıqlı, igit viqarlı*
*Mətanətlə mənə baxan gözləri*
*Dünyalarca qayğı, məna, məhəbbət,*
*Şələsin daşıyan ata sözləri.*

*Qabarlı əlləri ilə əlimdən tutub,*
*Məni dolandırıb, gəzdirən günlər…*
*Nələr hiss edərdim, nələr duyardım*
*Söz ilə vəsf etmək olarmı məgər?*

*Tam güvənməgimlə, tam inamımla,*
*Mütləq məhəbbətə inanmaq hissi.*
*Tufanlar qopsa da, sellər axsa da,*
*Sarsılmaz bir dağa dayanmaq hissi.*

*O, ışıqlı çıraq sönənə qədər,*
*Nə qara–qorxu, nə dəhşət qanardım.*
*Onu hər müşkulə, hər çətinligə,*
*Faiq olan sınmaz qüdrət sanardım.*

*Adı gələn zaman bütün gözlərdə*
*Hörmət ulduzları parıldaşardı.*

*Andığım yeganə, sadə həyat ki,*
*Mütləq igitliklə bitdi, qurtardı.*

*Sadə, şilə–pilə bilməz bir insan,*
*O qədər düşünən, o qədər dərin*
*Mənə idealdır, mənə arzıdır*
*Bir gün ola biləm kaş onun təkin.*

*Onu görməsəydim, tanımasaydım,*
*Yəqin həqiqətə inanmaz idim*
*Insanlığı onla tanıdım, onsuz*
*Qəflət yuxusundan oyanmaz idim.*

*İndi o əzəmət, hörmət tanrısı,*
*Hardadır, hardadır, hardadır, harda?*
*Nə olub o, canlı şərəf heykəli*
*Bu üstün toz basmış soyuq məzarda.*

*Su töküb yuyaraq məzar daşını,*
*Çiçəklə bəzəyib, gül əkə–əkə*
*Nələr xatırımdan keçir? Qoy qalsın…*
*Qayıdıram lakin yaş tökə–tökə.*

*Təəssürə qərq olub*
*Baxmadan sağa–sola*
*Atamdan ayrılıban*
*Dönüb düşürəm yola.*

*Məzarlıqda dolaşan*
*Pırtlaşıq bir qələndər*
*Öz aləminə cumub*
*Başında keçir nələr?*

*Birdən–birə qayıdıb*
*Mənim üzümə baxır.*
*Dərin baxışlarından,*
*Sankı ildırım şaxır.*
*Sonra da gülümsəyir,*
*Ağlayır kimi gülür,*
*Ancaq sir–sifətimdən*
*Hörmət, inam tökülür.*

*–"Sındısa da ürəyim,*
*Qurban o xumar gözə.*
*Kupun başı sağ olsun,*
*Sınar olsa bir küzə"*

*Başqa söz danışmadan,*
*Yolunu çəkib gedir.*
*Yenə dünyadan çıxıb*
*Öz aləmin seyr edir.*

*Və lakin sözlərindən*
*İçimin odu sönür.*
*Elə bil ürəgimdən,*
*Ağır daş götürülür.*

*Günəş kimi bir ışıq,*

*Ürəgimi çulqalayır.*
*Məni də o seyr edən*
*Dünyalara aparır.*

*Gözümdə dəyişir hər şeyin rəngi,*
*Baxıram, qəribə aləm görürəm.*
*Nə qəm–qussəm qalır, nə də matəmim,*
*Nə yoxluq, nə də ki, ədəm görürəm.*

*Küzələr sınsa da, küplər dolu idi*
*Sürahilər meydən boş qalmayırdı.*
*Hər bir gül solduqda min gül gülürdü*
*Həyat bağı solub, saralmayırdı.*

*Qayıtdım atamın qəbrinə baxdım,*
*Daha nə məzarlıq, nə məzar gördüm.*
*Qara daş altında, yer altında yox,*
*Atamı özümdə yaşayar gördüm.*

*Yenə gözlərimlə yaşardı gözü,*
*Yenə doluxsundu, yenə ağladı.*
*O, ağlamaq deyil, çağlamaq idi,*
*Boğulmuşdu, məni gördü, çağladı.*

*Dünyada ən böyük qayə həyatdır*
*Əvvəl, özün ulu sandı, ağladı*
*Məni görcək, kor görmədi ocağın*
*Özünü yaşayar gördü çağladı.*

*Çağla, ata, qorxma, hələ mən varam,*
*Qoymaram, qoymaram sönsün ocağın.*
*Hayıfdır o mərdlik, o şərəf ölə,*
*Hələ yüz min çiçək açacaq bağın.*

*Mən də ölüb getsəm, yurd–yuvanda*
*Kölgəli, kölgəli budaxların var.*
*Dişi əslanların yerli–yerində,*
*Qaplan təbiətli uşaqların var.*

*Bu açan güllərin hər pıtasında,*
*Sən yaşayacaqsan, sən qalacaqsan*
*Həlal əməgivə and içərəm, and*
*Əbədiyyətədək varsan ki, varsam.*

*Haqq, mərd igitlərin mədədkarıdır*
*"Vurğun"suz bu gözəl məna doğrulmaz*
*"Əlinlə qurduğun barlı baxçalar,*
*Tufanlar qopsa da saralıb solmaz."*
*Lakin, zəmanəmiz pis zəmanədir,*
*Qorxulu yolların karvanıyıq biz.*
*Tarıxın uçurum keçərlərindən*
*Keçib getməlidir məhkum nəslimiz.*

*Odur ki, yorğunlar yorulub qalıb,*
*Əfsanəyə dönüb mərdlik–igitlik*

*Küp sınıb, peymanə yerə calanıb,*
*Boşluqlardan umud, qayğı gəzirik.*

*Üzüm ağacların çor vurub bütün,*
*Bağı çayır basıb, hər yer tıkandır*
*Sular başsız axır, su suvaran yox,*
*Qoca bağvanın da ürəgi qandır.*

*Haqq badə verməyə badə tapmayır,*
*Baydalar boşalıb, üzü quyludur.*
*Xumarlıq öldürür mey vuranları,*
*Əl–ayaq çəkilib yol qorxuludur.*

*Aşıq, canım aşıq, çal qopuzunu,*
*Söhbət mərdlikdəndir, saza zəxmə vur.*
*Sarı sim hardadı qolun qurbanı*
*Qoyma kökdən düşsün, qulağını bur.*

*Qüssədən sümüklər sürməyə dönüb*
*Şirin nəğmələrdən qıyamət qopar.*
*Yügürən ayaqlar xamlayıb qalıb,*
*Yolun yorğunluğun canlardan çıxar.*

*Danış, şirin candan əlini çəkib*
*Haqq üçün nahəqlə vuruşanlardan.*
*Danış gecələri gündüzə qatıb,*
*Şərəf–həyat üçün vuruşanlardan.*

*Danış, qoy, bağban həvəsə gəlsin*
*Çubuğun, buxçusun belinə taxsın*
*Yol çəkən gözlərin otdan, çayırdan*
*Çevirsin, suları bağa buraxsın.*

*Hasılsız ağaclar qol–budaq atsın,*
*Qoralar yetişsin, şirəyə dolsun.*
*Sıraya düzülsün küplər, küpələr*
*Qaynasın, durulsun, al şərab olsun.*

*Mərd igitlər içsin, gözlər qızarsın,*
*Bir də bədöv atlar covlana gəlsin,*
*Qatı yay çəkilsin, qılınc çalınsın,*
*Ərənlər meydana mərdana gəlsin.*

*Məşəllər yanmasa, ışıq salmasa*
*Haçan ışıqlanar bu qara zülmət*
*Diriliklə ölüm yaxa tutmasa*
*Haçan dəyişilir bu yorğun həyat?!*

Günlərin bir günündə
Ulaş oğlu salur Qazan
Öz yerindən durmuş idi,
Qara yerin üzərində
Otaqların qurmuş idi,
Min bir yerdə ipək–ipək
Xalçası döşənmişdi.
Alaseyvan göy üzünə
Aşıtmışdı.
Doxsan tümən gənc Oğuz
Söhbətinə dərilmişdi.
Ağzı böyük xümrələr
Ortalığa salınmışdı.
Doqquz yerdə badıyələr qurulmuşdu.
Altun ayaq sürahilər düzülmüşdü.
Doqquz gözəl qara gözlü, hörmə saçlı
Ağ əlləri biləgindən xınalı
Barmaqları nigarlı
Quş boğazlı, işvə nazlı
Yanaxları al qırmızı kafər qızı,
Əllərində altun ayaq
Al şərabi qalın Oğuz
Bəylərinə gəzdirirdi.

Hər birindən Ulaş oğlu
Salur Qazan içmiş idi
Çərxab–çərxab çadır–otaq
Bağışlardı
Qatar–qatar qızıl dəvə bağışlardı
Qarşısında oğlu Uruz
Yay söykənib dayanmışdı.
Sağ yanında qarındaşı
Qaragünə oturmuşdu.
Sol yanında xan dayısı
Aruz qoca oturmuşdu.
Salur Qazan sağına baxdı
Qas–qas güldü, soluna baxdı
Çox sevindi, qarşısına baxdı
Oğlancığı Uruzu gördü,
Əlin çalıb ağlar oldu.
Babasının bu işindən
Bəy igit xoşlanmadı
Yaxın gəldi dizə çökdü
Babasını çağırıban belə dedi:
Önüm anla, sözüm dinlə, ağam Qazan!
Sağına baxdın qas–qas güldün,
Soluna baxdın çox sevindin,
Qarşına baxdın məni gördün
Ağlar oldun, səbəb nədir?
Degil mənə qara başım

Qurban olsun babam sənə!
Deməz olsan qalxıbanı
Mən yerimdən duraram,
Qara gözlü igitlərim
Boyuma alaram, qalın Abxaz
Ellərinə mən vararam,
Altun xaça əl basaram
Pilon giyən keşişin
Əlini öpərəm, kafər qızın
Mən alaram, daxı sənin
Üzərinə mən gəlmərəm.
Ağlamağının səbəbini
Degil mənə, qara başım
Qurban olsun ağam sənə!

Salur Qazan qızardı,
Oğlanın üzünə baxdı,
Çağırıban söyləmiş,
Görək Qazan nə söyləmiş:
Bəri gəlgil qolunum oğul
Sağım ələ baxdığımda
Qarındaşım Qaragünəni
Durar gördüm, baş kəsibdir
Qan tökübdür çöndü alıb
Ad Qazanıb. Solum ələ
Baxdığımda Aruzu gördüm
Baş kəsibdir qan tökübdür
Çöndü alıb–ad Qazanıb
Qarşım ələ baxdığımda
Səni gördüm. Onaltı yaş
Yaşlamısan bir gün ola
Düşəm öləm sən qalasan
Yay çəkmədin, ox atmadın,
Baş kəsmədin, qan tökmədin,
Qanlı Oğuz ellərində
Çöndü almadın. Yarınkı gün
Zəman dönüb sən qalasan,
Tacım–taxtım, ola, sənə
Verməyələr, bunu andım,
Ağlar oldum, oğul! –Dedi
Uruz burada söyləmiş,
Görək, xanım nə söyləmiş:
–A bəy baba, dəvə boyda,
Böyümüşsən, köşək qədər,
Ağlın yoxdur. Təpə qədər,
Böyümüşsən, darı qədər
Beynin yoxdur. Söylə görüm
Bir hünəri oğul atadan öyrənir
Yoxsa atalar oğuldan?
Söylə haçan sən məni alıb

Kafirlərin sərhəddinə çıxardın
Qılınc çalıb başlar kəsdin
Söylə səndən nə gördüm ki,
Nə öyrənəm?
Qazan əlin ələ çalıb
Qas–qas güldü, belə dedi:
–A ərənlər, oğlum Uruz
Xub söylədi, şəkər yedi,
Sizlər yeyin için
Söhbətizi dağıtmayın,
Mən bu oğlanı götürüm
Ova gedim, yeddi günlük
Azuqə ilə yola çıxım,
Ox atdığım, qılınc çalıb
Baş kəsdiyim yerləri ona
Göstərim. Qanlı kafər
Sərhəddinə, cızıqlara,
Ağılğana, Göycə dağa
Alıb çıxım, sonra oğlana
Gərək olar, bəylər.–dedi.
Qonur atını çəkdirdi
Bütün mindi. Üç yüz
Mürəssə donlu ər boyuna aldı.
Uruz isə ala gözlü
Qırx igidin yanına salıb
Qazan oğlunu götürdü.
Qara dağlar üzərinə
Ova çıxdı, ov ovladı,
Quş quşladı, sığın keyik
Vurub yığdı, əlvan güllü
Göy çəmənə çadır tikdi,
Bir neçə gün bəylər ilə
Yedi, içdi.

Sən demə ki, başı açıq
Tatyanın qalasından
Ağısqa qalasından
Kafirin casusları
Bunu görüb Təkura gəldi,
Belə dedi: Nə durmusan
İtini ulatmayan, pişiyini movuldatmayan
Alplarbaşı Qazan
Oğlu ilə sərxoş olub
Yatır; -Dedi.
Onaltı min qaradonlu
Kafir mindi. Qazan Xanın
Üzərinə ilğar yetdi.
Baxıb böyük toz gördülər.
Kimi keyik tozu sandı,
Kimi baxdı yağı sandı,

Qazan baxdı: Keyik olsa
Bir ya iki bölük olur,
Bu gələnlər yağıdırlar, bilin, -dedi.
Toz yarıldı. Günəş kimi,
Işıldadı, dəniz kimi
Yayxalandı, meşə kimi
Qaraldı. Onaltı min
İp rikaplı, keçə börklü,
Azğın dinli, quzğun dilli
Kafir birdən çıxa gəldi.
Salur Qazan qonur atın
Çəkdiribən bütün mindi.
Oğlu Uruz cilovunu yığışdırıb
Bedöy atını oynatdı,
Qarşı gəldi belə aydır:
-Bəri gəl gil ağam Qazan
Dəniz kimi o qaralıb gələn nədir,
Alov kimi ışıldayan,
Ulduz kimi parıldayan
Nədir, ağam ağız dildən
Beşçə kəlmə xəbər mənə.
Qara başım, qurban olsun
Babam sənə!
Qazan Aydır: Bəri gəl gil
Aslanım oğul, dəniz tək
Yayxalanan, kafərin ləşkəridir.
Günəş tək ışıldayan, kafərin
Işığıdır, ulduz tək parıldayan
Kafirin cidasıdır, yürüş edən
Azğın dinli kafərlərdir.

Oğlan Aydır: -Baba,
Yağı nə deməkdir?
Qazan Aydır: -Oğul,
Yağı o deməkdir:
Biz onlara çatan zaman
Öldürürük, onlar isə
Bizə çatsa öldürürlər.
Uruz aydır:
-Baba, əgər içlərində
Bəy igidlər öldürülsə
Qanın almaq istəməzlər?
Qazan aydır: Oğul
Minlərcə kafər öldürsən
Kimsə səndən qan istəməz
Ancaq, azğın dinli kafər
Yaxşı yerdə tuşa gəldi
Vəli, sənsə yaman yerdə
Duşaq oldun.
Uruz burada söyləmiş,

Görək, xanım, nə söyləmiş:
-Bəri gəl gil ağam Qazan
Qalxıbanı yerimdən mən
Bədöy atımı saxlardım,
Bu gün üçün, günü gəldi.
Ağ meydanda səgirdərəm
Sənin üçün: Ala uzun
Sür cidamı saxlayardım
Bu gün üçün, günü gəldi.
Qaba qarın, gen köksü də
Oynadaram sənin üçün.
Qara polat uz qılıncın
Saxlayardım bu gün üçün,
Günü gəldi. Sası dinli
Kafir başın kəsər ollam
Sənin üçün. Əynimdəki
Dəmir donum saxlayardım
Bu gün üçün, günü gəldi.
Yan– yaxalar tikdirərdim
Sənin üçün. Başımdakı,
Dəbilqəni saxlayardım
Bu gün üçün, günü gəldi.
Qaba çomaq altında yoğradardım
Sənin üçün. Qırx igidim
Saxlayardım bu gün üçün,
Günü gəldi. Kafir başın
Kəsdirəyim sənin üçün.

Aslan adım saxlayardım
Sənin üçün. Yaxa tutub
Kafirlərlə uğraşalım,
Sənin üçün. Ağız dildən
Bir qaç kəlmə xəbər mənə,
Qara başım qurban olsun,
Ağam, sənə.

Qazan burada söyləmiş
Görək, xanım, nə söyləmiş:
-Oğul, oğul,  ünüm anla
Sözüm dinlə, ol kafərin
Üçün atıb birin yarmaz
Oxçusu olur. Hey demədən
Başlar kəsən cəlladı olur
Adam ətin, yıxnı qılan
Aşpazı olur, sən varası
Kafir degil. Qalxıbanı
Yerimdən mən duraram,
Qonur atımın belinə
Minərəm, gələn kafər mənimdir.
Mən vararam, qara polat uz

Qılıncım çalaram.
Azğın dinli kafərlərin
Başlarını kəsərəm,
Dönə–dönə savaşaram,
Dönə-dönə çəkişərəm,
Qılınc çalıb baş kəsdigimi
Gör gilə öyrən gilə
Qada başına gələndə gərəkli olur.
Uruz burada söyləmiş
Görək, xanım nə söyləmiş:
-A bəy baba eşidirəm
Ərəfatda ərkək quzu
Qurban üçün. Ata oğul
Qazanırı şöhrət üçün.
Oğul da qılınc qoşanır
Ata üçün, qeyrət üçün.
Mənim isə başım, canım
Qurban olsun sənin üçün.
Qazan burada söyləmiş
Görək, xanım nə söyləmiş:
-Oğul, can oğul,
Sən yağıya hücüm edib
Baş kəsmədin, düşman qırıb
Qan tökmədin, ala gözlü
Qırx igidin boyuna al,
Köksü gözəl qaba dağlar
Başına çıx, bəy babanın
Savaşdığın, döyüşdüyün,
Çəkişdiyin görüb örgən.
Həm də bizə gözətçi ol!
İgid Uruz babasının
Sözlərini sındırmadı.
Qayıdıban geri döndü
Yerdən uca dağlar üstə
Yoldaşların alıb çıxdı.
O, zamanlar heç bir oğul
Ata sözün sındırmazdı,
Sındırsaydı kimsə onu
Oğulluğa tanımazdı.
Uruz isə gen yaxadan
Süngüsünü sancıb durdu.

Salur Qazan baxdı gördü
Gələn kafər alaylandı,
Atdan endi, arı sudan
Abdəst aldı, ağ alnını
Yerə qoydu, iki rəkət
Namaz qıldı, adı gözəl
Məhəmmədi yada saldı,
Qara donlu kafərlərə

Göz qaratdı, hay vuraraq
At oynatdı, qarşı vardı,
Qılınc vurdu, gumbur-gumbur
Nağaralar döyüldü, borusu altun
Tunc borular çalındı.
Cılasınlar, bəy ərənlər
Dönə–dönə savaşdı.
Qara polad uz qılınclar
Çalındı, qarğıdilli
Qayım oxlar atıldı
Sür cidalar sürüldü
Namərdlər, müxənnəslər daldalandı.
O gün Qazan oğlu Uruz
Baxa–baxa eşqə gəldi, belə dedi:
Bəri gəlin qırx yoldaşım,
Sizə qurban olsun başım,
Gördüz necə ağam Qazan
Başlar kəsdı, qanlar tökdü?
Oğlan- uşaq yemək üçün
Gəlməyiblər, atam bizdən
Kafirləri əsirgədi.
Məni sevən igitlərim ,
Nə durursuz, kafərlərin
Bir ucuna təpiləlim,
Qara qoçun oynadıban
Kafirlərin sağ ucuna
At salıban sağdan-soldan
Düşmanları xub dağıtdı.
Sanardın ki, birdən – birə
Yer üzünə dolu düşdü,
Ya bir sürü qaz içinə
Şahin girdi. Kafirlərin
Sağ ucunu qaçar qıldı.
Qovulanlar bək qaçaqda,
Xan Uruzun Qara Qoçun
Oxladılar. At yıxıldı,
Qaçan kafər geri dönüb,
Oğlancığın üzərinə
Cumuxdular. Bəy Uruzun
Qırx iyidi atdan yendi,
Qalxanların ələ alıb,
Qılıncların süngülərin
İşə salıb savaşdılar.
Ucadakı alçaqdakın
Basıb alar, piyadanın
Umudu olmaz. Xan Uruzun
Sağın – solun çevirdilər,
Qırx igidin şəhid edib,
Üzərinə qoyuldular,
Yaxalayıb, ağ əllərin

Dalısından bağladılar
Boğazına qara qıldan
Örkən salıb üzü üstə
Sürüdülər, ağ atından
Qan çıxınca vurub-döyüb
Baba, deyə ağlatdılar
Ana, deyə bozlatdılar.
Əli bağlı, boynu bağlı
Sürüyübən yürütdülər.
İgit Uruz dustaq oldu,
Xan Qazanın xəbəri yox,
Sandı kim, yağı basıldı.
Qonur atın cilovunu
Döndəribən geri döndü,
Oğlancığı qoyan yerə
Gəlib çıxdı, tapanmadı.
Aydır: Bəylər, oğlan hara
Getmiş ola? Bəylər Aydır:
-Oğlan quş ürəkli olur,
Yəqin qaçıb anasına gedibdir o!
Salur Qazan pozuluban
Dönüb aydır: -Mərə bəylər,
Tanrı bizə bir kor oğul
Vermiş , varıb onu
Anasından alaq-dönüb
Qılınclayıb altı yolun
Ayrıcına buraxalım,
Hamı görsün ibrət alsın,
Bir də heç kim yaman yerdə
Yoldaşın qoyub qaçmasın.

Boyu uzun Burlaxatın
Qazan xanın gəldigini
Eşidincə atdan ayğır,
Dəvədən buğra, qoyundan qoç
Qırdıraraq oğlancığın
İlk ovudur, qalın Oğuz
Bəylərini toylayalım
Əlbət, - dedi.
Xan qızı gördü əri gəlir,
Yumurlanıb uru durdu
Qara səmur cəbbəsini
Çiyninə saldı,
Qarşı gəldi, qapaq qaldırdı,
Qazanın üzünə baxdı,
Sağ-soluna göz gəzdirdi,
Oğlancığı görmədi.
Qara bağrı sarsıldı,
Dum ürəyi oynadı
Qıyma gözlər qan yaş doldu.

Çağırıb Qazana söylər:
Bəri gəl gil salur gücü,
Başım baxti, evim taxti,
Xan babamın kürəkəni
Qadın anamın sevgisi
Atam, anam verdigi
Göz açıban gördügüm
Könül verib sevdigim
Bəy igidim xan Qazan,
Qalxıbanı uru durdun,
Oğlun ilə qazılıq atın
Bütün mindin , köksü gözəl
Qaba dağa ova çıxdın,
Boynu uzun səmiz keyik
Alıb yığdın bədöy atını
Yüklətdin, geri döndün.
İki vardın, bir gəlirsən,
Yavrum hanı? Qara gecə
İçərsində qazandığım
Oğul hanı? Bircə bəyim
Görünməzdir, bağrım yanar.
Yapışıqlı qayalardan
Qazan oğul uçurdunsa,
Dalı sazın aslanına
Yedirdinsə, sası dinli
Kafirlərə tutdurdunsa,
Ağ əllərin dalısından
Bağlatdınsa, kafərlərin
Qabağında yürütdünsə,
Dil-dodağı quruyuban
Dört yanına baxdırdınsa,
Qara gözdən acı yaşın
Axdırdınsa, ana, -deyə
Baba –deyə bozlatdınsa,
Degil mənə.

Xatın bir daha söyləmiş:
-Oğul, oğul ortacım oğul,
Qarşı yatan qara dağım
Yüksəyi oğul, qaranqoca
Gözlərimin aydını oğul,
Sam yelləri əsmədən
Qulağım gəlir,
Sarımsaq otu yemədən
İçim göynər,
Sarı ilan sancmadan
Ağca tənim qalxıb şişər,
Qurumuşca köksümdə

Südüm oynar,
Yalqızca oğlum görünməz,
Bağrım yanar.
Yalqız oğul xəbərini
Degil mənə, deməz olsan
Yana – yana mən qarğaram
Qazan sənə!

Anası bir daxı söyləmiş:
Qarğı cida oynadanlar
Vardı gəldi, altun cida
Oynadanlar, yarəb, noldu?
Qara yallı at minənlər
Vardı gəldi, bədöy atlı
Bircə oğlana, yarəb, noldu?
Nökər gəldi, nayıb gəldi,
Təkcə oğlan, yarəb, noldu?
Yalqız oğul xəbərini,
Mərə Qazan, degil mənə!
Deməz olsan, yana-yana
Qarğaram mən, Qazan, sənə!
Xatın bir daxı söyləmiş:
Quru-quru çaylar içrə
Su saldırdım, qara donlu
Dərvişlərə nəzir verdim.
Yanıma el baxdığımda,
Qonşuma ev baxdım
Umanına, küsəninə
Aş yedirdim.
Ac görərsəm, doyurdum,
Yalın görsəm, donatdım.
Dilək ilə bircə oğul,
Güclə tapdım. Yalqız oğul.
Xəbərini ,ay Qazan,
Degil mənə deməz olsan
Yana-yana qarğam mən
Qazan, sənə!

Xatın bir daxı söyləmiş
Qarşı yatan qara dağdan,
Bircə oğlan uçurtdunsa,
Degil mənə, külüng ilə
Yıxdıraram. Dayım axan.
Yügrək sudan, bircə oğul
Uçurtdunsa, degil mənə,
Damarların doğradaram.
Azğın dinli kafərlərə,
Bircə oğul tutdurdunsa,

Degil mənə, xan babamın
Sarayına vararam,
Ağır ləşkər, bol xəzinə
Alaram, paralanıb
Qazılıq atdan yenməyincə,
Ətəyimlə alca qanım silməyincə,
Qol-bud olub
Yer üzünə düşməyincə,
Yalqız oğul xəbərini almayınca,
Kafirlərin yolundan dönmərəm.
Yoxsa Qazan ayağımdan
Sərmüzəni atımmı?
Qara dırnax ağ üzümə
Çalımmı? Ağır şivən
Ordun içrə salımmı?
Oğul-oğul deyə-deyə
Bozlayımmı?

Dəvəlikdən qızıl dəvə
Burdan keçdi, köşəkləri
Bozlayıban belə keçdi.
Köşəkimi aldırmışam,
Bozlayımmı?
Qara qoçda, qazılığ atlar
Burdan keçdi, qulunları
Kişnəyibən, belə keçdi,
Quluncuğum aldırmışam,
Kişnəyimmi?
Ağayıldan ağca qoyun
Burdan keçdi, quzuları
Mələşibən, burdan keçdi,
Quzucuğum
Aldırmışam, mələyimmi?
Oğul, deyə bozlayımmı?

Xatın bir daha söyləmiş:
Qalxıbanı yerimdən duram, deyərdim.
Qara yallı qazılıq atıma minər, deyərdim.
Qalın Oğuzun içinə girim, deyərdim.
Ala gözlü bir gəlin alım, deyərdim.
Qara yerdə ağ otağlar tikim, deyərdim.
Yürüyübən oğlumu gərdəgə salam, deyərdim.
Muradımla, mətləbimə yetirmədin, Qazan, məni,
Qara başım qarğışları, görüm tutsun,
Qazan, səni. Bircə bəyimi nə elədin?
Deməz olsan yanar-göynər, qarğaram səni.

Burla xatın böylə decək,
Qazan xanın ağlı-huşu
Başdan getdi, qara bağrı sarsılıban,
Ürəyi yerindən oynadı, qaranqu gözləri
Qan yaş doldu, xatınına, belə dedi:
Ay görklüm! Oğul gəlsə idi,
Məgər səndən soruşardım?
Qorxma gilən ovda qalıb,
Ovda qalan oğul üçün
Qüssələnmə yeddi gecə-gündüz
Mən Qazana möhlət vergil,
Yerdə olsa çıxararam,
Göydə olsa endirərəm,
Tapa bilsəm, tapmışam
Tapanmazsam tanrı verdi,
Tanrı aldı, nə edəlim?
Qara şivən, sənlə belə eliyəlim.

Xatın aydır: Mərə Qazan,
Oğlancığın ovda qalmış olduğunu
Ondan billəm ki, sən yorğun atın ilə,
İşdən düşmüş cidan ilə,
Onun ardına düşəsən, axtarasan.
Salur Qazan geri döndü,
Qayıtdığı yollar ilə
Gecəni gündüzə qatıb
Ha yurudu. Xatınından
Gizlədərək, əl altından
Buyruq verdi: Doxsan tümən
Gənc Oğuz silahlansın,
Daldan gəlsin, oğlancığım
Dustağ olmuş bəylər bilsin,
Sürüb gəldi, yağıların
Basıldığı yerə çıxdı.
Baxdı gördü, oğlancığın
Qırx iyidi qırılmış,
Atı isə oxlanıban
Ləş içində yıxılmışdır.
Ölülərin için gəzdi,
Oğlancığın tapanmadı,
Altun qəmçisini tapdı,
Oğlunun dustaq olduğun,
Yəqin etdi, ağlayaraq belə dedi:

Qara dağım ucası, oğul,
Qanlı suyum daşğını, oğul,
Qocalıqda itirdigim, yalnız oğul!
Deyib kafərlərin izin izlədi.
Qanlı Qara Dərbənddə,
Kafir dahı qonmuş idi,

Oğlancığa qara kəpənək geydirib
Qala qapı keçirində
Üzü quylu salmışdılar,
Girən-çıxan ayaxlayıb
Keçirdilər. Tatar oğlu
Qarı düşman, əlimizə girmişkən
Cəza ilə öldürəlim-deyə
Qala qapı eşiyində
Quru yerdə qoymuşdular.
Bu məhəldə salur Qazan
Çapar yetdi, at oynatdı
Kafir Qazanın gəldigin
Görən kimi qorxdu, hürkdü.
Kimi qaçıb atın minər
Kimi tələsik covşən giyər.
Oğlan başını qaldırıb
Sordu: Kafir, bu nə haldır?
Kafir aydır: Atan gəldi,
Varıb tutmaq istəyirik.
Oğlan aydır: -Aman, mərə kafər, aman,
Haqq tanrının birliginə yoxdur guman.
Quduz kafər oğlancığa aman verib
Əlin açdı, gözün açdı, babasına
Qarşı qoydu.

Uruz burada söyləmiş,
Görək, xanım, nə söyləmiş:
Bəri gəl, gil a bəy baba!
Mənim dustaq olduğumu
Hardan bildin, ağ əllərim
Bir-birinə bağlandığın,
Ağ qıl sicimin boynuma
Taxıldığın? Qara gözlü
İgidlərim qırıldığın?
Sən gəlməmiş, baba, kafərlər
Danışdı, qonur atlı xan Qazanı
Əsir edin, ağ əllərin
Dalısından bağlayın,
Qəfildən başını kəsin
Alca qanın yerə tökün,
Oğlu ilə ikisini
Bir öldürün, od-ocağını söndürün!
Xanım baba! Qorxum budur,
Qonur atın səgirdərkən, sürüşdürüb
Savaşarkən, öz-özünü tutdurasan,
Qəfildən görklü başını kəsdirəsən.
Ağ birçəkli anamı sən oğul deyib
Ağlayarkən, başım baxti Qazan,-deyə

Ağladasan. Qayıdıban, canım baba,
Geri dön gil, altunluca ban evinə
Sürüb vargil, ala gözlü qız qardaşım
Ağlatma gil, qarılaşmış anamı sən
Sızlatma gil, oğul üçün ata ölmək
Eyb olur. Yaradanın haqqı üçün,
Baba, dön gil, evinə var gil,
Qarıcıq anam qarşı gəlsə
Məni sorsa, babam, doğru xəbər ver gil:
Söylə: gördüm, sənin oğlun dustaq degil,
Dalısından ağ əlləri bağlı degil,
Qara sicim ağ boynuna taxılı degil,
Qara donquz ağılında yatır degil,
Ağır buxov topuğunu dögər degil,
Yanmış arpa çörəgi ilə acı soğan öyni degil!
Mənim anam mənim üçün ağlamasın,
Bir ay baxsın, bir aya tək varanmasam,
İki ay baxsın, iki aya varanmasam,
Üç ay baxsın, üç aya tək varanmasam,
Öldügümü onda bilsin.
Ayğır atım boğazlayıb, aşım versin,
Yad elli qız həlalıma dəstur versin,
Mənə qurulan gərdəgə iraq girsin,
Anam mənim göy sarınıb qara geysin,
Qalın Oğuz ellərində yasim tutsun,
Mənim başım sənin üçün qurban olsun.
Geri dön gil!

Oğlan bir daxı söyləmiş,
Görək xanım nə söyləmiş:
Qarşı yatan qara dağlar,
Əsən olsa, el yaylaqlar.
Qanlı-qanlı axar sular
Əsən olsa, aşıb-daşar.
Madıyan atlar
Əsən olsa, qulun doğar.
Dəvəlikdə qızıl dəvə
Əsən olsa, köşək verər
Ağayılda ağca qoyun
Əsən olsa. quzu verər.
Bəy ərənlər əsən olsa,
Oğlu doğar. Sən əsən ol,
Qadın anam əsən olsun,
Qadir sizə məndən iyi oğul verər.
Ağ südünü anam mənə həlal etsin,
Savaşmadan, vuruşmadan, baba, döngil!

Xan Qazan burada söyləmiş,
Görəlim, xan, nə söyləmiş:
Oğul, oğul, canım oğul,
Qarşı yatan qar dağım başı, oğul,
Güclü belimin qüvvəti, oğul,
Qaranqu gözlərimin aydını oğul
Ala danla oyandığım, sənin üçün,
Qonur atım yürütdügüm, sənin üçün,
Ağ donuma kir əgləndi sənin üçün,
Mənim başım qurban olsun, canım, oğul, sənin üçün.
Sən gedəli ağlamağım göydə ikən, yerə düşdü,
Gumbur-gumbur tavullarım döyülmədi,
Ağır, ulu divanımsa sürülmədi.
Səni bilən bəy oğullar ağ çıxartdı, qara Geydi
Qaza bənzər qız gəlinim ağ çıxartdı, qara geydi.
Qarıcıq anan qan-yaş tökdü,
Ağ saqqallı qoca baban bükülü qaldı.
Qayıdıban buradan mən evə varsam,
Ağca üzlü anan mənə qarşı gəlib, oğul desə,
Ağ əlləri arxasında bağlı deyim?
Qıl örkəni ağ boynunda taxılı deyim?
Kafirlərin yanınca o ayaqyalın yürür, deyim?
Onda mənim namusum bəs harda qalar?
Qıl kəpənək boyuncuğun sürtər, deyim?
Ağır buxov topuqcığın döyər, deyim?
Arpa ətməgi acı soğan yeyimi deyim?

Qazan yenə aydır:
Qarşı yatan qara dağlar qarısalar, otu bitməz, el yaylamaz.
Axıntılı daşğın sular qarısalar, qalxıb daşmaz.
Qaytabanda qızıl dəvə qarıyarsa, köşək verməz.
Qara qoçlar qarısalar, qulun verməz
Ər igidlər qarısalar, oğlu doğmaz.
Baban qarı, anan qarı,
Səndən yeyrək tanrı bizə oğul verməz.
Verərsə də sənin yerin tuta bilməz.
Asımanda, mavi göydə qara bulut oluban mən,
Kafirlərin
Üzərinə gurlayaram,
Ağ ıldırım oluban mən, şaxar ollam,
Od oluban kafərləri qəmiş kimi yandıraram,
Doqquzunu bir-birinə saydıraram,
Vuruşmadan, döyüşmədən, yer üzünü dolduraram,
Yaradan Allahdan mədəd!
Qonur atdan yerə yendi,
Axıb gedən arı sudan
Abdəst aldı, ağ alını

Yerə qoyub, namaz qıldı,
Ağlayaraq, ulu tanrı
Dərgahından hacət sordu,
Diz söykəyib adı gözəl,
Məhəmməd müstəfanı yada saldı
Dəvə kimi kükrəyibən
Aslan kimi nərə vurdu.
Tək başına kafərlərə
At yürütdü, qılınc vurdu.
Dönə-dönə uzun zaman
Savaş etdi, kafərləri alım, -dedi.
Alanmadı. Bir saatda
Kafirlərə neçə kərə hücüm etdi
Birdən gözü qabağına
Qılınc dəydi, qara qanı
Şoruldadı, gözün örtdü,
Özün sərt yerlərə saldı.
Görək indi ulu tanrı
Nələr etdi.

Məgər dostlar, boyu uzun
Burla xatın, oğlancığın
Yada salıb, səbr u qərarı
Qalmadı. Qırx incə bel
Qız oğlana qara ayğırın
Çəkdirdi, bütün mindi,
Qara qılıncın qoşanıb,
”Başım tacı salur Qazan
Nədən gəlməz”, xəyaliylə,
İz izlədi, gələ-gələ
Xan Qazana yaxınlaşdı.
Qazan baxıb halalını tanımadı,
Üzərinə gəlib aydır:
-Qara ayğırın cilovunu
Mənə dart gil, baş qaldırıb
Mənə sarı bax gil, igid!
Altındakı qara ayğırı
Mənə ver gil, əlindəki,
Sür cidanı, yanındakı,
Göy poladı, mənə ver gil.
Bu günümdə mənə umud
Ol gil, igid!
Qala ölkə mən verərəm
Sənə, igid!
Xatın aydır:
Mənə qarşı gələn igid,
Nə inlərsən, mənim keçmiş
Günlərimi andırarsan?
Qalxıbanı üzərindən
Duran Qazan, qara gözlü

At belinə minən Qazan,
Ilğayıban qara dağım
Yıxan Qazan, kölgəlicə
Qaba ağacım kəsən Qazan,
Biçaq alıb qanadlarım
Qıran Qazan, yalqızlıca
Bir oğluma qıyan Qazan,
At üstündə əglənməyib,
Yortan Qazan, yoxsa sənin
Belin ölmüş,
Üzəngiyə duranmayan
Dizin ölmüş?
Xan qızı halalını
Tanımayan gözün ölmüş?
Bükülmüşsən sənə nə olmuş?
Çal qılıncın, yetdim, Qazan!

Bu məhəldə qalın Oğuz
Ərənləri bir-bir yetdi.
Görək dostlar, kimlər yetdi:
Qara Dərbənd ağzında Qadir verən,
Qara buğa dərisindən beşiginin dərisi olan,
Acığı tutanda qara daşı kül eləyən ,
Qara bığın yeddi yerdə burub tökən,
Xan Qazanın qarındaşı Qaragünə çapar yetdi
-Çal qılıncın, qardaş Qazan, yetdim, dedi.
Dalısınca görək dostlar, kimlər yetdi:
Dəmir qapı Dərbənddə dəmir, qapını qapıb alan,
Altmış tutam köndərinin ucunda ərlər böyürtdən,
Qazan kimi pəhləvanı, bir savaşda
Üç kərə atından salan, Səlcuq oğlu Dəli
Dondar çapar yetdi:
-Çal qılıncın, ağan Qazan, yetdim, dedi.
Onun ardınca görəlim kimlər yetdi:
Dərstursuzca Bayındırxan yağısına qan qusduran,
Qəflət qoca oğlu olan, Şer Şəmsəddin çapar yetdi:
-Çal qılıncın, ağam Qazan, yetdim, dedi.
Dalısınca dostlar görək kim yetdi:
Parasarın hasarından uçub, qaçan,
Ağ-alaca gərdəginə qarşı gələn,
Qazan bəyin inağı, Uruzun imərəncisi,
Boz ayğırlı xan Beyrək çapar yetdi:
-Çal qılıncın, ağam Qazan, yetdim, dedi.
Onun ardınca görəlim kimlər yetdi:
Çaya baxsa çalımlı, qara qartal ərdəmli,
Qulağı altun küpəli, bəyləri atdan salan,
Qazılıq qoca oğlu bəy Yegnək çapar yetdi:
-Çal qılıncın, ağam Qazan, yetdim, dedi.
Onun ardınca görəlim kimlər yetdi:
İgirmi dörd kafər qızı boy-buxununa

Oxşayan Dondar, yetdi,
Ondan sonra min qövm başı Dügər yetdi,
Ondan sonra min Bəydüz başı Əmən yetdi,
Ondan sonra doqquz qoca sərkərdəsi Aruz Yetdi.
Sayar olsaq, qalın Oğuz ərənləri saya gəlməz,
Qazan xanın igidləri bütün yetdi.
Dövrəsinə yığıldılar,
Arı sudan abdəst alıb
İki rəkət namaz qılıb
Adı gözəl Məhəmmədi yad eləyib,
Bitəkəllüf kafərlərə at saldılar,
Qılınc çalıb, qan tökdülər.
O günkü gün ciyəri olan igidlər bəlirdilər,
Namərdlər daldanacaq gözətdilər.
Qiyamət bir savaş oldu, meydan dolu baş Oldu.
Bəy nökərdən, nökər bəydən ayrıldı,
Qalın Oğuz bəylər ilə dəli Dondar, sağdan təpdi,
Ərcılasın igidlərlə Qara Budaq, soldan təpdi.
Salur Qazan öndən təpdi, kafər şah ilə Təkura Qarşı durdu,
Böyürdübən atdan saldı, alca qanın Yerə tökdü.
Sağ tərəfdə dəli Dondar, Qara Tükən məlik ilən Qarşı gəldi,
Qılıncladı yerə saldı.
Sol tərəfdə Qara Budaq, Buğcıqla tuş oluban,
Süngü sancıb yerə saldı, tərpənmədən başın kəsdi.
Boyu uzun Burla xatın
Qara Qoğan pəhləvanı, qılıncladı,
Yerə saldı. Təkur sındı,
Kafir qaçdı dərələrə, qırğın
Düşdü. On beş min nəfər
Kafirdən, kimi öldü,
Ölmiyəni əsir oldu.
Qazan, oğlu üzərinə
Gəldi, yetdi əlin çözdü,
Ata oğul qucaqlaşıb
Görüşdülər. Üç yüz igid
Oğuzlardan şəhid oldu.
Salur Qazan oğlancığın
Qurtarıban geri döndü.
Vuruş-döyüş xoş qurtardı,
Qalın Oğuz bəylərinə doyum oldu.

Ağca Qala Sürməliyə
Gəlib, Qazan qırx otaq
Tikdiribən yetdi gecə,
Yeddi gündüz yemək oldu,
İçmək oldu, qırx qul ilə
Qırx cariyə, oğlu Uruzun
Başına dolandırıb azad etdi.
Qoçaqlara, ərənlərə
Para verdi, ölkə verdi

Cübbə verdi, çuxa verdi.
Dədəm Qorqud gəlir oldu,
Şadlıq çaldı dastan qoşdu,
Belə dedi: İndi hanı
O dedigim bəy ərənlər?
Hara getdi dünya mənim söyləyənlər?
Əcəl aldı, yer gizlətdi.
Fanı dünya kimə qaldı?
Gəlimli-gedimli dünya,
Son ucu ölümlü dünya.
Yum verəlim, yerli qara
Dağlarınız yıxılmasın,
Kölgəlicə qaba ağacın
Kəsilməsin, qamın axan
Gur suların qurumasın,
Qanadların qırılmasın,
Qadir səni namərdə möhtac etməsin,
Çapar ikən ağ-boz atın büdrəməsin,
Çalışanda qara polad uz qılıncın kütləməsin,
Allah verən ümidiniz üzülməsin
Ağ alnında beş kəlmə dua qıldıq
Qəbul olsun yığışdırsın,
Duruşdursun günahınızı
Adı gözəl ”Məhəmmədə” bağışlasın.

# 10

# Qazılığ Qoca Oğlu Yegnək

*Günəşə çevrilib ilhamım yenə,*
*Hər yana, hər yana ışığın saçır.*
*Bütün kainatı göstərir mənə*
*Zülmət dünyasına cığırlar açır.*

*Ürəgim "Tur" olub, mən isə "Musa"*
*Mənim "Tur"um ancaq göz qamaşdırır.*
*Çırağa çevrilir mənə "təcəlla"*
*Yalnız ışıq salır, yaxıb-yandırır.*

*Başımda görünməz dilbər havası,*
*Baş alıb gedirən ürək gölünə.*
*Qarşımda gözümdən gizli siması,*
*Yalvarıram: "Göstər özünü" mənə.*

*"Görsən", dilədikdə güzgüyə dönür,*
*Durur qənşərimdə, deyir: Yaxşı bax!*
*Gözlərim heyrətdən çanağa çönür:*
*"Vay, o mənəm" deyir, dil ilə dodaq.*

*Bir an belə huşum çıxır başımdan*
*Deyə bilmirəm, nə hala qalıram.*
*Vəsf edə bilmirəm yox-yox-yox, aman*
*Sarsılıram hər vaxt yada salıram.*
*Dəhşətdir, dəhşətdir məni qorxudub,*
*Kaşki o halı vəsf edə biləydim.*
*Olardı sənin də əlindən tutub,*
*Bir an o aləmə gedə biləydim.*

*Xəyal "bərağını" minib çapıram,*
*Geridə qoyaraq kəhkəşanları.*
*Göz yumub açmadan "ərşə" çatıram,*
*-Bu qədər yaxınmış haqqın sərayı!*

*Məclis "yar"dan dolu, boşdur "əğyar"dan*
*Arada nə "hicab", nə də "pərdə" var.*
*Visal iyi gəlir damdan-divardan*
*Həm "özüm"əm, həm də sevgili "dildar".*

*Yar-yara çatanda söz də mi söylər?*
*Dil-ağız bağlanar, danışmaq olmaz.*
*Nə desə, gülüşlər, baxışlar deyər,*
*Dodaq danışmağa kəlmə tapanmaz.*

*Hər baxış bir kitab sözdür, nisgildir,*
*Ancaq bir an içrə bütün oxunar.*
*Hər gülüş bir aləm çiçəkdir, güldür,*

*Açılar, dərilər, təqdim olunar.*

*Sonra yavaş-yavaş açılar dillər,*
*Başlanar, qəmzələr, işvələr, nazlar,*
*Ədalar, çəmxəmlər, ərzgileylər,*
*Öpüşlər, qucuşlar, raz - niyazlar.*

*Hicran günlərindən deyib danışmaq,*
*Ürək sufrasını döşəmək, sərmək,*
*Tutulmaq, açılmaq, küsüb, barışmaq,*
*Dərdləri, qəmləri açıb göstərmək.*

*Mən də dilbərimlə qucaqlaşanda,*
*Sevincim, fərəhim qaynadı-daşdı.*
*Əmişib dərdləşib pıçıldaşanda*
*Nazlı yarım ürək dəftərin açdı.*

*Oxudu, oxudu üzümə baxdı,*
*Vurğun ürəgimi şan-şan elyədi.*
*Dərdindən, qəmindən alovlar qalxdı,*
*Könül ceyranımı büryan elyədi.*

*Mərmər ayaxların göstərdi mənə,*
*Ayaqlarım kimi qabarlanmışdı,*
*Say-saldım saçına, kipriklərinə*
*Toz-torpaq basmışdı, qübarlanmışdı.*

*Ürəyimi kədər-qəm parçaladı,*
*Sordum: -Bu nə tozdur, bu nə qabardır?*
*Mənalı-mənalı başın tovladı*
*Dedi: Yol qübarı, yol qabarıdır.*

*Sanma tək gəlmisən, bu uzun yolu,*
*Mən də dağlar aşıb gəlmişəm sənlən.*
*Sənlən tanımışam mən sağı-solu,*
*Hər yanı mənilən gəzmişsən, mənlən.*

*Sənlə yuxlamışam mən yatan zaman,*
*Sənilə açmışam səhər gözümü,*
*Tək səni yaxmamış ayrılıq hicran,*
*Sənsiz yandırmışam mən də özümü.*

*Batində bir yerdə, zahirdə iraq*
*Mən də sənin kimi yollar karvanı*
*Üzümə-gözümə qonan toz-torpaq,*
*Sənin üzündəki torpaqdır, tanı!*

*Hər qadalar gəlib sənin başına,*
*Mənim də üstümdən gəlib sovuşub.*
*Səni boğmalayan hər qaba dalğa*
*Mənə də kükrəyib, mənə də coşub.*

*Hər bir şadlığında, hər bir qəmində,*
*Sənlə ağlamışam, sənlə gülmüşəm.*
*Sənlə alışmışam, yanmışam mən də.*
*Səndə öz-özümü tapa bilmişəm.*

*Mənim taleyim çox qəmlidir səndən,*
*Çünkü, sən məndən tək bircə zərrəsən.*
*Nə boydadır qəmim bilmək istəsən,*
*"Zərrə"ni, "aləm"lən qiyas et ginən.*

*Mən də duymaz idim, sən duymaz ikən,*
*Kədər nə bilirdim, qəm nə bilirdim.*
*Mən də ağrıdım, sən ağrıyan gündən*
*Sənsiz nə inciyib, nə də güvənirdim.*

*Ta ürəyim ilə sənsiz dünyada*
*Nə sevgi tanırdım, nə də məhəbbət*
*Sən ilə dönmüşəm mən də Fərhada,*
*"Şirin"imi sənlə tanıdım əlbət.*

*Nə hicran, nə visal qanardım sənsiz*
*Sən məni qumru tək gətdin fəryada.*
*Nə alışıb, nə də yanardım sənsiz,*
*Sən məni salıbsan bu yanar oda.*

*"Sən" dedikdə, ancaq, tək sən deyilsən,*
*Dünyada milyonlar, milyonlar "Sən" var.*
*"Sən"lər hamı qalxıb birləşməyincən,*
*Gör necə keçəcək mənə ruzigar.*

*"Sən"lər şad olanda, "Sən"lər güləndə*
*Mən də şad oluram, mən də gülürəm.*
*"Sən"lər güllələnib, "Sən"lər öləndə,*
*Mən də güllələnib, mən də ölürəm.*

*"Sən" şeytan olarken mən də şeytanam,*
*Fitnələr qoparıb od yağdıraram.*
*Fəlakətdir, gərək yananla yanam*
*Yandıranla da ki, mən yandırıram.*

*Hər şeytan ölərkən mən də ölürəm*
*Ancaq ölümümə tez qatlaşıram.*
*Çün bu ölməklərlə təmizləşirəm,*
*Nahaq ölümlərdən rahatlaşıram.*

*Özümü biləndən halım yamandır*
*Vah, nə çətinliklə keçir günlərim.*
*Çəkdigim bəlalar kimə əyandır,*
*Özümü sarsıdır, öz nisgillərim.*

*Bir çox "Ənbiya"lar məni aldatdı,*
*Dedilər işlərim səhman tapacaq.*
*Hər yerindən duran öz yükün çatdı,*
*Mənim hesabıma yazdırdı, ancaq.*

*Öz-özümü yaxşı tanımamışam,*
*Nə edim çoxluğum qanmazdır hələ!*
*Cahillər əlində əsir qalmışam,*
*Yetim uşaq kimi baxıram ələ.*

*Az-maz adamlar da ansalar məni,*
*Tam gücüm-qüvvətim çoxluqlardadır.*

*Çoxluq basır boğur düz düşünəni,*
*Hələlik işlərim bu mədardadır.*

*Qurulmuş belədir, işdə, nə etmək,*
*Əzəl gündən gücü elə vermişəm.*
*Məni anlayanlar güc tapsın gərək,*
*Yoxsa - yox, vəryanı selə vermişəm.*

*Sən də çox öyünmə, tanıdın məni,*
*Get çalış özünə güc-qüdrət qazan*
*Çoxluqsuz mən tutabilmərəm səni,*
*Qüdrətin olmasa məğlub olarsan.*

*Səndən qabaqda da çoxları tapıldı,*
*Anladı, düşündü, tanıdı məni*
*Axır ənsələri saca yapıldı,*
*Saqın, belə qada tutmasın səni!*

*Bildin hara çəkdi "Mənsurun" işi?*
*Yazıq "Nəimi"ni daşa basdılar.*
*Qatır quyruğunda süründü ləşi,*
*"Nəsimi" soyuldu dırnaqdan başa.*

*Mənə qavuşanlar, məni tapanlar,*
*Biri siyahçalda, birisi darda.*
*Ayrılıq dərdindən sızıldayanlar,*
*Çoxluqlar mənə yad, mən çoxluqlarda.*

*Məni sevənlərin taleyi budur,*
*Yazıq yar mən ilən, mən əğyar ilən.*
*Bu dərd aşıqları yaxır sarsıdır,*
*Birlikdə ayrılıq, visalda hicran.*

*Neydə sızıldayan bütün nalələr,*
*Bu dərtdən, bu qəmdən, bu ələmdəndir.*
*Sazlarda səslənən həzin nəğmələr,*
*Bu ayrılıqdandır, bu matəmdəndir.*

*Budur məcnunları çöllərə salan,*
*"Moləvi" bu qəmdən coşur, çağlayır.*
*Budur Fərhadların canını alan*
*"Hafiz" də bu dərdi deyir, ağlayır:*

*"Dimdigində gözəl bir gül yarpağı,*
*Bülbülü ağlayıb zarıldar gördüm.*
*Sordum nə matəmdir bu visal çağı*
*Dedi –yar cəmalın parıldar gördüm".*

*Yarın sözlərindən, yarın işindən,*
*Dərdə-qəmə doldum, fəryada gəldim.*
*Amansız zamanın şum gərdişindən,*
*Qayıdıb insana imdada gəldim.*

*Güvənib, axtarıb tapdığım yarı,*
*Min kərə özümdən natəvan gördüm.*
*Haqqa sığınaraq nahaqdan sarı,*
*Haqqı da özüm tək bağrı qan gördüm.*

*"Xəyyam"ın bir sözü düşdü yadıma,*
*Gördüm yenə dərddə, dərd düngünlüdür:*
*"Qara günün çərxə həvalə qılma,*
*Fələk səndən min yol qara günlüdür."*

*Sənə sığınıram, yenə də sənə,*
*Sənə, ey varlığın sırdaşı insan!*
*Mədəd diləyirəm, mədəd qıl mənə,*
*Ağıla gəl, əl çək, qudurqanlıqdan.*

*Allahlığı ilə, tam qüdrəti ilə,*
*Tanrı da əlində, əsirdir, əsir.*
*Düz yoluna qayıt, gəl kərəm eylə,*
*Haqda işdə səndən yardım diləyir.*

*Sən haqqın əlisən, görər gözüsən,*
*Qoyma, qoyma sönsün yanar ocağın.*
*Danışan dilisən, haqqın özüsən,*
*Çal çaxmağı, yandır hekmət çırağın.*

*Yandır, qoy zülmətin bağrı deşilsin,*
*Qaçsın, dağılışsın dəli şeytanlar.*
*Qoy, uçurumlardan yollar seçilsin,*
*Öz yolunu tapsın azğın insanlar.*

*Tanıdın özünü gəl, kərəm eylə,*
*Haqq ilən gedəlim haqqın yoluna.*
*Bir özünə bax, utan, şərm eylə,*
*Gücün güc olmasın şeytan qoluna.*

*Silkinək nixvətdən kin-kədurətdən,*
*Öpüşək, görüşək bir bağır olaq.*
*Yaxamız qurtarsın bu fəlakətdən,*
*Damlalıqdan çıxaq dənizə dolaq.*

*"El gücü, sel gücü" demiş atalar,*
*Insanlar birləşsə dünya cənnətdir.*
*Nə aclıq, nə ölüm, nə dəhşət qalar,*
*Bu nə qır ha qırdır, bu nə vəhşətdir?*

*Hayıfdır bu geniş, bu gözəl dünya,*
*Darala insana cəhənnəm ola.*
*Dərilə ayrıla gül qonça-qonça*
*Açmamış sarala, açmamış sola.*

*Hayıfdır qurşunlar şan-şan eyləyə,*
*Nazlı cavanların gül bədənlərin.*
*Arzı dünyaların viran eyləyə*
*Yaxılıb yıxılan binalar təkin.*

*Hayıfdır qocaman ana gözləri*
*Hey yollara baxa, qanlı yaş tökə.*
*Bombalar raketlər abidələri*
*Yandıra, uçura, dağıda, sökə.*

*Cavan gəlinlərin dodaqlarında,*

*Analıq gülüşü quruya, dona*
*Körpələrin ana qucaqlarında*
*Parlaq gözlərinə torpaq, toz qona.*

*Gəl, insan evladı, verək əl-ələ,*
*Sıxıram əlivi qardaş əli tək.*
*Ürəklərimizlə, əllərimizlə,*
*İnsanlıq adına abidə tikək.*

*Birlikdə insanlıq boyların çalaq,*
*Vallahi, haqqın da gözü bizdədir.*
*Qardaşım, "Vurğun"dan söz də borc alaq;*
*"Səadət çırağı əlimizdədir."*

*Həqiqətin sirrin aradım ancaq*
*"Panteizm" deyil, dərin düşünək.*
*Yeni bir incidir. Silək parladaq,*
*Bu işdə oxucum gəl mədədləşək*

*Aşıq, dədəm aşıq, köklə sazını,*
*Alışdı bağrımız, boy-boyla bizə.*
*Quş tək qanadlandır xoş avazını,*
*Sərin yellər əsdir ürəgimizə.*

*"Nəfəs haqdan gəlir"-demiş atalar,*
*Nəfəslən, nəfəsin haqqa yüksəlsin.*
*Məhəbbət laçının yuvadan çıxar,*
*Uçsun, havalarda pərvaza gəlsin.*

*Sən haqq aşığısan, haqqdır köməgin,*
*Zəxmə vur tellərə tir-tir titrəsin.*
*Sazınla çırpındır haqqın ürəgin,*
*Qoy qafil olanlar haqqı dinləsin.*

*İnsan hünərlərin boylayan boylar,*
*Sanma boş sözlərdir, yalan-palandır.*
*Bu həmasələrdən iyidlik qopar,*
*Odu ürəkləri işıqlandırar.*

*Eşqin-məhəbbətin tərənnümündə,*
*Ürəklər pərisi pərəstiş olur,*
*Şirin nəğmələrin hər bir temində,*
*Haqqın gözəlligi tərənnüm olur.*

*Həmasələrdəki hər nazlı dilbər,*
*Haqqın-insanlığın cilvəgahıdır.*
*Fitnə baxışlarla gəl ha gəl eylər*
*Vurğun ürəklərin qibləgahıdır.*

*Qalxıb qurşanaraq hər çətin işə,*
*Dumanlı dağları basıb keçənlər,*
*Adı-sanı düşüb dillərə-dişə,*
*Haqq əlindən alıb badə içənlər.*

*Doğru yoldan qıraq qədəm qoymayan,*
*Haqq ikən, nahaqqa təslim olmayan,*
*Comərdlikdən, iyidlikdən, doymayan,*
*"Qorqud Dədə" gəlib boyun boylayan.*

*Dönməz qəhrəmanlar dəmir dayaq tək.*
*Daşğın dalqalara sinə gərirlər.*
*Tufanlar qopsa da sönməz mayaq tək,*
*Həyat gəmisinə yol göstərirlər.*

*Kəmal arzusu ilə vurnuxan insan,*
*Gələcək simasın onlarda görür.*
*Odur maraqlanır qoçaqlıqlardan,*
*Odur mərd iyidi hamılar öyür.*

*Nə qədər didərgin, azğın olsa da,*
*Insanlar haqsevər yaranıb zatən.*
*Ürəklər aranıb araşdırılsa,*
*Hamılar iyrənir yaramaz işdən.*

*Bu bir xoş xəbərdir, xoş əlamətdir,*
*İnsan xeyrə tərəf yovuşmaq üçün,*
*Məşəqqət məşqdir, həm riyazətdir,*
*Gedib həqiqətə qovuşmaq üçün.*

*Dostluq olmayanda düşmanlıq olur.*
*Sular bolanırlar durulmaq üçün.*
*Çaxnaşma törənir, viranlıq olur,*
*Yeni avadanlıq qurulmaq üçün.*

*İştə ummaqlıqdan doğur hər küsü,*
*Məhəbbət olmasa, kədurət olmaz.*
*Silinir, durulur könül güzgüsü.*
*Ayrılıq olmasa vəslət doğrulmaz.*

Yaranlar hey…
Xan oğlu Xan Bayandır,
Bir gün yerdən durmuş idi
Ağ evlərin qara yerin
Üzərində qurmuş idi.
Alaseyvan göy üzünə
Aşınmışdı,
Min bir yerdə ipək xalça
Döşənmişdi.
İç Oğuzun ərənləri
Söhbətinə yığılmışdı,
Yemə-içmə başlanmışdı.

Qazılıq qoca deyərlər
Bir kişi vardı, xanlar xanı
Bayandırın vəziri idi.
Al şərabın itisindən
Qantarıban başı qızdı
Qaba dizi üstə çökdü
Xanlar xanı bayındırdan
Axın üçün izn istədi
Bayındırxan dəstur verdi:
-Hər bir yana istəsən var!
Qazılıq qoca hər bir işə
Girib-çıxmış işdə pişmiş
Bacarıqlı təcrübəli
İşə yarar adam idi
Bütün yarar qocaların
Yanına salıb
Yadağ  ilə, yarağ  ilə
Yola girdi.
Dağlar aşdı çaylar keçdi,
Dərə-təpə yollar yürütdü
Ta günlərin bir günündə
Qara dəniz sahilində
“Düzmurd” adlı bir qalaya
Gəldi, çatdı, ora qondu.
Sən deməki o qalanın
Arşın oğlu Dirək, adlı
Təkuru var. O Təkurun
Altmış arşın qamətidir
Altmış batman gurz salar
Qatı, möhkəm yay çəkərdi.
Qazılıq qoca çatar-çatmaz
Təbilləri çaldıraraq
Cəngə girdi.
Dirək Təkur, qalasından
Dışara çıxıb, meydan açdı,
Ər dilədi.
Qazılıq qoca onu görcək

Yel tək yetdi
Yeləm kimi yapışaraq
O kafərin ənsəsinə
Qılınc çaldı, zərrə qədər
Kəsənmədi.
Dirək Təkur növbət tapıb
Altmış batman gurzu ilə
Qazılıq qoca təpəsindən aşağıya
Tutub çaldı. Dünya başına
Dar gəldi. Alca qanı
Düdük kimi şoruldadı.
Qoca bəyi qarmalayıb
Qala içrə apardılar.
Bunu görən igidləri,
Üz çevirib qaçdılar.
Qazlıq qoca on altı il
Dirək Təkur qalasında
Dustaq oldu. Sonra,
Əmən deyərlərdi altı kərə
O hasara hücum edib alanmadı.
Məgər, dostlar, qazlıq qoca
Tutulanda Yegnək adlı
Bir yaşında oğlu vardı.
Zaman keçdi on beş yaşa,
Gəlib çatdı. Cılasın bir
İgid oldu. Babasın
Öldü bilirdi, yasaq edib
Tutulduğun oğlandan
Gizlədirdilər.
Məgər günlərin birində
Bəylər ilən qonuşarkən
Qaragünə oğlu ilə
Uyuşmayıb sözləşdilər
Budağ aydır: -Burda nədən
Yalan yerə öyünürsən
Hünərin var, ər dilərsən,
Get, babanı qurtar gilən.
On altı ildir dustaqdadır.
Yegnək bunu eşidincə
Ürəyi yerindən oynadı,
Qaraca bağrı sarsıldı.
Bayındır Xan huzuruna
Varıb gəldi, ağ üzünü
Yerə qoyub belə dedi:
-Alan sabah səfa yerdə
Tikiləndə ağ ban evli,
Ətləs ilə yapılanda,
Göy seyvanlı, tavla-tavla
Çəkiləndə şahbaz atlı,
Çağırıban dad verəndə

Bol çavuşlu, yayxananda
Yağ tökülən bol nemətli,
Qalmış igid arxası
Bezə miskin umudlu
Türküstanın dirəgi
Tülü quşun yavrusu
Qaraçoğun qaplanı
Amit suyunun aslanı
Dövlətli xan, mədəd səndən,
Mənə ləşkər verib
Babamın dustaq olduğu
O qalaya göndər məni!

Bayandırxan dəstur verdi:
İgirmi dörd Sancaq bəyi
Atlansınlar.
Əvvəl, ol Dəmir Qapı Dərbənddə
Bəylik edən, qarğı süngüsü
Ucunda ər böyüdən,
Qırımına yetişəndə
Kim olduğunu sormayan,
Qıyan oğlu Dəli Dondar
Sənin ilə belə varsın,
Ayğır gözlər sularında
At üzdürən, əlli yeddi
Sərt qalanın kilidin alan
İlək oğlu dəli Əvrən
Sənin ilə belə varsın!
Qoşa burcdan qayım oxu
Əglənməyən, Yağrıncı oğlu
Ilalmış belə varsın.
Üç kərə yağı görümsə
Qan ağlayan Doğsun oğlu
Dəli rüstəm belə varsın.
Əjdəhalar ağzından adam alan
Dəli Əvrən belə varsın.
Yer üzünün bir ucundan
Bir ucuna yetəm deyən
Savqan Sarı belə varsın.
Qalın Oğuz ərənləri
Saymaqla saya gəlməz
Bayındırxan igirmi dörd
Səncaq bəyin ər oğlana
Yoldaş qoşdu.
Hamı bəylər cəm olub
Yaraqların götürdülər
Yegnək o gecə yatırkən
Yuxu gördü, yuxusunu
Yoldaşlarına söylədi:
-Dünən gecə başım-gözüm

Qafıllicə yatır ikən
Yuxu gördüm, ala gözlərim
Açıban dünya gördüm,
Ağ-boz atlar çapızdıran
Ərlər gördüm, ağ ışıqlı
Alpları yanıma saldım,
Ağ saqqallı Qorqutdan mən
Ögüt aldım, ala yatan
Qara-qara dağlar aşdım,
İrəli yatan qara dəniz
İçrə girdim, gəmi tapıb
Köynəyimi yelkən etdim,
İrəli yatan dənizi də
Dəldim, keçdim, ötəki qara
Dağ yanında alnı parlaq
Bir ər gördüm. Qalxaraq
Yerimdən durdum,
Qarğı dilli uz süngümü
Ələ aldım, qarşılayıb
O, igidə doğru vardım,
Qarşısından onu sancdım.
Gözətlədim göz ucu ilə
Ona baxdım, o ər dayım
Əmən imiş, bunu bilcək
Döndüm ona salam verdim,
Qalın Oğuz ellərində
Kimsən, dedim, qapaqlarını
Qaldırıb mənə baxdı
-Oğul, Yegnək hara belə?
Mən aydım: Dayı, Düzmurd
Qalasına, babam orada
Dustaq imiş.
Burada dayım mənə dedi:
Yetdigimdə yel yetməzdi, yeddi nəslim,
Yeddi çölün qurdlarına bənzər idi, igidlərim!
Yeddi kişi ilə qurulurdu mənim yayım,
Qayın dalı biləgindən, sum altunlu mənim yayım,
Yel əsdi, yağmur yağdı börkü qopdu
Yeddi kərə vardım ,o qalanı alanmadım, geri Döndüm
Məndən daxı ər qopmazsan Yegənəgim, dön geri.
Yegnək yuxusynda dayısına söyləmiş:
Qalxıbanı yerindən durduğunda
Ala gözlü bəy igidləri yanına almadın
Adı bəlli bəylər ilə sən yurtmadın
Beş aqçalı ülfəçilər yoldaş etdin
Onun üçün o qalanı alanmadın.
Yegnək yenə aydır:
Kəsə-kəsə yemək üçün yıxnı yaxşı
Kəsər gündə sərçeşmə yügrək yaxşı
Gəldigində dursa qalsa dövlət yaxşı

Bildigini unutmasa ağıl yaxşı
Qırımından dönməsə, qayıtmasa ərlik yaxşı.
Yuxusunu igid Yegnək
Yoldaşlara nəql elədi
Ancaq burada qoç dayısı
Yəqin etdi. Cümlə bəylər
Yoldaşlanıb yollandılar
Gəlib Düzmurd qalasına
Yetişdilər, dayandılar, kafərlər
Bunları görcək
Arşın oğlu Dirəgə xəbər verdilər
O məlun da qalasından
Dışra çıxıb, meydan açıb
Ər dilədi. Səlcuqoğlu
Dəli Dondar at yürütdü.
Altmış tutam sür cidasın
Qoltuq qısıb, o kafəri
Qarşısından susam, dedi.
Susamadı. Kafir Təkur
Bir zərbədə qarmalayıb
Süngüsünü çəkdi aldı.
Altmış batman gürzü ilə
Başından Dondarı çaldı.
Dünya başına dar oldu.
Atını qaytarıb döndü.
Dönəbilməz Dülək Əvrən
Altı pərli çomağı ilə
Çapıb gəldi, yuxarıdan aşağıya
O kafəri qatı vurdu,
Dirək Təkur qarmalayıb
Çomağın əlindən aldı.
Ona daxı gürz çaldı,
O da atını döndərib, geri döndü.
Beləliklə igirmi dörd
Sancaq bəyi zəbun oldu.
Burda Yegnək, taza igid,
Ulu tanrıya sığındı,
O zavalsız haqqı öydü:
Ucalardan ucasan,
Kimsə bilməz necəsən,
Əziz Tanrı!
Sən atadan olmadın,
Sən anadan doğmadın,
Kimsə rizqin yemədin,
Kimsəyə güc etmədin
Hamı yerdə əhədsən
Allah-i Səmədsən.
Adəmə, sən tac verdin,
Şeytana lənət qıldın,
Bir sucdan ötrü

Dərgahından qovdun.
Nimrud göyə ox atdı
Qarnı yarıq balığı
Oxuna qarşı tutdun
Ululuqda həddin yox,
Sənin boyun-qəddin yox,
Ya cism ilə cəddin yox.
Vurduğunu ulatmayan, ulu Tanrı
Basdığını bəlirtməyən, bəlli Tanrı
Götürdügün göylərə yetişdirdin,
Qağıdığına qəhr edən, qəhhar Tanrı
Mədəd səndən!
Qara donlu kafərlərə at təpərəm,
İşimi sən onar!-dedi.
Dayanmayıb at saldı,
Yellər kimi yetişdi,
Yapışqan tək yapışdı
Kafir Təkurun çiyninə
Qılınc vurdu geyimini, keçimini
Doğrayıb altı barmaq
Dərinlikdə yer eylədi
Qara qanı şoruldadı
Qara ayğır dərisindən
Çəkmələri qanla doldu
Qara başı bükülü qaldı
Durmayıb qalaya qaçdı.
Yegnək ardından yetişdi
Hasar qapısı önündə
Qara polad qılıncı ilə
Ənsəsinə tutub çaldı,
Qara başın bir top kimi
Yerə saldı, dönüb ləşkərə qayıtdı
Zəbun kafər, atasını
Salı verdi, çıxıb gəldi,
Belə dedi: Bəy igidlər
Bu kafəri kim öldürdü?
Qaytabanın mayasını
Yüklü qoydum, nər doğmuş,
Maya doğmuş, onu bilsəm.
Ağılımın qoyununu
Yüklü qoydum, qoç doğdu,
Qoyun doğdu, onu bilsəm.
Ala gözlü, ağca üzlü
Həlalımı yüklü qoydum,
Oğul doğdu, ya qız doğdu
Onu bilsəm, mərə bəylər
Yaradanın eşqinə xəbər mənə!
Yegnək burada söyləmiş
Görək xanım nə söyləmiş:
Qaytabanın mayasını

Yüklü qoydun nər oldu
Ağayılda qoyununu yüklü qoydun
Qoç oldu, ala gözlü ağca üzlü
Həlalını yüklü qoydun, aslan oldu
Ata-oğul görüşdülər
Ondan qalan bəylər hamı
Görüşdülər, bir ağızdan
Hasara yürüş etdilər
Hər nə var yağmaladılar.
Yegnək ilə bəy babası
Gizli-gizli yaxa tutub
Sarmaşdılar, iki həsrət
Bir-biriylə bölüşdülər
İssiz yerin qurdu kimi
Ulaşdılar, haqq Tanrıya
Şükür qılıb, qalaçanın
Kilisasın viran edib
Yerinə məçid yapdılar
Əziz Tanrının adına
Xutbə oxudub,
Quşun ala qanlısı
Qumaşın ən yaxşısını
Qız-gəlinin göyçəgini
Doqquzlama çərxab-çuxa
Xanlar xanı Bayındıra
Beşdən bir çıxıb
Qalanını döyüşçülər
Arasında bölüşdülər
Geri dönüb evlərinə qayıtdılar.
Dədəm Qorqud çıxıb gəldi
Boy boyladı, söy söylədi
Bu dastan Oğuz Namə
Bəy Yegnəkin olsun, dedi
Yum verəyin, yerli qara dağlarınız
Yıxılmasın, kölgəlicə ağaclarız,
Kəsilməsin, ağ saqqallı baban yeri
Uçmaq olsun, ağ birçəkli anan yeri
Behişt olsun, son nəfəsdə Tanrı sizi
Pak imandan ayırmasın,
Ağ alında beşcə kəlmə
Dua qıldıq, qəbul olsun.
Günahsızı adı gözəl Məhəmmədi Mustafaya,
Bağışlasın.

## 11

# Bayburanın Oğlu Bamsı Beyrək

*Aşıq, canım aşıq çal qopuzunu,*
*Amandır, amandır yar əldən gedir.*
*Alışdır içimi nəğmələrinlə,*
*İstək, ilqar, varlıq, var əldən gedir.*

*Ayaz gecələrdə mənə göz vuran.*
*Parlaq ulduzlarım*
*Bəs hayandadır?*
*Aman,*
*Boğdu məni bu darlıq, bu çən,*
*Gənclik röyalarım bəs hayandadır?*

*Zümrüd dalğaların zirvəsindən ay,*
*Niyə qaş qaldırıb, işığın saçmır.*
*Firuzə göylərin altun gəmisi*
*Niyə səmalarda yelkənin açmır?*

*Niyə ulduzların çəngisi zöhrə*
*Ülkər boyunbağın boynuna salmır,*
*İpək tellərini şuxməmə üstə,*
*Çəkib tirləndirmir, saz edib çalmır.*

*Nədən pıçıldaşmır uca qovaxlar,*
*Niyə gecə quşu virdin oxumur?*
*Nənə uşaqları başına yığıb,*
*Niyə nağıl demir, corab toxumur?*

*Xoş günlər xəyal tək gəldi də, keçdi,*
*Xatirlərdə bir iz qala-qalmaya*
*Hər şey ötəridir, gəlir sovuşur,*
*Həyat xatirədir, bir də bir röya.*

*Hanı döşlərində çadır qurduğum*
*Keyikli, cüyürlü, ceyranlı daglar?*
*Əkib becərdiyim aşıladığım*
*Kölgəli ağaclar, meyvəli bağlar?*

*Hər xoş dəqiqələr, xoş mənzərələr,*
*Tikrar olunmaz bir səhnəyə bənzər.*
*İnsan, həm aktordur, həm tamaşacı,*
*Həyat isə başsız–dibsiz bir əsər*

*Hanı "qarı nənə iş uzadanda"*
*Yağmurlu, günəşli təmiz havalar?*
*Gəlin tək çiçəkdən çadıra örtən*
*Uca boy ağaclar, güllü pıtalar?*

*Hanı səhər-səhər göz açan zaman*
*Utana-utana qızarıb pörtən*
*Üzündə şərmindən tər mıncıqlanan*
*Bakirə ətəkli qanlı nəstərən?*

*Hanı mərd igidlər ova minəndə*
*Kükrəyən ayğırlar, uçar tərlanlar*
*Hanı qoruğuna tülkü qoymayan*
*Qıynaqlı qaplanlar, qoğan aslanlar?*

*Hanı nə göz vurmaq nə yaşmaq bilən*
*Gölünə ovçular varmaz "sona"lar*
*Nə gizlənmək bilən, nə qaçmaq bilən*
*Ərsəlanlar doğan xatın analar?*

*Keçən günlərini xatırlayaraq*
*Yazıq anam bəzən sızıldayardı.*
*Ürəgi tutulub kədərlənən vaxt*
*Gözləri yaşalıb mızıldayardı:*

*"Oturmuşdum otaqda,*
*Qızıl gül açan vaxtda.*
*Bir vədəsiz yel əsdi,*
*Gül qoymadı budaqda."*

*O, zaman qanmazdım anamın sözün,*
*Kədəri bağrımı sıxardı ancaq.*
*Keçmiş ya gələcək nədir bilməzdim,*
*Uşaq idim, uşaq nə anlayacaq?*

*Nə bilim, bəlkə də könül sazımı*
*İlk – əzəl inlədən bu zəxmələrdir.*
*Məni şair edən, şair yetirən,*
*Bu sızıltılardır, bu nəğmələrdir.*

*Böyüdüm, boy atdım, huş-baş qazandım,*
*Çox şeylər düşündüm, çox şeylər qandım.*
*Vətən aşığı – el aşığı oldum*
*Günü-gündən dərdə qəmə boyandım.*

*Yurdu pozğun gördüm, eli didərgin,*
*Acıdım, göynədim, alışdım, yandım.*
*Dərdimə bir çara arayım, -deyə,*
*Hər diyarı qarış-qarış dolandım.*

*Nə bir an yoruldum, nə də dincəldim*
*Hər gəlib-gedəndən sorağ soruşdum.*
*Dərələrdən keçdim, dağlardan aşdım,*
*Günəş karvanına gedib qovuşdum.*

*Mən də üz qoydum o ülvi məqsədə,*
*Yollandım dərdimə dərman axtaram.*
*Dönəm pozqunluqdan, qaranquluqdan,*
*Elimin-yurdumun canın qurtaram.*

*Qəfləmiz tuş gəldi həramilərə,*
*Çaldılar, çapdılar var-yoxumuzu*
*İçimizə yaman zəlzələ düşdü,*
*Asdılar, kəsdilər.*

*Qaçıban ulu bir dağa dayandım,*
*Dedim arxam dağdır, yolum da ışıq*

*Güvəndigim dağa qar yağdı birdən,*
*Düşündüm qayıdım ya dözüm artıq.*

*Gördüm boş qayıtmaq igidə ardır,*
*Dönməzliklə insan yolunu tapar.*
*Dedim: qalam, yolum qardır ki, qardır*
*Yolçu ölər, ya da məqsədə çatar.*

*Gün çıxdı, dağların qarı əridi,*
*Hər tərəfdən daşğın sellər atlandı.*
*Məni, çul-palazı, damı-divarı,*
*Alıb dənizlərə sarı yollandı.*

*Bir qaba ağaca suvaşaraq mən,*
*Nələr çəkdimsə də ölmədim qaldım.*
*Demişlər düz gələr, iş düz gələndə,*
*Ancaq ki, özümü dənizə saldım.*

*Boş bir qayıq gördüm, atıldım mindim.*
*Sandım ki, dəryalar day mənim oldu.*
*Tufan qopdu, dalğalarla duruşdum,*
*Axırda köynəgim yelkənim oldu.*

*Mayaqları yıxıb salmışdı tufan,*
*Yol tapıb sahilə çıxa bilmədim.*
*Yağmurlar islatdı köynəyimi də*
*Quruda bilmədim, sıxa bilmədim.*
*Axırda qayığım daşa toxundu*
*Qolumda qüvvətim var ikən üzdüm.*
*Min bir dəvə boynu aşdı başımdan*
*Yoruldum, canımdan əlimi üzdüm.*

*Deyirlər dənizlər ölü saxlamaz,*
*Meyit sandı məni atdı qırağa.*
*Bir balıqçı gəldi başım üstünə,*
*Oyatdı, səmirdim, durdum ayağa.*

*Üz qoydum kəndlərə şəhərə sarı,*
*Ağ düşmüşdü gördüm qara saçlara,*
*Zamana dəyişib, dövran dönmüşdü,*
*Qaralar ağ olmuş, ağlar da qara.*

*İstədim döndərəm çərxi dövranı,*
*Hər addım başı bir ipə ilişdim.*
*Çeynədim, ufatdım, qırdım ipləri,*
*Yer ayrıldı, züydüm duzağa düşdüm.*

*Üzümə bağlandı hamı qapılar*
*Sındıra bilmədim, aça bilmədim.*
*Yolundu, töküldü qartal qanadım,*
*Havalananmadım, uça bilmədim,*

*Bir nəslin yığdığı dəni-xərməni,*
*Yaxdılar, əməklər bütün zay oldu.*
*Tər töküb əkdigim hasılın yalnız*
*Tüstüsü, qorumu gözümə doldu.*

*Sönməzlər şam kimi yandı qurtardı,*

*Yurtda ocağ söndü, soyuq kül qaldı*
*Meşələr qırıldı, sular sovuldu,*
*Ağaclar qurudu, bağlar çöl qaldı*

*Qaçan, qaçdı getdi canın qurtardı*
*Mərd igidlər hamı öldü, qocaldı.*
*"Dönmərəm" deyənlər döndü yolundan,*
*Nə ilqar, nə peyman, nə qərar qaldı.*

*Güllü baxçaların şaxta apardı,*
*Susdu bülbüllərin şirin nəğməsi.*
*Dondu, buz bağladı çağlayan çaylar,*
*Kəsildi suların xoş təranəsi.*

*Vədəsiz qar yağdı, necə də yağdı,*
*Çeşməli, çəmənli ulu dağlara.*
*Buludlar kişnədi, dolu töküldü,*
*Alması, armudu, sulu dağlara.*

*İndi tarlalarım verana qalıb,*
*Gündə şoxumlanır otda bitirmir*
*Gözdən yayılıb bir buta göyərsə,*
*Solub, qıncıqlanıb, gül verə bilmir.*

*Dəli buğa kimi fınxırır tufan,*
*Qaba ağacları kökdən qoparır.*
*Çalır çaxnaşdırır baş qaldıranı,*
*Dərələrə tökür, sellər aparır.*

*Sözlükdən sildirir igidlik adın,*
*Abidələr yerinə su buraxdılar.*
*Düz yol gedənlərin nəşini belə,*
*Məzardan çıxarıb oda yaxdılar.*

*Bir sığınacaq yox, daldanacaq yox,*
*Nə bir koma, nə bir alaçıq qalıb*
*Bir yanacaq yox, qızınacaq yox,*
*Təndirlər şeh çəkib, közlər qaralıb.*

*Yer göyə qovuşub, göz-gözü görmür,*
*Gecə də ki, yaman kəsib amanı.*
*Götürmək olmayır addım-addımdan,*
*Kimsə seçə bilmir yolu, yarqanı.*

*Haçan dağılacaq qara bulutlar*
*Haçan qızaracaq üfüqdə şəfəq,*
*Bu müdhiş gecədən, müdhiş tufandan,*
*"Əuzu, əuzu berəbbil–fələq"*

*Aşıq, canım aşıq çal qopuzunu,*
*Amandır-amandır yar əldən gedir.*
*Alışdır içimi nəğmələrinlə,*
*İstək, ilqar, varlıq, var əldən gedir.*

*Bir ləhzə var, ürək görər arzısın,*
*Məni o ləhzəyə aparıb çıxar.*

*Baxarımdan süpür bütün hər zadı,*
*Görünsün gözümə bəlkə nazlı yar.*

*İnsan bezikməsə yol arayanmaz,*
*İnlət qəm sazını usandır məni.*
*Ürəgi yanmayan su axtaranmaz,*
*Od vurub alışdır, yax-yandır məni.*

*İnsan candan keçə bilər bir an var,*
*Məni o aləmə, o ana apar.*
*Ya ölüm zəqqumun dadızdır mənə,*
*Ya yarıma yetir canımı qurtar.*

*O, an ayrılığın son qısqancıdır,*
*O, ağrıya dözən qurtuluş tapar,*
*Yeni bir doğuluş doğacağıdır,*
*Dalıca yeni bir həyat başlanar.*

*Kim deyir ölümdür candan əl çəkmək,*
*Candan əl üzməyən yara çatanmaz!*
*Canıxdır, canıxdır, canıxdır məni,*
*Dərddən canıxmayan çara tapanmaz!*

Xan oğlu Xan Bayandır xan
Bir gün yerdən durmuş idi
Qara yerin üzərinə
Ağ ban evin qurmuş idi
Alaseyvan göy üzünə
Aşınmışdı, min bir yerdə
İpək xalça döşənmişdi
İç Oğuzun, Dış Oğuzun
Ərənləri xanlar-xanı Bayındırın
Söhbətinə düzünmüşdü.
Baybura bəy deyərlər bir
Bəydə daxı, Bayındırın
Söhbətinə gəlmiş idi.
Bayındırxan qarşısında
Qaragünə oğlu igid
Qara Budaq dayanmışdı.
Sağ yanında Qazan oğlu
”Uruz” durmuş,
Sol yanında Qazılıq qoca
Oğlu ”Yegnək” dayanmışdı.
Baybura bəy bunu görüb
Dərindən bir ah eylədi
Qafasından ağlı gedib
Dəstmalını ələ aldı.
Böyürə-böyürə ağladı
Belə etcək qalın Oğuzun arxası
Bayındır xanın kürəkini salur Qazan
Qaba dizi üstə çöküb
Gözlərini qıya tikib
Baybura bəyin üzünə
Baxıb, deyir:
-Baybura bəy nə ağlayıb,
Nə bozlarsan?
Baybura bəy cavab verir:
-Bəyim Qazan söylə necə
Ağlamayım? Söylə necə
Bozlamayım? Oğul da bir
Ortacım yox. Tanrı məni
Qarğamışdır. Gələcəgim,
Tac-taxtim üçün belə ağlayıram.
Bir gün ola düşəm öləm
Yer yurdum kimsəsiz qala.
Qazan aydır: -Məqsəd bu mu?
Bəli, budur, mənim daxı
Oğlum olsa, xanlar xanı
Bayındırın qarşısını
Alıb dursa, qulluq etsə,
Mən də daxı baxıb-görsəm

Bir sevinsəm, bir güvənsəm
Belə decək qalın Oğuz bəyləri
Üz göyə tutub, əl qaldırıb,
Dua-səna elədilər:
Uca tanrı sənə də bir
Oğul versin!
O, zamanlar ərənlərin
Alqışları alqış idi,
Qarqışları qarqış idi,
Duvaları icabətə yetişirdi.
Buradaca Baybican
Öz yerindən uru durub
Belə aydır:- Bəylər gəlin
Mənimçin də dua edin
Tanrı taala kərəm qılıb
Bir qız daxı mənə versin.
Bəylər yenə əl qaldırıb
Dua qıldı:- Ulu tanrı
Sənə daxı bir qız versin.
Baybican bəy yenə aydır:
Bəylər! Tanrı kərəm qılsa
Mənə bir qız verər olsa
Mənim qızım Baybura bəyin
Oğluna beşikkəsmə
Yavulqlu olsun
Hamı buna tanıq olun.

Bir çox zaman keçməmişdi
Haqq taala kərəm etdi
Bayburanın oğlu oldu,
Baybicanın qızı oldu.
Qalın Oğuz ərənləri
Sevindilər eşidərək şad oldular.
Baybura bəy tacirləri
Çağırıban buyuruq etdi:
-Mərə qoçun bəzirganlar
Haqq taala kərəm edib
Mənim üçün bir oğul verdi
Rum elinə varın, oradan
Oğlum üçün yaxşı-yaxşı
Ərməğanlar tapıb alın,
Oğlancığım böyüyüncə
Dönüb gəlin.
Bəzirganlar gecə-gündüz
Yol getdilər, İstanbula
Gəlib çatıb, bayburanın
Oğlu üçün dan danışıq
Elə yaxşı ərməğanlar
Topladılar. Dəniz atı
Qulunu bir ağ – boz ayğır

Bir ağca tozlu qatı yay
Bir də daxı altı pərli
Gürz aldılar. Yol yarağın
Hazırlayıb yollandılar.

Bayburanın oğlancığı
Boy atıban beş yaşına
Beş yaşından on yaşına
On yaşdan on beş yaşına
Gəlib çatdı. Çaya baxa
Çalımlı, alıcı quş
Ərdəmli, gözəl-göyçək
İgid oldu.
O zamanlar heç oğlana
Baş kəsmədən, qan tökmədən
Sayıban ad qoymazdılar.
Bayburanın oğlu bir gün
Atlanıban ova varıb
Quş-quşlarkən babasının
Ilxısına gəlib vardı.
Əmir axur qarşı gəlib
Hörmətlə qonaqladı,
Yeyib-içib oturdular.

Bu tərəfdən bəzirganlar
Gəlib çatıb Qara Dərbənd
Ağızında qonmuşdular.
Yarımasın yarçımasın
O, qalanın kafərləri
Gələnləri casusladı.
Bəzirganlar yatarikən
Qafilcədən beş yüz kafər
Basqın edib qafiləni
Taladılar. Tacirlərin
Ulusunu dustaq edib
Kiçiyi can qurtarıb
Oğuzlara gəlib çatdı.
Baxıb gördü Oğuzların
Ucunda bir alaseyvan
Tikdirmiş bir imirzə
İgid oğlan, qırx igidi
Sağ-solunda oturmuşlar:
-Oğuzun bir igididir
Yürüyəyin ondan məδəd
Diləyəlim, deyə tacir
Gəlib aydır:
-İgid, igid, ünüm ünlə,
Sözüm dinlə. On altı il
Bundan əzəl, Oğuzlardan
Getmişidik, dan –danışıq

Kafir malın qalın Oğuz
Bəylərinə gətirirdik.
Parasarın Qara Dərbənd
Ağızına düşmüş idik.
O, qaladan beş yüz kafər
Üstümüzə basqın edib
Qardaşımı düstaq etdi,
Malımızı rizqimizi
Yağlamayıb qayıtdılar.
Qara başım götürübən
Sənə gəldim qara başın
Sədəqəsi, aman igid
Mədəd mənə!

İgid oğlan al şərabı
İçərikən içməz oldu,
Əlindəki qızıl camı
Yerə çaldı belə aydır:
Dedigimi yetirin
Geyimimlə mənim şahbaz
Atımı gətirin,
Məni sevən igid minsin!
Bəzirgan da onlar üçün
Bələdçi olub at saldılar.
Kafir isə bir məhəldə
Oturaq edib, altun-ağça
Bölüşərkən, ərənlərin
Meydandarı, meydandarın
Boz aslanı, pəhləvanlar
Pəhləvanı igid oğlan,
Çapar yetdi. Bir söyləməz,
İki deməz, kafərlərə
Qılınc qoydu, baş qaldıran
Kafirlərin boynun vurdu,
Tacirlərin malın aldı.
Bəzirganlar gəlib aydır:
Bəy igid sən bizə böyük
Ərlik etdin,var gəl indi
Bəyəndigin malı götür.
Boz oğlanın gözü ancaq
Dəniz atı dölü olan
Boz ayğırı, ağcatozlu
Qatı yayı, altı pərli
Gürzü tutdu:
-Bəzirganlar!
Mərə mən bu
Ayğır ilən gürzü, bir də
Qatı yayı xoşlayıram.
Bunu decək bəzirganlar
Səxt oldular.

İgid aydı:
-Bəzirganlar, mərə məgər
Çox istədim?
Bəzirganlar ayıtdılar:
Yox, çox deyil, ancaq bizim
Bəyimizin bir oğlu var,
Bu üçünü onun üçün
Aparmağımız gərəkdir.
Oğlan aydır:
-Bəyinizin oğlu kimdir?
-Bayburanın Bamsı adlı
Oğlu vardır.
Bu igidin Bayburanın
Oğlu özü olduğunu bilmədilər.
Oğlan barmağın isırdı:
-Burada mən minnət ilən
Almağımdan, bəy babamdan
Minnətsizcə almaq iyidir.
Dönüb atın qamçılayıb
Yola düşdü. Bəzirganlar
Dalısınca baxar qaldı.
-Vallah, əcəb yaxşı igit,
Mürüvvətli igid imiş,
Söylədilər.
İgid oğlan babasının
Ordusuna gəldi çıxdı.
”Bəzirganlar gəldi, -dedi”
Baybura bəy sevinibən
Çadır otaq, alaseyvan
Tikdirdi, ipək xalça
Döşətdirdi, oturuban
Oğlunu da sağ yanında
Əgləşdirdi. İgid oğlan
Bəzirganlar xüsusunda
Mütləq heç nə söyləmədi,
Kafirləri qırdığından
Söz demədi.
Çox çəkmədən Bəzirganlar
Yetişdilər, baş endirib
Bəyə səlam söylədilər.
Gördülər kim o, igid ki,
Baş kəsibdir, qan tökübdür,
Mal saldırıb, Bayburanın
Sağ yanında oturmuşdur.
Bəzirganlar yügürdülər,
İgidin əlin öpdülər,
Belə etcək Baybura bəy
Acıqlandı, tacirlərə
Baxıb aydır:
-Mərə qavat uşaqları,

Məgər ata duran yerdə
Oğlanın əlin öpərlər?
Bəzirganlar ayıtdılar:
-Xan
Bu igid
Yoxsa sənin oğlunmudur?
-Bəli, mənim oğlumdur o.
-Onun əlin öpdüyümüzə,
Xan bizlərdən inciməsin.
Sənin oğlun olmasaydı,
Var yoxumuz Gürcüstanda
Getmiş idi, özümüzsə
Dustaq olub tutulmuşduq.
Baybura bəy, burada aydır:
-Mərə, mənim oğlum məgər
Başmı kəsdi, qanmı tökdü?
-Bəy sağ olsun, sənin oğlun
Baş da kəsdi, qan da tökdü.
Mal saldırdı, söylədilər.
-Mərə deyin bu oğlanın
Ad qoymağa layiqi var?
-Sultanım bəy bəli ondan
Artıqlaşa layiqi var!
Söylədilər.
Baybura bəy qalın Oğuz
Bəylərini çağırıban
Qonaqladı. Qorqud Dədə
Varıb gəldi, boz oğlana
Ad qoyuban belə dedi:
-Sözüm dinlə Baybura bəy,
Tanrı sənə bir igitmən
Oğul vermiş, tuta versin.
Ağır bayrağ götürəndə
Müsəlmana arxa dursun,
Qarşı yatan qara-qarlı
Dağlarından aşar olsa,
Tanrı taala aşıt versin.
Qanlı-qanlı gur sulardan
Keçər olsa, keçid versin.
Qalabalıq çağlarında
Kafirlərə girən zaman
Tanrı özü bu oğlana
Dayaq olub fürsət versin.
Sən oğlunu bamsam deyə
Oxşadınsa, bunun adı
Boz ayğırlı Bamsı olsun.
Adını mən verdim, yaşın
Ulu tanrı versin!

Qalın Oğuz ərənləri

Əl götürüb dua qılıb,
Yarəb, bu ad bu oğlana
Qutlu olsun, söylədilər.
Sonra hamı ova mindi.
Boz ayğırın çəkdiribən
Bamsı mindi, nagahandan
Oğuzların qarşısına
Böyük sürü keyik çıxdı.
Bamsı Beyrək birisini
Qovar getdi. Qova-Qova
Bir məhələ gəldi çıxdı.
Nələr gördü?
Göy çayırın üzərində
Qırmızı bir otağ gördü,
Öz-özünə: ”Yarəb, bu ev kimin ola”?
Düşünərək, alacağı ala gözlü
Dilbər qızın olduğundan,
Xəbəri yox. Nə olursa
Olsun, deyə, hələ varıb
Öz ovumu alım-dedi.
Keyigini sınırlərkən
Al otağın qapısına
Ayrış gəldi baxdı, gördü
Bu al otağ beşik kəsmə
Nişanlısı, yavuqlusu
Banıçiçək olağı imiş.
Banıçiçək otağından
Baxır idi, çağırıban belə deyir:
-Dayələrim görünüz bu
Qavat oğlu qavat bizə
Ərlik mi göstərmək, istər?
Varın bundan pay diləyin
Hələ görək nə söyləyir.
Qısırca Yengə deyirlər
Xatın vardır,
İrəli varıb pay dilədi:
Hey, bəy igid, bizə daxı
Bu keyikdən pay ver! -Dedi.
Beyrək aydır:
-Dayə, ovçu deyiləm mən
Bəy oğluyam, hamısı da
Sizin olsun.
Lakin, sormaq eyib olmasın,
Bu al otağ kiminkidir?
-Bəy igidim bu al otaq
Baybican bəy qızı olan
Banıçiçək xanımındır.
Bunu decək Beyrəgin
Qanı qaynar,
Ədəb ilən

Geri dönər.
Qızlar gəlib ovu çəkib
Gözəllərin padişahı
Banıçiçək xidmətinə
Apardılar. Baxdı gördü
Sultan sevdi sığın-səmiz
Keyikdir bu.
Banıçiçək burada söylər:
Mərə qızlar, bu igid necə igitdir?

Qızlar aydır:
-Vallah, xanım bu qoç igid
Üzünə nuqab salmış,
Yaxşı igid, bəy oğlu bəy
Bir igitdir.
-Hey, dayələr babam mənə
Qızım səni nuqab üzlü bir Beyrəgə
Verəcəgəm, söyləyərdi.
Olmaya bu özü ola.
Mərə qaçın xəbərləşin!
Deyə-xanım hökm eylədi.
Çağırdılar. Beyrək gəldi
Baniçiçək yaşmaqlandı
Xəbər sordu:
-Bəy, gəlinin hayandandır?
Beyrək aydır:
-İç Oğuzdan.
-İç Oğuzda kimlərdənsən?
-Bayburabəy oğlu Bamsı Beyrək
Adlı dedikləri mənəm! -Dedi
Qız soruşur:
-Ya!
Nə üçün gəldin igid?
Beyrək aydır:
-Ulu bəyim, Baybicanın
Bir qızı var, onu görmək üçün gəldim.
Qız söyləyir:
-O elə bir adam degil
Özün sənə nişan verə
Və lakin mən bəy qızının
Dayəsiyəm, gəl mən ilən
Ova çıxaq, əgər sənin
Atın, mənim ayğırımı
Keçərisə onun atın
Daxı keçər. Həm sən ilən
Ox atarıq, məni keçsən
Onu daxı, keçəcəksən,
Sonra sənlən güləşərik,
Məni bassan, onu daxı basacaqsan.
Beyrək aydır:

-Xoş, gəl, indi atlanayın.
Hər ikisi atlandılar,
Meydan açıb at təpdilər,
Beyrəgin atı, qızın
Atın keçdi. Ox atdılar
Beyrək, qızın oxun yardı.
Qız söyləyir:
-Mərə igid mən atlanıb
At salarkən, ayğırımı
Keçən at yox. Mən yay çəkib
Ox atarkən, atdığımı
Yaran ox yox. Gəl sən ilən
Gürəş tutaq. Beyrək haman
Atdan yendi, qavraşdılar
Cüt pəhləvan, aslan kimi,
Bir-birinə sarmaşdılar.
Beyrək alıb qızı, yerə
Vurmaq istər, qız, Beyrəgi
Alıb yerə vurmağ istər.
Beyrək öz-özünə aydır:
Bu qız məni basar olsa
Qalın Oğuz ellərində
Bu başıma qaxınc olar.
Həm özümə toxunc olar.
Beyrəgə qeyrət gəldi
Qıvrayıban bağdamasın
Aldı qızın əmcəgindən
Yapışınca qız qucundu.
Sonra qızın incə belin
Qoltuqladı badaq atdı
Arxasını yerə vurdu.
Qız söyləyir:
-Mərə igid, Baybican qızı
Baniçiçək mən özüməm!
Beyrək üç öpdü, bir dişlədi.
-Xan qızı, toyun mübarək!
–Deyə üzüyünü barmağından çıxarıb
Xan qızının barmağına keçirtdi.
Ortamızda bu nişan olsun, -dedi
Qız aydır: A bəy oğlu
Çün belə oldu, indi irəli
Durmaq gərək. Beyrək aydır.
Nola xanım başım üstə.
Beləliklə Beyrək qızdan
Ayrılıban evlərinə
Varıb gəldi. Ağsaqqallı
Bəy babası qarşı çıxdı.
Baba aydır: canım oğul
Söylə görək Oğuz içrə
Dan-danışıq nələr gördün?

-Nə görəyim? Oğlu olan
Evləndirmiş, qızı olan
Köçürmüşdür.
Babası aydır: Bəs sən
Evlənmək istərsən?
-Bəli, bəs nə, əziz baba,
Məni evləndirmək gərək.
Baba aydır: Oğuzlarda
Kimin qızın istəyirsən
Alım sənə. Oğlan aydır:
Baba, mənə bir qız al ki,
Mən yerimdən durmamış
Yerdən dura, mən atıma
Minməmiş o ata minə,
Mən qırıma varmamış
O mənim üçün baş gətirə,
Mənə belənçi qız gərək!
Xan babası Baybura bəy
Yenə aydır: Oğul sən
Qız diləməzsən, özünə
Hamaş istərsən.
Olmaya sən istədigin
Baybicanın aslan qızı
Banıçiçək olmuş ola?!
Beyrək aydır: Ağsaqqallı əziz babam,
Mənim istədigim odur.
Baba aydır: O qızın bir
Dəli Qoçar adlı, dəli
Qardaşı var, kimsə ondan
Qız istəsə, tutar boğar.
Beyrək aydır-elədə bəs nə etməli?
Baybura bəy belə aydır:
-Canım oğul, qalın Oğuz
Bəylərini evimizə çağıralım.
Hər nə onlar səlah bilsə
Ona görə iş edəlim.

Qalın Oğuz bəylərini
Oxudular evlərinə,
Gətirdilər qoyanlayıb
Ağırlayıb danışdılar.
Bəylər hamı ayıtdılar:
-Biz bu qızı istəməgə
Kimi gərək elçi salaq?
Belə səlah gördülər ki,
Dədə Qorqud varıb getsin
Qorqud dədə belə aydır:
-Hey ərənlər, çünkü məni
Göndərirsiz, bilirsiniz ki,
Dəli Qoçar qız qardaşın

İstəyəni tutub boğar.
Barı gedin Bayındır xan
Töyləsindən iki yügrək
At ayırın, biri keçi başlı keçər
Biri toxlu başlı duru.
İşdi, birdən qaçmaq olsa
Qovmaq olsa, birin minim
Birisini yedək çəkim.
Dədə Qorqudun diləgi
Məqbul gəldi. Varıb-gedib
Bayındırxan töyləsində
İstədigi iki atı
Gətirdilər. Qorqud dədə
Birin mindi, birini də
Yedəklədi. Dostlar, sizi
Ulu haqqa ismarladım.
Məgər dostlar Dəli Qoçar
Ağban evin, ağ otağın
Qara yerin üzərinə
Qurdurmuşdu, yar yoldaşı
Dövrəsində oturmuşdu,
Qorqud dədə ötəridən bəri gəldi,
Baş endirdi bağır basdı,
Ağız dildən salam verdi.
Dəli Qoçar qaba azğın
Köpüklədib belə dedi:
Əleykum salam ey əməli azmış,
Feli dönmüş. Qadir Allah
Ağ alnına qada yazmış,
Ayaqlılar bu yerlərə
Gəldigi yox, ağızlılar
Bu suyumdan içdigi yox,
Səni hardan qada tutdu?
Əməlinmi azdı sənin?
Əcəlinmi gəldi sənin?
Buralarda nə gəzirsən?

Qorqud Ata belə aydır
Qarşı yatan qara dağın
Aşmaq üçün gəlmişəm
Axıntılı gur suların
Keçmək üçün gəlmişəm.
Həqq taala buyuruğu
Peyğəmbərin qovlu ilə
Aydan arı, gündən duru
Qız qardaşın Banıçiçəgi
Bamsı Beyrəgə
Diləməyə gəlmişəm.
Qorqud Dədə belə decək
Dəli Qoçar dedi:

-Mərə nə dedigimi yetirin
Qara ayğırı yarağı ilə gətirin
Qara ayğırı yarağı ilə gətirdilər
Dəlicəni mindirdilər. Qorqud Dədə
Köstü, üzdü, durmadı qaçdı.
Dəli Qoçar dalısınca
At saldı. Toxlu-başlı
Duru ayğır yoruldu, dildən düşdü,
Qorqud Ata keçi başlı
Keçər ata sıçradı
Dəli Qoçar zavallını
Qova-qova on yelək yer
Aşırıban yaxaladı.
Dədə özün itirərək
Ulu tanrıya sığındı.
İsmi əzəm oxuyuban
Durdu baxdı. Dəli Qoçar
Əl qılınca həmlə qıldı
İstədi ki, daldan çala,
Qorqud aydır:
Çalar olsan qollarını
Haqq qurutsun!
Haqq taalanın
Əmri ilə dəli bəyin
Əli-qolu quruyuban
Asılı qaldı.
Dədə Qorqud zəmanənin
”Vəli”si idi, dilədigi
Qəbul oldu. Dəli Qoçar aydır:
Dədə, aman, haqq Tanrının
Birliginə yoxdur güman,
Kərəm eylə, sən əlimi sağlat gilən
Mən tanrımın buyruğu,
Peyğəmbərin qovlu ilən
Qızqardaşımı Beyrəgə
Verər ollam. Üç yol təkrar
Ağzı ilə iqrar edib
Günahından tövbə qıldı.
Qorqud Dədə dua edib
Ulu haqqın əmri ilən
Dəli bəyin əli-qolu
Sap-sağ oldu. Dönüb aydır:
Qızqardaşımın yolunda
Nə istəsəm verərsənmi?
Dədə aydır: Verərəm əlbət,
Söylə görüm nə istərsən?
Dəli aydır: Min boğra gətirərsiz ki,
Mayaya çatmamış ola,
Min də ayğır gətirərsiz
Qısrağa aşmamış ola.

Min daxı qoç gətirərsiz
Qoyuna minməmiş ola.
Min daxı da quyruğu
Qulağı yox, köpək gərək
Min dana da birə gərək.
Bu dedigim nəsnələri
Gətirsəniz, xoş gəlibsizş
Gətirməsiz bu qatla öldürmədimsə
Onda səni öldürəyim!

Qorqud Dədə Bayburanın
Odasına dönüb gəldi
Bəybura bəy aydır: -Dədə,
Oğlanmısan ya qızmısan?
Dədə söylədi: Oğlanam
-Onda söylə Dəli Qoçar əlindən sən
Necə can qurtara bildin?
Haqq tanrının inayəti
Ərənlərin himməti oldu
Vardım qızı aldım,-dedi.
Beyrəgə və anasına, yeddicə qız qardaşına
Muştuluqçu göndərdilər.
Sevindilər, şad oldular.
Baybura bəy yenə sordu:
-Söylə görək Dəli Qoçar
Nə istədi? Dədə aydır:
-Yarımasın, yarçımasın,
Dəli Qoçar elə bir mal
İstədi ki, heç bitməsin!
Baybura bəy: -Hələ söylə
Nə istədi? Dədə aydır:
-Min dana ayğır istəmiş
Qısrağa aşmamış ola.
Min daxı buğra istəmiş
Kim maya görməmiş ola.
Min dana qoç istəmiş,
Kim qoyun görməmiş ola.
Min də quyruqsuz-qulaqsız
İt istəmiş
Min dana da qara-qara
Birə istəmiş.
Bu nəsənələri gətirsən
Qız qardaşımı verərəm
Gətirməzsən daha burada görünmə,
Yoxsa səni öldürərəm.
Baybura bəy yenə aydır:
-Dədə, üçün mən taparsam
İkisini sən taparsan?
Dədə aydır: -Bəli, bəyim
Mən ikisini taparam.

Baybura bəy: -İndi dədə
Köpəklərlə birələri sən tap, -dedi.
Özü isə töylə-töylə atlarından
Min dana ayğır ayırdı
Dəvələrə varıb gəldi
Min daxı dəvə ayırdı.
Qoyunlara varıb gəlib
Min daxı qoyun ayırdı.
Dədə Qorqud min quyruqsuz-qulaqsız
İt, min dana da birə tapdı.
Bunları alıb birlikdə
Dəli Qoçara gətirdi.
Dəli Qoçar xəbər tapıb
Qarşı gəldi və söylədi:
-Baxaq görək dediklərimi gətirdin?
Ayğırları görcək bəyəndi.
Dəvələri gördü bəyəndi,
Qoçlara baxdı bəyəndi,
Köpəklərə gözü düşcək
Qas-qas güldü,
Birələri görməyincə, -dedi:
Dədə, hanı mənim birələrim?
Dədə aydır: -Oğul Qoçar
O bir yavuz canavardır
Bircə yerdə ilişib durur,
Gəl gedəlim səmizin al,
Arığın qoy. Sonra da
Alıb dəlini bir-birəli yerə gətdi,
Dəli bəyi soyundurub birəlikə
İtələdi. Birəciklər
Dəli bəyə daraşdılar.
Gördü əlindən iş gəlməz,
Haray çəkdi: -Aman dədə
Kərəm eylə, tanrı taala eşqi üçün
Qapını aç, məni çıxart.
Dədə aydır: -Oğul Qoçar
Niyə qarqış söyləyirsən?
İsmarladığın nəsənədir,
Nə oldu belə büküldün,
Səmizin al arığın qoy!
Qoçar aydır: Dədə mədəd
Sultan tanrı özü bunun
Səmizin də, arığın da
Yox eyləsin. Fəqət məni
Qapını aç burdan çıxart.
Baxdı gördü dəli bəyin
Birələr canına geçmiş
Başı-götü görünməzdir,
Üzü-gözü bilinməzdir.
Dədəyə iltimas etdi: -Dədə məni

Tanrı taala eşqi üçün,
Bu bəladan qurtar, -dedi.
Dədə aydır: Oğul Qoçar,
Qaç özünü suya yetir
Dəli qaçdı suya girdi,
Birələri su apardı.
Qoçar gəldi qeyimin geydi.
Ağır toy yarağın gördü.

Oğuzların zamanında
Hər igid kim evlənsə idi,
Ox atardı, oxu haraya düşsə idi
Orda gərdəgin qurardı.
Beyrək daxı oxun atdı
Düşərində gərdək tikdi.
Adaxlıdan ərgənlik
Bir qırmızı xəftan gəldi.
Bəy geydi. Yoldaşları
Bunu görüb səxt oldular
Beyrək aydır: -Dostlar,
Nədən səxt oldunuz?
Ayıtdılar: Necə olar
Səxt olmayaq?
Sən qırmızı xəftan geyirsən
Bizlər ağ xəftan geyirik.
Beyrək aydır: Bundan sarı
Siz nə üçün səxt olursuz?
Bu gün onu mən geyirəm
Yarın gün nayıbım geyir
Qırx günədək sıra vardı
Geyirsiniz sonra isə
Bir dərvişə bağışlarıq.
Qırx igidilən yeyib-içib
Otururdu. Yarımasın
Yarçımasın kafərin
Casusları bunu görüb
Casusladı, varıb
Bayburd hasarının
Təkuruna xəbər verdi:
-Sultanım, sən nə arxayın
Oturmuşsan, Baybican
Əvvəl sənə verəcəyi qızı
Götürüb Beyrəgə verdi
Bu gecə gərdəgə girir.

Bamsı Beyrək ap-alaca
İçrə, yeyib-içib oturduqda
Yarımasın, yarçımasın o məlunun
Əmri ilə yeddi yüz kafər ılğadı
Gecəligə Beyrəgin

Yataqda başı üstün aldı
Nayıb qılıncın siyirdi ələ aldı:
Mənim başım Beyrəgin
Başı üçün qurban olsun
İgid nayıb yaralanıb şəhid oldu.
Dərin olsa batırır,
Qalabalıq qorxudur
At işlər ər öyünər
Yayan ərin umudu olmaz.
Otuz doqquz igidi ilə
Bamsı Beyrək dustaq getdi.
Dan söküldü günəş doğdu
Beyrəgin anası və atası
Baxdılar kim gərdəkdə yoxdur.
Ah etdilər, ağılları başdan getdi,
Gördülər ki, uçarlardan
Quzğun qalmış, yürürlərdən
Tazı qalmış. Nayıb isə
Şəhid olmuş. Bəy babası
Sarığını götürübən
Yerə çaldı dartdı
Yaxasını yırtdı.
Oğul-oğul söyləyibən
Qan yaş tökdü, zarlıq qıldı.
Ağ birçəkli anası da
Bildir-bildir gözlərindən
Yaşın tökdü, acı dırnaq
Ağ üzünə aldı, çaldı.
Al yanağın dartdı, yırtdı.
Qarğı kimi qara saçın
Yoldu tökdü, ağlayıban
Sızlayıban evə gəldi.
Bayburanın altunluca
Ban evinə şivən düşdü.
Qızı gəlini gülməz oldu,
Qızıl həna ağ əllərə yaxmaz oldu.
Yeddicə baş qız qardaşı
Ağ çıxarıb qara geydi.
Vay can qardaş-muradına,
Məqsuduna çatanmayan
Yalqız qardaş, deyə, hamı
Ağlaşdılar, bozlaşdılar.
Beyrəgin nişanlısı Banıçiçək
Xəbər tapdı, ağ xəftanını çıxarıb
Qara geydi, güz alması
Al yanağın dartdı-yırtdı:
Al duvağım, yiyəsi vay
Alnım başım umudu vay,
Şah iyidim, bəy iyidim,
Doyunca üzün görmədigim,

Hara getdin, mən yazığı
Yalqız qoydun, canım igid,
Göz açıban gördüyüm,
Könül verib sevdigim,
Bir yastığa baş qoyduğum
Yoluna qurban olduğum,
Vay, xan Qazanın ınağı,
Qalın Oğuzun dayağı
Deyə zarı-zarı ağladı.

Bu xəbəri – Qıyan Səlcuq oğlu
Dondar, eşidincə ağ çıxartdı
Qara geydi, Beyrəgin yar-yoldaşı
Ağ çıxarıb qaralara büründülər
Qalın Oğuz ərənləri
Beyrək üçün əzəmətli
Yas tutdular. Ümid üzüb oturdular.
Ay dolandı, il dolandı,
Bunun üstən on altı il gəldi keçti,
Beyrəgin ölüsünü
Dirisini bilmədilər.
Bir gün qızın qarındaşı
Dəli Qoçar bayındırxan
Divanına vardı gəldi:
Ulu xanın ömrü-günü
Uzun olsun, Bamsı Beyrək
Diri olsaydı on altı il
Müddətində qayıdar idi.
Bir ər olsa varıb getsə
Beyrəkdən xəbər tutsa
Diri xəbərin gətirsə
Altun ağca bağışlaram.
Ölü xəbərin gətirsə,
Qız qardaşımı ona verərəm.
Dəli Qoçar belə decək
Yarımasın yarçımasın
Yalançı oğlu Yalncıq var
Qalxıb aydır:
- Sultanım mən varıb-gedib
Ölüsünü dirisini
Bilib gəlləm.
Məgər Beyrək geçmişlərdə
Ona bir köynək vermişdi,
Geyməz idi, saxlayardı.
Çıxıb getdi o köynəgi
Qana-quna bulaşdırdı
Dönüb gəldi Bayındırxan
Qarşısına buraxdı.
Bayındırxan baxıb sordu:
-Mərə, bu hansı köynəkdir?

-Beyrək Qara Dərbənddə öldürülmüş
Bu da nişanı sultanım.
Beyrəgin köynəgini
Bəylər görcək hökür-hökür
Ağladılar, bozladılar.
Bayındırxan aydır:
-Mərə, Niyə ağlayırsız?
Biz ki, bunu tanımırıq
Aparınız adaxlısı
Baxsın görsün, çün köynəgi
Özü tikib o tanıyar.

Apardılar qız cığaza
Göstərdilər. Banıçiçək
Köynəgi gördü tanıdı.
Yaxasını dartdı yırtdı,
Acı dırnaq ağ üzünə aldı, caldı.
Güz alması yanaqların çəkdi, cırdı:
-Vay göz açıb gördüyüm
Könül verib sevdigim.
Vay al duvağım yiyəsi
Vay alnım-başım umudu.

Babasına anasına
Xəbər oldu, Alp-Alaca
Ordusuna şivən düşdü
El obası ağ cıxardı
Qara geydi, Qalın Oğuz ərənləri
Beyrəkden əl üzdülər.
Yalançı oğlu Yalancıq
Kiçik toyunu eyləyib
Ulu toya vədə qoydu.
Beyrəgin xan babası
Baybura bəy bəzirganları
Çağırıb belə aydır:
-Mərə bəzirganlar gedin
İqlimləri siz arayın
Beyrəgin ölüsü-dirisi
Xəbərini, bilib gəlin.
Bəzirganlar yaraq görüb
Gecə-gündüz yürüdülər.
Nagahandan Parasarın
Bayburd adlı qalasına
Yetişdilər. Məgər o gün
Kafirlərin bayramı idi.
Hər birisi yeməkdəydi
İçməkdəydi. Beyrəgi daxı
Gətirib qopuz çaldırırdılar.
Beyrək uca çardağ üstən
Baxıb onları gördükdə

Xəbərləşdi baxalım nə xəbərləşdi:
-Alan alçaq hava yerdən
Gələn arğış. Bəy babamın
Qadın anamın soğatı arğış.
Ayağı uzun şahbaz ata
Minən arğış, önüm anla
Sözüm dinlə, Qalın Oğuz ellərində
Ulaş oğlu salur Qazanı
Sorar olsam, sağmı arğış?
Qıyan Səlcuq oğlu Dondar
Sorar olsam sağmı arğış?
Ağ saqqallı qoca babam
Ağ birçəkli xatın anam
Sorar olsam sağmı arğış?
Göz açıban gördügüm
Könül verib sevdigim
Baybican qızı Banıçiçək
Evdəmi ya gordamı arğış?
Kərəm eylə degil mənə,
Qara başım qurban olsun
Arğış sənə!
Bəzirganlar belə aydır:
-Sağmısan, əsənmisən
Canım Bamsı! Qalın Oğuz içində
Qazan bəyi sorar olsan
Sağdır Bamsı,
Qıyan Səlcuq oğlu Dondar
Sağdır Bamsı,
Qaragünə oğlu Budaq
Sağdır Bamsı,
Bütün bəylər ağ çıxarıb
Qara geydi, sənin üçün.
Ağ saqqallı qoca baban
Ağ birçəkli qarı anan
Sağdır Bamsı.
Ağ çıxarıb qara geydi
Sənin üçün yeddi dana
Qız qardaşın, yeddi yolun
Ayrıcında, ağlar gördüm.
Güz alması yanaqların
Yırtar gördüm,
Vardı gəlməz qardaş deyib
Ağlar gördüm, canım Bamsı.
Göz açıban gördügün
Könül verib sevdigin
Baybican qızı Banı Çıçək
Kiçik dügünü eylədi,
Böyük toya vədə qoydu
Yalançı oğlu Yalancığa
Gedər olmuş, ağam Bamsı.

Parasarın Bayburd hasarından
Uçarsan, ap-alaca gərdəginə gələrsən
Gəlməz olsan ,Baybican qızı
Banı Çiçəyi aldırdın, bəlli bilgil!

Beyrək qalxdı, göz yaşını tökə-tökə
Otuz doqquz igidinə
Yanaşaraq, alıb qaba
Sarığını yerə çaldı, -belə dedi:
-Hey, qırx eşim, qırx yoldaşım
Bilirmisiz nələr oldu?
Yalançı oğlu Yalancıq
Məndən şum xəbər aparmış
Bəy babamın gecəligi
Altunluca ban evinə
Şivən düşmüş, qaza bənzər
Qız-gəlini, ağ çıxarıb
Qara geymiş, göz açıban gördügüm
Könül verib sevdigim
Banıçiçək yalançı oğlu
Yalıncığa gedər olmuş.
Belə decək, igitləri
Hamı qaba sarıqların
Götürüb yerə çaldılar
Hökür-hökür ağlaşdılar.
Məgər kafər Təkurun
Bir qızı var Beyrəgə
Könül vermiş, hər gün
Onu görmək üçün gəlir iydi.
O, gün daxı yenə gəldi.
Gördü Beyrək kədərlidir
Qız aydır: -Xan igidim,
Nə olubdur səxt olmusan?
Gəldigimdə hər gün səni
Şən görərdim, deyib-gülüb
Oynayardın, indi sənə nə olubdur?
Beyrək aydır: -Necə olur
Səxt olmayım?
On altı ildir kim babanın dustağıyam,
Ata-ana qohum-qardaş
El üzünə həsrətəm mən.
Həm də ki, bir qara gözlü
Nişanlım var, yalançı oğlu
Yalancıq adlı bir kişi
Mənim ölüm xəbərimi yaymış,
Qızı ona veriblərmiş.
Belə decək Beyrəyi aşıqlamış
Kafir qızı aydır: Əgər səni
Örkən ilən bu hasardan
Aşağıya salar olsam,

Sağlıq ilən atan-anan
Yanına sən gedər olsan,
Gəlib burada halallıqla
Mən cığazı alırsanmı?
Bamsı Beyrək and içdi:
Qılıncıma doğranayım
Öz oxuma sancılayım
Yer kimi çatlıyalım
Torpaq kimi savrulayım
Sağlığ ilə varar olsam,
Mən Oğuza, gəlib səni
Halallıqla almaz olsam.

Qız gedib örkən gətirib
Beyrəgi aşağa saldırdı.
Beyrək aşağa baxdı
Özün yer üzündə gördü
Allaha şükr eyiləyib
Yola düşdü, kafərlərin
Ilxisina gəldi çıxdı.
-Bəlkə bir at tutub minim
Deyə, baxdı öz ayğırın gördü.
Ayğırsa Beyrəgi görüb
Tez tanıdı, iki ayağı
Üstə durub şihə çəkdi,
Beyrək daxı atı öymüş,
Görək, xanım, necə öymüş:
Açıq-açıq meydanlara
Bənzər sənin alıncığın
İki qoşa şəbçırağa
Bənzər sənin gözciyəzin
Əbrişəmə bənzər sənin yalcığazın.
Qoşa-qoşa cüt qardaşa
Bənzər sənin qulaqların
Murad verər, mətləb verər
Ərə sənin arxacığın.
At deyil sən qardaşsan sən,
Qardaşımdan iyi atım,
Yoldaşımdan iyi atım.
At başın yuxarı tutdu
Bir qulağını qaldırdı
Beyrəgə qarşı gəldi.
Beyrək atın boynun qucub
İki gözün öpə-öpə
Arxasına sıçradı
Hasar qapısına gəldi
Otuz doqquz yoldaşını
İsmarladı. Görək necə ismarladı:
Mərə, sası dinli kafər
Mənim ağzım söyüb durdun

Eşidibən duyanmadım.
Qara donuz yıxnısından
Yemək verdin doyanmadım.
Tanrı mənə mədəd verdi
Gedər oldum mərə kafər,
Otuz doqquz mərd igidim
Əmanəti mərə kafər,
Bircəcigi əskik olsa
Yerinə onun öldürərəm,
On nəfəri əskik olsa
Yerinə yüzün öldürərəm,
Otuz doqquz mərd iyidim
Əmanəti mərə kafər.

Qırx nəfər kafər atlandı,
Beyrəgin ardına düşdü.
Qova-qova at saldılar,
Çatanmayıb qayıtdılar.
Beyrək Oğuzlara çatdı,
Gördü ki, bir ozan gedir
Beyrək aydır: -Mərə ozan
Sən haraya gedir iysən?
Ozan aydır: -Bəyim igit,
Toy-düyünə. Beyrək aydır:
-Düyün kimin düyünüdür?
Ozan aydır:- Yalançı oğlu
Yalancığın. Beyrək aydır:
-Mərə kimin nəsin alır?
Ozan aydır: Xan Beyrəgin
Adaxlısın alar olmuş.
Beyrək aydır: Mərə ozan,
Qopuzunu mənə vergil,
Bu ayğırı verim sənə
Saxla, bahasını
Gətirərəm geri allam.
Ozan aydır:-Avazim güdəlmədən
Səsim yoxalmadan bir atdır
Əlimə düşüb yeyələnib
Saxlayalım. Qopuzunu
Beyrəgə verdi Beyrək aldı
Babasının ordusuna
Yaxın gəldi. Baxdı gördü
Neçə çoban yolu kəsib
Ağlaşırlar, oturmayıb
Daş yığırlar. Beyrək aydır
-Hey çobanlar, bir kişi
Yolda daş görsə
Yabana atar, siz nə üçün
Yol üstünə daş yığırsız?
Çobanlar cavab verdilər:

-Mərə bizim halımızı
Dərdimizi nə bilirsən?
-Mərə sizin nə halız var?
-Bəyimizin bir oğlu var
On altı ildir ölüsündən
Dirisindən, heç kimsənin
Xəbəri yox. Ancaq indi
Yalançı oğlu Yalancıq
Onun ölüm xəbərini gətiribdir,
Adaxlısın Yalıncığa veribləmiş
Gəlib burdan keçəcəkdir,
Biz bu daşları yığırıq
Onu vuraq çıxıb getsin,
Öz tay-tuşun tapıb alsın
Beyrək aydır: Üzünüz ağ olsun sizin
Ağanızın duz-çörəyi görüm halal olsun sizə.
Ordan ötüb babasının
Ordusuna gəlib çıxdı.
Evlərinin önündə bir
Böyük ağac boy atmışdı.
Bu ağacın dibində bir
Yaxşı bulaq qaynayırdı.
Beyrək baxdı gördü kiçik
Qız qardaşı bu bulaqdan
Su almağa gəlir, lakin,
Qardaş Beyrək, toy-dügünün
Qara oldu, deyə ağlar, bozlar.
Beyrək qatı qəhərləndi,
Qatlaşmadı göz yaşları
Bildir-bildir yanağına
Ravan oldu, çağırıban belə dedi:
-Mərə ay qız ağa deyib
Nə bozlarsan, nə sızlarsan?
Bağrım yandı, alovlandı,
Söylə, məgər sənin ağan
Yox olubdur? Ürəginə
Qaynar dağlar qoyulubdur?
Qara bağrın sarsılıbdır.
Ağa deyə nə ağlarsan, nə bozlarsan?
Bağrım yandı, alovlandı.
Qarşı yatan qara dağı
Sorar olsam yaylaq kimin?
Soyuq-soyuq sularını
Sorar olsam, içit kimin?
Töylə- töylə şahbaz atlar
Sorar olsam, minit kimin?
Qatar-qatar dəvələri
Sorar olsam, yükələt kimin?
Ağayılda ağca qoyun
Sorar olsam, şülən kimin?

Qaralı-göylü otaqları
Sorar olsam, kölgə kimin?
A qız kişi ağız dildən xəbər mənə,
Qara başım qurban olsun bu gün sənə.
Qız aydır: -Çalma ozan,
Ayıtma ozan, mənim kimi
Yaslı qızın nəsinə gərək?
Qarşı yatan qara dağları
Sorar olsan, ağam Beyrəgin yaylasıdır,
Ağam Beyrək gedəli, yaylağım yox.
Soyuq-soyuq sularını
Sorar olsan, ağam Beyrəgin içididir,
Ağam Beyrək gedəli, içərim yox,
Töylə-töylə şahbaz atları
Sorar olsan, ağam Beyrəgin minididir,
Ağam Beyrək gedəli, minərim yox.
Qatar-qatar dəvələri
Sorar olsan ağam, Beyrəgin yüklətidir,
Ağam Beyrək gedəli, yüklətim yox.
Ağayılda ağca qoyunu
Sorar olsan, ağam Beyrəgin şülənidir,
Ağam Beyrək gedəli ,şülənim yox.
Qaralı-göylü otaqları
Sorar olsan, ağam Beyrəgin köçətidir,
Ağam Beyrək gedən gündən köçərim yox.

Qız bir daha aydır:
-Mərə ozan, qarşı yatan
Qara dağdan aşdığında
Gəldigində keçdigində
Beyrək adlı bir igidə ulaşdınmı?
Daşğın-daşğın sular aşıb
Gəldigində keçdigində
Beyrək adlı bir igid ilə buluşdunmu?
Ağır adlı şəhərlərdən
Gəldigində keçdigində
Beyrək adlı bir igid ilə görüşdünmü?
Mərə ozan gördün isə degil mənə
Qara başım qurban olsun, ozan, sənə!

Qız yenədə aydır:
-Qarşı yatan dağım yıxılıbdır,
Ozan, sənin xəbərin yox!
Kölgəlicə qaba ağacım kəsilibdir,
Ozan, sənin xəbərin yox!
Dünyalıqda bir qardaşım alınıbdır,
Ozan, sənin xəbərin yox!
Çalma, ozan, ayıtma, ozan,
Qaralıca mən qızın nəsinə gərək.
Eldə-gündə toy-dügün var

Toy-dügünə var-get, ozan!

Beyrək bundan sovuşuban
Ulu qızlar yanına gəldi,
Baxdı gördü qız qardaşlar
Qara geyib otrublar.
Çağırıban Beyrək söylər,
Baxalım, xanım, nə söylər:

Alan sabah yerlərindən duran qızlar,
Ağ otağı buraxıban ,qara otağa girən qızlar,
Ağ çıxarıb, qara donlar geyən qızlar.
Bağır kimi mayalanan yoğurtdan nə var?
Qara sac altında köməcdən nə var?
Kəndrükdə ətməkdən nə var?
Üç gündür yoldan gəlmişəm, doyurun məni,
Üç günətək sevindirsin allah sizi.
Qızlar varıb yemək-içmək
Gətirdilər, Beyrəgi doyurdular.
Beyrək aydır:- Ağanızın
Başı-gözü sədəğəsi
Kör-köhnə xəftanız varsa
Mənə verin, toy-dügündə
Əlimə xəftan verirlər
Xəftanızı qaytarıram.
Qızlar vardı, Beyrəgin
Xəftanı varmış, gətirdilər,
Aldı geydi, boyu-boyuna,
Qolu-qoluna, beli-belinə
Düm düz gəldi. Böyük bacı
Bu ozanı qarındaşına
Bənzətdi. Qara qıyma
Gözlərinə yaş doldu,
Döndü burada söyləmiş:
-Qara qıyma ala gözlər sönməsəydi,
Ağam Beyrək deyər idim, ozan sənə,
Üzünü tük çurqalayıb, örtməsəydi,
Ağam Beyrək deyər idim, ozan sənə,
Sağlam-sağlam biləklərin solmasayıdı,
Ağam Beyrək deyər idim, ozan sənə,
Aslan kimi duruşundan,
Apul-apul yürüşündən,
Qanırılıban baxışından
İtgin ağam Beyrəgə bənzədirəm, ozan Səni!
Sevindirdin, yerindirmə, ozan məni.
Qız bir daxı söyləmiş!
-Ağam Beyrək gedən gündən
Bizə ozan gəldigi yox,
Əgnimizdən xəftanımız
Aldığı yox, başımızdan

Gecəligi aldığı yox,
Buynuzu burma qoçlarımız
Aldığı yox.
Bamsı Beyrək öz-özünə
Düşündü kim: Baxırsanmı
Qızlar məni bu xəftanla tanıdılar,
Qalın Oğuz bəyləri də tanıyarlar.
Gərək Görüm Oğuzlarda mənə dost kim,
Düşman kimdir. Xəftanı başdan siyirdi,
Qızların üstünə atdı:
-Nə siz, nə də Beyrək qalsın,
Bir köhnə xəftan verdiniz,
Baş-beynimi apardınız.
Deyə, qalxıb yola düşdü,
Yol üstə bir əldən düşmüş
Çuval tapıb dəldi boynuna keçirdi
Özün vurub dəliligə,
Gəldi çıxdı toy yerinə.

Baxdı gördü kürəkən
Ox atmaqdadır. Qaragünə
Oğlu Budaq, Qazan bəyin
Oğlu Uruz, bəylər başı
İgit Yegnək, Qəflət Qoca oğlu
Şəmsəddin, həlalının qarındaşı
Dəli Qoçar yığılıblar, ox atırlar.
Beyrək baxıb Budaq atsa,
Sağ ol! Söylər,
Uruz atsa var ol! Deyər,
Yegnək atsa, sağ ol! Deyər,
Qəflət Qoca oğlu atsa, var ol! Deyər,
Köykü atsa, əlin-qolun
Qurusun, barmaqların
Çürüsün, köykülərə gələn qada
Sənə gəlsin, donuz oğlu donuz! Söylər,
Yalançı oğlu Yalancığın
Acığı tutdu, belə aydır:
-Mərə qavat oğlu qavat,
Bax sən dəliyə yaraşar
Mənə belə yava sözlər söyləyəsən?
Mərə qavat tez ol mənim
Yayımı çək! Çəkməz olsan
İndi burda boynun vuram.
Belə decək Beyrək yayı alıb
Çəkdi, yay qəbzədən paralandı,
Paraları Yalıncığın üzərinə
Tolazladı: Dan yerində
Torağayı vurmaq üçün
Dərdə dəyər. Yalançı oğlu
Yalancıq yayın paralanmasından

Qəzəbləndi:-Mərə varın
Beyrəgin yayın gətirin!
Gedib yayı gətirdilər.
Beyrək yayı gördügündə
Yoldaşların yada sadı,
Çox ağlayıb belə aydır:
-Ayğır verib aldığım
Qatı yayım, buğa verib
Aldığım yay kirişim,
Bükülü yerdə qoydum gəldim
Otuz doqquz yoldaşım.
Sonra Beyrək dönüb aydır:
-Bəylər, sizin eşqinizə
Çəkim yayı, atım oxu,
Məgər hamı kürəkənin
Üzügünü nışan qoyub
Atardılar. Beyrək isə
İlk oxuyla Yalancıqın
Üzügünü pərəm-pərəm paraladı.
Qalın Oğuz ərənləri
Bunu görcək əl çaldılar, gülüşdülər.
Qazan bəy uzaqdan durub
Bu işləri seyr edirdi.
O Beyrəgi çağırtdırdı,
Dəli ozan çıxıb gəldi
Baş əndirdi, bağır basdı,
Salam verdi, belə söylədi:
Alan sabah səfa yerdə tikiləndə, ağban evli
Ətləs ilə yapılanda, göy seyvanlı
Töylə-töylə çəkiləndə şahbaz atlı
Çağırıban dad verəndə, bol çavuşlu
Yayxananda yağ tökülən, bol nemətli
Qalmış igit arxası
Bezə miskin umdu
Bayandır xanın köygüsü
Tülü quşun yavrusu
Türküstanın dirəyi
Amıt soyunun aslanı,
Qara çuğun qaplanı,
Qonur atın yiyəsi,
Xan Uruzun babası,
Salur Qazan!
Önüm anla, sözüm dinlə,
Alan sabah durmuşsan
Ağ ormana girmişsən
Ağqovağın budağından
Yırğayıban qırmışsan
Canbacığın əymişsən
Ox cığazın qurmuşsan
Adın gərdək qoymuşsan.

Sağda oturan sağ bəylər
Solda oturan sol bəylər
Eşikdəki ınaqlar
Ortada oturan xas bəylər,
Toy-düyünüz mübarək.

Belə decək, Qazan aydır:
-Dəli ozan, dilə məndən nə dilərsən,
Çətirli otaq istərsən,
Qul-qaravaş istərsən,
Ya altun-axca istərsən?
Hər nə istərsən verərəm.

Beyrək aydır: -Sultanım bəy,
Məni qoysan şülən yeməginə varsam,
Qarnım acdır, doyursam.
Qazan aydır: -Dəli ozan,
Dövlətin basdı. Bəylər,
Bu günkü bəyligim bunun olsun,
Qoyun hara getsə, getsin,
Nə eyləyirsə eləsin.
Beyrək yemək şüləninə sarı gəldi,
Qarnın doyurduqdan sonra
Döndü qazanları təpdi,
Tökdü, yıxdı kimin sağa
Kimin sola, vurdu atdı,
Sağ gedəni sağa aldı
Sol gedəni sola çatdı,
Haqlilar haqqına çatdı,
Haqsızlar üz qarasına.
Qazan bəyə xəbər oldu:
-Sultanım xan, dəli ozan
Yeməkləri təpdi, tökdü, qarışdırdı.
İndi qızlar məclisinə varmaq istir,
Qazan aydır: mərə, hara varmaq istər,
Qoyun varsın.
Beyrək qalxdı, qızların yanına gəldi,
Zurna çalanları qovdu,
Nağaraçıları vurdu,
Kimin döydü, kimisinin başın yardı,
Otağa yaxın oturdu.
Boyu uzun Burla Xatın
Bunu görüncə qaqqıldır:
Aydır: Mərə, dəli Qavat,
Söylə, sənin həddin nə dir,
İcazəsiz mən olduğum
Yerdə gəlib oturasan?
Beyrək aydır:- Xanım, mənə
Qazan bəydən buyuruq oldu,
Kimsə mənə dolaşmaz.

Xatın aydır: -Mərə, çünkü
Qazan bəydən buyruq oldu
Qoy otursun. Nə istəyirsən, deyə soruşdu.
Beyrək aydır:-Xanım, məqsudum
O, dur ki, qopuz çalım,
Ərə varan qız oynasın.
Qısırca yengə adında bir
Xatın var. Dedilər: yengə,
Dur oyna. Dəli ozandı nə bilir?
Qısırca yengə doğruldu:
-Mərə ozan, ərə varan qız
Özüməm, çal oynayım.
Beyrək qopuza əl qoydu
Belə dedi: And içmişəm,
Qısırına mindigim yox,
Qaravaşa vardığım yox,
Öküz ardında sarvanlar sənə baxar,
Bildir-bildir gözlərinin yaşı axar.
Sən onların yanına var,
Muradını onlardan al,
Səninlə mənim işim yox.
Ərə varan qız qalxsın,
Mən qopuz çalım, oynasın.
Yengə aydır: Bu zavala gəlmiş dəli
Məni görmüş kimi söylər.
Vardı yerində oturdu.
Boğazca Fatma deyirlər
Bir xatın var, ona dedilər:
Dur, oyna. Qızın xəftanını geydi:
-Mərə ozan, çal oynayım,
Ərə varan qız özüməm.
Beyrək aydır: -And içirəm
Bu gəzboğaz qısırğaya
Mindigim yox, qaravaşa vardığım yox,
Evinizin ardı dərəcik deyilmi?
İtinizin adı Pəraq deyilmi?
Sənin adın qırx oynaşlı boğazca Fatma deyilmi?
Daxı eybini açaram, bəlli bilgil,
Səninlə mənim oyunum yox,
Var yerinə oturgil,
Ərə varan qız gərəkdir
Yerdən dura qopuz çalam
Qol salıban oynaya.
Belə decək boğazca fatma
Belə aydır: - Buy, bu dəli
Boğma çıxaracaq qədər
Eybimizin üstün açdı.
Özün dur qız, oynayırsan
Oyna gilən, oynamazsan
Cəhənnəmdə oyna gilən.

Beyrəkdən sonra biz sənin
Belə olduğunu bilirdik.
Burla Xatın burada demiş:
Qız, qalx oyna, əldən nə gəlir?
Banıçiçək qırmızı
Xəftanın geydi
Əllərini yengisində gizlədərək
Oyuna girdi: Mərə ozan
Çal qopuzunu, söylədi.
Beyrək aydır: -Mən bu yerdən
Gedəli dəli olmuş,
Ağca-ağca qarlar yağmış
Dizə çatmış, xan qızının
Obasında, qul-qaravaş
Tükənmiş, küzə almış
Suya varmış, biləgindən
On barmağın soyuq almış,
Qızıl altun gətirin
Xan qızına dırnaq yonun!
Eybəcər xan qızına
Ərə getmək eyb olur.
Bunu eşitcək Banıçiçək
Qaqıdı: -Dəli ozan,
Mərə mən eybliyəm
Mənə eyb qoşarsanmı?
Gümüş kimi ağ biləgin
Çıxardaraq əlin açdı,
Beyrəgin barmağına keçirdigi
Altun üzük göründü.
Beyrək üzügü tanıdı,
Dönüb burada söyləmiş
Görək, xanım, nə söyləmiş:
-Beyrək gedəli gündən sən
Bam-bam təpə başlarına
Çıxdınmı qız?
Qamarlanıb dörd yanına
Baxdınmı qız?
Qarğı kimi qara saçın
Yoldunmu qız?
Qara gözdən acı yaşı
Tökdünmü qız?
Alma kimi al yanağın
Dırnaqlayıb yırtdınmı qız?
Qız, sən ki ərə varırsan,
Qızıl üzük mənimkidir
Çıxarıban qaytar mənə!
Burada qız belə aydır:
-Beyrək gedəli bam-bam təpə
Başlarına çıxdığım çox,
Qamarlanıb dörd yanıma

Baxdığım çox,
Qarğı kimi qara saçım
Yolduğum çox,
Alma kimi al yanağım
Yırtdığım çox,
Hər gələndən hər gedəndən
Xəbərləşib sorduğum çox,
Vardı gəlməz bəy igidim,
Xan igidim Beyrəgim,
Acı yaşı qara gözdən
Tökdüyüm çox.
Sevişdigim Bamsı Beyrək
Sən deyilsən, altun üzük
Sənin deyil, bu üzükdə
Çox nişan var,
Altun üzügü istər isən
Nişanəsin söylə, ozan.
Beyrək aydır: -Alan sabah
Xan qızı mən yerimdən
Durmadımmı?
Boz ayğırın belinə mən
Minmədimmi?
Sənin evin üzərinə
Sığın keyik
Yığmadımmı?
Sən məni öz yanına
Çağırmadınmı?
Səninlə meydanda
At çapmadıqmı?
Mənim atım sənin atını
Keçmədimi?
Ox atanda mənim oxum
Sənin oxun yarmadımı?
Güləşəndə qız mən səni
Basmarlayıb yıxmadımmı?
Üç öpüb, bir dişləyib
Altun üzük barmağına
Taxmadımmı?
Sevişdigin Bamsı Beyrək
Degiləmmi?
Böylə decək qız tanıdı,
Bildi kim Beyrək özüdür
Cübbəsilə, çuxasıyla
Beyrəgin ayağın öpdü.
Dayələrə hökm qıldı, Beyrəgə
Xəftan-cəbbə geydirdilər
Qız özü də sıçrayıb
Ata mindi, Beyrəgin atasına, anasına
Muştuluğa çapar getdi. Belə dedi:
-Irğab-Irğab qara dağın

Yıxılmışdı, ucaldı axı!
Qanlı-qanlı gur suların
Sovrulmuşdu, çağladı axı!
Qaba-qaba ağacların
Qurumuşdu, yaşardı axı!
Töylə-töylə şahbaz atın
Qarımışdı, qulan verdi,
Qızıl-qızıl dəvələrin
Qarımışdı, köşək verdi,
Ağ ağılda ağ qoyunun
Qarımışdı, quzu verdi,
On altı il həsrətini
Çəkdigin Beyrəgin gəldi.
Qayın ana, qayın ata
Mənə muştuluq verərsiz.
Beyrəgin ata-anası söylədilər:
-Ağzın üçün, dilin üçün
Ölək sənin, gəlincigim!
Sən gəldiyin yollara biz
Qurban olaq, gəlincigim!
Yalan isə bu sözlərin
Doğru olsun, gəlincigim!
Sağ-əsən çıxıb gəlsə
Qarşı yatan qara dağlar
Sənin üçün yaylaq olsun,
Soyuq-soyuq sularımız
Sənin üçün içit olsun,
Bütün qulum-xəlayıqım
Sənin üçün qırnaq olsun,
Şahbaz-şahbaz ayğırlarım
Sənin üçün minik olsun,
Qatar-qatar dəvələrim
Sənin üçün yükəlt olsun,
Ağayılda ağ qoyunum
Sənin üçün şülən olsun,
Altun-ağçam, bol xəzanəm
Sənin üçün xərclik olsun,
Qara başım sənin üçün
Qurban olsun, gəlincigim.
Bu məhəldə Beyrəgi gətirdilər.
Salur Qazan: -Bəybura bəy,
Muştuluq ver, oğlun gəldi!
Bəybura bəy: -Mənim oğlum
Olduğunu ondan billəm
Serçə barmağın qanatsın,
Qanını dəstmala sürtsün,
Onu gözlərimə qoysun,
Açılarsa, billəm ki,
Oğlum Beyrəkdir.
Çün atası ağlamaqdan

Gözləri görməz olmuşdu.
Dəstmalı gözünə silcək
Haqq taala qüdrətiylə göz açılıb görər oldu.
Ata-ana gülüşübən
Beyrəgin ayağına döşəndilər,
Onda belə söylədilər:
-Oğul, oğul, dünlügü
Altun bay evimin, dirəgisən,
Qaza bənzər qız- gəlinim çiçəyisən
Görər gözüm aydınısan,
Tutar belim qüvvətisən,
Qalın Oğuz imrəncisi
Canım oğul, gözüm oğul!
Deyə, çoxlu ağladılar,
Allaha şükür qıldılar.
Yalançı oğlu Yalancıq
Bunu eşidib Beyrəgin
Qorxusundan qaçıb- gedib
Meşəlıqlarda gizləndi.
Beyrək isə dalısınca
At salaraq meşəligə
Gəlib çatdı, aydı:
-Mərə varın od gətirin!
Od gətirib qamışlığa
Od vurdular, Yalancıq
Gördü yanacaq, meşədən çıxdı,
Beyrəgin ayağın öpdü,
Qılıncı altından keçdi,
Beyrək onu bağışladı,
Qazan aydır: Haydı, gəl sən
Muradına yetiş gilən!
Beyrək aydır: Otuz doqquz
Yoldaşımı hasardan qurtarmayınca
Muradımı almağım yox.
Salur Qazan: Oğuzlardan
Məni sevən yetsin, dedi.
Qalın Oğuz ərənləri
Atlandılar, Bayburdun
Hasarına axın oldu,
Kafir daxı qarşı durdu.
Mərd igitlər arı sudan
Abdəst alıb iki rəkət
Namaz qılıb, alınların
Yerə qoyub, adı gözəl
Məhəmmədi yad etdilər.
Gumbur-gumbur nağaralar
Döyüldü, bir qıyamət savaş oldu,
Meydan dolu baş oldu.
Şüklüməlik padşahı
Salur Qazan böyürdübən

Atdan saldı, qara Təkur
Sərkərdəni, Dəli Dondar qılıcladı
Yerə saldı, Qara Aslan məliyi də
Qara Budaq vurdu saldı.
Dərələrdə təpələrdə
Kafirlərə qırğın girdi,
Bütün yeddi kafər bəyi qılıclandı.
Salur Qazan, Bamsı Beyrək,
Qara Budaq, Dəli Dondar,
Qazan bəyin oğlu Uruz
Hasara yürüş apardılar.
Beyrək otuz doqquz yoldaşını
Əsən gördü şükür qıldı.
Kafirlərin kilisasın
Yıxdılar, yerinə məçid
Yapdılar, keşişlərin
Öldürdülər, ban banladıb
Ulu tanrının adına xütbə oxudub,
Quşun ala qanadını
Daş-qaşların irisini,
Qız- gəlinin göyçəyini,
Doqquzlama çırğab-çoxa
Xanlar xanı Bayındır Xana
Pəşyek çıxardılar.
Bəyburanın oğlancığı
Bamsı Beyrək Baybicanın
Qızın aldı, ağ ban otağına
Döndü, toy-dügünü başladılar.
Qırx igidin, neçəsinə
Salur Qazan, neçəsinə
Bayındır xan qız verdilər.
Beyrək daxı yeddi gözəl
Qız qardaşın, yeddisini
Ərə verdi, Qırx igidə
Otaq tikdi, otuz doqquz
Taleli qız taleinə.
Ox atdılar otuz doqquz
İgit daha oxun ardınca getdilər
Qırx gün qırx gecə
Toy-dügün eylədilər.
Bamsı Beyrək yoldaşları ilə
Birlikdə murad verdi, murad aldı.
Dədəm Qurqud gəlir oldu,
Şadlıq çaldı, bu Oğuz naməni
Qoşdu, böylə dedi:
-İndi hanı mən dedigim
Bəy ərənlər, dünya mənimdir, deyənlər?
Əcəl aldı, yer gizlətdi,
Fanı dünya kimə qaldı?
Gəlimli, gedimli dünya!

Son ucu ölümlü dünya!
Yum verəyin, yerli qara,
Dağlarınız yıxılmasın,
Kölgə salan qaba ağacın kəsilməsin,
Gur-gur axan görklü suyun qurumasın,
Qanadların ucu heç vaxt qırılmasın,
Çapar ikən ağ-boz atın büdrəməsin,
Çalışanda qara polad uz qılıncın kütələməsin,
Allah ver umudunuz üzləməsin.
Ağ alnında beşcə kəlmə dua qıldıq Qəbul olsun,
Yığışdırsın, duruşdursun günahımızı
Adı gözəl Məhəmmədə bağışlasın!

## 12

# Dış Oğuzun İç Oğuza Yağı Olması

*Sənə alqışmı, ya qarqışmı deyim?*
*Sənə, ey varlığın sirdaşi insan.*
*Sənin xilqətini yanlışmı deyim?*
*Nəsən, tanrımısan, ya şeytanmısan?!*

*Bilməm nə xəmirdən yoğrulubsan sən,*
*Ağıdan acısan, baldan şirinsən.*
*İpəkdən yumuşaq olarsan bəzən,*
*Gahdan qatılıqda polad kimi sən.*

*Zatında olan bu ziddiyyət nə dir?*
*Bu iki cürəlik nədir qanında?*
*Bu ülviyyət nədir, dənaət nədir?*
*Fikrində, işində, cismu,- canında!*

*Bəzən, qaranquluq, zülmət kanısan,*
*Gah, gün tək parlayan haqq işığısan.*
*Gahdan nə dil qanıb, tanrı tanırsan,*
*Gah da kayinatın yaraşığısan.*

*Bəzən, işıqlığa qarşı durursan*
*Aydınlıq sevənin canın alırsan.*
*Gahdan da yanar bir çırağ olursan*
*Yaxılıb aləmə işıq salırsan.*

*Gah, köksün acıqla, nifrətlə dolur,*
*İçində qaynayır yalnız qəzəb, kin*
*Gahdan da kövrəlir mehriban olur,*
*Ürəgin bir ana ürəgi təkin.*

*Bir gün pıçaq kimi kəsib-biçirsən,*
*Bir gün yaralara məlhəm olursan.*
*Bir gün cəllad olub qanlar içirsən,*
*Bir gün məzlumlara həmdəm olursan.*

*Bir zaman fitnəyə, şərə girişib,*
*Yəzidə dönürsən, şəmşir olursan.*
*Bir gün Imam Hüseyn donuna girib,*
*Haqq yolda baş verib, canın qoyursan.*

*Gahdan xəsisligə, hirsə qurşanıb,*
*Qarun tək xəzanə, pul toplayırsan.*
*Bəzən hatəmlikdə şöhrət qazanıb,*
*Sərvət nədir, can da, bağışlayırsan.*

*Didərgin görərkən bir qarışqanı*
*Şibli olub uzun yollar gedirsən.*
*Gah Hitler tək milyon-milyon insanı,*
*Qırıb, yerin-yurdun viran edirsən.*

*Gah, qalxana, gahdan oxa dönürsən,*

*Bəzən xənçəl, bəzən ürək olursan.*
*Gahdan dəryalara sığınmayıban,*
*Gah da yığılırsan, qaba dolursan.*

*Bir zaman şəfqətə, rəhmə bağlanıb,*
*Harda yazıq tapsan saçın hörürsən,*
*Bir gün qılınc taxıb, süngü qullanıb,*
*Nəşlər üstündə car-car sürürsən.*

*Bir zaman fəzilət çırağın tapıb,*
*Ədalət axtarıb, haqqı gəzirsən.*
*Bir zaman şəqavət çomağın qapıb,*
*Haqq söz danışanın əngin əzirsən.*

*Göy tək gah açılıb, gah tutulursan,*
*Gah ağ yel olursan, gahdan da tufan.*
*Gah qara qış, gah da bahar olursan,*
*Gahdan quraqlıqsan, gahdan yağışsan.*

*Bir gün elin üçün, vətənin üçün,*
*Başıvı verirsən, candan keçirsən,*
*Bir gün qara daşa dönür ürəgin,*
*Doğma qardaşının qanın içirsən.*

*Bir gün gözlərində məhəbbət gülür,*
*Bir zaman çalısan, bir zaman gülsən.*
*Bir gün üz-gözündən nikbət tökülür,*
*Gahdan bayquş, gahdan şeyda bülbülsən.*

*Gah istək-ilqardan söhbət açırsan*
*Yar, deyə hər yana haray salırsan.*
*Gah da yarı yoldan dönüb qaçırsan*
*Məhəbbət aynasın daşa çalırsan.*

*Sən Niyə belə sən, bu hal nə haldır?*
*Bu sirri arayıb açmaq olurmu?*
*Bu nə vur-sındırdır, nə qalmaqaldır?*
*Bu haldan qurtulub qaçmaq olurmu?*

*Çoxlar bu hal-xuyu səndə görəndə,*
*Sənə iki tanrı yonub-yontayıb.*
*Hər nə iş görübsən xeyirdən, şərdən,*
*Onların adına yozub, bağlayıb.*

*Hal buki, hər bir iş, yaxşıdan, pisdən,*
*Özündən baş verir, yalnız özündən.*
*Özünsən meydanda at gəzdirirsən,*
*Bilmirəm, "tanrı" san, "şeytan"san, nəsən?*

*Tanımaq olsa da kökünü yəqin,*
*Əzəl qoparıvı tapmaq mahaldır.*
*Hərkəs nə söyləsə, söyləsin, desin*
*Hələlik hamısı yanlış xəyaldır.*

*Kimsə xatırlaya bilməz hələ də,*
*Qalxıban düşübsən yola haradan,*
*Varıban gedirsən hansı məqsədə,*
*Ancaq, bəllidir ki, yoldadır "karvan"!*

*Hansı qüdrət yolu işıqlandırır,*
*Qüvvət verir, qol-qıç verir yolçuya?*
*Bu sönməz ocaqı kimdir yandırır*
*Girmək olarmı, bu, dərin quyuya?*

*İxtiyarsız olsa yaranışımız,*
*Çıxmamış olsaq da yola özümüz*
*Məqsədsiz olanmaz uğrayışımız,*
*Duyar beynimzi var, görər gözümüz.*

*Həyatı dadıban təmsinənənə tək,*
*Nə dirilik, nə də varlıq anladıq.*
*Bu, barlı baxcanın meyvəsin yecək,*
*Xoşlandıq, əbədi həyat axtardıq.*

*Bu , heç də təsadüf deyirdi, məncə,*
*Heç də yox yerdən biz tapılanmazdıq.*
*Ancaq, uşaq idik, böyüməyincə,*
*Dərin duyğulara qapılanmazdıq.*

*O dur mənəm-mənəm,- deyə banladıq,*
*Mamız yarar- yaramaz xoruza döndük.*
*Özümüzü dimdiklədik, qanladıq,*
*Qan tökdük, qan içdik, quduza döndük.*

*Bu qudurqanlıqdan, bu azqınlıqdan,*
*Dərəbəylik quruluşu tapıldı.*
*Toplum həyat üçün yaranan insan,*
*Fərdiyyətə sarı döndü qapıldı.*

*O dur ki, insanlar, öz-özün,*
*Yırtıcı qurdlarla dəgişik salır.*
*Yaramaz həvəslə kor edir gözün,*
*Dumanlar içində boğulur, qalır.*

*Düşünməsə, anlaq qazananmasa,*
*Ulduzu, taleyi parlaya bilməz.*
*Çalışıb öz- özün tanıyanmasa,*
*Səadətə doğru uğraya bilməz.*

*Gəl, insan evladı, özünü tanı*
*Düz yolları qazıb yarqan eyləmə.*
*Məhəbbət gözüylə seyr et dünyanı,*
*Həyat çeşməsini al qan eyləmə.*

*Sən daha dünənki uşaq deyilsən,*
*Anlayıb özünü tapa bilərsən*
*Ağlıvı-huşuvu işlədə bilsən,*
*Oturub daha göz göyə tikməzsən.*

*Düşüncən həddində ixtiyarın var,*
*Çırmanıb faydalan bu ixtiyardan.*
*Məsəldir: "dünyada axtaran tapar",*
*Mənlik tap, hörmət tap şərafət qazan.*

*Çalış , taleivi özün al ələ,*
*Quduz qəzəbkarın canına susa*
*Bu kor quruluşa gözünü tikmə,*
*Müşkülləri həl et, hümmətin varsa.*
*Səndə ilahi bir qüvvət var, inan,*
*Öz-özünü çox da qüdrətsiz sanma.*
*Hər bir çətinligə çarə taparsan,*
*Çəkinmə, sarsılma, qorxma, usanma.*

*Azğın həvəslərə qapanıb, coşub,*
*Qurd kimi susma qardaş qanına.*
*Təmiz duyğulara doğru uğraşıb,*
*Mərhəm qoy insanın yaralarına.*

*Tarixlərin hər bir qanlı varağı,*
*İnsan ətəginə ləkədir-ləkə.*
*Ağnat hər bir tərəfə çayı-irmağı,*
*Ləkələr yuyulsun sularda, bəlkə.*

*İnsana yaraşıq sevgi-istəkdir,*
*Yaramaz xislətdir, kin bağlamaqlar.*
*İnsana yaraşan ürək- kürəkdir,*
*Vicdan xəstəsidir, bütün şıltaqlar.*

*Məhəbbət evidir insan ürəyi,*
*Çox tez küdurətdən boşala bilər.*
*Fitrətən təmizdir insan diləyi,*
*Kinələr ulfətə çevrilə bilər.*

*Niyə çevrilməsin, nədir bu qovğa,*
*Bu vur-sindir insanlığa gərəkməz.*
*Yaxşı söyləmişlər" bütün bu dünya,*
*Bir ürəgi belə pozmağa dəyməz."*

*Yox şair, dur-dayan yolundan çaşma,*
*Boş sözlərin atın cilovla saxla.*
*Qızışma, çox da kükrəyib daşma.*
*Heç nə dəyişilimez boş danışmaqla.*

*Çalış azğınlığın kökünü axtar,*
*Yandır, qoy insanın canı qurtarsın.*
*Həyatı tanıyıb düz yola apar,*
*İnsan da qayıdıb düz yola varsın.*

*İnsanın dərdini axtarıb-ara,*
*Ağrıyan yeri gör hardadır, harda.*
*Dərd tapılmayınca tapılmaz çara,*
*Sözlə yox, dərmanla sağalar yara.*

*Sınıb, ovxarlanıb əzilənlərə.*
*Duruşmaq, dirəşmək yolunu göstər,*
*Anlat mənligini itirənlərə,*
*Dəli, dəli görsə, çomağın gizlər,*

*Qoyun olmaq olmaz qurd olan yerdə,*
*Pasıf insançılıq mütləq yanlışdır.*

*Dərman ola bilməz, yalvarmaq-dərdə,*
*İnsanın qurtuluş yolu vuruşdur.*

*Dəfələr bu sözü söyləmişəm mən,*
*Haqqı qəzəbkardan olmaz dilənmək.*
*Azad yaşamağı sevib-istəyən,*
*Haqlı vuruşlara girişsin gərək.*

*Yerli ziddiyyətlər eyni həyatdır,*
*Dünyanın mədarı onsuz pozular.*
*Işığın parlayan yeri zülmatdır,*
*"Mücadilələrdən həqiqət parlar"*

*Lakin, bu mənanı, bu həqiqəti,*
*Dərindən düşünüb öyrənmək xoşdur*
*"Ziddeyətə" yozmaq "bərbəriyyəti"*
*Mütləq yanılmaqdır, mütləq yanlışdır.*

*Insanın talei vuruşdur ancaq,*
*Haqqı qəzəbkardan saldırmaq üçün.*
*Xoşdur yaxalaşmaq, xoşdur duruşmaq,*
*Zalimi aradan qaldırmaq üçün.*

*Gərək şimşək olmaq, gərəkdir şaxmaq,*
*Cığallara həddin andırmaq, -deyə.*
*Ocaqlar yandırmaq, tonqallar yaxmaq,*
*Yaramazlıqları yandırmaq, -deyə.*

*Hələ də bu böyük, dərin mənanı,*
*Tərsəsinə təhvil alanlar çox var.*
*Babalar demişkən: hələ zurnanı,*
*Yoğun tərəfindən çalanlar çox var,*

*Kütlələr milyonlar qurban verərək,*
*Qurtuluş yolların açan zamanda,*
*İnsan cəlladları qorxub hürkərək*
*Silahların atıb qaçan zamanda,*

*Bəzən iki qardaş iki əməkdaş,*
*Danır duz-çörəgi, danır ilqarı*
*Dünənki məsləkdaş, dünənki yoldaş,*
*Dartışır, bilinmir heç nədən sarı.*

*Dəli şeytanlara qol-qanad verən*
*Zəmanəmizdə şum təhlükələrdir,*
*Niyə başlanıbdir, nə üçün, nədən?*
*Bu yaramaz işlər, ax, nə gərəkdir?*

*Məktəb bir, məslək bir, yol bir, inam bir,*
*Qorxu bir, dəhşət bir, quduz düşman bir,*
*Hər kəs öz əməgin, çörəgin, yeyir,*
*Bu " ziddiyyətlərin" bəs səbəbi nədir?*

*Bu "ziddiyyət" deyil, özün öyməkdir*
*Ənkələrin fərdi könüllügüdür*
*İnsanların toplum ağrısı bir dir*
*Əməkdaş olmaq "ziddiyyət" i dir.*

*Beş günlük başçılıq dalıca qaçan*
*Bir para dar gözlü "yol göstərənlər"*
*Nədən əl çəkmirlər bilməm insandan*
*Nə veriblər ala bilmirlər məgər?*

*Uydurma sözlərlə boş şıltaqlıqla*
*Qardaşı qardaşla vuruşdurrurlar*
*Tam həyasızlıqla, tam alçaqlıqla,*
*Ara qatıb, ara qarışdırırlar.*

*Qardaş düşmanlığı dəhşətdir, dəhşət,*
*Əmək qardaşları içrə xüsusən*
*Bütün əməkdaşlar qardaşdır əlbət,*
*Bu, asılı deyil soydan, vətəndən.*

*Ondakı Çin xalqı, Çin igitləri,*
*Candan keçməkliklə, çətinliklərlə,*
*Qovdu vətənindən parazitləri*
*Azad həyat haqqın keçirtdi ələ.*

*Əmpriyalistlərin beli büküldü*
*Ölüm titrətməsi tutdu yaxasın.*
*Sosiyalist dünyası gül açdı, güldü*
*Sarsılmaz bir dağa verdi arxasın.*

*Haqq sevən insanlar az sevinmədi*
*Güvəndi bu böyük qalibiyyətə*
*Məgər döş vermədi, ya öyünmədi*
*Böyük bayram oldu bəşəriyyətə.*

*Zamanın "Qorqudu" şadlıq çalaraq,*
*Üsyançı "Kitayın" boyun boyladı*
*Bütün ölkələrə haray salaraq,*
*Böyük gələcəyin toyun-toyladı.*

*Dedik: hamarladıq nəcat yolların*
*Söküb dağıdarıq köhnə dünyanı*
*Səadət pərisi açıb qolların,*
*Çağırır qoynuna məhküm insanı.*

*Qarqış şeytanların vəsvəsəsinə*
*Qarqış azğınlara, eqoistlərə,*
*Qarqış düşmanların dəsisəsinə*
*"Komonistəm" deyən şovonistlərə.*

*Qıçından aslanır şeytan daş təkin*
*Insan dırmaşdıqca kəmala sarı*
*Yencir, yencişdirir ipin, örkənin*
*Artıq yüksəlməyə qoymaya barı.*

*Gah qada qavzayır, gah da xalqlara*
*Dolamac yollarda tələ toxuyur.*
*Gah şübhə törədir, gah qulaqlara*
*İkicəlik, nifaq virdi oxuyur.*

*Gördük necə soxdu özün araya*
*Qardaşı qardaşa düşman eylədi.*
*Suları axıtdı üz yuxarıya*

*İnsanlıq ürəyin al qan eylədi.*

*Kimsə anlamadı, nə oldu birdən*
*Qardaş düşman oldu, düşman dost oldu.*
*Milyonlar məsləkdaş, yoldaş qanıylan*
*Möhürlənən ilqar birdən pozuldu.*

*Bir para kəsilmiş əllər gör necə*
*Quduz cəlladların əlini sıxır*
*Həyasızcasına yeri gəlincə*
*Faşizm ədasıyla meydana çıxır.*

*Birlik əli verir əmpiryalızmə*
*Sosiyalizmə qarşı əl atıb kinə*
*Təhlükə törədir xaincəsinə*
*Beynəlmiləlçilik abidəsinə.*

*Yaralı viyetnam xalqını hətta*
*Qırıb tökməklikdən çəkinmir axmaq,*
*Dünən od içindən qurtulanlara*
*Yeni od yandırır, quduzluğa bax?*

*Nələr doğulur bu qudurqanlıqdan*
*Qurtuluş günləri daha uzanır.*
*Dostlar kədərlənir, sevinir düşman,*
*Tarixin mədarı durur-dayanır.*

*Məni bağışlayın, dostlar, yaranlar,*
*Mətləbi pərdəsiz söylədim əgər*
*Şairdən təəhüd, məslək umanlar*
*Bilsin ki, təəhüd sərahət istər.*

*Nə etmək, bu irənc, azğın gedişdən*
*İnsanlar bağrından daş aslanıbdı.*
*Bu yersiz-yaramaz çəkiş-bərkişdən*
*Doğrudan ürəklər parçalanıbdı.*

*Tarix bu qaxınca qatlaşa bilməz*
*Azğınlara qarşı divan tutmalı.*
*Heç zaman qayıdıb geri dönənməz*
*Yolsuzu, yoluna tapışırmalı.*

*Süngüyə çevirib şerimi mən də*
*Qara ürəklərə taxsam gərəkdir.*
*Quduz şeytanları yerli yerinə*
*Şimşək kimi şaxıb-yaxsam gərəkdir.*

*Bilənlər bilir, bilsin bilməyən*
*Üsyankar ellərin şairiyəm mən.*
*Vulqandır içimdə coşub pöskürən*
*Od pöskürər, alov qalxar şeirimdən.*

*Məndən söz gizlətmək gözlənilməsin*
*Sözümə, yoluma inamım vardır.*
*Açıq danışmaqdan hürkənlər yəqin*
*Qorxaqlar, pulsuzlar, imansızlardır.*

*Keçmişdən dərs almaq, ibrət qazanmaq*

*Olduqca ağıllı işdir həyatda.*
*Uzaqlarda yanıb ışaran çırağ*
*Böyük bir ürəkdir bizə zülmatda.*

*Dış Oğuz-iç Oğuz düşman olanda*
*Ərənlər nə tapdı, el nə qazandı?*
*İgitlər bir-birin töküb qıranda*
*Ancaq ana vətən qana boyandı.*

*Gəlinlər dul qaldı, analar ağlar,*
*Altunlu ban evlər yiyəsiz qaldı.*
*Ovlanmamış qaldı ceyranlı dağlar*
*Gül üzlü gözəllər saraldı, soldu.*

*Ürəgi alışdı "Dədəm Qorqudun"*
*-Vay elim, vay günüm, vay canım, dedi,*
*Sızladı, bozladı, atdı qopuzun,*
*Ağladı-can "azar vay canım" –dedi.*

*Fitnələr qoparıb ara qatanlar,*
*Kaşkı, bu mənanı dərin duyalar.*
*Üstünlük axtarıb, boyun buranlar,*
*Şeytan atın bəlkə cilovlayalar.*

*Dərə bəylik dönərgəsi dolansa,*
*Gora göndərilər mənəm deyənlər.*
*Zülüm sarayları alışsa yansa,*
*Zavallı insanlıq bir nəfəs çəkər.*

*Qəzəbkar yer üzün bütün yaxsa da,*
*Cəlladlara təslim olanmaz insan.*
*Ötəri olaraq durub baxsa da,*
*Səbr edər, zamanı yetişən zaman.*

*Aslan kimi çəkib zəncirin qırar,*
*Hər tərəfdən üsyan borusun çalar.*
*Boğulub sıxılan su tək fişqırar,*
*Quduz işğalçıdan intiqam alar.*

*Zoru çatmayanda mərifət ilə,*
*Çarə düşünərək bu posquya sinər.*
*Dibdə kültür, tədbir qüdrəti ilə,*
*Zorlu, kəl olsa da, boynuna minər.*

*Bir çox zora çarpan qolu zorbalar*
*Mədəni elləri əsir edərkən*
*Mədəniləşməyə oluban naçar*
*Mədəniləşdikcə düşüblər gücdən.*

*İnsan toplantısı işində bütün,*
*Hakim tərəf əgər zordur qüdrətdir,*
*Hər qüdrət birlikdən qopduğu üçün*
*İnsan birliyi də bir zərurətdir.*

*Qəbiləçilikdən, bərbəriyyətdən,*
*Mədəni həyata yüksələn bəşər*
*Bir gündə əl çəkib kin-küdurətdən,*
*Bir ailə kimi qovuşa bilər.*

*Çox nahaq qanlara səbəb oluban,*
*Qardaşı qardaşın canına salan,*
*"Ziddiyyətlər" demək dövran sürdükcən*
*Birləşmək qüdrəti olar bir zaman.*
*Hələ də-hələ də insan uşaqdır,*
*Hər yerdə özünə yançı axtarır*
*Həmişə nabalığ qalmıyacaqdır*
*Baxsan yavaş-yavaş saqqal çıxarır!*

*Cəsarət taparsa, baliğ olarsa,*
*Çaxmaq çaxıb yaxar könül çırağın*
*Zülmətlərə belə hücum aparsa,*
*Qaranquluq büdrədənməz ayağın.*

*Aşıq, canım aşıq, çaldığın sazda,*
*Sehrkar əlinlə tellər oynasın,*
*Çağlasın gur sular Kürdə-Arazda*
*Dalğalar kükrəsin, sellər oynasın.*

*Səsi ucaldıqca balabanların*
*Sankı "İsrafil" in suru səslənir*
*Donu açılaraq soyuq qanların*
*Quru damarlarda axır, sellənir.*

*Doğrult əfsanəsin "həşrin-məadin"*
*Şirin sözlərindən qiyamət qopar.*
*Qaldır məzarından insan övladın*
*Yeni bir həyata doğru çək apar.*

*Aşıq, canım aşıq, əlin qurbanı,*
*Ürəklər qısraqdır, dostluq yetirmir*
*Dirilt Koroğlunu, Sayat Novanı*
*Torpaq qocalıbdır, igit bitirmir.*

*İgidlik siması çıxıb yadlardan*
*Ürək qopuzunun qulağın bur, çal,*
*Nəğmələrə min, uç, lap uzaqlardan*
*İtgin surətləri tap, yadlara sal!*

*Ömründə namərdlik bilməyənlərlə,*
*Bəlkə bir daha da görüşə bilək,*
*Elin ağlar görsə gülməyənlərlə,*
*Tanış ola bilsin bəlkə də ürək.*

*Çal sədəfli sazı, gözüvə qurban,*
*Qorqud Dədəmizdən o yadigardır:*
*Sazıva, sözüvə, özüvə qurban,*
*Nəğməsiz dünya bir xərabəzardır.*

*Sehrkar sözün hər pərdəsində*
*Min şadlıq gizlənib, min qəm gizlənib,*
*Hər şırıltısında, zəmzəməsinəd*
*Minbir söylənməmiş sözlər təllənib.*

*Aşıq bir sazına, bir mənə baxdı,*

*Lakin inləmədi sazın telləri.*
*Yorğun gözlərindən pır-pır yaş axdı,*
*Gördüm bağlanıbdır comərd əlləri.*

*Nə olaydı çatılan barmaqlar bir də,*
*Dolana biləydi pərdələrində.*
*Qovuşa bilməyən dodaqlarımız,*
*Danışa biləydi tellər dilində.*

*Sən dedin: -Dil-ağız usansa sözdən,*
*Soruşun mətləbi tellər söyləsin.*
*Yarımasın düşman, bunu duyarkən*
*Susdurdu, dilin də, telin də səsin!*

*Qırağa saldılar sazının telin*
*Hər barmağına bir qıfıl vurdular.*
*Çalınmamış qaldı nəğməsi elin*
*Çox nəğmədaşlara qan qusdurdular!*

*Aşıq, canım aşıq, bərk saxla sazı,*
*Göz bəbəyimlə də olsa dindirrəm.*
*Bağırıb, coşduraram Kürü-Arazı*
*Göydən ulduzları yerə endirrəm.*

*Babamız Qorquddan hümmət alıban,*
*Darıxma, özümü sənə yetirrəm,*
*Çeynəməli olsam, belə dişimlən*
*Əllərindən zəncirləri götürrəm.*

*Dədə, mədəd səndən hümmət vergilən,*
*Qoyma yarı yolda yorulub qalaq.*
*Fürsət dilə həqdən, gəl kərəm eylə,*
*El nəğmələrini bəlkə qurtaraq.*

Üç Ox, Boz Ox yığnaq olsa
Salur Qazan öz evini
Yağmaladar, yenə bir gün
Yağmalatdı, lakin Dış Oğuz olmadan
İç Oğuzlar yağmaladı.
Hər vax Qazan belə etsə
Həlalının əlin tutar
Evdən çıxar sonra yağma
Başlanardı.
Dış Oğuzun bəylərindən
Uruz Qoca Bəydüz Əmən
Ayrı-ayrı qalın bəylər
Bunu duyub ayıtdılar:
-,Bir bax-bir bax, indeyətək
Qazan evin biz birlikdə
Yağmalardıq, indi noldu
Anılmadıq, sanılmadıq?!
Beləliklə Dış Oğuzun
Bütün hamı ərənləri
Kin bağlayıb ədavətlə
Qazanxana gəlmədilər.
Qılbaş adlı bir kişi var
Qazan aydır:
-,Mərə Qılbaş! bu Dış Oğuz
Ərənləri dayım belə gəlirdilər
İndi noldu gəlmədilər?
Qılbaş aydır:
-Sən bilmirsən onlar nəçün
Gəlmədilər? Sən evini
Yağmalatdın, Dış Oğuzu
Çağırmadın, səbəb odur gəlmədilər.
-Pəs ədavət bağladılar?
Deyə Qazan yenə sordu.
Qılbaş aydır:
-,Xan sağ olsun, mən gedərəm
Onlar ilən görüşərəm
Düşman ya dost olduqların
Anlayıban qayıdaram.
Salur Qazan:- Mərə Qılbaş,
Sən bilirsən, var, get, -dedi.
Qılbaş neçə adam ilə
Uruz bəyin obasına çapıb gəldi.
Uruz isə altunluça
Günlügünü tikdirərək
Oğlanları dövrəsində
Otururkən Qılbaş çatdı
Uruz bəyə səlam verdi, belə aydır:
-Qazan dedi mən büküldüm
Dayım Uruz mənə gəlsin
Üzərimə yağı gəldi

Dəvələrim bozlatdılar,
Qoç atlarım kişnətdilər,
Qız-gəlinim ağlatdılar,
Gör başıma nələr gəlmiş
Dayım Uruz gəlsin demiş!
Uruz aydır:
-Üç Ox, Boz Ox yığnaq olsa,
Qazan evin yağmalatsa
Hamı birdən yağmalardıq.
Günahımız nə olmuş ki,
Yağmada biz çağrılmadıq?
Qoy Qazana bəla gəlsin,
Uruz ona qarşı dursun
Biz Qazanın düşməniyiz
Bunu daxı bəlli bilsin!

Qılbaş burada söyləmiş,
Eşidəlim nə söyləmiş:
Mərə Qavat! Salur Qazan
Qalxıbanı çıxa gəldi
Ala dağda çadır tikdi, otaq saldı
Üç yüz altmış altı ərən dövrəsinə
Yığnaq oldu, yemək-içmək
Arasında səni andı.
Üstümüzə heç bir yağı
Gəlməmişdi. Mən də sənin
Dost ya düşman olduğun?
Sınayı, gəldim xan Qazana
Sənin düşman olduğunu
Yaxşı bildim.Qalxdı Qılbaş
Xoş qal! -Deyə yola düşdü.
Uruz qayət acıqlandı
Dış Oğuzun bəylərinə adam saldı:
Əmən gəlsin, Alp Rüstəm
Dönəbilməz, Dülək Əvrən
Qalan bəylər bütün gəlsin
Dış Oğuz bəyləri gəlib yığnaq oldu.
Uruz bargah tikdirdi
Atdan ayğır, qoyundan qoç
Dəvədən buğra qırdırdı.
Dış Oğuz bəyləri toyladı
Sonra dedi:
-Bəylər sizi çağırmaqdan
Məqsədimi bilirsizmi?
Söylədilər:- Yox, bilmirik.
Uruz aydır: Qazan Qılbaşı
Göndərmiş və demişdir
-Elim-günüm çapıldı
Qara başım büküldü
Dayım Uruz mənə gəlsin.

Mən Qılbaşa belə dedim:
-Qazan haçan öz evini
Yağmalatmaq istəseydi
Dış Oğuz bəylərin də
Çağırardı, bəylər gəlib
Qazanxanı salamlayıb qayıdardı.
Əmən aydır:
-Sən daha nə cavab verdin?
Uruz aydır:
-Mərə Qavat, biz Qazanla düşmanıq-dedim.
Əmən aydır:
-Lap iyicə demişsən, sən
Uruz aydır:
-Mərə bəylər, siz nə deyərsiz?
Bəylər aydır:
-Biz də onunla düşmanik.
Uruz durub ortalığa
Müshif gətdi. Hamı bəylər
Əl basıban and içdilər:
Bizlər sənin dostunla dost
Düşmanın ilə düşmanıq.
Uruz cümlə ərənləri
Xələtlədi, sonra aydır:
-Mərə bəylər, Beyrək bizdən
Qız almışdır, köykümüzdür
Lakin işdə Qazan xanın
Inağıdır. Gəlsin bizi
Qazan ilə barışdırsın
Çağıralım gətirəlim
Bizə müti olursa xoş,
Olmaz isə mən saqqalından
Tutaram sizlər isə
Qılınc çəkib paralayın.
Beyrəgi aradan götürək
Ondan sonra Qazan ilə
Işlərimiz xeyir ola.
Beyrəgə kağaz yazdılar.
Bamsı Beyrək odasında
İgitlərlə yeyib-içib
Oturarkən Uruz bəydən
Adam gəldi, səlam verdi.
Beyrək isə əleyk aldı
Qasid aydır: xan Beyrək
Uruz sizi səlamlayıb
Söyləmişdir kərəm edib
Varıb gəlsin, bəlkə bizi
Qazan ilə barışdırsın.
Beyrək isə qəbul edib
Atlanıban qırx igitlə
Uruz bəyin obasına

Varıb gəldi, Uruz bütün
Dış Oğuzun bəyləri ilə
Oturarkən varıd olub
Səlam verdi.
Uruz aydır:
-Bilirsənmi Niyə çağırmışıq?
Beyrək aydır:
Söylə, Niyə çağırdınız?
Uruz aydır:
-Bu oturan bəylər bütün
Qazan xana asi olub
And içmişik, indi müshif
Gətirərik sən də and iç?!
Beyrək isə mən heç zaman
Xan Qazana asi olmam,
-Deyə müshifə and içib
Dönər söylər:
Mən Qazanın ətməgini
Çox yemişəm, bilməz olsam
Gözlərimi tutar olsun.
Qaraqoçda qazılıq atın
Çox minmişəm, bilməz olsam
Onlar mənə tabut olsun
Yaxşı-yaxşı xəftanların
Çox geymişəm, bilməz olsam
Onlar mənə kəfən olsun
Ala bargah otağına
Çox girmişəm, bilməz olsam.
Onlar mənə zindan olsun
Mən Qazandan dönmərəm.
Uruz qızıb Beyrəgi saqqalladı
Lakin bəylər Beyrəgə qıymadılar.
Beyrək Uruzun qızdığın
Burada duyub belə aydır:
-Uruz, mənə bu işi sən
Edəcəyin bilsəydim,
Qaraqoçda qazılıq atım
Minər idim. Əyni qeyim
Dəmir donum giyər idim.
Qara polad öz qılıncım
Bağlar idim. Alın başa
Qunt işiğim taxar idim
Qarğı dalı altmış tutam
Süngümü əlimə alar idim
Ala gözlü igitləri
Mən yanıma salar idim
Mərə qavat, mən bu işi
Duysa idim, sənə belə gələrmidim?
Aldadıban ər tutmaq
Ovrət işidir

Ovrətindənmi örgəndin
Bu işi, yoxsa qavat!
Uruz aydır:
-Mərə Beyrək, hərzə-mərzə
Söyləməklə öz qanına
Susamagıl, tez ol and iç!
Beyrək aydır:
-Vallah, Qazan uğrunda mən
Baş qoymuşam, mən Qazandan
Dönənmərəm, gərəksə yüz para elə.
Uruz yenə acıqlanıb
Beyrəgin saqqalın tutdu.
Bəylərinə nəzər saldı,
Baxdı gördü kimsə gəlməz.
Özü dönüb qara polad qılıncını
Çıxararaq Beyrəgin sağ oyluğunu
Çalıb saldı. Qara qanı şoruldadı
Qara başı büküldü.
Bəylər hamı dağılışıb
Hər kişi öz atın mindi
Beyrəgi də mindirdilər
Dalısına adam minib
Qucaqladı, qaçırıban
Odasına yetirdilər.
Cəbbəsini üzərinə çəkdirdilər.
Beyrək burada söyləmiş:
-İgitlərim yerinizdən
Uru durun ağ-boz atımın
Quyruğunu alıb kəsin
Arqubeli ala dağdan
Gecə aşın, axıntılı
Gur suları dəlib keçin,
Qazan xanın divanına
Çapar gedin, ağ çıxarıb
Qara geyin, sən sağ ol,
Beyrək öldü deyin!
Söyləyiniz:
-Namərd dayın obasından
Adam gəldi Beyrəgi istər oldu
O da vardı, bütün Dış Oğuz
Bəyləri yığnaq olduğun bilmədik
Yemə içmə arasında
Ortalığa müshif gəldi
Biz Qazana a’si olub
And içmişik, sən də and iç,
Söylədilər. And içmədi,
Mən Qazan xandan dönməzəm
Deyib durdu. Namərd dayın
Yerdən qalxıb Beyrəgi
Qılıncladı. Qara qanına

Bulaşıb bükülü oldu.
Yarınkı gün əlim Qazan xanın
Yaxasında olsun əgər
Nahaq qanım dayısında
Qoyar olsa!
Beyrək bir daxı söyləmiş:
-İgitlərim, Uruz oğlu
Dəli Basat gəlmədən,
Elim-günüm çapılmadan,
Qıtıbanda dəvələrim
Bozlatmadan, Qaraqoçda
Qazılıq atım kişnətmədən,
Ağca-ağca qoyunlarım
Mənrişmədən, ağca üzlü
Qız gəlinim ənşişmədən,
Ağca-ağca üzlü görklümi
Basat gəlib almadan
Elim-günüm çapılmadan
Qazan mənə yetsin gərək
Mənim qanım namərd Uruz
Dayısından alsın gərək
Ağca üzlü görklümi
Öz oğluna alı versin
Haqqın mənə həlal etsin.
Deyin Beyrək padışahlar
Padışahı ulu haqqa
Vasil oldu, bəlli bilsin!

Belədir igitlik, belədir ilqar,
Ərlər gəlib belə vardılar.
Canından əl üzüb sözündən dönməz,
Iki üzlülük bilməz, namərdlik bilməz.
Həyatı şərəfdə mərdlikdə bilən
Şərəflə yaşayan, şərəflə ölən
Arayıb əyridən düzü seçənlər
Haqq yolunda şirin candan keçənlər
Doğru sözdür haqqa vasıl olurlar
Dünyalar durduqcan qalıb dururlar.
Tökülən hər damla pak qanlarından
Min igit törəyir, min igit inan
Alqış mərd yaşayıb, mərd ölənlərə
Duz-çörəyi ata bilməyənlərə.

Beyrəgin atasına-anasına
Xəbər oldu, ağ ban evi
Eşiyində şivən qopdu
Qaza bənzər qız-gəlini
Ağ çıxarıb qara geydi
Ağ-boz atının quyruğunu
Kəsdilər qırx-əlli ər

Qara geyib göy sarındı,
Qazan bəyə uğrayıban
Sarıqların yerə vurub
Beyrək, deyə ağlaşdılar
Xan Qazanın əlin öpüb,
Sən sağ ol, bəy Beyrək öldü,
Dedilər, namərd dayın
Al eləmiş. Çağırdılar bizi
Vardıq, Dış Oğuzun bizə
A’si olduğunu duyanmadıq
Ortalığa müshif gəldi, ayıtdılar:
-Biz Qazana a’si olduq.
Sən daxı bizə müti ol.
Beyrək ətməgin basmadı,
Onlara müti olmadı.
Namərd dayın acıqlandı,
Beyrəgi durduğunda qılıncladı
Oyluğunu vurub saldı
Sən əsən qal Beyrək haqqa vasil oldu.
((Mənim qanım Uruzda qoymasın)) –dedi.

Salur Qazan divanında
Bu xəbəri eşidincə
Dəstmalını ələ alıb
Hökür-hökür zarlıq qıldı.
Bütün orda olan bəylər
Ağlaşdılar. Qazan odasına girib
Yeddi gün ordan çıxmadı,
Hey ağladı, hey hökürdü
Bəylər hamı divanına
Toplandılar. Qazan xanın
Qarındaşı Qaragünə belə aydır:
-Qılbaş, var get
Söylə ağam Qazan gəlsin
Bir igitdir, onun üçün
Içimizdən əskik oldu
Həm də vəsiyyət eyləmiş
Mənim qanım alsın demiş.
Qılbaş aydır: Qazan sənin
Qardaşındır sən vargilən.
Qurtulanı hər ikisi
Birgə varıb Qazan xanın
Odasına daxıl olub
Səlam verib söylədilər:

-Sən sağ ol, xan, bir mərd igit
Aramızdan əskik oldu
Sənin üçün başın verdi
Biz deyərim qanın alaq
Həm də sizə ismarlamış

Mənim qanım alsın, demiş.
Ağlamaqdan nə çıxacaq
Qazan aydır: Məsləhətdir
Yubanmadan cəbbəxana
Yüklədilsin, bəylər minsin!
Bəylər mindi. Qazan xanın
Qonur atın gətirdilər,
Minər oldu, kus vuruldu
Boruçular boru çaldı
Gecə-gündüz demədilər
Yürütmə oldu. Dış Oğuzun
Bəylərinə xəbər çatdı
Qazan gəlir, söylədilər.
Onlar daxı qoşun çəkib
Üç Ox, Boz Ox qarşılaşdı
Uruz aydır:
-Iç Oğuzdan mənə qırım
Qazan olsun!
Əmən aydır: mənə qırım
Tərs Uzamış, Alp Rüstəm:
Mənə qırım Ənsə Qoca oğlu olsun
Hər biri bir qırım seçib
Alayları bağladılar
Iki qoşun qarşı durub
Şeypur çəkdi
Davulçular davul çaldı.
Uruz qoca atın salıb
Meydan açdı Qazan xana:
-Mərə Qavat mənə qırım
Sən gərəksən var, gəl! –Dedi.
Qazan qalxan yapınıban
Süngüsünü ələ aldı
Başı üstə qaldıraraq
Belə dedi: Mərə Qavat,
Müxənnəslik namərdliklə
Ər öldürmək nəticəsin
Indi sənə göstərərəm.
Uruz, Qazan üzərinə
Atın saldı, Qazan xanı
Qılıncladı zərrə qədər
Kəsənmədi ötə keçdi
Altmış tutam kündərini
Qoltuğuna qısnayaraq
Uruza bir kündər vurdu
Köksün dəlib ötə keçdi
At üstündən yerə saldı
Qardaşı Qaragünəyə
Göz elədi: -Kəs başını.
Qaragünə atdan endi,
Başın kəsdi. Dış Oğuzun

Ərənləri bunu görüb
Hamısı atdan endilər
Qazan xanın ayağına döşəndilər.
Əlin öpüb suçlarından
Keçməsini dilədilər.
Salur Qazan suçlarını
Bağışladı, dayısından
Beyrəgin qanını aldı,
Evin çapdı, elin-günün yağmaladı,
Göy çəmənlə çadır tikdi,
Otaq qurdu. Dədəm Qorqud
Gələr oldu, şadlıq çaldı
Ğazı ərənlər başına
Nələr gəldiyin söylədi:
-Hanı indi o dediyim
Bəy ərənlər, dünya mənimdir deyənlər
Əcəl aldı, yer gizlətdi
Fanı dünya kimə qaldı?
Gəlimli gedimli dünya,
Axır başı ölümlü dünya,
Əl'aqıbət uzun yaşın
Sonu ölüm-ayrılıqdır.
Yum verəyim, ulu bəyim,
Ölüm vaxtı gələn zaman
Pak imandan ayırmasın
Ağ saqqallı baban yeri
Uçmaq olsun, ağ birçəkli
Anan yeri behişt olsun,
Qadir səni namərdə
Möhtac etməsin,
Ağ alnında beşcə kəlmə
Du'a qıldıq, qəbul olsun
Amin-amin deyənləri
Didar görsün yığışdırsın
Duruşdursun günahızı
Məhəmməd Müstəfayə bağışlasın!

***Qurtarış***

*İnlə könül sazım, sən inlədikcə,*
*Daşlar dilə gəlir, doğma diyarda.*
*Şirin sözlərivi el dinlədikcə,*
*Tellər nəğmə oxur, kamanda, tarda*

*Sıldırım dağların gözü yaşayır,*
*((Sevincdən xəzərin köksü qabarır))*
*Dan yeri sökülür, şəfəq qızarır,*
*((Arazı şirin bir Xəyal aparır)).*

*Qaralır al qanı ana torpağın,*
*Qardaşı-qardaşdan aralı görcək.*
*Cırır köynəyini, açır qurşağın,*
*((Şah dağı)), ((Səhənd))i yaralı görcək.*

*Qopuza çevrilir milyonlar ürək,*
*Sız-sız sızıldayır sənsizlədikcə.*
*Buludlar çaxnaşır, bağırır şimşək,*
*Yer-göy dilə gəlir, sən ağladıqca.*

*Sınır qəfəslərin dəmir milləri,*
*Boz əslanlar meşələrə yügürür,*
*((Koroğlu)) toplayır qoç dəliləri,*
*((Dur)) ata üzəngi çəkir, hövkürür:*

*((Yel olub özümü yara yetirrəm,*
*Yadlar qol boynuna sala qoymaram.*
*Ya ölərəm, ya Qır atı gətirrəm,*
*Düşmanlar əlində qala qoymaram)).*

*Inlə sazım, inlə, yenə də, inlə,*
*Ardı kəsilməsin qoy nəğməmizin*
*Açılmağa bahar güdür, hələ də,*
*Tikilib yollara gözü nərgizin.*

*Inlə bu dastana qurtarış yazaq,*
*Bəlkə gələcəyə başlanış olsun.*
*Dilsiz qayalara nişanlar qazaq,*
*Daldan yetənlərə yol tanış olsun.*

*Mən ürək sözümü açıb, açıqdan*
*Danışma bilmədim, indi sən söylə,*
*Düşman dırnağımı çəkən zamandan,*
*Ətimlə çalmışam, səni, ətimlə.*

*Ey könül sırdaşım, ey dərd bilənim,*
*Inlə, hər oduma tanıq idin sən.*

*Yaman gündə göz yaşımı silənim,*
*Say ağrılarımı nəğmələrinlən.*

*Münisim sənidin, sən söylə barı,*
*Necə Fərhad oldum, dağları çapdım.*
*Sürdüm, gedər gəlməz yollara sarı,*
*Ürək karvanının izini tapdım.*

*((Kəl döyüşünə kəl dözər)) -demişlər*
*((Döyüş asan gəlir gendən baxana))*
*((Ipin nə çəkdiyin doğanaq bilər))*
*((Aşdan soruş ocaq neylər qazana)).*

*Hər bir çətinligə sinə gərərək,*
*Gedər gəlməz yola cığır salmışam.*
*Hər xətərə, dərdə, qəmə, dözərək,*
*Sevgili yarımdan sorağ almışam.*
*Haqqa minnətdaram, baxtimdən riza,*
*On illik zəhmətim getmədi boşa.*
*Səsimi qaldırdım aya, ulduza,*
*((Dədəmin Kitabın)) çatdırdım başa.*

*Bir sevda idi bu, gəldi başıma,*
*Qorqud babamızın qopuzun çaldım.*
*Hər addımda xeyir çıxdı qarşıma,*
*Elimi ucaltdım, özüm ucaldım.*

*Adımız-sanımız itib batmışdı,*
*Sözümüz dillərə, tellərə düşdü.*
*Məcnun Leylasının daşın atmışdı,*
*Yenə alovlandı, çöllərə düşdü.*

*Daşdan-daşa çaldım ürək çaxmağın,*
*Bağrımı qov edib tonqal yaxmışam.*
*Alışdırıb elin sönən çırağın,*
*Gecənin bağrına məş'əl taxmışam.*

*Su gətirib hardan, daş yığıb hardan,*
*Bir hasar salmışam qəlbi dağlardan.*
*On iki ((borc)) tikib, on iki ((boy))*
*Dan,*
*Şe'rimlə qurmuşam yeni bir dövran.*

*Bir daha talesiz olmaz elimiz,*
*((Müştəri)) üz qoyub (( Qəmər)) ə sarı,*
*Dolanıb keçdikcə hər bir ilimiz,*
*Dəyişir dünyanın köhnə mədarı.*

*Urmanlı qalamız bir də alınmaz,*
*Təməlini ürəklərə tikmişəm.*

*Tufanlar qopsa da gülümüz solmaz,*
*Tuxumun tarixdən alıb səpmişəm.*
*Əkdiyim ağaclar bar verəcəkdir,*
*Torpağı pak, suyu şəhid qanıdır.*
*Şaxtalar üstündən vaz keçəcəkdir,*
*Haqq əli bağımın bağbanıdır.*

*Üstümə fışqırır şirin nəğmələr,*
*Bu gün hər səslərdən ucadır səsim.*
*Banlayan bayquşlar mənə nə eylər,*
*(( Qorqud)) nəfəsidir, mənim nəfəsim.*

*Insan şairiyəm, aləm dayağım,*
*Diləgim haqlı bir Insan qədərdir.*
*Bir parça çörəyim, daldanacağım,*
*Bir də azadlığım, mənə yetərdir.*

*Qurtuluş istərəm məhkum elimə,*
*Bu nə şıltaqlıqdır, nə tamahkarlıq*
*Dilizə dəymirəm, dilimə dəymə,*
*Bu sözün harası suçdur, günahdır?*

*Yazıq düşman məni fırlatmaq üçün,*
*Mazalax tək dövrəsinə fırlanır.*
*Həm özün, həm məni aldatmaq üçün,*
*Gah (( Dədəmi)), gah da ((dədəsin)) danır.*

*Lakin haqdan yanır çırağım mənim,*
*Tufanlar söndürə bilməz işığın.*
*(( Qeybdən)) qorunur oylağım mənim,*
*Heç bir (( qaban)) poza bilməz qoruğun.*

*Beləlik qəsbkar anlasın gərək,*
*Dəyişibdir daha qədimki mədar.*
*Qansa-qanmasa da nə eyliyəcək*
*(( Boğulanlar əlin kol-kosa atar)).*

*Qoyun çabalasın, qoyun can atsın,*
*Büsbütün qapılar bağlıdır ona,*
*Buraxın, əntər tək özün oynatsın,*
*Mənim tutarımdır (( ürvət əl vüsqa)).*
*Mənim (( Səhənd)) qanı var damarımda,*
*Bir üzüm qarlı qış, biri bahardır.*
*Ceyranlar gəzsə də otlaqlarımda,*
*Düşmana baxışım şaxtadır, qardır.*

*Uca zirvələrin tərlanıyam mən,*
*Yad quş ovlağıma dolaşa bilməz.*
*Qəmiş meşələrin əslanıyam mən*
*Qorxumdan çaqqallar ulaşa bilməz*

*Xoşluqla olmasa tuşluq eylərəm*
*El kökü var mən də, el şairiyəm.*
*Mən haqq aşığıyam, ölmək bilmərəm,*
*Dünyalar durduqca mütləq diriyəm.*

*((Nəsimi)) babamı diri soydular,*
*Məgər susdu dili, kəsildi səsi?*
*Çox haqq görənlərin gözün oydular,*
*Görənməzmi oldu haqqın cilvəsi?*

*Hələ köksümdədir (( Dədəmin sazı )),*
*Sözüm dosta mərhəm, düşmana oxdur.*
*Çağırsam dadıma gələr (( Eyvazı))*
*Köməyim, dayağım, el-arxam çoxdur.*

*Bulud tək kişnərəm, sel tək axaram,*
*Dağlar da yolumu səd edə bilməz.*
*((Şahab)) ollam şeytanlara şaxaram,*
*Səhəndin heç zaman başı əyilməz.*

*Zamanə başımda bostan əksə də,*
*Zülmə, haqsızlığa baş əyməmişəm.*
*Ayağım min kərə daşa dəysə də,*
*Nə büdərəmək, nə yorulmaq bilmişəm.*

*Buna inanmışam, bilirəm çoxdan,*
*Haqqı qəzəbkardan dilənmək olmaz.*
*Bir nəğmə daşıma yazdım bir zaman:*
*(( Göz yaşı tökməklə yara sağalmaz)).*

*Düzdür, nə tüfəngim, nə də topum var*
*Silahım qələmdir, bir də dəftərim.*
*Lakin ((bismillah))dan (( əcinnə)) qorxar*
*Vırdım vətənimdir, zikrim ellərim.*

*Qoy bilsin boş yerə coşub əsənlər,*
*Burqan ollam, külək ollam əsərəm.*
*Yolumu kəssələr gər yol kəsənlər,*
*Şer qılıncımla baş da kəsərəm.*

*Haqq sözümlə minlər (( bomba)) yapıban*
*Nəğmələrin ((raket))inə taxaram,*
*Könül ((radar))ımla izin tapıban*
*((Təpə Gözü)) yuvasında şaxaram.*

*Söz-sözü gətirdi qoy deyim barı,*
*Pərdədə danışmaq haçana qədər?*
*Beş gün artıq mehnət çəkmədən sarı,*
*Od tutub alışmaq haçana qədər?*

*Dilimi kökündən çıxatsalar da,*
*Yazdım hər dərdimi, hər nisgilimi.*
*Mən ki lal olmuşam qoyun qəsbkar,*
*Heç əsirgəməsin kəssin dilimi.*

*Haqqı danana haqq yatırmaz olmaq,*
*Ən gözəl Insanlıq səciyyəsidir.*
*Zülmkara qarşı barışmaz olmaq,*
*İgitliyin yüksək səviyyəsidir.*

*Danqaz ol həyatda, əgər dirisən,*
*Acizlik düşmanı havalandırar.*
*Böyük söz ustası (( Saib)) demişkən,*
*Kabab yaş tökər od artıq yandırar.*
*Atalar dediyi sözləri barı,*
*Duyub, mənimsəyib, bilmək gərəkdir.*
*Sarala-sarala qalmaqdan sarı*
*Qızara-qızara ölmək gərəkdir.*

*Çox m'ənalı sözlər demiş atalar,*
*Ancaq qanmasına m'ərfət gərək.*
*Kor quş qaranlığa qaçıb sığınar,*
*Günəşə baxanmaz yazıq kor milçək.*

*Qartal ol, quzğun tək murdara qonma,*
*Kəhlik sinəsindən rizqivi axtar.*
*Eşşək ölüsündən heç vaxt pay umma,*
*Həyatda ucalıq himmətdən qopar.*

*Alqış mərd yaşayıb, mərd ölənlərə*
*Alqış qoçaqların dəliliyinə*
*Alqış haqqı anıb, haqq bilənlərə*
*Qarqış qorxaqların doğan ilinə.*

*Hələ də gecədir, hələ qaranlıq,*
*Hələ üfüqlərdə sökülməyib Dan*
*Hələ çisginlikdir, hələ boranlıq*
*Hələ göz açmamış dağlar yuxudan.*

*Hələ boz kürkünü bürünüb kollar*
*Qar yaman ələnir, yaman püsgürür*
*Hələ qorxuludur təpəli yollar*
*Ağaclar çaxnaşır, külək hövkürür.*

*Səhər açılsa da, qış səhəridir,*
*Qara bulud çadır çəkib göylərə.*
*Yolçunun ayağın soyuq kiridir,*

*Günəş işığını saçanmır yerə.*

*Bu havada yola çıxanmaz karvan*
*Çıxsa yoldan azar, kölgəyə düşər.*
*Istı qan damarda donar soyuqdan,*
*Bütün əl-ayaqlar qovrular pişər.*

*Komada kiçik bir ocaq gur yanır*
*Buyur, içəri gəl, musafır qardaş.*
*Pətavavı qurud, əlivi qızdır,*
*Alışdır çubuğu, dincəl, rahatlaş.*

*Layıqlı bir zadım yoxdur o, damda,*
*Bir az qovurmalı təndir aşım var.*
*Utanma, çölməyim kiçik olsa da,*
*Min qonaq gəlsə də, hamıya çatar.*

*Bu odaya şeytan yaxınlaşanmaz,*
*Hər yana baxırsan (( ismi –ə'zəm))dir.*
*Hasarından əhrimənlər aşanmaz,*
*Polad qalalardan daha möhkəmdir.*

*Bax ((Qorqud)) sazıdır bu əlimdəki,*
*Çalsam ürəklərdən dərd-qəm qaçar,*
*Musa peyğəmbərin əsası təki*
*Dərin-dərin dəryalardan yol açar.*

*Amandır darıxsan, qəlbin tutulsa,*
*Qış qılıncın çəkib, qapını kəsib*
*Səbr eylə, qardaşım, bayıra çıxma,*
*Gecədən aydınlıq kim umub-küsüb?*

*Sənə şirin-şirin el nəğmələri,*
*Çalıb oxuyaram qəmin dağılar.*
*Dər, yadigar saxla, solmaz gülləri,*
*Istər payız ola, istərsə bahar.*

*Sanma bitirmişəm (( Sazımın Sözün))*
*Daha çalınmalı bir nəğməm yoxdur.*
*Indilik iylə bu bayram nərgizin,*
*Hələ açılmamış güllərim çoxdur.*

*Elə qalmamışdır, belə də qalmaz,*
*Hər günün özünün bir hekməti var.*
*Bu sazı zor ilən dinləmək olmaz,*
*Bir gün aşar-daşar, bir gün lal olar.*

*Bir də başdan oxu ata kitabın*
*O, tükənməz hekmət xəzinəsidir.*
*Doldur, hər nə qədər tutarsa qabın,*

*Öz babavın həlal irsiyəsidir.*

*Hər kəlməsi bir üfüqsüz dənizdir*
*Hamı bilməz onda nələr var, nələr.*
*Indilik sadə bir cığırdır, izdir,*
*Gəl-get çoxalarsa, yola çevrilər.*

*Içində bir də bir sandıq var amma,*
*((Könül şəbçirağı)) o sandıqdadır.*
*Açarını tapar, axtaran olsa,*
*Çalış tap, o, sönməz çırağı yandır.*

*Tapa bilsən hər üfüqdən keçərsən,*
*Yelkəni açarsan qara zülmətə.*
*(( Ab –i Həyat)) çeşməsindən içərsən,*
*Gəmivi sürərsən əbədiyyətə.*

*Ən yaxın mənzilin ulduzlar olar,*
*Kəhkəşanlar keçit verər keçərsən*
*Hər günəş yoluva bir ışıq salar,*
*Qalxıb gedib ülviyyətə yetərsən.*

*Ancaq o, açarı tapana qədər,*
*Çalış, azğınlardan özünü qoru*
*O, yüksək məqsədə çatana qədər*
*Yolunda toxunub min ((şeytan toru))*
*Ilişsə canıvı qurtaranmazsan,*
*Yolunu yoxlasan addım atdıqda.*
*Çox da çox özüvə güvənmə, aman,*
*Yol getmək çətindir qaranquluqda.*

*Zəmanəmiz namərd zəmanəsidir,*
*Düşman nə dil qanır, nə tanrı tanır.*
*Beynəlmiləl bərbərlik dövrəsidir*
*Biz daş atırıq, o, atom qullanır.*

*Gör nə rəzalətə cumubdur Insan,*
*Unudub mənliyin, şərəfin, özün.*
*Qardaş rizq axtarır qardaş qanından,*
*Qondarma ışıqlar kor edib gözün.*

*Ancaq zamanəmiz belə qalanmaz*
*Insanın zatında mənəviyyət var.*
*Heç bir dövran həmişəlik dolanmaz,*
*Buludlar dağılsa, al günəş parlar.*

*Hələ Insan nabalıqdır, uşaqdır,*
*Azma-çox anlasa, şıltaqlıq etməz.*
*Bu tökülən qanlar bütün nahaqdır,*
*Düşünsə qan tökmək dalınca getməz.*

*Bilər hər bir şeyin qədrin, qiymətin,*
*Silaha əl atmaz, oyuncaq üçün.*
*Abadlığa verər gücün, quvvətin,*
*Bombalar qayırmaz ev yıxmaq üçün.*

*Özünü tanısa fəlakət qalmaz,*
*Dünya cənnət olar, cəhənnəm sönər.*
*Baxçalar və'dəsiz saralıb-solmaz,*
*Dəyişir bu dövran, dönərgə dönər.*

*Artdıqca kəmalı, mədəniyyəti,*
*Ülfətə çevrilər əski kinələr.*
*Atar vəhşiyyəti, bərbəriyyəti,*
*Üzlərdə məhəbbət gülü gülümsər.*

*Bu geniş aləmdə hamıya yer var*
*Bu, nə bas ha basdır, nə sox ha soxdur,*
*Insanlıq özünə gəlsə anlayar,*
*Bu dərəbəyliyin m'ənası yoxdur.*

*Nə keşiş, nə molla, nə xamxamam mən,*
*Əxlaq ((elm))inə də yoxdur imanım,*
*Öz eyniyyətim ilə görürəm lakin*
*Insanam, Insanlıq qanıdır qanım.*

*Yeddi yüz il əvvəl S'ədi demişsə-*
*((Bir bədənin əzasıdır Insanlar,*
*Bir üzvi ruzgar dərədə gətirsə,*
*O, biri üzvlər tutanmaz qərar)).*

*Mən necə dincəlim təklikdə, necə?*
*Bütün Insanlığı dərdli görərkən,*
*Necə gündüzlərim olmasın gecə?*
*Necə aslanmasın dağlar sinəmdən?*

*Yox yavrum, mən daşdan yaranmamışam,*
*Buna inansınlar daş ürəklilər.*
*Əgər də sarılıb usanmamışam,*
*Intizar gözlərim qurtuluş gözlər.*

*Ürək odum dağı daşı yandırır,*
*Hələ mən diriyəm, hələ mən sağam,*
*Yox, Səhənd yük dibi ışıqlandırır*
*Intiqam gözləyir, yalnız intiqam!*

*Hələ də-hələ də Insan dardadır,*
*Hələ də çalışıb ac qalan çoxdur.*
*Hələ də qıfıllar dodaqlardadır,*
*Haqq sözün cavabı süngüdür, oxdur.*

*Hələ də Insanlar qul tək satılır,*
*Hələ də ((hirfei)) adamcılar var.*
*Vicdanın, şərəfin daşı atılır,*
*Araya gələndə bir ovuc dolar)).*

*Yazıq məhkum Insan, hardasan, harda?...*
*Hələ də, hələ də ləgən şapqalı*
*((Ağalar)) oturub ((Ağ saraylarda))*
*Xəritələr üstə cızıq cızalı...*

*Ölümlü, yanğınlı hadisələrə*
*Tədbirlər tökürlər cəllad beyinlər.*
*Dəhşətli-dəhşətli faciələrə*
*Intizar çəkirlər pənahsız ellər.*

*Hələ də kültürsüz, sadə Insanlar*
*Quduz şeytanların oyuncağıdır.*
*Hələ də qəflətə cumub yatanlar*
*Fırıldaqçıların fırıldağıdır.*

*Gördün ki, qəhrəman, igit elimə,*
*Biri ((baran)) dedi, biri ((xər)) dedi.*
*Yad əli daraşdı qızıl gülümə,*
*Biri yol tök, -dedi, biri dər, -dedi.*

*Lakin qoca dünya turşadır üzün,*
*Meydanından artıq at çapanlara.*
*Tarixin darğası bərəldir gözün*
*Ellərin başından börk qapanlara.*

*Dünyamızı qana çalxayanlardan,*
*Gələcək amansız hesab çəkəcək.*
*Söz borc aldım böyük o, sənətkardan:*
*((Sualı-sorğusu uzun gedəcək))*

*Ustadım ((Vurğunun)) qəhrəmanı tək,*
*Kaş mən də arzıma çata biləydim.*
*Hər qəmə, mehnətə, dərdə dözərək,*
*Düşmana daşımı ata biləydim.*

*Sözümüz uzandı, qonaq qardaşım,*
*Dərd olmasa dərdli deyingən olmaz.*
*Demə çox danışdın ağrıdı başım,*
*Söhbət qızışmasa gecə qurtulmaz.*

*Söz sözü gətirdi, yaxşı danışdım,*

*Fürsət oldu, ürək sandığın açdım.*
*Söz yox qalaq-qalaq dür toplamışdım,*
*Söz anlayan tapdım, tökübən saçdım.*

*Doldur canım qardaş, doldur çuvalın,*
*Hamısı incidir, l’əl-mərcandır.*
*Qədrini yaxşı bil, malındır, malın*
*Xırsızdan, cahildən gizlən amandır.*
*Anlamaz xor baxar, oğrular çalar,*
*Çərçi cəvahirin qədrin nə bilər?*
*Hər quşun dünyada bir qisməti var,*
*Quzğun ləşə qonar, bülbül gül iylər.*
*Apar, canım qardaş, bu incilərdən,*
*Həm kürkövə asla, həm börkövə tax.*
*Bugün-sabah bayram yeli əsərkən,*
*Qara qış çuxasın atıb qaçacaq.*

*O, gün carçı salıb səni gəzərək,*
*Deyəcəyəm, dur gəl, bəs hayandasan?*
*Bağçanı kürüyüb belləmək gərək,*
*Qapıya gəlibdir bənövşə satan.*

*Yaxaq tonqalları (çillə)ni qovaq,*
*Yerə nəfəs gəlsin, qarlar ərisin.*
*Yaşılla bürünsün bu ana torpaq,*
*Örüşə çıxaraq qoyun sürüsün.*

*Yumurta boyuyaq, səməni qoyaq,*
*Evlərin hisini alaq, toz tökək,*
*Misləri ağardaq, qovurqa qovuraq,*
*Göy göyərdək, bayram paltarı tikək.*

*Bülül şəlalələr şor ha şor axsın,*
*Kövşənə dür səpsin, incilər saçsın.*
*Çiçəklər almasdan tanalar taxsın,*
*Ağaclar ucalsın, qol-budaq atsın.*

*Sevincdən ağlasın susuz bulaqlar,*
*Tarlalar sulansın taxıl bitirsin.*
*Yaşarsın, göyərsin baxçalar, bağlar,*
*Alma, alça, heyva, armud yetirsin.*

*Axır çərşənbədə bazarlıq edək,*
*Yemiş alaq, taza bardaq da alaq.*
*Səhər-səhər çeşmə başına gedək,*
*Köhnə bardaqları daşlara çalaq.*

*-Elimizin ağırlığı, yorqunluğu burada qalsın,*
*Axıntılı gur suların durqunluğu burada qalsın,*
*Can ağrımız, baş ağrımız burada qalsın,*

*Dil ağrımız, diş ağrımız burada qalsın.*

*Yaman günün, qara günün mehnətinin,*
*Köhnə dünya, köhnə həyat zillətinin,*
*Dərdin-qəmin cıraq, didək,*
*Bir kirlənmiş bardaq edək,*

*Qara daşa çalaq sınsın,*
*Su soyusun, yurd qızınsın.*

*Qara qışın, qaranlığın,*
*Boranlığın-dumanlığın,*
*Qara üzü gülməz olsun.*
*Qovaq, gedər gəlməz olsun.*
*Kor bəbəkli, dar ürəkli,*
*Qəlbi qara bəd nəzərin,*
*Şum illərin,*
*Bənizi solsun,*
*Bağrı qara qanla dolsun.*
*Bahar gəlsin, el dincəlsin*
*Keçən günlər keçib gedib,*
*Gələn günlər aydın olsun.*

*Sən də, canım aşıq, köklə sazıvı,*
*Eli qarşılayır bahar bayramı.*
*Gərək qaldırasan xoş avazıvı,*
*Bizdən yeni nəğmə umacaq hamı.*

*Sözlən görüm, aşıq, gözün qurbanı,*
*Pərdələrdə gəzsin comərd əllərin.*
*Dilin, ağzın, sazın sözün qurbanı,*
*Zəxmə vur titrəsin ürək tellərin.*
*Gərək bir toy tutaq doğma diyarda,*
*Günəş sağdış ola, ay solduş ola.*
*Gecə də, şaxta da gələ zinhara,*
*Istər bahar ola, istər qış ola.*

*Elə bir səadət gətirək elə,*
*Nə günəşi batsın, nə gülü solsun.*
*Aydınlığa çıxsın bu el, bu oba,*
*Dünyalar durduqca baxtiyar olsun.*

*((Qorqud Dədə)) gəlsin, çalsın qopuzun,*
*Söyləsin bayramın-toyun mübarək.*
*Günəşə çevrilsin parlaq ulduzun,*
*Boyunu boyladım, boyun mübarək!*

***Qurtarışa qurtarış***

*Ey başı dumanlı qocaman dağlar,*
*Sizlərdə nə m'əna, nə sirr var məgər*
*Günəşdən qopan ilk altın şualar*
*Səhər-səhər sizin alnızı öpər.*

*Siz sönən odların minarəsisiz,*
*Sizlərə yaraşır əzəmət, viqar.*
*Ucalıq, ülviyyət işarəsisiz,*
*Sizdə töyşün alır əsən rüzgar.*

*Deyirlər bağrınız qayadır-daşdır,*
*Yox yanlış fikirdir, ürək daş olmaz.*
*Sizin də içiniz alışır, yanır,*
*Ürək yanmayınca, gözdə yaş olmaz.*

*Sizi tanımışam, sizi anmışam,*
*Bulaqlardan axan göz yaşınızdan.*
*Nələr düşünmüşəm, nələr qanmışam*
*Əyilmək bilməyən ağ başınızdan.*

*Siz daşğın sellərin axarısınız,*
*Ucanı-alçağı görə bilərsiz.*
*Deyirlər siz haqqın baxarısınız,*
*Olarmı mən ilən xəbərləşəsiz?*

*Ulunu uludan sorağlaşarlar,*
*Ucalarda gəzmək gərək ucanı.*
*Dağlar, mədəd sizdən, amandı dağlar,*
*Mənə göstəriniz Qorqud qocanı.*

*Çaylar geçit verir, yarqanlar dolur,*
*Sankı dağlar məni boynuna alır.*
*Ulduzlardan yollar çırağban olur,*
*Məni zirvələrə çəkir aparır.*

*Son məqsəddir dağa qalxana zirvə,*
*Bu məqsəddən sonra məqsəd haradır?*
*Zirvələrdən uca zirvə var yenə,*
*Insanın məqsədi ancaq oradır.*

*Yenə də yorulub, düşüb qalıram,*
*Başımın üstünü çulqalır duman.*
*Qaranlıqlar yenə basqın eləyir,*
*Göz seçmə bilməyir ağı, qaradan.*

*((Dədə)) – mədəd səndən yenə bezikdim,*
*Amandır, oğluvun harayına çıx!*
*Uçurum yollarda daha usandım,*

*Haçan qurtaracaq bəs bu ayrılıq?*

*Uzaqdan deyəsən bir at kişnəyir,*
*Get-gedə ucalır nalının səsi,*
*Zülmətdən çıxır bir nuranı qoca,*
*Alnında parlayır inam cilvəsi.*

*Qıllıca papağı yenib qaşına,*
*Dərin röyalarda sankı qərq olur.*
*Cilovu geçirdib yəhər qaşına,*
*Qəribə nəğmələr çalır, oxuyur.*

*(( Qəm çəkmə, Qəm çəkmə, divanə gönül,*
*həmişə ruzgar belə dar olmaz.*
*Keçər bu qarlı qış, zəvallı bülbül,*
*Qismətin həmişə ah-zar olmaz.)) (1)*

*Baxışı Insana ürək verərək,*
*Sözləri ürəkdə umud törədir.*
*Əlində ki, sazı, qopuzu görcək,*
*Görə, özüdür (( Qorqud Dədə))dir.*

*El-arxa Insana böyük dayaqdır,*
*Darlıqda, qürbətdə çətinliklərdə*
*Dost-aşna köməkdir, dayanacaqdır.*
*Hər işdə, hər yerdə, xeyirdə, şərdə.*

*-Dədə xoş gəlibsən, köklə sazıvı,*
*Sənsiz ürəyimi kədərlər alıb,*
*Qoy, bir də dinləyim xoş avazıvı,*
*Sənsiz bağım-bağçam solub, saralıb.*

*-Oğul, himmət bizdən, umud haqdandır,*
*Biz haqq yola getsək haqq dönməz bizdən.*
*Üzün gülürsə də, bağrın al qandır,*
*Dərdini gizlətməz oğul dədədən.*

*Söylə mənə nədən pərişan oldun*
*Məgər göstərmədim yolunu sənə?*
*Nə oldu yenə də belə pozuldun*
*Söylə, oğul, söylə dərdini mənə.*

*Səni qəmli görmək sarsıdır məni*
*Danış görüm, nədir dərdin, nisgilin,*
*Danış, bir daha da dinləyim səni,*
*Şirindir sözlərin, şirindir dilin.*

*Ata, ağrılarım sənə əyandır,*

*Dünyada gizlin söz yoxsa sənə var*
*Özün dedin bağrım dop-dolu qandır,*
*Içimdə baş açıb əski yaralar.*

*-Bir kərə yolunu sənə göstərdim,*
*Bilmirəm, anmadın, ya da ki, andın*
*((Zamanın Qorqudun axtar tap)) –dedim*
*Nə tapdın, bu qədər gəzdin dolandın?*

*Elə bil gəzmisən tapanmamısan,*
*Tapsaydın bir daha gəzməzdin məni.*
*Bəlkə də, tapıbsan, tanımamısan,*
*Bucur əl-ayaqsız sanmazdım səni.*

*-Hər öyüdüvü bir məktəb sanmışam,*
*Heç olarmı dədə, səni anmamaq?*
*Bu yolda az gəzib dolanmamışam,*
*Ancaq, nə söyləyim - nə deyim ancaq...*

*Səni dinlədiyim gündən hövkürdüm,*
*Şeyda bülbül kimi əfğan qopardım.*
*Dərdlərini nəğmələrə çevirdim,*
*Min bir ş'er yazdım, söhbət apardım.*

*Bütün boylarıvı bir də boyladım,*
*Susan qopuzuvu bir də inlətdim.*
*Mərd igitlərivin toyun toyladım,*
*Adıvı-sanıvı göyə yüksəltdim.*

*Əzəl, zirvələrə atımı çapdım,*
*Yer-göy ayağımın altında qaldı.*
*Axtardım ((Simurğ))un yuvasın tapdım,*
*Məni qanadının üstünə aldı.*

*Seyr etdim göyləri, kəhkəşanları,*
*Aydan, ulduzlardan incilər aldım.*
*Əzizlədim, doğma yurdu diyarı,*
*Hamayıl eylədim, boynuna saldım.*

*Göyləri dolandım, torpağa yendim,*
*Diyar-diyar gəzdim yer üzün sın-sın*
*Yüz ayğır çərlətdim, yüz çarıq yırtdım,*
*Bir bərbad görmədim vətənim kimi.*

*Sam yeli əsmişdi doğma diyara,*
*Bağlarımı yellər-sellər almışdı.*
*Gözlər qan yaşlı idi, ürəklər yara,*
*((Lələ köçüb yurdu veran qalmışdı.))*

*Ağızlar, dodaqlar qıfıllanmışdı,*

*Zəncir vurulmuşdu comərd əllərə.*
*Bütün ((Laçınlarım)) qarqalanmışdı,*
*Dustağa dönmüşdü vətən, bir kərə.*

*Ana torpağım al boyanmışdı,*
*İgit gənclərin qızıl qanından.*
*Yaşıl tarlalarım alovlanmışdı,*
*Ürəklər quruşundan olmuşdu şan-şan.*

*Bir daha yanıxdım, əl çəkdim candan,*
*Səsimi ucaltdım, açdım dilimi,*
*Qorxmadım qan içən can alanlardan,*
*Dedim hər dərdimi, hər nisgilimi.*

*Fironlar əlimdən gəldi zinhara,*
*Sazımın tellərin çəkib qırdılar.*
*Dilimi kəsənlər qaldı avara,*
*Hər barmağıma bir qıfıl vurdular.*

*Bağlı əllərimlə, kəsik dilimlə,*
*Mahnı da oxudum, qopuz da çaldım.*
*((Sərhəd tanımayan nəğmələrimlə))*
*Hər yana vəlvələ, zəlzələ saldım.*
*Dinlədi el-oba sazımın sözün*
*Kükrədi dəniz tək tuğyana gəldi.*
*Tanıdı keçmişin, tanıdı özün,*
*Öyündü, sevindi meydana gəldi.*

*Hər yana çov düşdü, şəhərlər, kəndlər,*
*Yuxudan ayıldı, gözlərin sildi.*
*Məni dinləyənlər, məni görənlər*
*Dərdini anladı, nisgilin bildi.*

*Hasarlara atdım nəğmə kəməndin,*
*Dəmir qapıları dartdım, qopartdım.*
*Cövlana gətirdim nəğmə səməndin,*
*Çapıb ((Şəhriyar)) lar ovuna vardım.*

*Çeynədim, gəmirdim, dartdım, qopardım,*
*Dəmir zəncirləri ərlər boynundan.*
*Didərgin salıban qovdum, çıxardım,*
*Quduz qəzəbkarı vətən qoynundan.*

*Dişi əslanlarım, boğa kəllərim,*
*Yurdumuzdan şahlıq kökünü qazdı,*
*Məni alqışladı bütün ellərim,*
*Sözün ((Şəhriyar))ı boyumu yazdı.*

*Bütün deyişlərdə ya döyüşlərdə,*
*Sözlərin sırqa tək qulağımda idi.*

*Əsib büdərəmədim, heç bir gedişdə,*
*Dəmir çarıxların ayağımda idi.*

*Qanıb-qanmasam da işarətivi,*
*Granıt dağları məgər çapmadım*
*Ancaq, çox çəkmişəm mən həsrətivi*
*Gəzdim, səndən başqa Dədə tapmadım.*

*Gələcək yollarım daha daşlıdır,*
*Çoxlu təhlükələr, çox uçurumlar var.*
*Yaralı şeytanlar dişin qıcırır,*
*Sənsiz bu dəhşətdən qurtarmaq olar?*

*Dədə gülümsəyir, baxır üzümə,*
*Ancaq, baxışında məhəbbət gülür*
*-Qandım, başa düşdüm, qalanın demə,*
*Simasından şən bir inam tökülür.*

*Həqiqət qapalı otaqlardan yox,*
*Dərin göylərdən də tapılmayacaq.*
*Daha bundan artıq çarıq yırtma çox,*
*Səndən ayrı deyil gəzdiyin, ancaq.*

*Bir kərə bu sözü söylədim sənə*
*(( Himmət verəcəksən himmətin olsa))*
*Oğul, oğul olsa diridir Dədə,*
*Atan sən özünsən, qeyrətin olsa.*

*Sonra açdı əlin, tutdu qarşıma*
*-Bax gör bu güzgüdə kimi görürsən*
*Baxınca fırlandı dünya başıma,*
*Gördüm ki, mən oyam, o da isə mən!*

*Sevincimdən huşum çıxdı başımdan*
*Nələrsə düşündüm, nələrsə duydum,*
*Məkandan ayrıldım, çıxdım zamandan,*
*Şirin röyalara qapıldım uydum.*

*Aləm nəzərimdə dəyişdi necə,*
*Nə tufan, nə buran, nə duman gördüm.*
*Yenə də gecə idi, amma nə gecə,*
*Hər yanı məş’ələdən çırağban gördüm.*

*Gülşən bəzənibdir susən-sünbülə,*
*Hər yanda qaynayır zülal bulaqlar*
*Şar ha şar axışır zümürrüd güllərə,*
*Sular almas kimi parıldır par-par.*

*Çəmənlikdə düşüb ağır bir oba,*
*Çalıb-çağırmadır, toydur, bayramdır.*
*Ərənlər əyləşib covqa bə covqa,*
*Hər yan surahıdır, baydadır, camdır.*

*Alaca seyvanlar qurulub keçib,*
*Lam-əlif, lam kimi tənəf tənəfdən.*
*Ərlər al şərabı qantarıb içib,*
*Şənlik səsi gəlir hər dörd tərəfdən.*

*Birdən-birə ((Dədə)) zahir olarkən,*
*Məclisi bürüyür dərin bir sükut.*
*Hamı ehtiramla qalxır yerindən,*
*Baxıram, baxdıqca oluram məbhut.*

*Məni görcək çəkir, öpür alnımdan*
*Mübarək əlini başıma çəkir.*
*Bütün yorqunluqlar çıxır canımdan,*
*Umud-inam gülü bağrıma əkir:*

*Bizlərdə oğulu sınamayınca,*
*Ona güvənmərik, saya salmarıq.*
*Oğul işıldayıb parlamayınca,*
*Heç vaxt ona hələ ad da qoymarıq.*

*Oğul, bu günkü toy sənin toyundur,*
*((Azərbaycan)) ın ((Səhənd))i sən, sən*
*Məndən sonra boylar sənin boyundur,*
*Adıva bərəkət dilədim haqdan.*

*Daşdan-daşa çalıb ürək çaxmağın,*
*Bağrıvı qov edib tonqal yaxıbsan*
*Alışdırıb elin sönən çırağın*
*Gecənin bağrına m'əşəl taxıbsan.*

*Su gətirib hardan, daş yığıb hardan.*
*Bir hasar salıbsan qəlbi dağlardan.*
*On iki burc tikib ((on iki boydan))*
*Şe'rinlə qurmusan yeni bir dövran.*

*Sonra arxasından qopuzun alır*
*Mənə bağışlayır gülümsəyərək.*
*Sevdalar könlümü alır aparır,*
*Şovqumdan köksümdə dayanır ürək.*

*Al, çalgilən, bu sən, bu da qopuzum.*
*Qədrini yaxşı bil, hörmətlə saxla.*
*Sənə bağışladım, evladım-özüm,*
*Saxlamağa himmət belivi bağla.*

*Qədrini sən yaxşı bilə bilərsən,*
*Hər telində milyon nəğmə var, söz var.*
*Onu dilləndirə bilməz hər yetən,*
*Yaramaz əllərdə susar, lal olar.*

*Çalıb, danışdırıb, dindirə bilsən,*
*Aləm dilə gələr, sənlən danışar.*
*Dağları oynadar hər nəğməsilən,*
*Daş ürəklər sevdalara alışar.*

*Sənə tapşırdım mən, öz irsiyyəmi,*
*Al, çal, qoy əlində tellər dillənsin.*
*Məhəbbət camın iç, qaldır nəğməni,*
*Ana yurdun çiçəklənsin, güllənsin.*

*Ayırma özündən, vermə heç kimə,*
*O, dayanan köksə, şeytan yol tapmaz.*
*Sinəvə nə gəlsə, söylə, çəkinmə,*
*Həqiqət nəğməsin susdurmaq olmaz.*
*Alıram, öpürəm müqəddəs sazı,*
*Basıram bağrıma, tellər danışır.*
*Nəğmələr coşdurur, Kürü-Arazı,*
*Ellər selə dönür, sellər danışır.*

*Göydən sərxoş-sərxoş sallanır*
*Zohrə,*
*Sazının tellərin qırır, tullayır.*
*Çaldığım nəğməyə, çaldığım bəhrə,*
*Günəş saçlarını dəmət yollayır.*

*Ülkər boyun bağın açır boynundan,*
*Məclisə atıban, şabaş diləyir*
*Yüzlər ulduz kəhkəşanlar qoynundan,*
*Gah göz vurur mənə, gah qaş eyləyir.*

*Bütün şəhidlərim qalxır məzardan,*
*Əllərində qızıl gül qucaq-qucaq*
*Söyləyirlər ölüm yalandır, yalan,*
*Dünyalar durduqca Insan duracaq*

*Ana yurdum çiçək açır, güllənir,*
*Bulaqlar sevincdən ağlayır zar-zar*
*Səgirir kəhliklər, qumru dillənir,*
*Qaçır otlaqlara quzu ceyranlar.*

*Buludlar kövrəyir, yağışa dönür,*
*Yağır ağzı quru susuz düzlərə.*
*Qara quruluşun ocağı sönür,*
*Məhəbbət gülüşü qonur üzlərə.*

*Anam ağ geyinib ilahə təkin*
*Ağ saçlarından bir yasəmən dərir.*
*Dibçək eyləyibən yaqut ürəgin,*
*Bəxtəvər oğluna töhvə göndərir.*

*Görüm kəsilməsin sazıvın səsi,*
*Oğul, həlal südüm həlalın olsun.*
*Dünyalar durduqca haqqın badəsi,*
*Qaynasın, fışqırsın, camıva dolsun.*

*Min günəş parlayır hər dörd tərəfdən,*
*Işıqdan aləmin gözü qamaşır.*
*Ellərim səs-səsə verir hər yerdən,*
*Deyirlər bu ((Saz-Söz)) sənə yaraşır.*

*Şövqdan dağılır başımdan huşum,*
*Könlümü sevdalar, röyalar alır.*
*Ürəyim istəyir min nəğmə qoşum,*
*Dan yeri sökülür, şafaq qızarır.*

*Bahar səhərinin sərin nəfəsi,*
*Üzümə ətirli şəbnəm çiləyir.*
*Şeyda bülbüllərin xoş təranəsi,*
*Daha gecə keçdi, (( ayıl )) –söyləyir.*

*Açıram gözümü şirin röyadan,*
*Dədənin qopuzu qucağımdadır.*
*Qaralmış bağrıma umud parladan*
*Sözləri, hələ də qulağımdadır:*

*(( Qəm çəkmə-qəm çəkmə, divanə könül,*
*Həmişə ruzigar belə dar olmaz.*
*Keçər bu qarlı qış zavallı bülbül,*
*Qismətin həmişə ah –i zar olmaz )).*
*Qorxma, ata, qorxma, varam yurdundan,*
*Qoymaram, qoymaram sönə ocağın.*
*Heyfdir qopuzun yiyəsiz qala,*
*Hələ, yeni güllər açacaq bağın.*

*Göyərən güllərin hər pıtasında,*
*Sən dəriləcəksən yaşayacaqsan.*
*Inanıram buna, əminəm buna,*
*Əbədiyyətə tək varsan ki, varsan.*
*Haqq mərd igitləri qoruyar, saxlar,*
*(( Vurğun ))suz bu gözəl m’əna doğrulmaz:*
*(( Əlinlə qurduğun barlı bağçalar,*
*Tufanlar qopsa da saralıb solmaz)).*